T. Ə. ƏZİZOV

# AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

ÜMUMİ TARİXİ İCMAL

BAKI - "ZAMAN" - 1997

Elmi redaktoru
**XƏLİL KÖÇƏRLİ**
tarix elmləri doktoru, professor

Rəyçilər: **QURBAN BAYRAMOV,**
tarix elmləri doktoru, professor

**SƏTTAR ALLAHVERDİYEV**,
tarix elmləri namizədi, dosent

**Əzizov Türyan Əziz oğlu**.
Azərbaycan XX əsrin əvvəllərində. Bakı, «Zaman», 1997. 256 səh.
Kitab 1901 - aprel 1920-ci illərdə Azərbaycanın iqtisadi-sosial və ictimai-siyasi həyatından, mədəniyyətindən bəhs edir. Bu dövrün hadisə və məsələləri hazırkı milli müstəqillik şəraitində təşəkkül tapmış elmi konsepsiyalara uyğun surətdə gözdən keçirilir.
Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ə 0503020907 – 1 elansız
045-97

© «Zaman», 1997

# ÖN SÖZ

XX əsrin əvvəllərində Şimali Azərbaycanda bir sıra çox mühüm hadisələr baş vermişdir.

Çar Rusiyasının müstəmləkə ucqarlarından olan Azərbaycanda təsərrüfat həyatının bütün sahələrində kapitalist istehsal münasibətləri inkişaf edirdi. Azərbaycan milli burjuaziyasının iqtisadi gücü və siyasi fəallığı artırdı. Rusiyada cərəyan edən ictimai-siyasi hadisələrin, ələlxüsus, birinci rus inqilabının təsiri altında Azərbaycanda milli-demokratik hərəkat geniş vüsət almışdı. Oyanmaqda olan milli şüur artıq formaya düşmüş, azadlıq və müstəqillik ideyaları milli ictimai fikri əhatə etmişdi. Milli-azadlıq hərəkatının M. Ə. Rəsulzadə, Ə. M. Topçubaşov, F. Xoyski, Y. Nəsibbəyli və digər görkəmli xadimləri meydana gəlmişdi.

Bu dövrün ən mühüm hadisəsi - Azərbaycan Demokratik Respublikasının yaranması idi. Yüz ildən artıq rus müstəmləkəçilərinin əsarəti altında qalmış Azərbaycan xalqı, nəhayət, milli istiqlaliyyət əldə etdi. Şərqdə ilk dəfə olaraq, Azərbaycanda demokratik dövlət quruldu. Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşadıqdan sonra, yenidən, lakin bu dəfə rus bolşevikləri tərəfindən işğal edildi.

Fəqət xalqın milli azadlıq və müstəqillik uğrunda mübarizəsi hədər getmədi. 70 ildən artıq Azərbaycanı öz əsarəti altında saxlayan Sovet imperiyası dağıldı. 1991-ci ilin oktyabrında Azərbaycan yenidən müstəqillik qazandı. Vaxtilə M. Ə. Rəsulzadənin çox uzaqgörənliklə dediyi sözlər təsdiq edildi: «Bir kərə yüksələn bayraq bir daha enməz».

1997-ci il yanvarın 31-də Azərbaycan Prezidenti Heydər Əliyev respublikanın tanınmış alimləri ilə görüşündə demişdir: «Azərbaycanın XX əsr tarixi yazılmalıdır... XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və konsepsiyaya görə bizim tariximiz təhrif olunmuşdur».

Təqdim edilən kitabda tarixi reallıqlar öz əksini tapmışdır.

# I FƏSİL
# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN İQTİSADİYYATI VƏ SOSİAL HƏYATI

XX əsrin əvvəllərində Şimali Azərbaycanın* ərazisi 104 min kvadrat kilometr idi. (Bu, Azərbaycan Respublikasının indiki ərazisindən 18 min kvadrat kilometr çoxdur). Ölkə inzibati cəhətdən Bakı və Yelizavetpol quberniyalarına, xüsusi Zaqatala dairəsinə bölünmüşdü. Quberniyaların tərkibində 14 qəza vardı. Bakı, Cavad, Quba, Şamaxı, Göyçay və Lənkəran qəzaları Bakı quberniyasının; Yelizavetpol, Qazax, Nuxa, Ərəş, Cavanşir, Şuşa, Cəbrayıl (1904-cü ildən Qaryagin) və Zəngəzur qəzaları isə Yelizavetpol quberniyasının tərkibinə daxil idi.

Çarizm zamanı əhalisi əsasən azərbaycanlılardan ibarət olan Naxçıvan ərazisi inzibati cəhətdən İrəvan quberniyasına daxil edilmişdi. İrəvan quberniyası əhalisinin $^1/_3$ hissəsindən çoxunu azərbaycanlılar təşkil edirdi.

Gürcüstanın və Dağıstanın Azərbaycanla qonşu rayonlarında yığcam halda yüz minlərlə azərbaycanlı yaşayırdı.

1913-cü ildə Azərbaycan əhalisinin sayı 2453 min nəfər olmuşdur.

## § 1. SƏNAYE

XIX əsrin axırlarına doğru Rusiyada kapitalizm sürətlə inkişaf etməyə başladı.

Rusiyanın iqtisadi inkişafında onun müstəmləkələri, o cümlədən Azərbaycan mühüm rol oynayırdı. Çar hökuməti rus burjuaziyası və mülkədarlarının mənafeyini güdərək, müstəmləkələrdə sənayenin inkişafına hər vəchlə mane olur, milli ucqarları özünün ucuz xammal bazası kimi saxlamağa çalışırdı.

Lakin çarizm Rusiya sənayesinin, ələlxüsus, neft, mis, xam ipək, pambıq ipliyi və başqa bu kimi xammala olan tələbatını ödəmək üçün müstəmləkələrdə bir sıra istehsal sahələrini inkişaf etdirməyə məcbur idi.

### a) Neft sənayesi

**Neft sənayesi 1900-1903-cü illərin ümumi böhranı və durğunluq dövründə:** Azərbaycanda neft Abşeron yarımadasında çıxarılırdı. Bakının ətrafındakı Sabunçu, Balaxanı, Bibiheybət, Ramana neftin çıxarıldığı əsas rayonlar idi.

---

* Bundan sonra müxtəsər şəkildə "Azərbaycan" işlənəcəkdir.

XIX əsrin axırlarına doğru neft hasilatı sürətlə artmağa başladı. 1901-ci ildə dünyada çıxarılan neftin 51,6 faizi Rusiyanın payına düşürdü ki, bunun da 95 faizini Bakı verirdi.

Rusiya iqtisadiyyatına güclü zərbə vurmuş 1900-1903-cü illərin ümumi böhranı az sonra Azərbaycanın neft sənayesini də bürüdü. Neft hasilatı xeyli azaldı. 1901-ci ildə 671 milyon puddan* çox neft çıxarıldığı halda, 1903-cü ildə hasilat 11 faiz azalaraq, 597 milyon puda endi. Neft quyuları qazılması təqribən iki dəfə azaldı. Neft emal edən 86 zavoddan 31-i dayandı.

Böhran illərində xeyli kiçik və orta müəssisə müflisləşib aradan çıxdı. 1901-ci ildə 171 neft şirkətindən yalnız 146-sı, 1903-cü ildə isə 136-sı qaldı.

Bakıdan Rusiyaya və xarici ölkələrə hər il orta hesabla 500 milyon pud neft göndərilməsinə baxmayaraq, anbarlarda 130 milyon puddan artıq neft yığılıb qalmışdı. Neftin satış qiyməti iki dəfədən çox aşağı düşmüşdü.

Bu dövrdə Bakıda 5-6 yüz fəhləsi olan 15 kiçik kimyəvi zavod işləyirdi. Zavodlar ağ və qara sulfat turşusu, surraqat, natrium hidroksid, sodalar, təkər yağı və s. istehsal edirdi.

İstehsal səviyyəsi aşağı düşdüyünə görə, neft sənayesində çalışan fəhlə və qulluqçuların sayı xeyli azaldı. 1901-ci ildə 36 minə yaxın neftçi fəhlə və qulluqçu olduğu halda, 1903-cü ildə onların sayı heç 27 min nəfərə də çatmırdı.

Neft sənayesində böhranın ardı ilə on ildən artıq davam edən durğunluq dövrü başladı. Bu dövrdə illik hasilat heç zaman 500 milyon pud, neft ixracatı isə 400 milyon pud səviyyəsinə qalxa bilmədi.

1905-ci ildə cəmi 410 milyon pud neft çıxarıldı. Birinci rus inqilabı illərində 51 neft emalı zavodunun 19-u dayandı. Ağ neftin istehsalı daha çox azaldı. 1904-cü ildə 145 milyon pud ağ neft istehsal edildiyi halda, sonrakı bütün illərdə bu səviyyə həmişə 100 milyon puddan aşağı olmuşdur.

1907-ci ilin martında dünyada ən uzun Bakı-Batum neft kəməri çəkildi. 829 verst* uzunluğunda olan bu kəmər ildə 60 milyon pud neft nəql etməyə imkan verirdi.

Rusiyada iqtisadiyyatın nisbi yüksəlişi illərində neftə tələbat xeyli artdı. Neft hasilatı isə, əksinə, üç il ərzində 50 milyon pud azalaraq, 1913-cü ildə 450 milyon puda endi. Həmin dövrdə neft emal edən 64 zavoddan 54-ü qalmışdı ki, onlardan da yalnız 30-u tam gücü ilə işləyirdi.

1913-cü ildə Azərbaycanda əsrin əvvəlində olduğundan 33 faiz az neft çıxarılmışdı. İndi o, hasilatın səviyyəsinə görə ABŞ-dan dörd dəfə geri qalırdı.

Ölkədə əsl neft qıtlığı yarandı, onun qiyməti durmadan artdı. 1910—1913-cü illər arasında neftin hər pudunun qiyməti 15 qəpikdən 42 qəpiyə qalxdı.

* 62,5 pudun 1 tondur.
* 1 verst-1.06 kilometrdir.

Neftin qiymətinin bu cür kəskin şəkildə artması, həmin illərdə hasilatın hələ 50 milyon pud azalmasına baxmayaraq, kapitalistlərə böyük mənfəət gətirdi. Üç il ərzində onların neftdən götürdükləri xalis gəlir dörd dəfə artaraq, 1913-cü ildə 94 milyon manatı ötüb keçdi. Təkcə «Nobel qardaşları» şirkəti 30 milyon manat əsas kapitalla 18 milyon manatdan çox xalis gəlir götürdü.

Neftin qiymətinin bahalaşması ilə əlaqədar olaraq bir sıra istehsal sahələri daha ucuz başa gələn daş kömürə, hətta ağac kömürünə keçdilər.

Azərbaycanın qəzalarında neft axtarışı gücləndirildi. Lakin Neftçalada və bəzi yerlərdə az miqdarda neft tapılıb çıxarıldıqdan sonra axtarış işləri, demək olar ki, dayandırıldı.

1913-cü ildə Azərbaycan neft sənayesində fəhlə və qulluqçuların ümumi sayı 45 min nəfərə çatırdı. Onlardan 29 min nəfər neft çıxarılmasında, 8,3 min nəfər quyu qazılmasında, 4 min nəfər neft emalı zavodlarında, 3,7 min nəfər digər köməkçi müəssisələrdə çalışırdı. Fəhlələrin 40 faizə qədərini azərbaycanlılar təşkil edirdi. Neft sənayesində ixtisas tələb etməyən işlərdə Cənubi Azərbaycandan gəlmiş mövsumi fəhlələrdən istifadə olunurdu.

Neft qıtlığının səbəbi nə idi?

Birinci səbəb neftin çıxarılması və emalı sahəsində yeni texnologiyalardan çox zəif istifadə edilməsi idi.

Bu zaman artıq kompressor və burma-qazıma üsulları, dərinlik nasosları və qazlift kəşf edildiyi halda, neftin 95 faizi yenə də dartac üsulu ilə çıxarılırdı. 1913-cü ildə istehsalın cəmi 6 faizi mexanikləşdirilmişdi. Neftin yalnız 30 faizi elektrik enerjisinin, qalan 80 faizi isə yenə də buxar mühərriklərinin gücü ilə çıxarılırdı.

Neftin emalı da köhnə metodlarla aparılırdı, halbuki bu zaman daha səmərəli krekinq istehsal prosesi ixtira edilmişdi. Emal müəssisələri çıxarılan neftin öhdəsindən gələ bilmirdi. Hər il 100-150 milyon pud xam neft emal edilməmiş qalırdı. Odur ki, neftə olan yüksək tələbat daha aşağı keyfiyyətli neft məhsulları ilə ödənilirdi; mazut neft hasilatının yarıdan çoxunu təşkil edirdi.

Bakı neftinin əsas istehsalçıları olan rus, erməni və əcnəbi kapitalistləri daha asan yolla varlanmağa çalışaraq, nefti fontan vasitəsilə çıxarmağa can atır, neftlə zəngin olan aşağı layları istismar etmək və yeni texnologiyaları geniş tətbiq etmək üçün əlavə vəsait xərcləmək istəmirdilər.

İkinci səbəb o idi ki, ölkənin daxilində heç bir rəqibi olmayan və daha ucuz Amerika neftinin Rusiya bazarına soxulmasının qarşısını almış yüksək hökumət gömrüyü ilə qorunan Bakı neft maqnatları hasilatı süni sürətdə azaltmaq yolu ilə nefti istədikləri qiymətə sata bilirdilər.

Neftin qiymətinin qalxmasından varlanan sənayeçilər mövcud vəziyyəti saxlamağa çalışırdılar. Bu cəhətdən neft istehsalçılarını birləşdirən «Bakı neft sənayeçiləri qurultayı Şurası» (BNSQŞ) daha fəallıq göstərirdi. Bu nüfuzlu təşkilatın üzvləri yüksək səviyyəli müşavirələrdə, komissiyalarda iştirak edərək,

Bakı neft sənayeçilərinin mənafeyini qoruyur, hökumətin neft istehsalçılarına sərfəli olmayan qərarlar çıxarmasına ciddi müqavimət göstərirdilər.

Neftin qiymətinin sənayeçilər tərəfindən süni sürətdə bahalaşdırılması ilə əlaqədar olaraq, iri istehlakçılar hökumətə şikayət ərizələri yazıb göndərdilər. 1913-cü ildə neft məsələsi hətta Dövlət dumasında dəfələrlə müzakirə edildi. Neft sənayesindən böyük qazanc götürən çar hökuməti neftli sahələrin tükəndiyini, quyuların məhsuldarlığının aşağı düşdüyünü, neftə olan tələbatın durmadan artdığını və başqa bəhanələr gətirərək, həmişə neft sənayeçilərinin tərəfini saxlayırdı.

Azərbaycan neftindən xəzinənin orta illik gəliri 100 milyon manatdan çox idi.

Birinci dünya müharibəsi illərində neft məhsullarına tələbat son dərəcə artdı. Xaricdən daş kömür gətirməyin mümkün olmaması və Polşadakı kömür mədənlərinin itirilməsi Rusiyanın yanacaq vəziyyətini daha da ağırlaşdırdı. Neft məhsullarının xeyli hissəsinin hərbi sifarişlərin yerinə yetirilməsinə yönəldilməsi qıtlığı xüsusilə kəskinləşdirdi. Yanacaq olmadığına görə ölkədə irili-xırdalı yüzlərlə müəssisə bağlandı, minlərlə fəhlə küçəyə atıldı. Xaricə neft göndərilməsi dayandırıldı.

Bununla belə, anbarlarda külli miqdarda neft məhsulu saxlanılırdı. 1916-cı ildə Bakının anbarlarında 130 milyon puddan çox neft ehtiyatı vardı. Sənayeçilər nefti satışa buraxmamaqla onun qiymətini daha da yüksəltməyə çalışırdılar.

Köhnə neftçıxarma rayonlarında hasilat azalmaqda davam edirdi. Yalnız yeni istifadəyə verilən Suraxanı, Binəqədi, Svyatoy adası mədənlərinin hesabına müharibəqabağı neft hasilatı səviyyəsi qismən saxlanılırdı.

Xam neftin təmizlənməsində başlıca maddə olan sulfat turşusu, kaustik soda çatışmırdı. Bakı zavodlarında istehsal edilən sulfat turşusu partlayıcı maddələr hazırlamaq üçün hərbi nazirliyin sərəncamına verilmişdi. Ona görə müharibə illərində qiymətli neft məhsullarının - ağ neftin, yağların və sairin istehsal səviyyəsi iki dəfəyə yaxın azalaraq ümumi məhsulun $^1/_4$ hissəsini təşkil etmiş, mazut başlıca hasilat növünə çevrilmişdi.

Müharibə illərində işləyən 15 kimyəvi zavod, əsasən, hərbi sifarişləri yerinə yetirirdi.

Bu dövrdə Azərbaycan neft sənayesi çox borbad hala düşdü. Müharibənin sonuna yaxın mədən-zavod avadanlığının yarısı sıradan çıxmışdı. Neft sənayesinə 900 milyon manata qədər zərər dəymişdi.

**Neft sənayesində istehsalın təmərküzləşməsinin qüvvətlənməsi. İnhisarlar:** 1901-ci ildə 146 neft şirkəti arasında təkcə üç ən iri şirkət ("Nobel qardaşları", "Xəzər-Qara dəniz birliyi" və "A. İ. Mantaşov və K°") neftin 25 faizindən çoxunu, benzinin 40 faizini istehsal edirdi.

1903-cü ildə Tağıyev, Bünyadov, Aşurov və başqa gəmi sahiblərinin təşkil etdikləri «Maye yanacaq daşıyan gəmilər ittifaqı» Xəzər dənizi vasitəsilə neft məhsullarının xeyli hissəsini daşıyırdı.

1906-cı ildə 178 şirkətin hasil etdiyi neftin 44 faizi təkcə yeddi ən iri şirkətin payına düşürdü. Müharibəqabağı illərdə 37 ən iri şirkət qalan 136 şirkətin birlikdə çıxardıqları 69 milyon pud neftdən beş qat artıq - 350 milyon pud neft hasil etmişdi.

Həmin dövrdə neftin emalı sahəsində də güclü təmərküzləşmə gedirdi. Təqribən 50 neft emalı müəssisəsi içərisində 6 iri zavodun payına ümumi məhsulun 65 faizi düşürdü.

İstehsalın təmərküzləşməsi ilə yanaşı fəhlə qüvvəsinin də təmərküzləşməsi güclənirdi. 1915-ci ildə neft sənaye fəhlələrinin 64,5 faizi işçilərinin sayı 500 nəfərdən çox olan iri və ən iri müəssisələrdə çalışırdı. Bu cür müəssisələr isə bütün müəssisələrin yalnız 10,4 faizini təşkil edirdi.

Abşeron yarımadasında neftli torpaqlar da sürətlə təmərküzləşirdi. 1916-cı ildə istismar olunan neftli torpaqların 480 desyatinə qədəri (43 faizi) təkcə 6 ən iri şirkətin, yəni bütün şirkətlərin 4 faizinin payına düşürdü.

Neft sənayesinin səhmləşdirilməsi geniş miqyas aldı. Əgər 1901-ci ildə əsas kapitalı 174 milyon manat olan 51 səhmdar cəmiyyəti (şirkət) vardısa, artıq 1916-cı ildə əsas kapitalı 380 milyon manata çatan 141 səhmdar cəmiyyəti fəaliyyət göstərirdi.

Səhmdar cəmiyyətlərinin işində, ümumiyyətlə, kapitalist istehsalının təşkilində banklar mühüm rol oynayırdılar.

XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesində Rusiya Dövlət Bankının və 10-dan artıq rus səhmdar bankının şöbələri fəaliyyət göstərirdi.

1914-cü ilin aprelində H. Z. Tağıyev və Musa Nağıyev tərəfindən ilk milli bank - Bakı tacir bankı təşkil edildi. Bu bank, ilk növbədə, neft sənayesinin ehtiyaclarını ödəmək məqsədi güdürdü.

Banklar müəyyən faizlə sənaye müəssisələrinə borc pul verir, çox zaman səhmdar şirkətlərin səhmlərinin bir hissəsini satın almaqla onların payçılarına çevrilirdilər. Məsələn, 1914-cü ildə «Nobel qardaşları» şirkətinin 30 milyon manat dəyərində səhmlərinin 68,5 faizi 23 banka məxsus idi.

Bəzən banklar ayrı-ayrı şirkətlərin səhmlərinin yarıdan çoxunu öz əlinə keçirərək, əslində, onları nəzarət altına alırdılar. Təkcə Rusiya-Asiya səhmdar bankı 18 iri neft şirkətinə nəzarət edirdi.

1917-ci ildə iri banklar 317,6 milyon manat (bütün səhmdar kapitalın 84 faizi qədər) səhmdar kapitalı olan 60 iri neft müəssisəsini öz nəzarəti altına almışdı. İstismar edilən quyuların 76 faizə qədəri və ümumi neft hasilatının 94 faizdən çoxu səhmdar cəmiyyətlərin payına düşürdü.

Sənaye müəssisələrinin banklar tərəfindən maliyyələşdirilməsi onların arasındakı əlaqələri daha da möhkəmləndirirdi.

1913-cü ildə 12 bankın 42 nəfər nümayəndəsi ayrı-ayrı neft şirkətlərinin idarə heyətlərində 96 vəzifəni öz əlinə keçirmişdi. Məsələn, Peterburq uçot və kredit bankı sovetinin üzvü T. V. Belozerski Rus «Neft» şirkəti idarə heyətinin sədri, digər bir şirkətin direktoru, üçüncüsünün heyət üzvü, həmçinin 20-dən artıq müəssisənin idarə heyəti tərkibinə daxil idi. Yaxud, Rusiya-Asiya bankı idarə heyətinin sədri A. İ. Putilov bir neft şirkətinin direktoru, iki şirkətin idarə heyətinin üzvü idi.

Bakı neft sənaye şirkətlərinin nümayəndələri də, öz növbələrində, bankların idarə heyətlərinə daxil olurdular. Məsələn, nəhəng inhisar birliyinin başçısı E. L. Nobel Volqa-Kama bankının sədri idi və s.

Beləliklə, Azərbaycan neft sənayesində iri baik və sənaye kapitallarının qovuşması nəticəsində güclü maliyyə hegemonluğu yaranmışdı.

Neft sənayesində xarici kapital mühüm rol oynayırdı. Xarici kapital neft sənayesinə, əsasən, səhmdar cəmiyyətlərinin səhmlərini ələ keçirmək, habelə kiçik şirkətləri satın almaq yolu ilə soxulurdu.

Birinci dünya müharibəsi ərəfəsində Azərbaycanda əsrin əvvəlində olduğundan 10 dəfə çox—112,6 milyon manat məbləğində xarici kapital vardı. Bunun 54,3 milyon manatı ingilislərə, 48,3 milyon manatı fransızlara, 10 milyon manatı almanlara məxsus idi. Bu zaman neft sənayesində xarici kapital 42 faiz təşkil edirdi.

Neftin çıxarılması, emalı və satışı sahəsində üstünlük uğrunda şirkətlər arasında güclənən rəqabət inhisar birliklərinin yaranmasına gətirib çıxartdı. İstehsalın təmərküzləşməsinin, kapitalın mərkəzləşməsinin, istehsalın ictimailəşməsinin çox yüksək səviyyəyə qalxması bu prosesə güclü təkan verdi. Hələ 1900-cü ildə «Nobel qardaşları» şirkəti ilə Rotşildin «Mazut» şirkəti arasında «Nobmazut» adlı kardel sazişi bağlanmışdı. Bu sazişə görə, neft satışı bazarları həmin iki şirkət arasında bölünürdü. «Nobmazut», həmçinin, Xəzər vasitəsilə xeyli neft daşıyırdı. O, 1914-cü ilə qədər fəaliyyət göstərmişdi.

1909-cu ilin əvvəlində Nobel və digər dörd kapitalist arasında sulfat turşusu sindikatı yarandı. Sindikat öz məhsulunu ümumi kontor vasitəsilə yüksək stabil qiymətə satırdı.

Birinci dünya müharibəsi ərəfəsində və müharibə illərində Azərbaycanın neft sənayesində, əsasən, üç inhisar birliyi—«Nobel qardaşları», «Şell» və «Rusiya baş neft korporasiyası» hakim mövqe tutdu.

«Nobel qardaşları» konsernin neft mədənlərindən və emal müəssisələrindən əlavə, maye yanacaq daşıyan 13 dəniz və 6 çay paroxodu, 147 barjı, 1923 sistern-vaqonu, çoxlu anbar və neft bazaları vardı. Onun təkcə Bakıdakı müəssisələrində 8 minə yaxın fəhlə və qulluqçu işləyirdi.

1914-cü ildə konsern 44 milyon səhmdar kapitalla 9 şirkətə nəzarət edirdi. O, təqribən 80 milyon pud neft çıxarmış və başqa şirkətlərin 110 milyon puddan çox müxtəlif neft məhsullarını alıb, baha qiymətə satmışdı.

1917-ci ilin əvvəllərində «Nobel qardaşları» konsernin 74 milyon manat dəyərində tərpənməz əmlakı və 45 milyon manat məbləğində səhmdar kapitalı vardı. O, 25 iri neft sənaye və nəqliyyat müəssisəsinin 90 milyon manata yaxın səhmdar kapitalını öz nəzarəti altına almışdı.

1912-ci ildə xarici bazarda Amerika və ingilis neft birlikləri tərəfindən sıxışdırılan və daxili bazarda «Nobel qardaşları» konserni ilə mübarizə apara bilməyən Paris bankiri Rotşild özünün neft səhmlərinin çox hissəsini dünya neft inhisarçılarından biri olan ingilis-holland «Şell» trestinə satdı. Hələ əsrin əvvəllərində Bakıda ingilis kapitalı ilə təşkil edilmiş bir sıra kiçik şirkətlərin də «Şell»in tərkibinə daxil olması ilə trest daha da böyüdü. 1914-cü ildə 77 milyon səhmdar kapitalla 11 şirkətə nəzarət edən trest 80 milyon puddan çox neft çıxarmışdı.

1917-ci ilin əvvəllərində «Şell» 13 şirkətin ümumi məbləği 90 milyon manatdan artıq olan səhmdar kapitalına nəzarət edirdi.

1912-ci ildə Londonda 7 rus bankı, habelə ingilis və fransız bankları tərəfindən təşkil edilmiş «Rusiya baş neft korporasiyası» (qısaca olaraq «Oyl») çox iri inhisar birliyi idi.

1914-cü ildə 143 milyon manatdan çox səhmdar kapitalı olan «Oyl» korporasiyası artıq 20-yə yaxın şirkəti öz nəzarəti altına almış, bir sıra ticarət-nəqliyyat şirkətləri ilə sindikat sazişi bağlayaraq, onların 79 neft stansiyası, 23 paroxodu, 229 barjı və 1800 sistern-vaqonunun sərəncamçısına çevrilmişdi. Həmin dövrdə korporasiya hər hansı inhisar birliyindən xeyli çox—110 milyon puda yaxın neft çıxarmışdı.

1916-cı ildə «Oyl»un tərkibində ən iri şirkət olan Rus «Neft» şirkəti ayrılıb müstəqil konsern yaratdıqdan sonra korporasiya dağılmağa başladı.

1917-ci ilin əvvəllərində 75 milyon manat səhmdar kapitalı olan Rus «Neft» konserni 40 milyon puda yaxın neft istehsal etdi. O, səhmdar kapitalının ümumi məbləği 110 milyon manata çatan 22 şirkəti öz nəzarəti altına aldı.

Beləliklə, Azərbaycan neft sənayesi, demək olar ki, bütünlüklə səhmdar cəmiyyətlərinin əlində olub, kapitalizmin ən yüksək inkişaf səviyyəsinə çatmışdı.

**Çarizm və neftli torpaqlar. Dövlət-kapitalist neft təsərrüfatının yaradılması:** Neftli torpaqlar, əsasən, xəzinənin ixtiyarında idi. Abşeronda cəmi 6100 desyatin neftli torpaq sahəsi vardı. 1913-cü ildə Azərbaycanda istismar edilən neftli torpaqların ümumi sahəsi 991 desyatinə yaxın olmuşdur. Bu torpaqların yarıya qədəri xüsusi sahibkarlara məxsus idi.

Xüsusi sahibkarlara məxsus neftli sahələr, əsasən, bəy torpaqlarının və çar hökuməti tərəfindən «xüsusi xidmətlərinə görə» zadəganlara, hərbçilərə, dövlət məmurlarına bağışlanmış torpaqların (bu torpaqların ümumi sahəsi 97,5 desyatinə bərabər idi) satın alınması və ya uzun müddətə icarəyə götürülməsi yolu ilə əmələ gəlmişdi.

Neftli torpağın hər desyatininə görə xəzinəyə birdəfəlik 125 min manat haqq ödəyərək həmişəlik icarəyə götürülən sahələr də, əslində, xüsusi mülkiyyət hüququna malik idi. Xüsusi sahibkarlar özlərinin neftli sahələrindən əldə etdikləri hasilata müvafiq surətdə dövlətə pay ayırırdılar.

Neftli torpaqların az bir hissəsi—21 desyatini (2,1 faizi) xəzinə-icma mülkiyyətinə məxsus idi.

Xəzinə-icma mülkiyyəti dövlət kəndlilərinə məxsus kiçik sahələrdən ibarət idi. Həmin torpaqlar dövlətə vergi ödəmək şərtilə kəndlilər tərəfindən icarəyə götürülürdü.

1907—1908-ci illərdə Suraxanıda qazılan yeni quyular fontan vurandan sonra, hökumət kəndlilərin istifadəsində olan xəzinə-icma torpaqlarını alıb sənayeçilərə icarəyə verməyə başladı. Odur ki, XX əsrin başlanğıcında 65 desyatinə yaxın sahəsi olan xəzinə-icma torpaqlarının 1913-cü ildə yalnız $^{1}/_{3}$ hissəsi qalmışdı.

Xəzinəyə məxsus neftli sahələr, başlıca olaraq, hərrac vasitəsilə icarəyə verilirdi.

Lakin bəzən elə olurdu ki, şirkətlər hərrac vasitəsilə icarəyə götürdüyü sahələrdə istismar işinə başlamır, ona görə də xəzinəyə çatacaq müvafiq payı ödəmirdilər.

1912-ci il iyunun 17-də çar hökuməti «Xəzinəyə məxsus neftli torpaqların müqavilə üzrə icarəyə verilməsi haqqında qaydalar» qəbul etdi.

Yeni qanuna görə, hərraca təqdim edilən neftli sahə üçün icarədarın hər il icbari surətdə ödəməli olduğu minimum icarə haqqı norması müəyyən edilirdi. Minimum normadan artıq çıxarılan neft, dövlətə 20 faiz həcmində pay ayırmaqla icarədarın özünə qalırdı. Hər neftli sahə üçün dövlət tərəfindən əvvəlcədən 100 min (sonralar, hətta 400 min) manat məbləğində girov alınırdı.

17 iyun 1912-ci il qanunu əsasında 1913—1914 və 1916-cı illərdə dörd hərrac keçirildi. Bu hərraclar zamanı ümumi sahəsi 470 desyatin olan 102 neftli sahə təqdim edildi. İri şirkətlər nəyin bahasına olursa-olsun, daha çox sahə ələ keçirmək üçün qızğın rəqabətə girdilər. Təklif edilən ilk icarə qiymətlərini ağlagəlməz dərəcədə yuxarı qaldırdılar. Hətta bir sahəyə düz 78 dəfə yeni qiymət təklif edilmişdi. Yeni sahələr, faktik olaraq, «Nobel qardaşları» və «Oyl» kimi iri qruplar arasında bölündü. «Nobel qardaşları» şirkətinə hər hərracda sahələrin təqribən 60 faizi çatdı.

Yeni əsaslarda keçirilən hərraclar xəzinəyə xeyli gəlir gətirsə də, istehsalı artırmağa, neft və neft məhsullarının qiymətini aşağı salmağa çalışan hökumətin ümidlərini doğrultmadı. Rusiya Dövlət Senatı göstərirdi: hərracların nəticəsi təsdiq etdi ki, böyük pay ayrılmaları iri şirkətləri qorxutmur, onların məqsədi xəzinənin ixtiyarında olan neftli torpaq ehtiyatını öz əllərinə keçirib neft bazarının sahibi olmaqdır, belə ki, inhisarlara bazarda neftin qiymətini yüksək səviyyədə saxlamaq onun hasilatını artırmaqdan daha sərfəlidir.

Məhz bu səbəbdən, xəzinənin ixtiyarında minlərlə desyatin neftli torpaq ehtiyatı olduğu halda, həmin ehtiyatdan, demək olar ki, istismara yeni sahələr verilmirdi.

Beləliklə, çarizmin neft hasilatını artırmaq sahəsində göstərdiyi cəhdlər uğursuzluqla nəticələndi. Mütləqiyyətin zadəgan-mülkədar quruluşunu möhkəmləndirməyə yönəldilmiş siyasəti neft probleminin həllinə ciddi maneçilik törədirdi. İstismara yeni-yeni sahələr buraxmaqla neft qıtlığını aradan qaldırmaq əvəzinə, dövlət mövcud sahələrdən get-gedə daha çox pay qoparmağa çalışırdı. Çarizm yeni neftli sahələri ələ keçirməklə burjuaziyanın iqtisadi qüdrətinin daha da artacağından, bununla da onun siyasi hakimiyyətə təzyiqinin güclənəcəyindən qorxurdu. Xəzinə çox qiymətli və strateji əhəmiyyətli minlərlə desyatin neftli torpaq ehtiyatını həmişəlik itirmək istəmirdi.

Bununla belə, çar hökuməti iri istehsala özünün başlıca dayağı kimi baxaraq, təmərküzləşmə prosesinə hər vasitə ilə kömək edir, iri kapitalın bu sahəyə yönəlməsinə çalışırdı. Çünki, təkcə iri neft şirkətləri və birlikləri hasilatı artırmaq üçün geniş maddi və maliyyə imkanlarına malik olub, böyük dövlət sifarişlərini təcili və vaxtında yerinə yetirməyə qadir idilər. Onlar, həmçinin, özlərinin çox güclü xarici rəqiblərinə qarşı inadla dayana bilərdilər.

Müharibə illərində çar hökuməti neft inhisar birliklərinin buraxdığı məhsulların daimi və ən imkanlı müştərisinə çevrildi.

Hərbi sifarişlər almış istehsal birliklərinə dövlət müxtəlif imtiyazlar və güzəştlər verirdi. Ona görə də dövlət sifarişlərini almaq uğrunda iri kapitalist birlikləri arasında rəqabət xeyli gücləndi.

«Nobel qardaşları» şirkəti dövlətin ağ neftlə təchizatını demək olar ki, öz əlinə almışdı. O, müxtəlif hərbi nazirlik və idarələrlə sərfəli müqavilələr bağlayaraq, onları təyyarə benzini, sulfat turşusu, sürtgü yağları, oleum, benzol, toluol və hərbi sənayedə işlənən digər məhsullarla təchiz edirdi. 1915-ci ildə şirkət müxtəlif hərbi istehlakçılara illik satılıq neft məhsullarının 70 faizi qədər mal göndərmişdi.

1915-ci ilin iyununda Mərkəzi Hərbi-Sənaye Komitəsinin (MHSK) Bakı hərbi-sənaye komitəci (BHSK) təşkil edildi. İri sənayeçilər və bəzi əlaqədar texniki ziyalılar bu komitəyə daxil edildilər. Bakı neft sənayeçiləri qurultayı Şurasının (BNSQŞ) sədri A. O. Qukasov eyni zamanda BHSK-nın sədri seçildi. Komitə tezliklə dövlətdən xeyli sərfəli sifarişlər alıb, sənayeçilər arasında bölüşdürdü.

Müharibə şəraiti dövlətin iri neft şirkətləri ilə qovuşmasına təkan verdi.

Neftli torpaqların, Bakı—Batum neft kəmərinin, Zaqafqaziya dəmir yolunun, çox böyük sistern-vaqon parkının, 100 milyon puddan artıq neft və neft məhsulları tutan 2 minə yaxın neft anbarının və başqa obyektlərin xəzinənin ixtiyarında olması, həmçinin, onun geniş maliyyə imkanlarına malik olması dövlət-kapitalist təsərrüfatının yaradılması üçün möhkəm təməl yaratdı.

Ölkənin müdafiə problemlərinin həlli çar hökumətini məcbur edirdi ki, geniş iqtisadi funksiyaları öz əlinə alsın, kapitalist istehsal prosesinə qarışsın.

Neft sənayesini nizama salmağın bir sıra dövlət-inhisarçı orqanları meydana gəldi.

1915-ci ilin avqustunda xalq təsərrüfatının: sənaye, nəqliyyat, yanacaq və ərzaq kimi çox mühüm sahələrinə rəhbərlik edən dörd Xüsusi müşavirə yaradıldı. Xüsusi müşavirələr ali dövlət idarələri olub, yalnız çarın qarşısında hesabat verirdi.

Yanacaq üzrə xüsusi müşavirə—Osotop[1] son dərəcə böyük hüquqlara malik idi.

Osotop yanacağın uçotunu və bölgüsünü aparır, ölkə üzrə onun hasilatını planlaşdırırdı. O, yanacaq müəssisələrinə icrası məcburi olan sifarişlər verir, hətta tədarükçü təşkilatlarla bağlanmış müqavilələrin şərtlərini dəyişdirir, müsadirə aparır, yanacaq müəssisələrində əmək haqqının miqdarını gözdən keçirirdi.

Osotop idarəetmənin yeni forması olub, əvvəllər yaradılmış bütün yanacaq komitələri, hətta bəzi nazirliklər üzərində dövlət-inhisarçı funksiyasını həyata keçirirdi.

Osotonun sədri ticarət və sənaye naziri knyaz V. N. Şaxovski idi. Sədrə müstəsna hüquqlar verilmişdi. O, hətta Osotop üzvlərinin ümumi rəyi ilə hesablaşmayaraq, özünün qərarını həyata keçirə bilərdi.

Osotonun tərkibində 30 üzv vardı. Bunlar, əsasən, bürokratiya və mülkədarların, ilk növbədə, Dövlət Şurası və Dövlət dumasının üzvlərindən, nazirliklərin və mərkəzdə yerləşən komitələrin yüksək rütbəli nümayəndələrindən ibarət idi. Burada neft sənayesini E. L. Nobel və P. O. Qukasov təmsil edirdilər.

Osotonun nəzdində ayrıca Neft seksiyası, İmperiya istehlakçılarını neft və neft qalıqları ilə təchiz edən Baş müvəkkillik və başqaları vardı. Neft məhsullarının planlı daşınmasını təmin etmək üçün Dəmir yol idarəsinin nəzdində bilavasitə Baş müvəkkilliyin tapşırıqlarını yerinə yetirən Neft komitəsi təşkil edildi. Zavodlarda, dəmir yol stansiyalarında, bir sözlə, neft məhsulları doldurulan və yola salınan yerlərdə Baş müvəkkilliyə tabe olan Neft uçotu üzrə kontrolçular fəaliyyət göstərirdilər.

Müharibə şəraiti neft sənayesində inhisarçı kapitalizmin dövlət-inhisarçı kapitalizmə çevrilməsində mühüm rol oynadı.

### b) Sənayenin başqa sahələri

**Dağ-mədən sənayesi:** XX əsrin əvvəlində Gədəbəydə alman kapitalistləri Simens qardaşlarına məxsus mədənlərdən 3,5 milyon puda qədər mis filizi çıxarılmışdı. Bu, Rusiyadakı bütün mis filizi hasilatının $^{1}/_{6}$ hissəsini təşkil edirdi.

[1] «Особое совешание по топливо» sözünün müxtəsər forması.

1901-ci ildə Gədəbəy və Qalakənd misəritmə zavodlarında, Rusiyada əridilmiş misin 23 faizindən çoxu—120 min puddan artıq xalis mis istehsal edilmişdi. Sonrakı il Qalakənd zavodu bağlandı, mis istehsalı azalmağa başladı. 1907-ci il istisna edilməklə, mis hasilatı heç vaxt 100 min pud səviyyəsinə qalxa bilmədi.

1907-ci ildə Rusiyanın yeddi misəritmə zavodu inhisarçı «Mis» sindikatı yaratdı. Gədəbəy misəritmə zavodunun da daxil olduğu sindikat misə vahid bazar qiyməti qoyub, onun satışını mərkəzləşdirdi.

1910-cu ildən sonra mis filizi çıxarılması sürətlə azalmağa başladı. 1914-cü ildə cəmi 900 min pud filiz və 56 min pud xalis mis istehsal edildi. Bu tənəzzül mədənlərdə mis filizi ehtiyatının getdikcə tükənməsi ilə əlaqədar idi.

Müharibə illərində mis mədənləri və Gədəbəy misəritmə zavodu simenslərin rus təbəəliyini qəbul etmiş qohumlarının əlinə keçdi. 1917-ci ildə cəmi 16.8 min pud filiz çıxarıldı və 23 min puddan bir qədər artıq xalis mis əldə edildi.

Mis filizi az miqdarda ətraf yerlərdən də çıxarılırdı.

Simenslər bəzi rus banklarının, xüsusən «Vokau və K°» ticarət evinin kreditindən istifadə edirdi.

Müharibə illərində Gədəbəy mis sənayesi cəbhənin ehtiyacları üçün işləyirdi.

Simenslərin Gədəbəy və Çaykənd yaxınlığındakı mədənlərindən tərkibində cüzi miqdarda mis olan kükürd kolçedanı çıxarılırdı. Sulfat turşusu istehsalının əsasını təşkil edən bu qiymətli xammalın çoxu o zaman xaricdən alınırdı. «Nobel qardaşları» şirkəti «Simens qardaşları» cəmiyyəti ilə müqavilə bağlayaraq, hasil edilən bütün mis və kükürd kolçedanını öz əlinə keçirmişdi.

1902-1916-cı illər arasında mis və kükürd kolçedanı istehsalı dörd dəfə artaraq 930 min puda çatmışdı.

Azərbaycanda az miqdarda dəmir, gümüş-qurğuşun, barit filizləri, kvars, zəy də çıxarılırdı. Dəmir və barit filizlərindən, kvarsdan misin alınmasında aşqar maddə kimi istifadə olunurdu.

Daşkəsəndə Simenslərə məxsus kobalt mədəni də vardı. 1913-cü ildə burada 15 min pud filiz çıxarılaraq, ondan 75 pud xalis kobalt istehsal edilmişdi. Kobalt xarici ölkələrə göndərilirdi.

1913-cü ildə dağ-mədən sənayesində 2800 nəfərdən artıq fəhlə çalışırdı.

Naxçıvan yaxınlığında daş duz çıxarılırdı. Daş duz mədənlərinin çoxu xəzinənin ixtiyarında olub, ayrı-ayrı adamlara icarəyə verilirdi. Duz mədənlərinin $^{1}/_{3}$ hissəsi Kəlbalıxanov qardaşları ticarət evinə məxsus idi.

Daş duzun orta illik hasilatı təqribən 500 min pud təşkil edirdi.

Bakı və Cavad qəzalarında olan şor göllərdən də duz yığılırdı. Cavad qəzasında göllər tədricən quruduğuna görə şor duz istehsalı azalmağa başladı. 1910-cu ildə 270 min puddan çox şor duz yığıldığı halda, 1917-ci ildə bunun təqribən yarısı əldə edilmişdi.

**Mexaniki istehsal:** Azərbaycanın mexaniki istehsal müəssisələrinin çox böyük hissəsi, həm də əhəmiyyətliləri Bakı sənaye rayonunda yerləşirdi. Bu müəssisələr, əsasən, neft sənayesinin və onunla əlaqədar olan digər sənaye sahələrinin ehtiyacını ödəyirdi.

XX əsrin əvvəllərində Bakı sənaye rayonunda yüzdən artıq mexaniki istehsal müəssisəsi vardı. Bunların içərisində ən iriləri «Bakı maşınqayırma, neft sənaye və ticarəti» cəmiyyətinin maşınqayırma zavodu, «Xəzər maşınqayırma və qazan zavodu» idi. Həmin zavodlarda bəzi illərdə 500 nəfərdən çox fəhlə işləmişdir.

Müəssisələrdə neft çənləri, buxar qazanları, borular, jelonkalar, metal məftillər və s. hazırlanırdı. Maşınqayırma zavodlarında müxtəlif dəzgahlar, buruqların qazılmasında, neft-yağ məhsullarının alınmasında, poladın, çuğunun tökülməsində və digər texniki proseslər zamanı istifadə olunan cürbəcür cihazlar qayrılırdı.

Mexaniki istehsal və orada çalışan işçi qüvvəsi getdikcə təmərküzləşirdi. Birinci dünya müharibəsi ərəfəsində 127 mexaniki istehsal müəssisəsində çalışan 10 minə yaxın fəhlənin $^{2}/_{3}$ hissəsi 20 iri zavodun payına düşürdü.

Podratla qazıma mexaniki istehsalın mühüm sahəsi idi.

Qazıma işləri, «Nobel qardaşları», Rus «Neft» şirkəti kimi 10 iri neft şirkəti istisna edilməklə, başlıca olaraq, podratla qazıma müəssisələri tərəfindən həyata keçirilirdi.

Əsrin əvvəlində Murtuza Muxtarovun Sabunçu, Bibi-heybət və Suraxanıda üç iri podratla qazıma zavodu vardı. Bu zavodların hərəsində min nəfərə qədər, bəzən daha çox fəhlə işləyirdi. Qazılan quyuların $^{1}/_{4}$ çoxu M. Muxtarovun payına düşürdü.

Bakıda irili-xırdalı 55 podratla qazıma müəssisəsi vardı.

Gəmi təmiri mexaniki istehsalda əhəmiyyətli rol oynayırdı.

«Qafqaz və Merkuri» və «Nobel qardaşları» şirkətlərinin ellinqləri, H. Z. Tağıyev, Şıxəli Dadaşov və başqalarına məxsus iki dok on iri mexaniki istehsal müəssisələri idi. 1917-ci ildə «Nobel qardaşları» ellinqində 1200 nəfərdən artıq fəhlə işləyirdi.

1900—1914-cü illərdə Bakı tərsanələrində 39 gəmi əsaslı təmir olunmuş, 8 gəmi inşa edilmişdir.

Müharibə illərində bütün mexaniki istehsal sahələrində 20 minə yaxın fəhlə və qulluqçu işləmişdir.

**Elektrik istehsalı enerjisi:** Elektrik enerjisinə tələbat durmadan artırdı. İrili-xırdalı bir neçə elektrik stansiyası tikildi. Bu stansiyaların çoxu «Електрическая сила» səhmdar cəmiyyətinə məxsus idi. Elektrik enerjisinin 95 faizi neft mədənlərində işlənirdi.

Bakı elektrik enerjisi istehsalına görə Rusiya şəhərləri arasında Peterburq və Moskvadan sonra üçüncü yeri tuturdu. Şəhərin elektrik stansiyalarında 700 fəhlə çalışırdı.

Azərbaycanın qəza şəhərlərində də kiçik elektrik stansiyaları tikilirdi. Artıq birinci dünya müharibəsi ərəfəsində qəza mərkəzlərində, Tovuzda, Xankəndində və dəmir yol stansiyalarında elektrik eperjisindən istifadə olunurdu.

1913-cü ildə Azərbaycanda 110 milyon kilovat-saatdan artıq, yəni əsrin əvvəlində olduğundan 14 dəfə çox elektrik enerjisi istehsal edilmişdi. Bunun yalnız 1 milyon kilovat-saatı qəzaların payına düşürdü.

**Tikinti materialları istehsalı:** Sənayenin inkişafı, şəhər əhalisinin artması tikinti işlərinə güclü təkan verdi. Kərpic, daş, sement və digər tikinti materiallarına tələbat olduqca artdı.

1912-ci ildə Azərbaycanda 220 kərpic zavodu vardı. Bu zavodlarda 1700-dən artıq fəhlə işləyirdi. Zavodların hərəsində 4—6 nəfər və daha az işçi vardı. Kərpic istehsalında Zaqatala xüsusilə fərqlənirdi. Buradakı 30-a yaxın zavodda 200-dək fəhlə işləyirdi. Bakının kərpic zavodları daha iri idi. Şəhərdəki 21 zavodda 300 nəfərə qədər adam çalışırdı.

Bakıda və ətraf yerlərdə evlərin tikintisində Abşeronda çıxarılan ağ daşdan geniş istifadə edilirdi.

1906-cı ildə Bakının Keşlə kəndi yaxınlığında Zaqafqaziyada ilk sement zavodu tikildi. Zavod ildə 7 min tona qədər sement verirdi, burada 200-ə qədər fəhlə işləyirdi.

1914-cu ildə Tovuzda ikinci sement zavodu işə düşdü. Zavod ildə 13 min tondan çox məhsul buraxırdı. Zavodda və onun karxanalarında 5-6 yüz fəhlə çalışırdı.

Tikinti materialları istehsalının başqa sahələri də inkişaf edirdi. Bakıda oda davamlı materiallar istehsal edən «Qipsolit» zavodu, taxta-şalban zavodu, mexaniki üsulla işləyərək mebel, parket və çəllək hazırlayan iki emalatxana, yeşik və karton hazırlayan bir neçə müəssisə və onlarca başqaları vardı.

**Yüngül sənaye:** İpək emalı istehsalın mühüm sahələrindən idi. Zaqafqaziyada xam ipəyin yarıdan çoxunu Azərbaycan verirdi. İpək emalı müəssisələri, başlıca olaraq, baramaçılığın inkişaf etdiyi üç zonada: Nuxa-Zaqatala, Qarabağ və Naxçıvan zonalarında cəmləşmişdi.

Əsrin əvvəlində 2—4, hətta bir nəfərin çalışdığı 450-dən artıq kustar müəssisəsi vardı. Əl əməyinə əsaslanan bu müəssisələrin sürətlə fabriklərə çevrilməsi ilə əlaqədar olaraq istehsal daha da təmərküzləşirdi. Təkcə Nuxa—Zaqatala zonasında 1899— 1904-cü illər arasında ipək emalı müəssisələrinin sayı (420) beş dəfədən çox azaldığı halda, istehsalat sabit qalmışdı.

Nuxa—Zaqatala zonası əsas ipəkçilik rayonu idi. 1904-cü ildə Azərbaycanın 119 ipək emalı müəssisəsinin 81-i bu zonada, o cümlədən 79-u Nuxa qəzasında, əsasən, Nuxa şəhərində yerləşirdi.

Həmin dövrdə Qarabağ zonasında 27 ipək emalı müəssisəsi vardı. Onlardan 22-ci Şuşa qəzasında, o cümlədən 3-ü Şuşa şəhərində idi, qalanları isə qəzanın kəndlərinə səpələnmişdi. Cəbrayıl və Cavanşir qəzalarında 5 ipək emalı müəssisəsi vardı.

Naxçıvan qəzasında olan 13 ipək emalı müəssisəsinin çoxu Ordubadda, həmçinin Naxçıvan şəhərində və kəndlərdə yerləşirdi.

Rusiyada sənayenin yüksəlişi illərində toxuculuq fabriklərinin xammala tələbatının artması Azərbaycanda xam ipək istehsalının sürətlə çoxalmasına səbəb oldu. 1910-1913-cü illərdə xam ipək istehsalı iki dəfəyədək artaraq, 47,5 min puda çatdı.

İpək Moskva, Lodz, Varşava, həmçinin Milan, Marsel, Lion şəhərlərinə və başqa yerlərə göndərilirdi.

1915-ci ildə fabriklərin sayı, 1900-cü ilə nisbətən (60) iki dəfədən çox artaraq 123-ə çatdı. Bu, bütün müəssisələrin $^{4}/_{5}$ hissəsindən çoxunu təşkil edirdi. Fabriklər bütün məhsulun 95 faizini verirdi. Fabriklərin 85-i Nuxa qəzasında, 2-ci Zaqatalada, 24-ü Şuşa və 12-ci Naxçıvan qəzalarında idi. Onlarda 16 nəfərdən yuxarı, hətta yüz və daha artıq işçi çalışırdı. Nuxa şəhərində Ağa Musa Hacı Məmmədova məxsus ən iri ipək emalı fabrikində 150 nəfərə yaxın fəhlə işləyirdi.

Fabriklərin texniki təchizatı getdikcə yaxşılaşırdı. 1915-ci ildə fabriklərdə 4 min baramaaçılan tiyan, 128 buxar qazanı, 350 dəzgah, 114 buxar mühərriki, 43 buxar və hidravlik turbin, 5 hidravlik çarx, 115 ipəkburan maşın və 20 min sapburan iydən istifadə olunurdu.

İstehsal sürətlə təmərküzləşirdi. 16 ən iri fabrik müəssisələrin $^{1}/_{10}$-ni təşkil etməklə, ümumi hasilatın $^{1}/_{3}$ hissəsini verirdi.

1915-ci ildə Azərbaycanda 65 min pud xam ipək istehsal edilmişdi. Bu, əsrin əvvəli ilə müqayisədə təqribən dörd dəfə çox idi.

15 il ərzində ipək emalı müəssisələrində işləyən fəhlələrin sayı iki dəfəyədək artaraq 10 min nəfərə çatdı.

Azərbaycanın xam ipəyi bir sıra beynəlxalq və ümumdünya sərgilərində dəfələrlə qızıl və gümüş medallara layiq görülmüşdür. Ordubad sənayeçisi K. L. Babayevin müəssisəsi əla keyfiyyətli xam ipək istehsal etdiyi üçün 13 dəfə qızıl medal almışdı.

İpək istehsalı, başlıca olaraq, yerli fərdi-ailə müəssisələrinin-ticarət evlərinin (şirkətlərin) əlində idi.

1916-1917-ci illərdə ipək emalı müəssisələrinin sayı xeyli azaldı.

Azərbaycanda pambıqçılığın inkişafı ilə əlaqədar olaraq pambıqtəmizləmə sənayesi də yüksəlirdi. Pambıqtəmizləmə müəssisələri, əsasən, pambıq əkilən zonalarda yerləşirdi. İlk müəssisələr çox kiçik idi. 1903-cü ildən zavod istehsalına keçildi. Buxar və neftlə işləyən mühərriklərin gücü ilə hərəkətə gətirilən maşınlar tətbiq edildi.

1912-ci ildə Yelizavetpol quberniyasında 28, Bakı quberniyasında 22 pambıqtəmizləmə zavodu vardı. Əsas pambıqtəmizləmə zavodları Yelizavetpol şəhərində və Ağdaşda yerləşirdi. Naxçıvan qəzasında 51 zavod olsa da, onların əksəriyyəti çox kiçik idi və texnika ilə təchiz edilməmişdi.

Həmin ildən pambıqtəmizləmə texnologiyasında pnevmatik sistemə keçilməyə başlandı. İndi xam pambıq kotton-cinə verilib çiyiddən ayrıldıqdan sonra presləmə sexinə aparılıb preslənməsi prosesi avtomatik daşıyıcı vasitəsilə həyata keçirilirdi.

İlk vaxtlar toxumluq çiyid Orta Asiyadan gətirilirdi. Sonralar toxum yerli təsərrüfatlarda hazırlandı, hətta başqa yerlərə də aparıldı.

Azərbaycanda mahlıcın orta illik istehsalı ilk vaxtlar 900 min puda yaxın, 1910-1913-cü illərdə iki milyon puddan çox, müharibə illərində isə 1,1 milyon puddan çox olmuşdur.

Mahlıc, başlıca olaraq, Moskvanın, Polşanın və Riqanın toxuculuq fabriklərinə göndərilirdi.

1913-cü ildə Azərbaycanın pambıqtəmizləmə müəssisələrində 1000 nəfərdən artıq fəhlə işləyirdi. Onlardan 130 nəfərə qədəri Naxçıvan qəzasının payına düşürdü. Yelizavetpol və Bakı quberniyalarında hər zavodda 10-20 nəfər və daha artıq fəhlə işləyirdi. Petropavlovkada Moskvanın «Vokau və K°» şirkətinə məxsus bir zavodda hətta 100 nəfərə yaxın fəhlə çalışırdı.

Pambıqtəmizləmə müəssisələri, əsasən, ticarət evlərinə (şirkətlərə) məxsus idi.

Pambıq emalı sənayesində təmərküzləşmə prosesi getdikcə güclənir, səhmdar cəmiyyətləri meydana gəlirdi.

Hacı Məmmədsadıq Əliyevin təşkil etdiyi «Əliyev qardaşları» şirkətinin Ucarda pambıqtəmizləmə zavodu, çoxlu ticarət müəssisəsi vardı.

1911 - 1912-ci illərdə Yelizavetpolda ayrı-ayrı ticarət evləri müqavilə əsasında birləşərək, «Xlopok», «Ulduz» və «Ümid» ticarət-sənaye şirkətlərini təşkil etdilər.

1912-ci ildə Qarabağın ən böyük torpaq sahibi Xasay xan Üsmiyevdən 8 min desyatindən artıq torpaq sahəsi satın alınaraq, «Qafqaz pambığı» səhmdar cəmiyyəti təsis olundu. Cəmiyyətin maldarlıq və pambıqçılıq təsərrüfatları, Ağdam yaxınlığında cins at yetişdirilən zavodu ilə yanaşı, bir neçə pambıqtəmizləmə zavodu vardı.

Səhmdar cəmiyyətlərinin çoxu fərdi-ailə müəssisələri əsasında yaranırdı.

Arzumanovun ticarət evi əsasında «B. Arzumanov sənaye-ticarət pay» səhmdar şirkəti yaradıldı. Onun səhmlərinin çoxu şuşalı tacirlərin əlində idi. Cəmiyyətin Yelizavetpol, Ağdaş, Ləki və başqa yerlərdə bir neçə pambıqtəmizləmə zavodu vardı.

«İsgəndərov qardaşları» ticarət evinin başçısı M. İsgəndərov tərəfindən yaradılmış «Muğan» ticarət-sənaye səhmdar cəmiyyətinin Cavad qəzasında bir neçə pambıqtəmizləmə zavodu, habelə geniş pambıq əkini sahələri vardı və s.

Müəssisələrin təmərküzləşməsində iri sənaye kapitalı müəyyən rol oynayırdı. Məsələn, «Vokau və K°» konsernin bir neçə pambıqtəmizləmə zavodu vardı.

Hələ 1898-ci ildə H. Z. Tağıyev tərəfindən «Bakıda H. Z. Tağıyevin lifli cismlərin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti» yaradılmışdı. Cəmiyyətin ilkin səhmdar kapitalı 2 milyon manat idi. Sonra bu kapitalın məbləği iki dəfədən çox artırılmışdı.

1901-ci ilin əvvəlində cəmiyyət tərəfindən Bakının Zığ kəndində toxuculuq fabriki tikilib istifadəyə verildi. Bu, Qafqazda ilk və ən iri pambıq-parça toxuma müəssisəsi idi. Fabrikdə müntəzəm olaraq 1100 nəfərdən çox, 1912-ci ildə isə 1400 nəfərdən artıq fəhlə işləmişdir. O, çoxu xaricdən alınıb gətirilmiş müasir texniki avadanlıqla təchiz olunmuşdu.

Fabrik, əslində, iri istehsal kompleksi idi. Burada 40 desyatin sahəsi olan bir ərazidə fəhlə və qulluqçuların yaşaması üçün qəsəbə salınmış, məktəb binası, şor suyu şirinləşdirici stansiya və elektrik stansiyası tikilmişdi. Fabrikin özünün ambulatoriyası, paroxodu və anbarları vardı.

Fabrikin xammala olan ehtiyacını ödəmək üçün Tağıyevin qəzalarda geniş pambıq əkini sahələri və bir neçə pambıqtəmizləmə zavodu vardı.

Tağıyevin fabriki orta hesabla ildə 2 milyon manatlıq məhsul istehsal etmişdi. 1911-ci ildə fabrikin təqribən 81 min manat gəliri olmuşdur.

1913-cü ildə H. Z. Tağıyev rus kapitalistləri tərəfindən hələ iki il əvvəl Port-Petrovskda (indiki Mahaçqala) yaradılmış və bir sıra sənaye-ticarət şirkətlərini birləşdirən «Kaspi manufakturası cəmiyyəti»nin səhmlərini öz əlinə keçirərək, onun sahibi oldu. O, cəmiyyətin idarə heyətini Moskvadan Bakıya köçürdü. H. Z. Tağıyev cəmiyyətin əsas kapitalının həcmini iki dəfə artıraraq 2 milyon manata çatdırdı. Cəmiyyətin müəssisələrində milyon manat dəyərində hələ təkcə bez toxunurdu.

1914-cü ilin yayında «Bakıda H. Z. Tağıyevin lifli cismlər emalı üzrə Qafqaz səhmdar cəmiyyəti» ilə «Kacpi manufakturası cəmiyyəti»nin istehsal fəaliyyətini birləşdirən «H. Z. Tağıyevin birləşmiş fabriklərinin kontoru» təşkil edildi.

Birinci dünya müharibəsi illərində «H. Z. Tağıyevin birləşmiş fabriklərinin kontoru», əsasən, hərbi sifarişləri yerinə yetirmişdi. Təkcə 1915-ci ildə cəbhənin ehtiyacları üçün 4 milyon metr bez və 300 milyon metr parusin göndərilmişdi.

Gön-dəri istehsalı yüngül sənayenin daim yüksələn sahəsi idi. Maldarlığın geniş yayılması, aşı maddələrinin bolluğu dabbaqlıq üçün əlverişli şərait yaradırdı.

1900-cü ildə Azərbaycanda 160-a qədər gön-dəri istehsal müəssisəsi—dabbaqxana vardı. Gön-dəri istehsalının əsas mərkəzləri Nuxa, Şamaxı, Yelizavetpol, Bakı, Naxçıvan, Şuşa şəhərləri idi. Bəzi iri kəndlərdə də dabbaqxana olurdu.

Gön-dəri istehsalında Nuxa və Şamaxı qəzaları xüsusilə fərqlənirdi. Bu qəzalarda 110-na yaxın dabbaqxana, o cümlədən Nuxa və Şamaxı şəhərlərinin hərəsində 35 dabbaqxana vardı.

Tələbatın durmadan artması ilə əlaqədar olaraq, gön-dəri müəssisələri genişlənib zavodlara çevrildi, məhsul istehsalı xeyli artdı. 1913-cü ildə təkcə Nuxa şəhərində hərəsində orta hesabla 30-dan artıq fəhlənin çalışdığı 50 zavod vardı. Həmin il Nuxa qəzasında olan 70 zavod 70 min pud gön-dəri məmulatı istehsal etmişdi.

Sənayenin yüksəlişi illərində Azərbaycan və Rusiyanın gön-dəri istehsalı müəssisələrinə hər il orta hesabla 600 min ədəddən çox xam dəri satılırdı.

Müharibə illərində hərbi sifarişlərlə əlaqədar olaraq, gön-dəri məmulatına tələbat son dərəcə artdı. Bu, gön-dəri müəssisələrinin çox sürətlə genişlənməsinə səbəb oldu. 1915-ci ildə Nuxa qəzasında gön-dəri zavodlarının sayı (70 zavod) dəyişməz qaldığı halda, onların hərəsində orta hesabla 58 nəfər, bəzilərində isə hətta 100 və daha çox fəhlə işləmişdir.

Gön-dəri məmulatının çoxalmasına baxmayaraq, hərbi sifarişlərin $^1/_3$ hissəsi güclə yerinə yetirilirdi. Ona görə hökumət yerlərdə bu məmulatın dövlət tədarükü ilə məşğul olan komissiyalar yaratdı.

Əsrin əvvəlindən keçən 15 il ərzində gön-dəri sənayesində fəhlələrin sayı 7 dəfədən çox, məhsul hasilatı isə daha çox artmışdı.

Bakı, Şamaxı, Yelizavetpol, Şuşa, Şəki şəhərlərində sabun bişirilirdi. Sabunbişirmə müəssisələri kiçik idi və hərəsində 2—3, bəzən bir nəfər çalışırdı. Azərbaycanda yüzdən artıq fəhləsi olan 18 sabunbişirmə müəssisəsi vardı.

**Yeyinti sənayesi:** Taxıl məhsulları emalı əsas istehsal sahəsi idi. İri unüyutmə və çəltiktəmizləmə müəssisələri Bakı şəhərində yerləşirdi. XX əsrin əvvəllərində burada 15 unüyütmə və çəltiktəmizləmə müəssisəsi vardı. Ağabala Quliyevə məxsus dəyirman ən iri emal müəssisələrindən idi. 1912-ci ildə H. Z. Tağıyevin iri unüyütmə dəyirmanı işə düşdü. Bu müəssisələrdə buxarın gücü ilə hərəkətə gətirilən mühərriklər, əzmə dəzgahları və qazanlardan istifadə edilirdi.

1917-ci ildə dəyirman fəhlələrinin sayı 620 nəfər olmuşdur.

Azərbaycanın qəzalarında buxarla işləyən onlarca dəyirman vardı. Çox da böyük olmayan bu müəssisələrdə bir neçə adam işləyirdi. Suyun gücü ilə hərəkətə gətirilən dəyirman və dinglərdən də geniş istifadə olunurdu.

Balıq və balıq məhsulları əhalinin əsas qida maddələrindən idi.

Əvvəllər Azərbaycanda balıq çay və göllərdən tutulurdu. Dəniz balıqçılığında ilk vətəgə 1898-ci ildə meydana gəlmişdi.

Vətəgələr dövlətin ixtiyarında olub, üç ildən bir, 1912-ci ildən isə altı ildən bir hərrac yolu ilə icarəyə verilirdi. Vətəgələrin icarəyə verilməsindən xəzinənin orta illik gəliri 1,6 milyon manata çatırdı. Kür çayı boyunca yerləşən vətəgələr içərisində Bankə xüsusilə fərqlənirdi. 1901-ci ildə Bankə artıq üç min nəfərdən çox əhalisi olan qəsəbəyə çevrilmişdi. Burada iyirmi min pud balıq tutan soyuducu, buz zavodu, çəllək emalatxanası tikilmiş, vətəgələrarası telefon xətti çəkilmiş, ovlanan balığı Kür çayı üstündəki sahil körpüsündən emal müəssisələrinə tez daşımaq üçün darxətli dəmir yol salınmış, elektrik stansiyası, su anbarı qülləsi, sabunbişirmə və konserv zavodları və s. inşa edilmişdi.

1900-cü ildə Bakı—Petrovsk dəmir yolunun işə düşməsi dənizsahili vətəgələrin salınmasına güclü təkan verdi. Həmin il Bakı quberniyasının dəniz sahilində cəmi 9 vətəgə vardısa, 1906-cı ildə onların sayı iyirmi dəfədən çox artaraq, 200-ə çatdı.

Vətəgə sahiblərinin çoxu—35 nəfəri rus idi. Onlar, əsasən, Həştərxandan gəlmişdilər. 9 nəfər azərbaycanlı vətəgəçi sahibkar vardı.

Rusiyada tutulan balığın 60 faizini Xəzər dənizi, Xəzərdə ovlanan balığın isə $^{1}/_{3}$-ni Azərbaycan verirdi. Azərbaycanın çayları, habelə Xəzər dənizi ən qiymətli sayılan nərə balığı növlərinin zənginliyinə görə dünyada birinci yeri tuturdu. Burada hər il yüz minlərlə pud «qırmızı» adlandırılan əla növ balıqlar—nərə, uzunburun, ağbalıq, qayabalığı və strelyad ovlanırdı. Lakin ən çox siyənək balığı tutulurdu.

Emal müəssisələrində balıqdan müxtəlif məhsullar: hisə qoyulmuş və qurudulmuş balıqlar, konservlər, balıq yağı, kürü, o dövrdə əla sayılan yapışqan və sair hazırlanırdı.

Bakı vətəgələrinə yiyələnmək üstündə kapitalistlər arasında qızğın mübarizə gedirdi. H. Z. Tağıyev, Musa Nağıyev və başqa azərbaycanlı kapitalistlər hərraclar zamanı daha yüksək qiymətlər təklif etməklə, vətəgələrin xeyli hissəsini öz əllərinə keçirdilər. H. Z. Tağıyev Xəzərin Dəvəçi—Yalama hissəsində, xüsusən Dağıstan sahillərində vətəgələrin böyük əksəriyyətinə sahib oldu. Onun balıqçılıq təsərrüfatına 30 vətəgə daxil idi.

Balıqçılıq təsərrüfatlarının texniki təchizatı müntəzəm olaraq yaxşılaşırdı. İri vətəgələrə elektrik və telefon xətləri çəkilir, onlarda buxarın gücündən istifadə olunurdu. Burada buz istehsal edən zavodlar, daş çənlər, anbarlar, çəlləkqayırma və emal müəssisələri, sahilyanalma körpüləri tikilir, bəzən darxətli dəmir yolu çəkilir, habelə balıqçı qəsəbələri salınırdı.

Azərbaycanın balıq sənayesi güclü donanmaya malik idi. 1912-ci ildə bu donanmanın tərkibində yükgötürmə gücü 1,7 milyon pud olan irili-xırdalı 6 minə yaxın gəmi, o cümlədən 90-dan artıq matorlu barkas vardı.

1913-cü ildə Azərbaycanda 13 milyon puda yaxın balıq və balıq məhsulları hasil edilmişdi. Bu, əsrin əvvəlində olduğundan təqribən beş dəfə çox

idi. Həmin il təqribən 450 min ədəd qırmızı növ balıq ovlanaraq, 40 min puddan çox qara kürü alınmışdı.

Bu dövrdə balıq sənayesi müəssisələrində 40 min nəfərdən artıq fəhlə və qulluqçu işləyirdi. Onların arasında balıq məhsulları hazırlamaqla məşğul olanların yarıdan çoxunu-4 min nəfərini qadınlar təşkil edirdi.

Balıq və balıq məhsullarının $^4/_5$ hissəsindən çoxu Rusiyaya aparılırdı. Məhsulun bir hissəsi oradan xarici ölkələrə göndərilirdi.

Birinci dünya müharibəsi illərində balıqçılıq təsərrüfatları xeyli gerilədi. 1916-cı ildə balıqçılıq və balıq məhsulları hasilatı 1913-cü ilə nisbətən 40 faiz azaldı, balıqçılıq donanması isə 20 faiz ixtisar edildi. İxracat son dərəcədə məhdudlaşdı.

Balıq və balıq məhsullarının, balıq ovu ləvazimatının qiyməti xeyli qalxdı.

1916-cı ildən balıq sənayesi müəssisələri əsasən dövlət sifarişlərini yerinə yetirirdilər.

Azərbaycanın balıq sənayesi ilk çağlarından kapitalist əsasları üzərində qurulmuşdu. Ayrı-ayrı şirkətlərə (ticarət evlərinə) məxsus olan balıq vətəgələrində muzdlu əməkdən istifadə edilirdi.

Çoxlu qazanc gətirən balıqçılıq təsərrüfatları sürətlə genişlənir və güclü rəqabət meydanına çevrilirdi. Vətəgələrin vaxtaşırı hərraca qoyulması qaydası da bu vətəgələrin daha güclü rəqiblərin əlinə keçməsinə imkan verirdi. Nəticədə, xeyli xırda vətəgə sahibi tədricən müflisləşib aradan çıxır, yaxud iri kapitalistlərdən asılı vəziyyətə düşürdü.

Balıq sənayesində istehsalın sürətlə təmərküzləşməsi bir sıra iri şirkətlərin, səhmdar cəmiyyətlərinin, inhisar birliklərinin yaranmasına səbəb oldu.

1909-cu ildə bir neçə balıq sənayeçisi öz aralarında sindikat müqaviləsi bağlayaraq «Zaqafqaziya balıq sənayesi» şirkətini təsis etdilər. Onlar özlərinin çay və göllərdəki vətəgələrini bu şirkətin ixtiyarına verdi, balıq və balıq məhsulları satışı üzərində inhisar qiyməti qoydular. İkinci belə inhisar birliyi dəniz balıqçılığında yarandı. «Sila» Xəzər balıq sənayesi şirkətində sindikat müqaviləsi əsasında birləşən iri vətəgəçi kapitalistlər dənizdə ovlanan balıq və balıq məhsullarına istədikləri satış qiyməti qoymaqla özlərinin rəqiblərini sıxışdırır, onların məhsulunu dəyər-dəyməzinə alıb, sonradan baha qiymətə satırdılar.

Balıqçılıqda səhmdar cəmiyyətlərinin təşkilinə hələ XX əsrin lap əvvəllərində başlanılsa da, bu cəmiyyətlər, əsasən, sənayenin yüksəlişi dövründə, xüsusən birinci dünya müharibəsi illərində formalaşmış və istehsalatda həlledici mövqelər tutmuşlar.

Ən iri səhmdar cəmiyyətləri 1913-cü ildə təşkil edilmiş «Rıbak» balıq sənayesi və ticarəti cəmiyyəti» və 1916-cı ildə təşkil edilmiş «Kaspi—Tağıyev balıq sənayesi cəmiyyəti» idi. Bu səhmdar cəmiyyətləri bir sıra şirkətləri öz nəzarəti altına alaraq, xüsusən, dəniz balıqçılığında hakim rol oynayırdılar. Müharibə illərində cəbhə üçün işləyən «Kaspi—Tağıyev» və «Rıbak» səhmdar

cəmiyyətləri balıq və balıq məhsullarının istehsalı və satışını öz inhisarına almış başlıca birliklər idi.

Otuzdan artıq balıqçılıq şirkətinin və çoxlu fərdi-ailə müəssisələrinin mövcudluğu şəraitində balıq sənayesinə qoyulmuş kapitalın 2/3 hissəsi — 16 milyon manata qədəri təkcə 7 səhmdar cəmiyyətin payına düşürdü. Balıq və balıq məhsulları hasilatında iri şirkətlərin, xüsusilə bir neçə səhmdar cəmiyyətin hakim mövqe tutması sənayenin bu sahəsində kapitalist istehsal münasibətlərinin yüksək inkişaf etdiyini göstərirdi.

**Şərabçılıq müəssisələri**, əsasən, üzümçülüyün daha geniş yayıldığı Yelizavetpol, Şuşa, Göyçay və Şamaxı qəzalarında cəmləşmişdi.

Təmizlənmiş spirt və konyak spirti istehsal edən zavodlar istisna olunmaqla, şərab emalı müəssisələrinin əksəriyyəti kiçik idi.

1913-cü ildə 1300-dən bir qədər çox şərab zavodu, o cümlədən 7 təmizlənmiş spirt və 7 konyak spirti çəkən zavod vardı.

Həmin dövrdə şərab istehsalı əsrin əvvəllərinə nisbətən üç dəfə çoxalmışdı. Təkcə çaxır istehsalı 4 milyon vedrədən artıq idi.

Birinci dünya müharibəsi ərəfəsində şərabçılıq müəssisələrində 5500-ə yaxın fəhlə işləyirdi.

Şərab məhsullarının çoxu Rusiyanın şəhərlərinə göndərilirdi.

Birinci dünya müharibəsi illərində şərabçılıq sənayesi sürətlə geriləməyə başladı. Hələ müharibənin ilk iki ili ərzində Bakı və Yelizavetpol quberniyalarında şərabçılıq müəssisələrinin 850-si (65 faizi) bağlandı, istehsal 8 dəfədən də çox aşağı düşdü.

Əsrin əvvəllərində Azərbaycanda 4 pivə zavodu vardı. Onların ən böyükləri Bakının Zığ və Forer qardaşlarının Yelenendorf kəndindəki zavodlar idi. Sonralar zavodların gücü və sayı artdı, pivə istehsalı 20 dəfəyədək çoxaldı. Pivə yalnız yerli tələbatı ödəyirdi. 1913-cü ildə pivə istehsalı ilə 340 nəfərə qədər adam məşğul olurdu. Onların 300 nəfəri Bakının payına düşürdü.

Azərbaycanda şərabçılığın inkişafı burada kapitalist istehsalının möhkəmlənməsi prosesi ilə yanaşı gedirdi. Hələ əsrin əvvəllərində şərabçılıqda bir neçə şirkət və bir səhmdar cəmiyyəti fəaliyyət göstərirdi.

1903-cü ildə şirkətlərdən birinin Ucardakı şərab-spirt zavodu Bakı quberniyasında hasil edilən spirtin 40 faizini vermişdi.

1904-cü ildə Şamaxı tacirləri «Ağrıyev qardaşları» şirkətinin Şamaxı qəzasından başqa, Kürdəmirdə, Ucarda, həmçinin Gürcüstanda, Səmərqənddə, Buxarada şərab zavodları vardı.

Ən iri şərabçılıq şirkəti «Forer qardaşları» ticarət evi idi. Yelizavetpol quberniyasında, əsasən, alman koloniyalarında müxtəlif növ istehsalatlarla məşğul olan Forer qardaşlarının Yelizavetpol şəhərində, Alabaşlıda, Sadıllıda və başqa yerlərdə müasir avadanlıqla təchiz edilmiş şərab-spirt zavodları, zirzəmiləri, çəllək zavodu, habelə 12 vaqon yerləşən xüsusi dəmir yol platforması vardı. Şirkətin 10-

dan çox şəhərdə ticarət şöbəsi açılmışdı. Onun istehsal etdiyi əla növ şərablar dünya sərgilərində onlarca qızıl medal almışdı.

Birinci dünya müharibəsi ərəfəsində 10 iri şirkət, xeyli xırda ticarət evi və iki səhmdar cəmiyyəti fəaliyyət göstərirdi. Müharibə illərində daha 3 səhmdar cəmiyyəti təsis edildi. Bu cəmiyyətlər, başlıca olaraq, neft və başqa sənaye sahələrində toplanmış kapitalın müdaxiləsi yolu ilə yaradılmışdı.

1916-cı ildə Almaniya ilə müharibə vəziyyətindən istifadə edərək, «Forer qardaşları» və «Hummel qardaşları» şirkətlərinin keçmiş mülkləri əsasında «Cənub şərabçılığı» və «Zaqafqaziya şərabçılığı» səhmdar cəmiyyətləri yaradıldı. Üçüncü səhmdar cəmiyyəti Təhməzov və onun şəriklərinə məxsus idi.

Hər üç cəmiyyətin idarə heyəti Yelizavetpolda yerləşirdi. Güclü maddi və maliyyə imkanlarına malik olub, banklar tərəfindən müdafiə edilən səhmdar cəmiyyətləri Azərbaycanın şərabçılıq sənayesində mühüm rol oynayırdılar.

**Tütün** əhalinin çox tələb etdiyi məmulat növü idi. XX əsrdə tütünün sənaye istehsalı xeyli genişləndi. Papiros hazırlanması sürətlə artdı.

Ən böyük tütün fabrikləri Bakıda yerləşirdi. Mirzəbekyans qardaşlarına məxsus fabrik nəinki Azərbaycanda, həmçinin bütün Zaqafqaziyada ən iri müəssisə idi. Burada 700 nəfərdən çox fəhlə işləyirdi. Fabrikdə orta hesabla ildə 20 min puda yaxın tütün emal edilir, 200 min ədəddən çox papiros hazırlanırdı. Qalan fabriklər nisbətən kiçik olub, hərəsində yüzədək, bəzən bir az artıq fəhlə işləyirdi. Şəhərdə papiros gilizi istehsal edən üç kiçik fabrik vardı. 1914-cü ilin sonunda Azərbaycanın qəzalarında 200 nəfərdən artıq fəhləsi olan 8 tənbəki (maxorka) fabriki vardı. Onların 3-ü Nuxada, 3-ü Şamaxıda, 1-i Yelizavetpolda, 1-i Ağdaşda idi. Şamaxıdakı iki fabrik nisbətən böyük olub, hərəsində 50-60 fəhlə işləyirdi.

Xam tütün yerli fabriklərdə emal edilir və doğranmış halda Rusiyaya göndərilirdi.

Birinci dünya müharibəsi illərində tütün məmulatına tələbatın artması ilə əlaqədar olaraq istehsal xeyli çoxaldı. 1916-cı ildə təkcə Şamaxının tütün fabrikləri 10 min puda yaxın məmulat hazırladı. Müharibə illərində tütün fabrikləri cəbhə üçün işlədiyinə görə əhalinin tütün məmulatı ilə təminatı xeyli pisləşdi, onun qiyməti bir neçə dəfə qalxdı.

XX əsrin əvvəllərində dünyanın bütün ölkələrində biyan kökünə böyük ehtiyac vardı. Rusiyada bu qiymətli bitkinin əsas vətəni Azərbaycan idi. İmperiyada biyan kökü emal edən 7 zavodun 4-ü burada yerləşirdi. Biyan kökündən alınmış cövhərdən əsasən yeyinti sənayesində əczaçılıqda, sarı, sarı-qonur rəngli parçaların istehsalında istifadə olunurdu.

1902-ci ildə Amerika və ingilis kapitalistləri Azərbaycanda biyan kökü emal edən bütün müəssisələri: Yelizavetpol, Kürdəmir, Ləki və Ucardakı zavodları öz əllərinə keçirərək şirkət yaratdılar. 1906-cı ildə həmin şirkət Azərbaycanda

biyan kökü toplanışı və emalını öz inhisarına alan Amerika-İngiltərə səhmdar cəmiyyətinə çevrildi.

Azərbaycanda orta illik yaş biyan kökü toplanışı 4,5 milyon puda bərabər idi. (Biyan quruyandan sonra öz çəkisinin yarıdan çoxunu itirir). Biyan kökü emal edən müəssisələrdə 250 nəfərdən artıq fəhlə çalışırdı.

Rusiyada biyan məmulatının çox az hissəsindən istifadə edilir, o, əsasən ixrac olunurdu. Birinci dünya müharibəsi illərində Azərbaycanda biyan kökü toplanışı xeyli azaldı.

Əsrin əvvəllərində çiyid yağı istehsalına başlandı.

Pambıq təmizlənərkən məhsulun $^{2}/_{3}$ hissəsi çiyidə çıxırdı.

1902-ci ildə Ləkidə ilk və yeganə çiyid yağı istehsal edən zavod işə düşdü. 1906-cı ildə Ləki yağ zavodu əsasında «Qafqaz yağ zavodu» səhmdar cəmiyyəti təsis edildi. Cəmiyyətin əsas kapitalı 250 min manat idi. Onun idarə heyəti Bakıda yerləşirdi.

Ləki yağ zavodunda pambıqtəmizləmə zavodlarında alınan çiyidin yalnız 25-30 faizi emal edilirdi. 1913-cü ildə zavodda 400 min pud çiyid emal edilərək, 50 min puddan çox yağ, 172 min pud jmıx alınmışdı.

Jmıxın, emal edilməmiş çiyidin böyük hissəsi Rusiyaya və xarici ölkələrə aparılırdı.

1915-ci ildə yeni təsis edilmiş «Pambıq və yağ səhmdar cəmiyyəti» «Qafqaz yağ zavodu»nun bütün səhmlərini alaraq, onu öz əlinə keçirdi.

Müharibə illərində hərbi sifarişlərlə əlaqədar olaraq zavodda istehsal xeyli çoxaldı.

Ümumiyyətlə, yüngül və yeyinti sənaye sahələrində kustar istehsalından fabrik-zavod istehsalına keçilməsi əmək məhsuldarlığının xeyli artmasına səbəb olmuşdu.

İstehsalın sürətlə təmərküzləşməsi nəticəsində, müharibəqabağı və müharibə illərində yüngül və yeyinti sənaye sahələrində hələ 2 minə yaxın fərdi müəssisənin fəaliyyət göstərdiyi bir vaxtda, 110 şirkət, ələlxüsus 30 səhmdar cəmiyyəti məhsul buraxılışında üstün mövqe tuturdu.

**Kustar istehsalı:** Sənayenin inkişafı kustar istehsalına güclü zərbə vurdu. Bununla belə, kustar sənət növləri hələ özlərinin əvvəlki mövqelərini az-çox saxlayırdı. Bunlardan biri xalçaçılıq idi.

XX əsrin əvvəllərində Zaqafqaziyada xalça istehsalının 3/4 hissəsi Azərbaycanda cəmləşmişdi. Burada toxunan xalça və xalılar çoxdan dünya şöhrəti qazanmışdı.

Xalçaçılığın əsas mərkəzi Şuşa, Quba, Yelizavetpol, Bakı, Cavanşir qəzaları idi. Qəzaların kəndlərində bir-birindən yaraşıqlı yüksək keyfiyyətli xalça və xalılar toxunurdu. Lənkəran qəzası kilim istehsalında məşhur idi.

Xalça toxumaq tamamilə qadın sənəti olub, bütün işlər əllə görülürdü.

Xalçaçılıq bəzi qəzalarda çox geniş yayılmışdı. Məsələn, 1912-ci ildə Quba qəzasında olan 111 kənddən 97-sində 40 min nəfər xalça toxumaqla məşğul idi. Quba xalçaları xarici ölkələrdə təşkil edilən sərgilərdə dəfələrlə nümayiş etdirilmişdi. Hətta, 1913-cü ildə Berlin sərgisinə xalçalarla bərabər tamaşaçıları xalçatoxuma sənəti ilə tanış etmək üçün Qubadan iki xalçaçı qadın da göndərilmişdi.

Xalçaçılıqda istehsalın yüzlərlə kənddə minlərlə evə səpələnməsi xalça sənayesinin təmərküzləşməsinə, burada kapitalist əsaslarının qərarlaşmasına mane olurdu.

Azərbaycanda xalçaçılıqla 250-300 min adam məşğul idi. Onların təqribən 40 min nəfərini peşəkar toxucular təşkil edirdi.

Kustar istehsalında misgərlik mühüm rol oynayırdı. 1913-cü ildə mis qablar istehsalı ilə 2 mindən artıq adam məşğul olurdu. Onlardan 600 nəfərdən çoxu usta, qalanları isə usta əlaltısı idi. Miskərlik əsasən Lahıcda cəmləşmişdi.

**İpək parça emalı**, az da olsa, davam etdirilirdi. Nuxa, Şuşa, Yelizavetpol, Ordubad, Şamaxı şəhərlərində və bəzi kəndlərdə, xüsusən Basqalda kustar yolla ipəktoxuma geniş yayılmışdı.

1912-1913-cu illərdə Basqal kəndində 1400 ipəktoxuma dəzgahı olan 900 sahibkar sənətkar vardı. Onlar 500 muzdlu ustanın və 203 usta şagirdinin köməyi ilə ildə 1,8 milyon ədəd kələğayı toxuyurdular.

Həmin dövrdə Yelizavetpolda olan 15 kustar ipək parça emalı müəssisəsində 200 dəzgah vardı. Burada 500 usta və usta şagirdi çalışırdı.

Yundan müxtəlif məmulatlar hazırlanırdı. Hasil edilən yunun yarıdan çoxu yerli kustar sənətkarlar tərəfindən işlədilirdi. Şuşada və Qazaxda toxunan mahud parça fabrik məmulatından heç də geri qalmırdı.

Azərbaycanda boyaqçılıq, dulusçuluq, keçəçilik, zərgərlik, xəzçilik, dərzilik, papaqçılıq və s. onlarca başqa kustar istehsal sahəsi vardı. Təkcə Bakıda yüzdən çox dülgərlik, iyirmidən çox çəlləkqayırma emalatxanası işləyirdi.

1913-cü ildə Azərbaycanın kustar sənayesində 150-200 min adam çalışırdı. Onlardan 64 min nəfərə qədəri sahibkar sənətkar, qalanları isə muzdlu fəhlə idi.

## § 2. KƏND TƏSƏRRÜFATI

**Aqrar münasibətlər:** XX əsrin əvvəllərində Azərbaycan əhalisinin 80 faizi kənddə yaşayırdı.

Bütün torpaqların $^{3}/_{4}$ hissəsindən çoxu xəzinənin (dövlətin) ixtiyarında idi. Kənd əhalisinin 70 faizini xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri təşkil edirdi. 1912-ci ildə onların istifadəsində 2 milyon desyatindən bir qədər artıq torpaq sahəsi vardı.

Dövlət kəndliləri xəzinə torpaqlarından icmalıqla istifadə edirdilər. Kəndli şəxsən azad idi və özünün pay torpağına görə dövlətə töycü verirdi. Torpaq onun həmişəlik istifadəsində idi. O öz torpağını icarəyə verə bilər, onu ailə üzvləri arasında bölüşdürə bilərdi.

İcmaçı kəndlilər arasında təbəqələşmə getdikcə qüvvətlənirdi. İcma torpaqlarının çox hissəsini əlinə keçirmiş qolçomaqlar və varlı kəndlilər pay torpaqlarının vaxtaşırı bölüşdürülməsi qaydasını daim pozurdular.

Kəndlilərin ikinci böyük qrupunu bəy-mülkədar torpaqlarında yaşayan sahibkar kəndliləri təşkil edirdi. Onlar şəxsən azad olub, «yarımmükəlləfiyyətli», yəni mülkədardan iqtisadi cəhətdən asılı vəziyyətdə idilər. Sahibkar kəndliləri, əsasən, Yelizavetpol quberniyasında yaşayırdılar.

Kəndlilərin cüzi hissəsi dini idarələrə məxsus torpaqlarda yaşayırdılar. Özünün az miqdarda şəxsi torpağı olan mülkiyyətçi kəndlilər də vardı. Lakin bunlar heç bir faiz də təşkil etmirdilər.

Azərbaycanın dağ və dağətəyi yerlərində əsasən maldarlıqla məşğul olan yarımköçərilərin tək-tək təsərrüfatları hələ qalırdı. Onların oturaq həyat tərzinə keçmələri getdikcə güclənirdi. 1916-cı ildə cəmi 29 min yarımköçəri kəndli təsərrüfatı qalmışdı.

1901-ci il yanvarın 1-dən qüvvəyə minən yeni torpaq qanunu ilə bütün kateqoriyalar üzrə kəndlilərin dövlət qarşısında mükəlləfiyyətləri dəqiq müəyyənləşdirildi.

Həmin qanuna əsasən, dövlət kəndliləri özlərinin həmişəlik istifadəsində olan pay torpaqlarına görə xəzinəyə həyətbaşı (tüstü) adlanan vergi əvəzinə, gəlirin 10-12 faizini təşkil edən dövlət töycüsü, istifadə etdiyi başqa torpaqlara görə torpaq vergisi, bütün torpaqlara şamil edilən zemski rüsumu (vergisi) ödəməli idilər.

Zemski rüsumu əhalinin təhsil, səhiyyə, baytarlıq və s. yerli xərclərini ödəmək məqsədilə alınırdı. Lakin o, əsasən, polisin saxlanmasına sərf edilirdi. Sahibkar kəndliləri öz ağalarının xeyrinə bir sıra mükəlləfiyyətlər, o cümlədən, torpaqdan istifadəyə görə məhsulun $^{1}/_{10}$ hissəsindən yarısına qədərini təşkil edən malcəhət, yaxud bəhrə, qışlaqda saxlanan heyvana görə ot pulu, alaçıq tikməyə görə tüstü pulu, bağ və tərəvəz yetişdirməyə görə bağ pulu və s. ödəyirdilər.

Onlar dövlətə də bir sıra vergilər verirdilər. Yeni qanuna əsasən, həmin vergilər iki qrupda cəmləşdirilirdi: 1) sahibkar kəndlilərin, həmçinin bəy və

mülkədarların bilavasitə istifadəsində olan torpaqlara görə torpaq vergisi, 2) bütün torpaqlara şamil edilən zemski rüsumu (vergisi).

Azərbaycanlı kişilər əsgərliyə çağırılmadıqlarına görə, dövlətə hərbi vergi də verirdilər.

1912-ci ildə Azərbaycanda torpaqların 25 faizini-1,2 milyon desyatinə qədərini xüsusi sahibkar torpaqları təşkil edirdi. Bunun 60 faizi bilavasitə bəy, xan və mülkədarlara məxsus idi. Təkcə min desyatindən artıq əkin sahəsi olan yüzdən artıq iri torpaq sahibi vardı.

Sahibkar kəndlilərinə adambaşına orta hesabla 1 desyatindən bir qədər artıq torpaq sahəsi düşürdü. Buraya, həmçinin, əkinə yararsız yerlər də daxil idi. Ayrılıqda götürdükdə, bəzi qəzalarda adambaşına daha az, məsələn, Zəngəzur, Lənkəran qəzalarında 0,5 desyatin torpaq sahəsi düşürdü. On minlərlə torpaqsız kəndli vardı.

Torpaqla nisbətən yaxşı təmin edilmiş dövlət kəndlilərinin də vəziyyəti o qədər yaxşı deyildi. Dövlət kəndlilərinə adambaşına orta hesabla 2 desyatindən bir qədər artıq əkinə yararlı və yararsız pay torpağı düşürdü. Lakin təbəqələşmənin son dərəcə güclənməsi nəticəsində dövlət kəndlilərinin yarısını—təqribən 500 min nəfərini 0,5 desyatindən 2 desyatinədək pay torpağı olan aztorpaqlı kəndli kütləsi təşkil edirdi. Minlərlə kəndli ailəsi bütünlüklə torpaqsız idi.

Dövlət kəndlilərinin öz istehsal vasitələrindən ayrı düşməsi halları getdikcə artırdı. Yoxsul kəndlilərin bir qismi özünün əkin sahəsindən və bağından istifadə hüququnu başqasına satır, digər qismi qoşqu heyvanı olmadığı üçün özünün pay torpağını icarəyə verirdi. Hətta, qanunun ziddinə olaraq, müəyyən fırıldaqlarla kəndlinin pay torpağını həmişəlik öz əlinə keçirən varlılara da təsadüf edilirdi.

Aztorpaqlılığın və torpaqsızlığın səbəblərindən biri çarizmin öz köçürmə siyasətini inadla davam etdirməsi idi. Çar hökuməti Mərkəzi Rusiyadan kəndliləri milli ucqarlara köçürməklə yerlərdə özünə dayaq yaratmaq istəyirdi.

1912-ci ilə qədər Azərbaycanın iki quberniyasında Rusiyadan köçürülmüş rusların 136 yaşayış məntəqəsi yaradılmışdı. 230 min desyatinə yaxın dövlət torpaq sahəsi 40 mindən artıq pay şəklində gəlmə rus ailələrinə verilmişdi. Hər təsərrüfata orta hesabla 6 desyatinə yaxın əkin sahəsi düşürdü ki, bu, yerli kəndli pay torpaqlarının orta həcmindən xeyli çox idi.

Çar hökuməti İranla sərhəd ərazilərinin ruslarla məskunlaşdırılmasına xüsusi əhəmiyyət verirdi. Bakı qubernatoruna bildirilmişdi ki, «İranla sərhəd olan düzdə müsəlman əhalisinin sakin olmasına siyasi nöqteyi-nəzərdən əsla yol verməк olmaz və siyasi mülahizələrə görə bu düzdə rus əhalisi yerləşdirilməlidir».

XX əsrin ilk illərində Rusiyadan köçürülən ruslar tərəfindən Muğanda—Yermolovo, Kozlyakova, Lənkəran qəzasında—Alekseyevka, Pokrovka və başqa kəndlər, Quba qəzasında—Şirvanskoye, Cavad qəzasında—Nikolayevka,

Aleksandrovka, Mixaylovka, Şamaxı qəzasında adları hələ rəsmiləşdirilməmiş daha üç kənd salındı.

Xəzinənin ixtiyarında milyonlarla desyatin ehtiyat torpaq sahəsi olmasına baxmayaraq, köçürülənlər, əsasən, minlərlə yerli kəndçi ailəsinin öz ata-baba yurdlarından sıxışdırılması hesabına tmin edilirdilər. Məsələn, I Təklə, II Təklə, Çəmənli, Xalac və bir neçə qonşu kənddə 2 mindən artıq dövlət kəndlisinin torpağı əlindən alınıb gəlmə ruslara verilmişdi.

Kəndlilərin vəziyyətinin durmadan pisləşməsi, üstəlik, çar məmurlarının özbaşınalığının artması kənd əhalisinin böyük narazılığına səbəb oldu. Ələlxüsus, birinci rus inqilabı illərində bir sıra ciddi kəndli ixtişaşları baş verdi.

Kənddə yaranmış böhranlı vəziyyət hökumət dairələrini təşvişə saldı. Qafqaz canişini Vorontsov-Daşkov çara yazdığı məktubunda çıxış yolunu yubanmadan kəndli islahatı keçirilməsində görürdü.

Dövlət dumasında uzun müzakirələrdən sonra, Zaqafqaziyada aqrar islahatı keçirmək qərara alındı. Bu islahat icmaları dağıtmaq və qolçomaqların ictimai-iqtisadi mövqelərini daha da qüvvətləndirmək yolu ilə kənddə çarizmə güclü dayaq yaratmalı idi.

**1912-ci il dekabrın 20-də**, Zaqafqaziya quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında qanun verildi. Kəndlilər, özlərinin pay torpaqları da daxil olmaqla, onlar üçün ayrılmış torpaq sahələrini satın almalı idilər. Mülkədarlar, bəylər torpaq üçün ödənc (vıkup) pulunu dövlət xəzinəsindən almalı, xəzinə isə həmin məbləği müəyyən müddət – 28-56 il ərzində kəndlilərdən toplamalı idi. Bakı və Yelizavetpol quberniyalarında ümumi qiyməti 10,3 milyon manat olan pay torpağı üçün kəndlilər xəzinəyə faizi ilə birlikdə 21 milyon manat pul ödəyəcəkdilər.

1913-cü il yanvarın 1-dən etibarən kəndlilər bəylərin və mülkədarların xeyrinə mükəlləfiyyət daşımaqdan bütünlüklə azad edildilər. Onlar özünün şəxsi torpaq sahəsi olan mülkiyyətçi kəndliyə çevrildilər.

1913-cü il iyulun 7-də Zaqatala dairəsində də yeni aqrar qanunu tətbiq edildi. Bu qanun əslində 1912-ci il dekabr qanununun davamı idi. Kəndlilər 20 il ərzində xəzinəyə müəyyən edilmiş məbləğdə ödənc pulu verərək, bəy və keşkəl sahiblərinin asılılığından azad olurdular.

1912—1913-cü illərin aqrar islahatları torpağı kəndlilərin mülkiyyətinə verməklə, onun bir əldən başqa ələ keçməsini asanlaşdırdı. Kəndlilərin təbəqələşməsi son dərəcə dərinləşdi. Onları kəndə bağlayan torpağın alqı-satqı vasitəsinə çevrilməsi kəndlilərin kəndlilikdən çıxması və proletarlaşması prosesini daha da sürətləndirdi. Kənddə qolçomaqların və varlı kəndlilərin mövqeləri olduqca möhkəmləndi.

Aqrar islahatları kənddə feodal münasibətlərinə son qoymadı. İri bəy-mülkədar latifundiyaları ilə yanaşı, icarədar kəndlilərin külli miqdarda xırda

təsərrüfatları qalmaqda idi. Ona görə də, Azərbaycanda aqrar münasibətləri yarımfeodal xarakteri daşıyırdı.

Yeni aqrar qanunları kəndlilərin böyük əksəriyyətini təşkil edən dövlət kəndlilərinə aid deyildi.

1917-ci ildə mülkiyyətçi kəndlilərin əlində 620 min desyatin torpaq sahəsi vardı. Hər kəndli ailəsinə orta hesabla 2,3 desyatin torpaq sahəsi düşürdü. Lakin torpaqlar paylanarkən 1912—1913-cü illərin aqrar qanunlarına qədərki mərz hüdudları əsas götürüldüyündən kəndlilərin torpaq sahələrinin həcmi yenə də son dərəcə qeyri-bərabər olaraq qalırdı. Kəndlilərin bir parasının 10 desyatinədək və daha artıq torpağı olduğu halda, çoxunun lap az, hətta heç torpaq sahəsi yox idi. Ona görə də torpaqsız və aztorpaqlı kəndlilər aqrar qanunları qəbul ediləndən sonra da gedib mülkədarların, qolçomaqların yanında muzdla işləmək, yaxud onlardan ağır şərtlərlə torpaq sahəsi icarəyə götürmək məcburiyyətində qaldılar.

**Kənd təsərrüfatı məhsulları istehsalı:** Azərbaycanda taxılçılıq kənd təsərrüfatının əsas sahəsi idi. Bakı quberniyasının Lənkəran qəzası və Yelizavetpol quberniyasının Yelizavetpol, Ərəş, Nuxa, Şuşa qəzaları əsas taxılçılıq rayonları idi. Azərbaycanda çəltiyin yarıya qədəri Lənkəran qəzasında becərilirdi.

XX əsrin əvvəllərində taxıl istehsalı azalmağa başladı. Bu, hər şeydən əvvəl, daha sərfəli pambıq əkini sahələrinin genişləndirilməsi ilə əlaqədar idi.

Təkcə 1913-cu ildə taxıl məhsulları istehsalı 1900-cü il səviyyəsinə çatmışdı. Bu vaxt 41 milyon puda yaxın buğda, 12 milyon puda yaxın arpa, 5,5 milyon pud çəltik məhsulu toplanmışdı.

Taxıl məhsulları əsasən Azərbaycanın daxili ehtiyaclarını ödəyirdi. Qonşu ölkələrlə də taxıl alış-verişi edilirdi.

Birinci dünya müharibəsi illərində taxılçılıq təsərrüfatları xeyli gerilədi.

Əkinçilik texnikası çox aşağı idi. Elə kəndli təsərrüfatları vardı ki, onların nəinki kustar kotanı, heç adi xışı da yox idi. Yerli ustaların qayırdıqları (kustar) kotanlar çox ağır olub, iş üçün az yararlı idi. Bəzən kotana 5—6 cüt kəl və ya öküz qoşmaq lazım gəlirdi.

XX əsrdə Azərbaycana zavodda qayrılmış daha təkmil kənd təsərrüfatı alətləri gətirilməsi xeyli artdı. Hər il, orta hesabla, ümumi çəkisi 25 min pud olan maşın və alətlər gətirilirdi.

1910-cu ildə istifadədə 76 min xış və 25 min kustar kotanla yanaşı, 30 min gətirilmə dəmir kotan vardı. Orta hesabla hər üç kəndli təsərrüfatına yalnız bir ədəd şumlama vasitəsi—xış, kustar kotan və ya dəmir kotan düşürdü.

Gətirilmə kotanlardan əsasən alman və rus kolonistlərinin, qolçomaqların, həmçinin bəzi mülkədarların təsərrüfatlarında istifadə olunurdu. Onları almağa kəndlilərin gücü çatmırdı. Toxumsəpən, dənsovuran, dərzbağlayan, taxıldöyən maşınlardan isə yalnız iri fermer və mülkədar təsərrüfatlarında istifadə olunurdu. 1910-cu ildən sonra çox iri təsərrüfatlarda ilk traktorlar görünməyə başladı.

Kənd təsərrüfatına ziyanvericilər böyük tələfat verirdi. Məsələn, 1910-cu ildə çəyirtkə dəstələri hücum edərək, dörd qəzada taxıl və pambıq əkinlərini tamam məhv etdi. Ziyanvericilərə qarşı zəif mübarizə aparılırdı.

**Maldarlıq** kənd əhalisinin mühüm məşğuliyyət növü idi.

XX əsrin əvvəllərində Azərbaycanda 3—5 milyon baş arasında mal-qara olmuşdur. Mal-qaranın sayındakı bu cür kəskin dəyişiklik, əsasən, tez-tez baş verən yoluxucu xəstəliklərlə əlaqədar idi. Məsələn, bir yoluxucu xəstəlik zamanı təkcə Qazax və Şuşa qəzalarında 75 minə yaxın hələ qoyun tələf olmuşdu.

1913-cü ildə Azərbaycanda 1,2 milyon baş qaramal, 436 min başdan çox camış, 2,7 milyon baş qoyun, 200 min başdan çox keçi, 177 min başa yaxın at vardı.

Yoxsul kəndlilərin çoxunun inəyi, hətta heç qoşqu heyvanı da yox idi. Orta hesabla iki kəndli təsərrüfatına bir qoşqu heyvanı, hər 10—15 kəndli ailəsinə bir inək düşürdü.

Hər il, orta hesabla, istehsal edilən 500 min pud yunun yarısı və 500 min ədəd müxtəlif heyvan dərisi Rusiyaya, həmçinin xarici ölkələrə göndərilirdi.

Birinci dünya müharibəsi illərində mal-qaranın və atların sayı yarıbayarı azaldı. Onların bir hissəsi ordunun ehtiyacları üçün müsadirə edildi.

Azərbaycanda ipəkçiliklə lap qədimdən məşğul olurdular. İpəkçilik, əsasən, Yelizavetpol quberniyasında, Bakı quberniyasının Göyçay, Lənkəran, Quba qəzalarında, Zaqatala dairəsində, həmçinin Naxçıvan qəzasında yayılmışdı.

Rusiyada toxuculuq sənayesinin inkişafı ilə əlaqədar olaraq xam ipəyə tələbat xeyli artdı. Bu, Azərbaycanda baramaçılığın inkişafına səbəb oldu. 1914-cü ildə, keçən əsrin axırı ilə müqayisə etdikdə, baramaçılıqla məşğul olan kəndlərin sayı təqribən iki dəfə çoxalaraq, 2200-ü ötdü. Həmin dövrdə çəkil plantasiyalarının ümumi sahəsi də iki dəfəyə qədər genişlənərək, 60 min desyatinə çatdı.

Barama bütünlüklə satlıq məhsul (əmtəə) idi. Ondan yerli ipək sənayesində istifadə olunur və Rusiyanın ipəksarıma müəssisələrinə, həmçinin xarici ölkələrə göndərilirdi.

Barama istehsalı ilbəil artaraq, 1914-cü ildə 260 min puda çatdı. Birinci dünya müharibəsi illərində barama istehsalı iki dəfə azaldı.

**Pambıqçılıq** sürətlə inkişaf edirdi. Pambıq, başlıca olaraq, Naxçıvan, Yelizavetpol, Cavanşir, Şuşa, Göyçay, Cavad qəzalarında əkilirdi.

1913-cü ildə, əsrin əvvəlində olduğuna nisbətən 5,5 dəfə çox—105 min desyatin sahədə pambıq əkilmiş və 5 milyon puddan artıq məhsul götürülmüşdür.

Pambıq əkmək xeyli zəhmət tələb etsə də, çox sərfəli idi. O zaman xam pambığın pudu buğdanın pudundan 12 dəfə, arpanın pudundan 17 dəfə, çəltiyin pudundan 7 dəfə baha olub, 77 manata satılırdı. Pambıq bütünlüklə əmtəə məhsulu idi.

Əkinçilikdə, xüsusən pambıqçılıqda suvuranlardan (vodokaçkalardan) istifadə olunurdu. İlk suvuran 1901-ci ildə Cavad qəzasının Petropavlovka kəndi

yaxınlığında Kür çayı üzərində quruldu. Sonralar Kür və Araz çayları sahilində 150-dək suvuran meydana gəldi. Neftlə işləyən bu maşınların bəziləri hətta 1000 desyatinə qədər torpaq sahəsinə su çıxarırdı. Toplanan məhsulun, bir qayda olaraq 1/3 hissəsi suvuran maşın sahibinə çatırdı.

Rusiya sənayesinin pambığa olan tələbatı sürətlə artırdı. Hər il Amerikadan milyonlarla pud pambıq mahlıcı alınırdı. Ona görə çar hökuməti Azərbaycanda pambıqçılığı inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirdi.

1907—1911-ci illərdə Muğan və Mil düzlərində ümumi uzunluğu 500 km-ə çatan magistral və qol kanalları çəkildi. 50 min desyatin torpaq sahəsinə su çıxarıldı. Pambıq əkini sahələri genişləndi. Həmin yerlərdə Rusiyadan köçürülən rusların yeni məskənləri meydana gəldi.

Pambıqçılıq texnikası ləng də olsa, irəliləyirdi. Bir sıra iri təsərrüfatlarda toxumsəpən maşınlardan, kultivatorlardan, dəmir dırmıxlardan, hətta traktorlardan istifadə olunmağa başladı. Cərgəli əkinə keçid sürətləndi.

Birinci dünya müharibəsi illərində pambıq əkini sahələri üç dəfəyə yaxın azalaraq, 1917-ci ildə 37 min desyatinə endi.

Qəzaların çoxunda tütünçülüklə məşğul olurdular. Lakin tütünçülüyün əsas mərkəzi Zaqatala dairəsi, qismən Nuxa qəzası idi. Yüksək məhsul verən əla növ Trabzon və Samsun tütünü kimi sarı tütün növləri əsasən Zaqatala dairəsində yetişdirilirdi. Digər qəzalarda başlıca olaraq, yerli tütün—tənbəki (maxorka) əkilirdi ki, bu da elə istehsalçıların özləri tərəfindən istifadə olunurdu.

Tütünçülük çox gəlirli sahə idi. Onun hər desyatini 130—200 manat xalis qazanc gətirirdi. Tütünün pudu 7—10, hətta 12 manata satılırdı, tənbəki isə bundan iki dəfə ucuz idi.

XX əsrin əvvəllərindən sənaye tütünçülüyü inkişaf etməyə başladı. Qiymətli tütün növlərinə tələbat artdı. Zaqatala ilə yanaşı, digər qəzalarda da sarı tütün növləri əkininə diqqət artırıldı. Məsələn, 1910-cu ildə Yelizavetpol qubeniyasında 1700 puddan çox Trabzon və Samsun növlü tütün yarpağı yığılmışdı ki, bu da quberniyanıi tənbəki-tütün məhsulunun 11 faizini təşkil edirdi.

Başqa əkin növlərindən fərqli olaraq, tütün sahələri, adətən, çox kiçik olurdu. Tütün əkini sahələrinin 2/3 hissəsindən çoxunu sahəsi 1 desyatindən az olan plantasiyalar təşkil edirdi.

Azərbaycanda xam tütün yarpağının orta illik hasilatı 30 min puda bərabər idi. Onun çox hissəsi satışa gedirdi. Müharibə illərində tütün əkini sahələri xeyli genişləndi.

**Bağçılıq və üzümçülük** geniş yayılmışdı. Əlverişli təbii və iqlim şəraiti, torpaqların münbitliyi Azərbaycanın, demək olar, hər yerində bağ-bostan becərməyə imkan verirdi.

Meyvə bağlarının ümumi sahəsi 50 min desyatinə çatırdı. Təqribən min kənddə meyvə bağı vardı.

Bağların yarıdan çoxu—27 min desyatini Yelizavetpol quberniyasında idi. Quberniyada olan meyvə bağlarının 2/3 hissəsi—18 min desyatini təkcə Nuxa və Ərəş qəzalarının payına düşürdü. Bu qəzalarda, əsasən, qoz, fındıq, şabalıd, qızıləhmədi alma, Yelizavetpol qəzasında qaraçinar alması, məşhur «Təbriz» süfrə üzümü və başqa meyvələr yetişdirilirdi.

Bakı quberniyasında 19 min desyatin meyvə bağı sahəsi vardı. Başlıca meyvəçilik zonası olan Quba qəzasında müxtəlif sort alma və armud yetişdirilirdi.

Zaqatala özünün fındığı ilə məşhur idi. Burada 1500 desyatin sahədə, yəni bütün bağ sahəsinin 2/3 hissəsində fındıq ağacı əkilmişdi.

Naxçıvan qəzasında Ordubad mahalı meyvəçilikdə fərqlənirdi. Burada yüksək keyfiyyətli ərik növləri, qoz və başqa meyvələr yetişdirilirdi.

Azərbaycanda bostançılıq geniş yayılmışdı. Hər il Ucar və Ləki dəmir yol stansiyalarından 200 min puddan çox qarpız-yemiş yola salınırdı.

Bütün qəzalarda üzüm yetişdirilirdi. Lakin əsas üzümçülük rayonları Yelizavetpol, Şuşa, Göyçay, Şamaxı qəzaları idi. Azərbaycanda üzümlüklərin 2/3 hissəsi bu qəzaların payına düşürdü.

1913-cü ildə Zaqatala dairəsi və Naxçıvan qəzası da daxil olmaqla, Azərbaycanda 28,5 min desyatin üzümlükdən 6 milyon puddan artıq məhsul yığılıb emal müəssisələrinə təhvil verilmişdi. Bu, əsrin əvvəlində olduğundan iki dəfə çox idi.

Üzümlüklərin böyük əksəriyyətini kiçik üzüm bağları təşkil edirdi. Hər üzüm bağına orta hesabla 0,5 desyatin torpaq sahəsi düşürdü.

Üzümlüklərin çoxu iri şirkətlərə məxsus idi. Üzüm məhsulunun 3/4 hissəsini bu şirkətlər verirdi. Məsələn, birinci dünya müharibəsi ərəfəsində Yelizavetpol quberniyasında üzümlüklərin 10 faizi, yəni 1200 desyatini üç iri şirkətə məxsus idi.

Müharibə illərində üzümlüklərin sahəsi xeyli azaldı.

Kənd əhalisi tərəvəzçiliklə, arıçılıqla, biyan kökü çıxarmaqla, meşələrdən yabanı meyvə və giləmeyvə toplamaqla, Abşeronda, həmçinin, zəfəran becərməklə məşğul olurdu.

Ümumiyyətlə, Azərbaycanda kənd təsərrüfatı ləng inkişaf edirdi. Bunun başlıca səbəbi yerli əkinçiliyin texniki və aqrotexniki cəhətdən geri qalması, kəndlilərin bəzi təsərrüfat səriştəsizliyi idi.

Çar hökuməti Azərbaycanda yalnız Rusiya sənayesinin ehtiyac hiss etdiyi təsərrüfat sahələrinin inkişafına az-çox fikir verirdi.

Baramaçılığı, pambıqçılığı, habelə heyvandarlığı yaxşılaşdırmaq üçün bəzi təşəbbüslər edilirdi.

1902-ci ildə ipəkçilərin Yelizavetpolda çağırılan qurultayında baramaçılığın sirlərinə bələd olmaq, çəkil plantasiyalarına aqrotexniki qaydada qulluq etmək üçün kənd müəllimlərinin xüsusi kurslarını açmaq haqqında qərar qəbul olundu. Kursu bitirən müəllimlər özlərinin dərs dediyi məktəbin nəzdində

təcrübə sahələri təşkil edib, baramaçılığı yerli kəndlilərə öyrətməli idilər. 25 kənddə və bəzi iri təsərrüfatlarda da bu cür təcrübə sahələri təşkil edildi.

Həmin il Yelizavetpolda kənd təsərrüfatı mütəxəssislərinin qurultayında pambıqçılığı inkişaf etdirmək üçün yollar müəyyənləşdirildi. Göyçay qəzasında pambıqçılıqdan nümunə sahəsi yaradıldı.

1904-cü ildə Ağdaşda Qafqaz pambıqçılarının birinci quberniyalararası qurultayı çağırıldı.

Heyvandarlığın inkişafına, xüsusən, daha məhsuldar mal-qara cinslərinin yetişdirilməsinə diqqət artırıldı. Alman və rus kolonistlərinin təsərrüfatlarında olan çoxsüdverən qaramalın, merinos cinsli qoyunların və məşhur yerli heyvan cinslərinin bazasında təcrübə stansiyaları, atçılıq zavodları yaradıldı.

1901-ci ildə baytarlıq işçilərinin Yelizavetpolda müşavirəsi keçirildi. Heyvanlar arasında yoluxucu xəstəliklərin, xüsusən İranla sərhəd rayonlarında yayılmış taun xəstəliyinin qarşısını almaq üçün taun məntəqələri, baytar stansiyaları təşkil edildi.

**Kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı**: XIX əsrin axırı-XX əsrin əvvəllərində bir sıra təbii iqtisadi-sosial proseslər - sənayenin inkişafı, şəhər əhalisinin artması, Ümumrusiya və daxili bazarın genişlənməsi kəndli təsərrüfatlarında əmtəə (satlıq məhsul) istehsalının çoxalmasına səbəb oldu.

Kəndli təsərrüfatlarının əmtəə istehsal etməsi kapitalist təsərrüfatçılığına xas əlamət olsa da, bu hələ kənddə kapitalist istehsal münasibətlərinə keçildiyini göstərmirdi. Kənd təsərrüfatında kapitalizmin başlıca əlaməti—istehsalın muzdlu əməyə əsaslanmasıdır.

XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatının bütün sahələrində muzdlu əməkdən bu və ya digər dərəcədə istifadə edilirdi.

Qolçomaq və varlı kəndli təsərrüfatlarında muzdlu əməkdən geniş istifadə edilirdi.

Pambıqçılıq təsərrüfatları tamamilə muzdlu əməyə əsaslanırdı.

Bu dövrdə gəlmə ruslar arasında əsasən pambıqçılıqla məşğul olan çoxlu kəndli-fermer təsərrüfatı meydana gəlmişdi. Məsələn, 1912-ci ildə Muğanın Novo-Nikolayevka kəndində 2 min desyatin suvarılan torpağın 1/3 hissəsində təkcə pambıq əkilmişdi. Hər kəndli təsərrüfatına orta hesabla 4 desyatinə qədər pambıq əkini düşürdü. Bəzi qolçomaqların onlarca desyatin təkcə pambıq əkini sahəsi vardı.

1917-ci ildə qolçomaq və varlı kəndli təsərrüfatlarının sayı, əsrin əvvəli ilə müqayisə etdikdə, təqribən üç dəfə artaraq 29 mini ötmüşdü. Bütün kəndli təsərrüfatlarının cəmi 8,6 faizini təşkil edən bu təsərrüfatların payına ümumi əmtəə istehsalının 1/3 hissəsi düşürdü.

Muzdlu əməkdən bəzi bəy-mülkədar təsərrüfatlarında və çoxlu zəhmət tələb edən bitkilərin becərilməsində də istifadə olunurdu.

Yüz və minlərlə desyatin torpaq sahəsi olan bəy və mülkədarlar, adətən, özləri təsərrüfatla məşğul olmayıb, əkin yerlərini icarəyə verməyi üstün tuturdular.

XX əsrin əvvəllərində Rusiya bazarının pambıq, üzüm və başqa cənub bitkilərinə tələbatının durmadan artması iri mülkədarları əmtəə istehsalını genişləndirməyə sövq etdi. Sahəsi bəzən bir neçə yüz desyatin olan iri pambıq plantasiyaları meydana gəldi.

1911 - 1912-ci illərdə Böyükağa Şamxorskinin 6-7 min desyatin, Lütfəli bəy Zülqədərovun 2 min desyatin pambıq plantasiyaları vardı və s.

Muzdlu işçi qüvvəsindən istifadə edib yüzlərlə, hətta minlərlə desyatin sahədə taxıl bitkiləri əkdirən bəylərə də təsadüf olunurdu. Məsələn, Xanbəyovların «Xanqərvənd» mülkündə torpağın 2900 desyatinini muzdlu əməklə becərilən taxıl əkini sahələri təşkil edirdi.

Azərbaycanda bəy-mülkədar latifundiyalarında muzdlu fəhlə qüvvəsi ilə becərilən iri plantasiyaların meydana gəlməsi burada kapitalist əsaslarına keçildiyini göstərsə də, təsərrüfatçılığın icarədarlıq kimi köhnə, yarımfeodal sistemi özünün üstün mövqeyini hələ də saxlayırdı.

Sənayeçilərin, rus məmurlarının, zadəganların bütünlüklə muzdlu əməyə əsaslanan geniş kapitalist təsərrüfatları meydana gəlmişdi.

1912-ci ildə H. Z. Tağıyevin 26 min desyatin sahəsi olan «Yevlax mülkü»ndə müxtəlif kənd təsərrüfatı bitkiləri ilə yanaşı, 1000 desyatindən artıq sahədə pambıq əkilmişdi. Onun Quba qəzasının Qusarçay sahəsində də əkinçilik, bağçılıq, üzümçülük, maldarlıq, atçılıq, quşçuluqla məşğul olan iri təsərrüfatları vardı. Qusarçay mülkündə fəhlələrin yaşamaları üçün ikimərtəbəli bina da tikilmişdi.

Əsrin əvvəllərində iki rus kapitalisti tərəfindən yerli bəylərdən alınmış 2 min desyatindən artıq sahəsi olan «Qaraçala» mülkündə 1910-cu ildə 1600 desyatin sahədə pambıq, həmçinin taxıl əkilmişdi.

Yelizavetpol qəzasında 10 min desyatin sahəsi olan «Xanqərvənd» mülkünü Usmiyevin varislərindən satın almış bir rus kapitalisti 1912-ci ildə 600 desyatin sahədə təkcə pambıq əkdirdi. 1913-cü ildə «Qafqaz pambığı» səhmdar cəmiyyəti Usmiyevlərin Şuşa qəzasındakı 6,4 min desyatin torpaq mülkünü satın alıb, onun 2,7 min desyatinini pambıq plantasiyasına çevirdi. Knyaz L. S. Qolitsın özünün 700 desyatin torpaq sahəsinin 150 desyatinində təkcə üzüm plantasiyası saldırdı və s.

Quba qəzasında kapitalistlərin, zadəganların, məmurların muzdlu əməklə becərilən 10-dan artıq iri bağçılıq və üzümçülük təsərrüfatları vardı.

Yelizavetpol quberniyasında alman kolonistlərinin iri kapitalist-fermer təsərrüfatları meydana gəlmişdi. Bu təsərrüfatlarda üzümçülük əsas yer tuturdu.

1910-cu ildə Forer qardaşlarına məxsus 4300 desyatin torpaq sahəsinin 600 desyatinini üzüm plantasiyası təşkil edirdi. Bundan əlavə, üç yüz baş cins inək saxlanır və onların südündən hər il 500 puda yaxın yağ və brınza pendiri

hazırlanırdı. Mülkdə yüz başa qədər cins at bəslənir, müxtəlif növ kənd təsərrüfatı bitkisi əkilirdi. Forer qardaşları hər il bazara bir neçə yüz min manatlıq kənd təsərrüfatı məhsulları və çaxır çıxarırdı.

Hummel qardaşlarının Yelenendorf (indiki Xanlar) alman koloniyasında 450 desyatin təkcə üzüm plantasiyası vardı.

Taxılçılıqda muzdlu əməkdən ən çox ağır zəhmət tələb edən çəltikçilikdə istifadə olunurdu. Az-çox iri çəltik plantasiyaları əlavə işçi qüvvəsi cəlb etmədən becərilə bilməzdi. Yoxsul kəndlilər çox zaman gedib iri çəltik plantasiyalarında muzdla işləyirdilər.

İpəkçiliklə məşğul olan kəndlilər, əslində, muzdlu fəhlə vəziyyətində idilər. Onlar xüsusi şirkətlərdən, bəzən möhtəkirlərdən barama qurdu alıb evlərində bəsləyir və zəhmət haqqı olaraq ümumi barama məhsulunun 25-30 faizinin pulunu alırdılar.

Azərbaycanda kiçik tütün sahələrini, adətən, kəndlilər özləri ailə üzvləri ilə birlikdə becərirdilər. Lakin bir neçə desyatin, hətta 10 desyatindən artıq sahəsi olan iri tütün plantasiyaları da vardı ki, burada muzdlu əməkdən istifadə edilirdi.

XX əsrin əvvəllərində bəylərə və mülkədarlara məxsus böyük qoyun və qaramal sürüləri ilə yanaşı, qolçomaqların və varlı kəndlilərin bütünlüklə əmtəə istehsal edən iri maldarlıq təsərrüfatları meydana gəlmişdi. Bu təsərrüfatların bəzilərində min başadək, hətta daha çox qoyun-keçi, bir neçə yüz baş qara-mal, at və dəvə saxlanırdı. Bu cür iri maldarlıq təsərrüfatlarında daimi işçi qüvvəsindən istifadə olunurdu. Hələ XX əsrin əvvəllərinə yaxın maldarlıq təsərrüfatlarında 10 minə qədər adam muzdla işləyirdi.

Muzdlu əməkdən istifadə etməklə südlük heyvan sürüləri saxlamaq kapitalizmə xas olan başlıca istehsal xüsusiyyəti olsa da, Azərbaycanda, məsələn, Forer qardaşları kimi bir neçə iri kapitalistin südçülük, habelə atçılıq təsərrüfatları istisna edilərsə, yerli südlük mal-qara, əsasən, köhnə ata-baba qaydasında saxlanaraq, əsl kapitalist-fermer təsərrüfatına çatmaqdan hələ uzaq idi.

Azərbaycanda muzdlu əməyin müxtəlif formalarından istifadə olunurdu.

Kapitalist-fermer təsərrüfatlarında bir qayda olaraq, daimi muzdlu əmək tətbiq edilirdi. Məsələn, H. Z. Tağıyevin «Yevlax mülkü»ndə ən çox işçi qüvvəsi tələb edən pambıq hələ 45-50 desyatin əkildiyi ilk vaxtlar burada 39 nəfər daimi fəhlə vardı. Knyaz L. S. Qolitsının mülkündə müntəzəm olaraq 100 nəfərə yaxın fəhlə, Forer qardaşlarının təsərrüfatlarında 40 qulluqçu və 200 fəhlə işləmişdir və s.

1913-cü ildə daimi kənd təsərrüfatı fəhlələrinin sayı təqribən 106 min nəfərə bərabər idi. Onların 3/4 hissəsi qolçomaq və varlı kəndli təsərrüfatlarında çalışırdı.

Muzdlu işçi qüvvəsinin böyük kütləsini mövsümi fəhlələr təşkil edirdi. Onlar, əsasən yerli aztorpaqlı, torpaqsız kəndlilərdən, dağ yerlərindən müvəqqəti gələn yoxsullardan və qonşu ölkələrdən-Ermənistan, Gürcüstan, Dağıstan, xüsusən Cənubi Azərbaycandan olan kəsbkarlardan ibarət idi.

Kənd təsərrüfatında, xüsusən, taxıl biçini, pambıq yığımı və s. bu kimi təcili görülməli olan işlər zamanı muzdlu işçi qüvvəsinə tələbat olduqca artır, onun ödənilmə haqqı yüksəlirdi. Bu zaman təkcə Cənubi Azərbaycandan ildə 250 mindən artıq mövsümi kəndli gəlirdi ki, onların da çox hissəsindən kənd təsərrüfatı işlərində istifadə olunurdu. Hətta xeyli şəhərli—daşyonan, dəllək, aşpaz və digər peşə adamları da daha qazanclı məhsul toplanışında muzdlu fəhlə kimi iştirak edirdilər.

Birinci dünya müharibəsi illərində cənublu kəsbkarların sayı kəskin surətdə azaldı, əksinə, yerli muzdluların sayı xeyli çoxaldı.

Günəmuzd fəhlələrin əməyindən bütün sahələrdə, ələlxüsus, təsərrüfat işlərinin qızğın çağında geniş surətdə istifadə olunurdu. Məsələn, 1910-cu ildə Forer qardaşlarının təsərrüfatlarında günəmuzd fəhlələr üst-üstə 50 min adam-gün işləmişlər.

Qadın və uşaq əməyindən istifadə xeyli artmışdı. Pambıq və üzümün yığılmasında, tütün və baramanın becərilməsində, əsasən, onların qüvvəsindən istifadə olunurdu.

Kənddə kapitalist münasibətlərinin inkişafında möhtəkirlər və sələmçilər mühüm rol oynayırdılar.

Çox zaman vergiləri verməyə, təsərrüfat üçün zəruri şeyləri almağa, hətta ailəsini dolandırmağa imkanı olmayan yoxsul kəndlilər gedib tacir-sələmçidən faizlə borc pul alırdılar. Təsərrüfat işlərinin qızğın çağında çox zaman nəinki kəndlilər, bəzən mülkədarlar da sələmçidən borc almadan keçinə bilmirdilər.

Borcun müddətindən asılı olaraq onun faizinin miqdarı müxtəlif olurdu: 20—30, hətta 50 faiz. Borc vaxtında qaytarılmadıqda, faizin miqdarı artırılırdı.

Möhtəkirlər məhsul toplanışının qızğın çağında çox vaxt kəndbəkənd gəzərək, təzə məhsulu bir yerdən ucuz qiymətə alıb, sonradan onu kəndlilərin özlərinə və ya şəhər bazarlarında baha qiymətə satırdılar. Onlar faizlə borc pul da verirdilər.

Beləliklə, ticarət kapitalının nümayəndəsi olan möhtəkir eyni zamanda çevrilib sələmçi olurdu. Azərbaycan kəndində möhtəkirlə sələmçi, əslində, eyni adam idi. Möhtəkir-sələmçilər, əsasən, kənd dükançıları, qolçomaqlar, tacirlər, həmçinin iri fabrik və zavodların, şirkətlərin müvəkkilləri sırasından çıxırdılar.

Ölkənin bazarlarına yaxşı bələd olan möhtəkir-sələmçilər verdikləri borcun ödənilməsini gələcək məhsulun yalnız onlara, özü də lap xırman üstündə satılması ilə şərtləndirirdilər. (Çünki onlar təzə məhsulu iri ticarət məntəqələrinə başqalarından daha tez çatdırmaq istəyirdilər).

Böyük Azərbaycan maarifçisi H. B. Zərdabi möhtəkirləri istehsalçılarla istehlakçılar arasında sədd və onların hər ikisinin qanını soran zəli adlandıraraq göstərirdi: elə ki, kənd təsərrüfatı məhsullarının yığımı başlandı, möhtəkirlər çalağan kimi kəndlilərin başının üstünü kəsdirib «məzənnələr» qoyur və məhsulları almağa başlayırlar; qabaqcadan müqavilə bağlayan və dəbbə pulu verəcəyini

öhdəsinə götürən borclular özlərinin məhsullarını «məzənnə» üzrə onlara təhvil verirlər.

XX əsrin əvvəllərində ticarət-sələmçi kapitalı kənd istehsalçılarının çoxunu qəbaləli hala salmışdı. Hələ 1904-cü ildə Qarabağda kənd əhalisinin 2/3 hissəsi möhtəkir-sələmçilərə borclu idi. Pambıqçılıqla məşğul olan kəndlilərin 90 faizi sələmçilərə borclu olduqları üçün öz məhsullarını ucuz qiymətlə yalnız onlara satmağı əvvəlcədən öhdələrinə götürmüşdülər və s.

Aldığı borcu və onun faizini heç cürə ödəyə bilməyən yoxsul kəndlilər çox vaxt özlərinin bağını, əmlakını, hətta torpağını möhtəkirə verməyə məcbur olurdular. Məsələn, Şuşa qəzasında bir kəndli aldığı 30 manat borcu üç il müddətində ödəyə bilmədiyinə görə borc faizi 150 manata çatır, nəticədə, kəndli 200 manat dəyərində olan öz bağından əl çəkməli olur.

Hətta, çar nazirlərindən biri etiraf etmişdir ki, Qafqazda torpaqların qolçomaqların və sələmçilərin əlində cəmləşməsi prosesi gedir.

Satış bazarının durmadan genişlənməsi möhtəkir-sələmçini, yəni kənd bankirini təsərrüfat fəaliyyətinə daha çox yaxınlaşdırırdı. Onların bir çoxu borc müqabilində ələ keçirdiyi torpaqlarda muzdlu əməkdən istifadə edilən geniş təsərrüfatlar yaradırdılar.

Ticarət-sələmçi kapitalın kəndin iqtisadi həyatına güclü təsir göstərməsi nəticəsində, burada təsərrüfat qapalılığı daha da pozuldu, əmtəə istehsalı sürətlə artdı, beləliklə, kapitalizmin aqrar sahəyə girməsi xeyli asanlaşdı.

Kənd təsərrüfatına iri bank kapitalının axını daim artırdı. Bu, ilk növbədə, ticarət-torpaq banklarının krediti yolu ilə həyata keçirilirdi. 1914-cü ilin yanvarı üçün torpaq banklarına Bakı və Yelizavetpol quberniyalarından 123 torpaq mülkü girov qoyularaq, onların sahibləri tərəfindən 5 milyon manat məbləğində uzunmüddətli borc alınmışdı.

Qəzalarda iri bankların şöbələri və qarşılıqlı kredit cəmiyyətləri tərəfindən kəndlilərə faizlə borc pul verilirdi.

1909-cu ildən daha operativ fəaliyyət göstərən çoxlu kiçik kredit idarələri yaradılmağa başladı. Artıq 1914-cü ildə bu cür idarələrin sayı 120-yə çatırdı.

Kəndlilərin təbəqələşməsinin güclənməsi və əmtəə istehsalının durmadan artması kapitalizmin kəndə soxulması prosesini sürətləndirdiyi kimi, kənddə kapitalist istehsal münasibətlərinin inkişafı da, öz növbəsində, əmtəə bazarının qat-qat böyüməsinə səbəb oldu.

Azərbaycan xırda əmtəə istehsalçıları ölkəsi idi.

1917-ci ildə Azərbaycan kəndində təsərrüfatların ümumi sayı 342 minə çatırdı. Onun 54,4 faizi (186,8 min təsərrüfat) torpaqsız və əkin sahəsi bir desyatindən az olan yoxsul kəndli təsərrüfatlarından ibarət idi. Əkin sahəsi dörd desyatinə qədər olan ortabab kəndli təsərrüfatları 34 faiz (116,3 min təsərrüfat) təşkil edirdi. Yoxsul və ortabab kəndli təsərrüfatlarında xırda istehsalçılar

tərəfindən bütün kənd təsərrüfatı məhsulunun əsas hissəsi, əmtəənin isə yarıdan çoxu istehsal olunurdu.

Kənd təsərrüfatının bütün sahələrində muzdlu əməkdən az-çox istifadə olunması, kapitalist istehsal münasibətlərinin bir sıra sahələrdə hətta üstün mövqe tutması Azərbaycanın xırda kəndli təsərrüfatı ölkəsi kimi simasını əsla dəyişdirmirdi. On minlərlə təsərrüfat kapitalist əsaslarında qurulub, xeyli əmtəə istehsal etsə də, yüz minlərlə xırda kəndli təsərrüfatı yenə də kənd təsərrüfatı hasilatında həlledici rol oynayırdı. Kənd təsərrüfatında ümumi gəlirin 3/4 hissəsini verən taxılçılıq və maldarlıq kimi başlıca sahələr kapitalizməqədərki istehsal münasibətlərinə əsaslanırdı.

## § 3. ŞƏHƏRLƏR. TİCARƏT. NƏQLİYYAT. RABİTƏ

**Şəhərlər:** XX əsrin əvvəllərində Azərbaycanın şəhərləri daha da böyüyür, onların əhalisi artırdı. 1900-cü ildən 1915-ci ilin axırınadək ölkənin əhalisi cəmi 25 faiz artdığı halda, şəhər əhalisi 70 faiz çoxalmışdı. Bu zaman şəhər əhalisinin sayı 529 min nəfərdən artıq idi.

Şəhərlərin böyüməsində əhalinin təbii artımı ilə yanaşı, sənayenin inkişafı mühüm rol oynayırdı. Sənaye, ticarət, bank müəssisələrinin cəmləşdiyi şəhərlər bir parça çörək dalınca buraya müvəqqəti işləməyə gələn torpaqsız və aztorpaqlı kəndlilərin çox zaman daimi yaşayış məskəninə çevrilirdi.

XX əsrin əvvəllərində Bakı Rusiya imperiyasının çox sürətlə inkişaf edən iri sənaye şəhərlərindən biri idi. 15 il ərzində şəhərin əhalisi 70 min nəfər artaraq, 1915-ci ilin axırında 262 min nəfərə çatmışdı. Bakı, əhalisinin sayına görə Rusiya imperiyasında Peterburq və Moskva şəhərlərindən sonra üçüncü yeri tuturdu.

Şəhərdə minlərlə neft buruğu, irili-xırdalı yüzlərlə zavod və fabrik, çoxlu emalatxana, gəmi tərsanəsi və başqa müəssisələr vardı. Azərbaycanda fəaliyyət göstərən otuzdan artıq bankdan altısının idarə heyəti Bakıda yerləşirdi.

Dünya neftinin başlıca istehsalçılarından olan Bakının beynəlxalq nüfuzu durmadan artırdı. Şəhərdə 160-dan artıq ingilis, alman, fransız, Avstriya—Macarıstan, polyak, Kanada və digər xarici ölkə şirkətlərinin, həmçinin bəzi rus şirkətlərinin daimi nümayəndəlikləri vardı. Bakı ilə birbaşa əlaqələr yaratmaq məqsədilə burada 13 dövlətin konsulluğu açılmışdı. Onların arasında iri kapitalist dövlətləri və qonşu İran, Türkiyə ilə yanaşı, Danimarka, Belçika, Hollandiya, Norveç və Yunanıstanın da konsulluqları vardı.

Bakıda kapitalistlər və tacirlər tərəfindən bir sıra yaraşıqlı evlər tikilir, ictimai və idarə binaları ucaldılırdı.

Lakin çox sürətlə böyüyüb inkişaf edən milyonlar səltənətinin çoxlu problemi vardı.

XX əsrin əvvəllərində varlıların yaşadığı bir neçə küçə istisna edilməklə, axşamlar şəhərin küçələrində (özü də hamısında yox) hələ də neft fənərlərindən istifadə olunurdu. Küçələrin elektrik çırağı ilə işıqlandırılmasına yalnız 1905-ci ildən sonra başlanmışdı.

Küçələrin çoxuna nəinki asfalt, heç daş da döşənməmişdi. Ona görə toz, palçıq olurdu. Yalnız «Aleksandr Nevski» kilsəsinin və Bakı qradonaçalnikliyi binasının qarşısında cəmi yarım kilometr uzunluğunda asfalt döşəmə vardı.

Başlıca ictimai nəqliyyat vasitəsi keçən əsrin axırlarında işə salınan konka idi. Konkalar şəhərin bəzi mərkəzi küçələrində işləyirdi. Yalnız 1907-ci ildən sonra şəhərdə ictimai avtomobil nəqliyyatı işə düşdü.

Şəhərin başlıca mərkəzi küçələrinə verilmiş adlar onun müstəmləkə diyarı olmasını bir daha təsdiq edirdi: Nikolayevski, Velikoknyajski, II Aleksandr, Mixaylovski, Romanovski, Vorontsov və s.

Bakıda ictimai bağ-bağça, yaşıllıq çox az idi. Çünki su çatışmırdı. Qubernator bağı adlanan ən qədim və nisbətən abad xiyaban şəhərin əsas bağı sayılırdı. Lakin bu bağ, əsasən, kübar ailələrə məxsus olduğundan, başqa adamlar buraya həftənin yalnız bir neçə günü buraxılırdı.

Peterburq Texnoloji İnstitutunu bitirmiş Məmmədhəsən Hacınski Bakı bələdiyyə idarəsinin tikinti şöbəsinə rəis təyin ediləndən sonra şəhərdə abadlıq işləri xeyli genişləndi. 1909-1911-ci illərdə onun rəhbərliyi ilə dənizkənarı park (bulvar) salındı. Parkın qabağında dənizin içərisində çox yaraşıqlı və rahat dəniz hamamı binası tikildi. İkinci belə binaya yalnız Fransanın Nitsa kurort şəhərində rast gəlmək olardı.

M. H. Hacınskinin redaktorluğu ilə Bakının küçələrinin abadlaşdırılmasına dair kitab buraxıldı. O, Bakı Şirvanşahlar sarayının qorunub saxlanması və bərpası haqqında təşəbbüs qaldırdı.

Şəhər əhalisi içməli su sarıdan çox korluq çəkirdi. Dəniz suyunu şirinləşdirib şəhərə verən iki stansiya tələbatın çox cüzi hissəsini ödəyirdi. Ona görə əhali əsasən quyu suyundan istifadə edirdi. Lakin şəhərdə olan 800 quyudan yalnız 100-nun suyu içməyə yararlı idi. Qalan quyuların çoxunun suyu cürbəcür xəstəliklərə, bəzən xolera kimi yoluxucu xəstəliyin baş verib yayılmasına səbəb olurdu. Ona görə müvafiq hökumət idarələri quyulara vaxtaşırı dərman tökdürür, bəzilərini isə torpaq doldurub bağlatdırırdı.

Əvvəllər Kür çayından, sonra Volqa çayından barjlarla su gətirib vedrəsini bəzən iki qəpiyə satırdılar. Lakin bu gətirilmə sular kifayət etməməkdən əlavə, həm də baha satıldığı üçün yoxsullar onu ala bilmirdilər.

Milyonçu H. Z. Tağıyev şəhər ətrafında şirin su mənbəyi axtarıb tapmaq xərcini öz üzərinə götürərək, bu cür işlərin mütəxəssisi olan Vilyam Lindeyn adlı bir alman mühəndisini Bakıya dəvət etdi. Uzun axtarışdan sonra, nəhayət, Bakıdan 190 km aralı, Qubanın yaxınlığında Şollar adlı yerdə şirin su çeşməsi aşkara çıxarıldı.

1911-ci ildə Şollar-Bakı su kəmərinin çəkilişinə başlandı. H. Z. Tağıyevdən əlavə, kəmərin çəkilişinə şəhər bələdiyyə idarəsi, neft sahibkarları və başqaları xeyli vəsait qoydular. Gündə üç milyon vedrə su verəcək bu kəmərin tikintisində hər gün 6 min nəfərə qədər fəhlə işləyirdi. 1916-cı ilin axırında kəmərin çəkilişi başa çatdı. Yeni ilin əvvəlindən şəhərdə Şollar suyundan istifadə etməyə başladılar.

Bakıda özünüidarə orqanı olan şəhər duması fəaliyyət göstərirdi. Dumaya seçilmiş deputatların (qlasnıların) içərisindən bələdiyyə idarəsi və onun sədri seçilirdi. Çar hökuməti müstəmləkəçilik siyasəti yeridərək, bələdiyyə idarələrində milli nümayəndəliyin sayını daim məhdud səviyyədə saxlayırdı. Xristian olmayanlar bələdiyyə idarəsinə seçilənlərin 1/3 hissəsindən çoxunu, 1902-ci ildən sonra isə yarıdan çoxunu təşkil edə bilməzdi. Bakı dumasında cəmi 48 deputat vardı.

**Yelizavetpol** (Gəncə) Bakıdan sonra Azərbaycanın ikinci böyük şəhəri, quberniya mərkəzi idi. Buranın əhalisi 15 il ərzində 20 min nəfərdən çox artaraq, 1915-ci ilin axırında 58 min nəfərə çatmışdı.

1914-cü ildə şəhərdə 20-dən artıq iri və xırda sənaye müəssisəsi, o cümlədən 8 pambıqtəmizləmə, 3 spirtçəkmə-konyak zavodu, 5 gön-dəri və bir biyan kökü sıxan müəssisə, həmçinin dəmir yol emalatxanası vardı. Burada Rusiyanın 5 iri bankının şöbələri və iki şəhər «qarşılıqlı kredit cəmiyyəti» fəaliyyət göstərirdi.

Yelizavetpol şəhər duması tərəfindən idarə olunurdu.

**Nuxa** şəhəri ipək sənayesinin mərkəzi kimi məşhur idi. 1914-cü ildə burada 85 ipək və 50 gön-dəri emalı müəssisəsi, 3 tənbəki fabriki və başqaları vardı. «Qafqazın Lionu» adlandırılan Nuxa şəhərində Azərbaycan xam ipəyinin 2/3 hissəsi, gön-dəri məmulatının yarıdan çoxu istehsal edilmişdi. Şəhərdə «qarşılıqlı kredit cəmiyyəti» fəaliyyət göstərirdi. Şəhərin əhalisi 15 il ərzində iki dəfə artaraq, 1915-ci ilin axırında 52 min nəfəri ötmüşdü.

**Şuşa** şəhərinin əhalisi əsrin əvvəli ilə müqayisə etdikdə, 18 min nəfərdən çox artaraq, 1915-ci ilin axırında 44 min nəfər olmuşdu. Bu zaman Şuşada 22 ipək emalı müəssisəsi, 3 spirtçəkmə-konyak zavodu və başqaları vardı. Şəhərdə bir bankın şöbəsi, «qarşılıqlı kredit cəmiyyəti» fəaliyyət göstərirdi.

Qəzalarda bütün işləri qəza polis rəisinin rəhbərliyi altında onun köməkçiləri, şəhər pristavları və əhalinin bəzi varlı nümayəndələrinin daxil olduğu şəhər işləri üzrə divanxanalar icra edirdi.

XX əsrin ikinci onilliyində Azərbaycanda irili-xırdalı 13 şəhər vardı. Bunlardan 9 şəhərin hərəsinin əhalisi on min nəfərdən artıq idi. Ağdam, Bərdə, Tərtər kimi 9 şəhər tipli yaşayış məntəqəsi vardı. Bu qəsəbələrdə cəmi 25 minə qədər adam yaşayırdı. Yaşayış məntəqələrinin çoxu bu və ya digər istehsal sahəsinin inkişafı ilə əlaqədar olaraq, yaranıb böyüyürdu. Gədəbəy—mis istehsalı,

Ağdaş—pambıq emalı, Bankə—balıqçılıq təsərrüfatı, Yelenendorf—şərab-spirt emalı ilə fərqlənirdi.

Qəsəbələrdə, adətən, bir neçə kiçik sənaye müəssisəsi olurdu. Məsələn, Lənkəran qəzasının Privolnı qəsəbəsində kərpic və taxtapuş dəmiri hazırlayan, kətan toxumundan, günəbaxandan, küncüddən yağ çəkən, xardal və s. istehsal edən 11 kiçik zavod, 4 su dəyirmanı və başqa kiçik müəssisələr vardı.

**Ticarət:** Əhalinin artması, əmtəə istehsalının çoxalması ilə yanaşı, ticarət əlaqələri də genişlənirdi. Yeni ticarət məntəqələri meydana gəlirdi.

**Bakı -** Xəzər dənizi sahilində ən böyük port və iri dəmir yol qovşağı olub, Azərbaycanın daxilində, Rusiya və xarici ölkələrlə aparılan ticarətdə çox mühum rol oynayırdı.

Bakı quberniyası üzrə ticarət dövriyyəsinin 85 faizi və qazancın 90 faizi Bakı şəhərinin payına düşürdü. O, orta illik yük dövriyyəsinin həcminə görə Rusiyada Peterburq və Odessa kimi iri portları geridə qoyaraq, birinci yeri tuturdu.

Hələ XX əsrin əvvəlində şəhərdə 2500-dən artıq ticarət müəssisəsi, 15 minə yaxın tacir vardı. Tacirlərin yarısını azərbaycanlılar təşkil edirdi. Mal dövriyyəsinin illik həcmi milyonlarla manat olan H. Z. Tağıyev, M. Nağıyev, Ş. Əsədullayev və başqa iri tacirlər vardı.

Bakıdan təkcə Həştərxana hər il orta hesabla 350 milyon pud yük yola salınırdı. Bu yükün 300 milyon pudunu neft və neft məhsulları təşkil edirdi. Rusiyadan Xəzər vasitəsilə, həmçinin dəmir yol ilə başlıca olaraq, taxıl, qənd, pambıq parça, müxtəlif sənaye məmulatı, tikinti və meşə materialları, metal və neft sənayesi üçün avadanlıq gətiridirdi. 3 milyon pud təkcə dəmir və polad təbəqələr daxil olurdu. Neft sənaye avadanlığı içərisində təkcə boruların çəkisi bir milyon puda bərabər iri.

Azərbaycanın qəzalarından hər il dəmir yol və dəniz vasitəsilə Bakıya 2 milyon puda qədər müxtəlif növ meyvə və bostan məhsulları gətirilirdi.

Bakıya hər il satmağa 250-270 min baş diri mal-qara göndərilirdi. Bu heyvanların çox hissəsi Azərbaycan qəzalarının, qalanı Qafqaz və İranın payına düşürdü. Bundan əlavə, qəzalardan külli miqdarda kəsilmiş ət, yağ, pendir və digər süd məhsulları, on minlərlə pud yun, on minlərlə ədəd heyvan dərisi və sair gətirilirdi.

Bakıya gətirilən malların bir hissəsi şəhər bazarlarında satılır, qalan hissəsi Azərbaycanın qəzalarına, Rusiyaya, habelə İrana göndərilirdi.

Bakıda yerləşən ticarət bankları və başqa maliyyə-kredit idarələri ticarət müəssisələrinin işində yaxından iştirak edirdi.

Bakı quberniyasının Lənkəran qəzası taxıl, xüsusən çəltik və mal-qara ticarətində fərqlənirdi. Buranın bazarlarına başqa qəzalardan çoxlu mal gətirilirdi. Qəzanın Asullı və Masallı (Qala-bazar) bazarlarında başlıca olaraq mal-qara, Lənkəran və Qızılağac bazarlarında isə, əsasən çəltik, buğda, arpa satılırdı. Yazda

Prişib kənd bazarında yalnız camış alveri gedirdi. Burada hər il min başadək camış satılırdı.

1914-cü ildə Lənkəran şəhərində balıq, taxıl, un, meşə materialları, kənd təsərrüfatı alətləri ticarəti ilə məşğul olan 15 müəssisə, onlarca baqqal dükanı vardı.

Ən böyük bazarlardan biri Cavad qəzasının Petropavlovka (indiki Sabirabad) kəndində idi. 1912-ci ilin təkcə beş ayı ərzində bazara 30 min baş qaramal, 60 min baş qoyun-keçi, 3 min baş at gətirilmişdi,

Petropavlovka kəndi həm də mühüm pambıq ticarəti məntəqəsi idi. Muğanın mərkəz və şimal hissəsində istehsal olunan butün pambıq məhsulunu satmaq üçün bu kəndin bazarına aparırdılar. Burada pambığı alıb dəmir yol və Kür çayı vasitəsilə emal müəssisələrinə yola salırdılar.

Göyçay qəzasında istehsal edilən pambıq və barama məhsulu buranın öz bazarında satılırdı.

1914-cü ildə Quba şəhərində meyvə və meyvə qaxı, xalça, arşın mal ticarəti ilə məşğul olan 43 müəssisə, çoxlu baqqal dükanı vardı. Hər il Qubada və qəzanın digər kənd bazarlarında minlərlə xalça, yüz minlərlə pud müxtəlif meyvə, meyvə qaxı və xeyli mal-qara satılırdı ki, bunların da çox hissəsi Bakıya, habelə digər qəzalara və Rusiyaya aparılırdı.

Ölkənin bazarlarında möhtəkirlər mühüm rol oynayırdı. Bəzən bütün alqı-satqı əməliyyatları onların vasitəsilə həyata keçirilirdi. Məsələn, Azərbaycanda üzümün əsas topdansatış mərkəzinə çevrilmiş Kürdəmir bazarına məhsul başlıca olaraq, istehsalçıların özləri tərəfindən deyil, möhtəkirlər tərəfindən çıxarılırdı. Şərab müəssisələrinin sahibləri külli miqdarda üzüm alaraq, əsasən, Kürdəmir stansiyası vasitəsilə yola salırdılar. Möhtəkirlər üzümün bir hissəsini aparıb Zaqafqaziyanın iri şəhərlərində - Bakıda, Tiflisdə, həmçinin Rusiyanın şəhərlərində baha qiymətə satırdılar.

Yelizavetpol quberniyasının əsas ticarət məntəqələri Yelizavetpol, Nuxa, Şuşa kimi köhnə qəza mərkəzləri idi.

1914-cü ildə Yelizavetpol şəhərində pambıq, şərab, ağ neft, balıq, un, sement, xalça, arşın mal ticarəti ilə məşğul olan 120-dək müəssisə, çoxlu baqqal dükanı vardı.

Hələ əsrin ilk illərində burada rəsmi sənədi olan tacirlərin sayı 600 nəfərə çatırdı. Onların 400 nəfərdən çoxunu azərbaycanlı tacirlər təşkil edirdi. A. H. Əsgərov, Q. B. Quliyev, İ. Q. Rəhimov və başqaları Yelizavetpol ticarət kapitalının görkəmli nümayəndələri idilər.

Qonşu qəzalardan gətirilən üzüm, şərab, meyvə, pambıq, mal-qara, heyvandarlıq məhsulları və s. mallar Yelizavetpol şəhər bazarlarında satılır, yaxud dəmir yol vasitəsilə Bakı və Batum istiqamətlərində yola salınırdı. Hər il təkcə 500 min puddan çox müxtəlif növ meyvə və meyvə qaxı, qoz-fındıq satılır və başqa yerlərə göndərilirdi.

Nuxa və Ərəş qəzalarında, Zaqatala dairəsində hasil edilən barama məhsulu Nuxa şəhərinin ipək alverçiləri tərəfindən alınırdı. Nuxada ipək və barama ticarəti ilə 21 müəssisə məşğul olurdu. Burada gön-dəri, ağ neft, arşın mal, meyvə, şirniyyat, mal-qara ticarəti edən yüzdən çox müəssisə və baqqal dükanı vardı. Q. M. Həmidov, Q. M. Xəliləv, S. Q. Əliyev və başqa iri tacirlər Nuxanın ticarətində mühüm rol oynayırdılar.

Qarabağ zonasında Şuşa, Cəbrayıl (Qaryagin) və Cavanşir qəzalarında hasil edilən barama əsasən Şuşa bazarında satılırdı. Şuşada xalça, arşın mal, şərab, mal-qara, ət ticarəti ilə məşğul olan çoxlu müəssisə və baqqal dükanı vardı. Şəhərin azərbaycanlı tacirləri arasında Q. M. Səfərov, Ş. M. Kazımov, L. K. Məmmədov və başqaları xüsusilə fərqlənirdi.

Yelizavetpol quberniyası Azərbaycanın heyvandarlıq məhsulları ixrac edən başlıca zonası idi.

1911-ci ildə quberniyada 11 min başa yaxın iri buynuzlu heyvan, 110 min başdan çox qoyun və keçi, 2100 başdan artıq donuz kəsilib yerli bazarlarda satılmış və başqa yerlərə, o cümlədən Rusiyaya, həmçinin İrana ixrac edilmişdir.

Həmin il quberniyadan kənara 22 min başdan çox iri buynuzlu mal-qara, 185 at, 327 minə yaxın qoyun-keçi və 185 dəvə dərisi, 9 minə yaxın heyvan xəzi göndərilmişdir.

Zaqatala şəhərində tütün, meyvə, mal-qara, arşın mal və s. ticarəti ilə xeyli müəssisə və baqqal dükanı məşğul olurdu.

Zaqatala dairəsindən hər il orta hesabla 150 min pud fındıq, 200 min pud müxtəlif növ meyvə ixrac edilirdi. Ölkənin fabriklərinə sarı tütünün yarıdan çoxunu dairənin ticarət müəssisələri göndərirdi. Zaqatala, Qax və Balakən bazarlarında hər gün çoxlu mal-qara alınıb-satılırdı.

Naxçıvan şəhərində duz, pambıq, meyvə, mal-qara, yun, arşın mal və s. ticarəti edən çoxlu müəssisə, onlarca baqqal dükanı vardı. Naxçıvan qəzasının Ordubad şəhəri meyvə qaxı, qoz və barama ticarətində fərqlənirdi.

Tiflis—İrəvan dəmir yol xətti Culfaya qədər çatdırıldıqdan sonra Culfa stansiyası vasitəsilə mal göndərilməsi sürətlə çoxaldı. 1912-ci ildə Culfa stansiyası vasitəsilə Rusiyaya 800 min puda yaxın təkcə meyvə və meyvə qaxı göndərilmişdi. Culfa stansiyası həm də Rusiya ilə İran arasındakı ticarətdə vasitəçi rolunu oynayırdı.

Azərbaycanda həftənin müəyyən günləri toplanan kənd bazarları da fəaliyyət göstərirdi. Həftəbazarı adlanan bu alış-veriş yerində əsasən məişət üçün çox zəruri olan şeylər—arşın mal, qənd, çay, bəzi ev əşyaları və s. satılırdı.

Ticarətin inkişafında vaxtaşırı təşkil edilən yarmarkaların mühüm rolu vardı.

Hər ilin baharında Bakıda keçirilən Nikolay yarmarkasında Rusiyanın müxtəlif şəhərlərindən və Azərbaycanın qəzalarından gətirilmiş yüz minlərlə

manatlıq mal satılırdı. Hər il may—iyun aylarında Bakıda açılan İran yarmarkasına orta hesabla 500 milyon manatlıqdan çox xarici mal gətirilirdi.

1910-cu ildə Xaçmaz dəmir yol stansiyasında təşkil edilən yarmarka yalnız buynuzlu mal-qara və at satışına həsr olunmuşdu.

Azərbaycanın xarici ölkələrlə geniş ticarət əlaqələri vardı.

Xarici ticarətdə əsas yeri İran tuturdu. İranla ticarət başlıca olaraq Bakı limanı vasitəsilə aparılırdı. Orta illik ticarət mübadiləsi təqribən 25 milyon manat idi. Bakı, həmçinin, Rusiya ilə İran arasında ticarətdə vasitəçilik edirdi. İrana, ilk növbədə, neft, metal və ağac məmulatı, arşın mal, qənd və s. satılır, oradan isə, əsasən düyü, meyvə qaxı, ipək, xalça, pambıq, yun, balıq və s. alınırdı. İranla Lənkəran və Astara limanları vasitəsilə, Culfa, Ordubad və Cəbrayıl quru yolu ilə ticarət aparılırdı.

Azərbaycanın yunu Fransaya, İngiltərəyə və başqa ölkələrə ixrac olunurdu. Amerikada ən qiymətli xalçalar Zaqafqaziya yunundan toxunurdu. Xaricə barama və ipək də göndərilirdi. 1910-cu ildə Batum vasitəsilə Fransanın təkcə Marsel şəhərinə 83 min puddan çox Azərbaycan baraması ixrac olunmuşdu.

Pambıqtəmizləmə zavodlarında hasil edilmiş jmıxın 90 faizi, emal edilməmiş çiyidin isə 25 faizi xarici ölkələrə, o cümlədən Almaniya, İngiltərə və Fransaya göndərilirdi. 1913-cü ildə xarici ölkələrə 530 min puddan çox təkcə çiyid satılmışdı.

Dünya bazarında Azərbaycanın xalça və xalıları baha qiymətə gedirdi.

1913-cü ildə Almaniya, Fransa, Avstriya—Masarıstan və Balkan ölkələrinə 2 milyon pud Kür—Xəzər balığı göndərilmişdi. Dünyada qara kürünün iki əsas istehsalçısından biri olan Azərbaycanın bu sərvətinin 3/4 hissəsi Qərbi Avropa ölkələrinə və Amerikaya ixrac edilirdi. 1913-cü ildə Rusiya — Azərbaycanda istehsal edilmiş qara kürü də daxil olmaqla — təkcə Fransa, Ruminiya və Bolqarıstana 30 min puda qədər qara kürü satmışdı.

Çox qiymətli biyan kökünün ixracatı bütünlüklə Amerika və ingilis kapitalistlərinın əlində idi. 1913-cü ildə Azərbaycandan 2 milyon pud quru biyan kökü aparılmışdı.

**Nəqliyyat.** Daxili və xarici ticarətin genişlənməsi, ölkənin ayrı-ayrı rayonları arasında iqtisadi əlaqələrin getdikcə artması nəqliyyat vasitələrinin inkişafına səbəb oldu.

Azərbaycanın iqtisadi həyatında dəmir yol nəqliyyatının çox mühüm əhəmiyyəti vardı. 1910-cu ildə təkcə dörd iri dəmir yol stansiyası—Bakı, Biləcəri, Yevlax və Yelizavetpol stansiyaları vasitəsilə 130 milyon puda yaxın yük yola salınmışdı. Bakı dəmir yol stansiyasının payına 70 milyon puddan çox yük düşürdü.

XX əsrin əvvəllərində Azərbaycanın dəmir yol xəttinin uzunluğu 969 km idi. Dəmir yol vasitəsilə yük və sərnişin daşınmasına çox böyük tələbat vardı.

Lakin, 1908-ci ildə çəkilmiş qısa Uluxanlı—Culfa dəmir yolu istisna edilərsə, uzun müddət az-çox əhəmiyyətli dəmir yol xətti çəkilməmişdi.

1913-cü ildə Azərbaycanın dəmir yol nəqliyyatında 16 min nəfərdən artıq fəhlə və qulluqçu çalışırdı.

1917-ci ildə Ələt—Culfa hərbi dəmir yolunun çəkilişində 50 mindən çox və Yevlax—Şuşa darxətli dəmir yolunun çəkilişində 7 mindən çox adam işləyirdi.

Şosse yolları az idi. XX əsrin əvvəllərində Azərbaycanda 110 km-ə yaxın şosse yolu vardı. Halbuki ərazicə daha kiçik olan qonşu Gürcüstanda şosse yolunun uzunluğu bundan iki dəfə çox idi. Əsas şosse yollarını: Yevlax-Nuxa, Zaqatala-Laqodexi (Gürcüstan), Yevlax-Şuşa-Gorus-Naxçıvan, Bakı-Yevlax marşrutları təşkil edirdi.

Yük və sərnişin daşınmasında torpaq yollarından geniş istifadə olunurdu.

1913-cü ildə şosse yollarının təmir edilməsi, bu yollarla sərnişin və yük daşınması ilə 200 nəfərdən artıq adam məşğul olurdu.

XX əsrin əvvəllərində dəniz, həmçinin çay gəmiçiliyində müəyyən irəliləyiş vardı.

1904-cü ildə ağacdan qayrılmış gəmilərin on il ərzində metal gövdəli gəmilərlə əvəz edilməsi haqqında xüsusi qanun verildi. 1908-ci ildə Xəzər dənizində ilk dəfə olaraq «Delo» teploxodu göründü. 1915-ci ildə artıq 7 teploxod vardı. Həmin il Xəzər ticarət dənanmasında, ümumiyyətlə, 830-dan artıq gəmi vardı ki, onların da 216-sı buxar gəmisi idi. Bu gəmilər vasitəsilə Xəzərsahili şəhərlərə maye və quru yük, həmçinin sərnişin daşınırdı. Xəzər ticarət donanmasında 5 minə yaxın işçi çalışırdı.

Əmtəə istehsalının artması, xüsusən Muğanda pambıqçılığın inkişafı Kür çayı vasitəsilə yük və sərnişin daşınmasını xeyli artırdı. Salyanla Yevlax arasında 30 sərnişin gəmisi işləyirdi. Təkcə 1911-ci ildə Kür çayı vasitəsilə 10 milyon pud yük daşınmışdı.

1913-cü ildə Kür çayı boyu sahil körpülərində, yük daşınmasında, habelə çayın təmizlənməsində müntəzəm olaraq 1600 nəfərə qədər fəhlə işləyirdi.

**Rabitə:** Azərbaycanın rabitə sistemi ləng inkişaf edirdi.

Poçt-teleqraf idarələrinin sayı çox az idi və onların əksəriyyəti Bakı şəhərində yerləşirdi. Məsələn, 1903-cü ildə bütün Yelizavetpol quberniyasında cəmi 23 poçt-teleqraf idarəsi vardı.

1902-ci ildən Azərbaycanı başqa vilayət və ölkələrlə birləşdirən teleqraf xətlərinin çəkilişinə başlandı. Bakıdan Vladiqafqaza teleqraf xətti çəkildi. Həmin il Bakını Dərbənd, Mahaçqala və Minvodı dəmir yol stansiyaları ilə birləşdirən teleqraf xətti işə düşdü. 1913-cü ildə Bakı və Tehran arasında birbaşa teleqraf əlaqəsi yaradıldı.

Telefon rabitəsindən istifadə edilməyə başlandı.

1900-cü ildə Bakı telefon xəttinin uzunluğu cəmi 72 km, abonentlərin sayı isə 1100 idi. 1913-cü ildə burada abonentlərin sayı artıq 4200-ə çatdı.

1910-cu ildə Quba qəzasında 50 verst uzunluğunda, o cümlədən Quba—Xaçmaz telefon xətti çəkildi. 1911-ci ildə Bakını Yelizavetpol vasitəsitə Tiflislə birləşdirən şəhərlərarası telefon xətti işə düşdü.

1912-çi ildə Bakının Bayıl rayonunda ilk radio-stansiya işləməyə başladı.

## § 4. AZƏRBAYCAN ZƏHMƏTKEŞLƏRİNİN VƏZİYYƏTİ

Azərbaycanın müstəmləkə xarakteri onun sosial vəziyyətində tam əks olunurdu. Əsas yaşayış mənbəyi olan torpağın 3/4 hissəsi, onun təki, dəmir yolları, magistral neft kəməri və s. dövlətə məxsus idi. Xalqın malını yenidən onun özünə icarəyə verməklə çar xəzinəsi külli miqdarda qazanc götürürdü.

Ölkə çar hökumətinin qanun və qaydaları ilə idarə olunurdu. Müstəmləkəçilər yerli əhalini istədikləri kimi istismar edirdilər.

**Fəhlələrin vəziyyəti**: Azərbaycan fəhlələri ağır şəraitdə yaşayırdılar. Əsrin əvvəllərində baş verən ümumi iqtisadi böhran onların vəziyyətini daha da ağırlaşdırdı.

Fəhlələrin iş gününün müddəti çox uzun idi. Bakının zavod və fabriklərində fəhlələr gündə 10,5—11 saat işləyirdilər. Mirzəbekyansın tütün fabrikində iş gününün uzunluğu 13 saata çatırdı. İş gününün müddəti dəqiq müəyyən edilməmiş mədən fəhlələri çox vaxt fabrik-zavod fəhlələrindən artıq işləyirdilər.

Gədəbəy mis mədənlərində fəhlələr gündə 12-14 saat, həftənin bir günü isə 18 saat, onların içərisində yeraltı işlərdə çalışanları 11-12 saat, ipəksarıyanlar 14-16 saat, dəmiryolçular 14,5 saat, həftələrlə, bəzən aylarla sahil üzü görməyən balıqçı fəhlələr 17-18 saat işləyirdilər.

Böhran illərində bir sıra müəssisələrin bağlanması fəhlələrin xeyli hissəsinin ixtisar edilməsinə, beləliklə, işsizlərin sayının artmasına səbəb oldu. Bakıda fəhlələrin 1/4 hissəsindən çoxu küçəyə atıldı. Bundan istifadə edən sahibkarlar iş vaxtını uzadır, fəhlələrin maaşını azaldırdılar. Bakıda fabrik-zavod fəhlələrinin əmək haqqı 20-25 faiz, neft mədən fəhlələrinin əmək haqqı isə daha çox azaldıldı.

Bir sıra sənaye sahələrində, o cümlədən neft və dağ-mədən sənayesində ağalıq edən rus və xarici kapitalistlər işçilərin maaşlarının müəyyənləşdirilməsində milli ayrı-seçkilik edirdilər. Əsasən azərbaycanlılardan ibarət olan ixtisassız fəhlələr eyni işin müqabilində rus, alman, polyak və digər əcnəbi fəhlələrdən xeyli az maaş alırdılar. Məsələn, Nobel qardaşları birliyində ocaqçıların aylıq maaşı 18-19 manat olduğu halda, azərbaycanlı fəhlələrə 17, hətta 16 manat verirdilər.

Fəhlələrin əmək haqqı çox aşağı idi. Əsrin əvvəllərində kişi cinsindən olan ixtisaslı neftçi və mis mədəni fəhləsi üçün 30-35 manat, ipəksarıyan fəhlə üçün 20-25 manat ən yüksək səviyyə hesab olunurdu.

Qadın, yeniyetmə və uşaq əməyindən geniş istifadə edilirdi. Xüsusən emal sənayesində çoxlu qadın və uşaq işləyirdi. Şəki—Zaqatala zonasında, Ordubadda ipəksarıyanların yarısı, Qarabağ zonasında isə 80 faizdən çoxu qadın və uşaqlardan ibarət idi. Qarabağ fabriklərində hər iki cinsdən olan yeniyetmə və uşaqların əməyini istismar etmək adi hala çevrilmişdi. Qadınlara kişilərdən xeyli az, uşaqlara isə lap az zəhmət haqqı verilirdi. Məsələn, Qarabağ ipəksarıma müəssisələrində onlar ayda 3-10 manat arasında əmək haqqı alırdılar.

Böhran illərində qanunsuz cərimələrin sayı çoxaldı. Hətta maşının təbii olaraq sıradan çıxmasına görə də fəhlələrdən cərimə alınırdı. Onları normadan artıq işləməyə məcbur edirdilər.

Fəhlələrin mənzil şəraiti son dərəcə ağır idi. Onlar heç bir şəraiti olmayan daxmalarda yaşayırdılar. Mədənlərdə qalıb işləyən fəhlələrin həyatı daha dözülməz idi. Onlar xüsusi fəhlə qazarmalarında qalırdılar. Darısqal, his-toz basmış qazarma otaqlarının hər birində 6 nəfərdən artıq, hətta 20 nəfərədək fəhlə çox zaman döşəmənin üstündə yan-yana uzanıb yatırdı. Sabunçu kəndində ləzgi fəhlələri üçün qayaların arasında yaşayış yeri düzəldilmişdi. Mədən fəhləsi mənzil haqqı olaraq aylıq maaşının 15-20 faizə qədərini verirdi.

Neftçi fəhlələrin yaşadığı mədənlərdə hamam belə yox idi. Onlar çox vaxt ümumi göllərdə yuyunmağa məcbur olduqlarından, tez-tez yoluxucu xəstəliklərə tutulurdular. Hətta, 1903-1904-cü illərin ümumi tətillərinə qədər neft mədənlərində içməli su da verilmirdi. Dükan və aşxana sahibləri pulsuz fəhlələrə nisyə mal verir, haqq-hesab çəkilən zaman isə onları daim aldadırdılar.

Əksəriyyəti gəlmələrdən ibarət olan Gədəbəy mis mədəni fəhlələrinin yaşadığı qazarmalarda vəziyyət bundan yaxşı deyildi.

Bankə qəsəbəsindəki fəhlə qazarmalarında yaşayan balıqçılar müəssisənin hesabına yeyib-içməli idilər. Onların əmək haqqı hesablanan zaman əllərinə cəmi 6-7 manat pul çatırdı. Balıqçıların işi mövsümi idi. Onlar ilin on ayını işləyirdilər. May-iyun aylarında az miqdar təmirçi fəhlə saxlamaqla, bütün balıqçıları işdən azad edirdilər. İyul ayında başlanan balıq ovu mövsümünə təzədən işçi qüvvəsi toplanırdı.

Üzücü əmək, ağır həyat şəraiti fəhlələrin vərəm, revmatizm, qanazlığı, göz xəstəlikləri kimi bir sıra peşə xəstəliklərinə tutulmasına, onların vaxtından əvvəl əmək iqtidarını itirib sıradan çıxmasına səbəb olurdu.

Fəhlələrin təhlükəsizliyinin qorunması qayğısına qalmırdılar. Bakıda hər quyu qazılıb qurtaranadək orta hesabla 10 adam ölür və ya şikəst olurdu. Belə çıxır ki, təqribən yarım əsr ərzində inşa edilmiş 4 min quyu 40 minədək fəhlənin ölümü və ya şikəstliyi hesabına başa gəlmişdir.

İl ərzində Azərbaycanın ipəksarıma fabriklərində orta hesabla 40 nəfər ölür, 60 nəfər ağır yaralanırdı. Bu cür bədbəxt hadisələr sənayenin başqa sahələrində də baş verirdi.

İctimai sığorta yox idi. Xəstəliyə tutulmuş və şikəst olmuş fəhlə yaşamaq vasitələrindən məhrum edilirdi. Mirzəbekyansın tütün fabrikində hətta bir neçə gün xəstələnib işə çıxmayan fəhləni işdən qovurdular.

Böhran illərində fəhlələrlə kobud rəftar edilməsi, onların hətta döyülməsi halları çoxalmışdı. Mirzəbekyansın fabrikində fəhlələrin döyülməsi adi hal almışdı.

Fəhlələri, xüsusən tətil edənləri işdən qovur, onları cəzalandırmaq üçün xəfiyyə idarələri müxtəlif bəhanələr qondarıb, saxta işlər düzəldirdilər. 1901 - 1904-cü illərdə bu cür düzəldilən 260 saxta iş nəticəsində çoxlu fəhlə polis təqibinə məruz qalmışdı.

Rus-yapon müharibəsi və 1905-1907-ci illər inqilabı dövründə ölkədə baş verən qıtlıqla əlaqədar olaraq bahalığın artması nəticəsində zəhmətkeşlərin vəziyyəti xeyli pisləşdi.

1904 və 1907-ci illər arasında çörək, un, ət, kartof kimi çoxişlənən ərzaq mallarının qiyməti daha çox bahalaşdı. Fəhlələrin real əmək haqqı 15-30 faiz düşdü.

Birinci rus inqilabının məğlubiyyətindən sonra başlanan irtica illərində fəhlələrin vəziyyəti daha da ağırlaşdı. İnqilab dövründə neftçilərin əldə etdikləri bəzi nailiyyətlər heçə endirildi. Hər növbəsi 9 saatdan çox olmayan üçnövbəli iş sistemi, yenidən hər növbəsi 10—12 saat olan ikinövbəli işlə əvəz edildi. Bir sıra sənaye sahələrində qarətçi cərimə sistemi yenidən geniş vüsət, aldı. Məsələn, mədəndə 25 manat maaşla işləyən dartayçı fəhlədən çox vaxt 10 manat məbləğində cərimə tutulurdu.

İnqilabi əhval-ruhiyyəli fəhlələrin «qara siyahısı» düzəldilmişdi. Sənayenin durğunluğu ilə əlaqədar olaraq ştatlar ixtisar edilərkən həmin fəhlələrin adı birinci yazılırdı. Neftçi fəhlələri öz hesabına qeyri-müəyyən müddətə məzuniyyət götürməyə məcbur edir, bəzi fəhlələr isə ayın yalnız 8-15 gününü işləyirdilər. İşsizlərin sayı durmadan artırdı. Minlərlə işsiz fəhlə Bakıdan sürgün edilmişdi. 1908-1909-cu illərdə neft sənaye fəhlələrinin əmək haqqı 10-15 faiz azalmış, ərzaq mallarının qiyməti isə 65-76 faiz artmışdı. 1911 - 1912-ci illərdə əmək haqqı yenidən 10 faiz azaldıldı.

Rus və xarici sahibkarların özbaşınalığı həddini aşmışdı. Bir sıra şirkətlər, o cümlədən Xəzər şirkəti, Nobel qardaşları birliyi fəhlələrə mənzil kirayə haqqı verməmək üçün, onlara hətta müdiriyyətdən icazəsiz evlənməyi də qadağan etmişdilər. Bir şirkətdə fəhlələri çox güclü tufan şəraitində baş vermiş yanğını söndürməyə məcbur etdilər. Bu zaman neft çəninin partlaması nəticəsində 35 fəhlə öldü, çoxları isə ciddi bədən xəsarəti aldı.

Bakı gizli polis şöbəsinin rəisi etiraf etməli olmuşdur ki, sahibkarların belə qanunsuz hərəkətləri «gizli narazılıq və inqilabi təşviqat üçün əlverişli şərait yaradır».

Birinci dünya müharibəsi illərində zəhmətkeşlərin yaşayışı son dərəcə ağırlaşdı. Ən zəruri şeylərin qiyməti 3-5 dəfə bahalaşdı. Məsələn, çörəyin qiyməti 3 dəfə, düyünün qiyməti 4 dəfəyə yaxın, günəbaxan yağı 4,5 dəfə, ərimiş kərə yağının qiyməti 5 dəfədən çox artdı. Fəhlələrin maaşı isə çox az qalxdı. Məsələn, neftçilərin əmək haqqı, 1913-cü illə müqayisə etdikdə, 1915-ci ildə cəmi 23 faiz, 1916-cı ildə isə 70 faiz çoxalmışdı. Bakıda və ölkənin başqa şəhərlərində möhtəkirlik geniş vüsət aldı.

Qafqaz cəbhəsində hərbi əməliyyatlarla əlaqədar olaraq dəmir yollar ilə əsasən qoşun və hərbi sursat daşınması Bakı əhalisinin Şimali Qafqazdan gətirilən ərzaq məhsullarından məhrum etmişdi. Bakıda iri qoşun hissələrinin yerləşdirilməsi də şəhərin ərzaqla təminatını xeyli çətinləşdirmişdi.

**Kəndlilərin vəziyyəti:** Azərbaycan kəndlilərinin vəziyyəti daha ağır idi. Onlar torpaqsızlıqdan və aztorpaqlılıqdan xüsusilə əziyyət çəkirdilər.

Aztorpaqlı və torpaqsız kəndlilər ağır şərtlərlə torpaq icarəyə götürməyə məcbur olurdular. Hələ 1901-ci ildə Yelizavetpol quberniyasında kəndlilərin istifadəsində olan tornaqların təqribən 1/3 hissəsi icarəyə götürülmüş torpaqlar idi. İcarə haqqını ödəməyin əsas forması məhsulun 1/10 hissəsindən 1/2 hissəsinə qədərini təşkil edən paydarlıq idi. İcarədarlığın işləyib ödəmə kimi, bir növ, biyar forması da vardı. Bəzən torpaq sahəsi pulla icarəyə verilirdi.

İcarədarlığın daha soyğunçu üsullarına əl atılırdı. Bu, icarəyə götürülmüş torpağın sonradan daha ağır şərtlərlə təkrar icarəyə verilməsi üsulu idi. İcma torpaqlarının çox hissəsini tutmaqla kifayətlənməyən qolçomaqlar və varlı kəndlilər iri bəy-mülkədar mülklərində uzun müddətə torpaq icarəyə götürür və ya dövlətin müzaidə yolu ilə icarəyə verdiyi torpaq sahələrini satın alırdılar. Bu torpaqlar qat-qat baha qiymətə yenidən yoxsul kəndlilərə icarəyə verilirdi. Məsələn, suvarılan hər desyatin torpaq sahəsi üçün xəzinəyə 1 man. 25 qəp. icarə haqqı ödəyən qolçomaq onu yenidən icarəyə verən zaman hər desyatin üçün orta hesabla 50 pud buğda, pula çevirdikdə isə 50 manat haqq alırdı.

Çar hökuməti tərəfindən Rusiyanın mərkəzi quberniyalarından rus ailələrinin köçürülüb Azərbaycanda yerləşdirilməsi yerli kəndlilərin vəziyyətini daha da ağırlaşdırdı. Gəlmə ruslar yerli kəndlilərin hesabına torpaqla gen-bol təmin edilirdilər. Kəndlilər öz torpaqlarından, yaşayış yerlərindən, bəzən, görünməmiş vəhşiliklə qovulurdular.

1904-cü ildə çar məmurları Lənkəran qəzasının Mir-Mövsümkənd əhalisinə məxsus bütün pay torpaqlarını kəndlə birlikdə gəlmə ruslara verdi. Soyuq qış ayı olmasına və vəba epidemiyasının tuğyan etməsinə baxmayaraq, zalımlar yerli kəndliləri öz daxmalarından zorla çıxarıb çölə tökdülər, sonra onların komalarına və bütün tikililərinə od vurub yandırdılar.

Bəzən bu zorakılıqlar yerli əhaliyə qarşı açıq silah işlədilməsi yolu ilə həyata keçirilirdi. Məsələn, Alar kənd camaatını heç bir əvəz vermədən öz torpaqlarından qovan zaman gəlmə ruslar xəzinənin hesabına silahlanmışdılar. Yerli qəza rəisinə tapşırılmışdı ki, Muğanda salınmış yeni rus kəndlərinin sakinlərini hər 100 evə 10 berdanka hesabı ilə silahlandırsın.

Torpaqsız və aztorpaqlı kəndlilər arasında mövsümi işlərlə məşğul olanların sayı sürətlə artırdı. Kəndlilər xüsusən payız və qış fəsillərində bir neçə ay müddətinə başqa kəndlərə, habelə şəhərlərə işləməyə gedirdilər.

XX əsrin əvvəllərində Yelizavetpol quberniyasının Şuşa, Zəngəzur, Cavanşir, Cəbrayıl qəzalarında mövsümiliklə 16,5 min kəndli məşğul olmuşdu ki, bu da həmin qəzaların kəndlərindəki yaşlı kişi əhalisinin 1/3 hissəsini təşkil edirdi.

Azərbaycanda neft sənayesinın inkişafı ilə əlaqədar olaraq kəndlilərin Bakıya axını xüsusilə güclənmişdi.

Bəzən mövsümi işə gedən aztorpaqlı, xüsusən torpaqsız kəndlilər həmişəlik şəhərdə qalaraq proletarlara çevrilirdilər. Bu cəhətdən Abşeron kəndliləri xüsusilə fərqlənirdilər.

Abşeron yarımadasında Balaxanı, Suraxanı, Sabunçu, Zabrat, Əmircan, Bülbülə və digər kəndlərim təsərrüfatları, əsasən, xəzinəyə məxsus neftli torpaqlarda yerləşirdi. Dövlət bu torpaqları müntəzəm olaraq alıb neft sənayeçilərinə icarəyə verirdi. Əkin yerləri əllərindən çıxmış həmin kəndlərin sakinləri Azərbaycan neftçilərinin ilk dəstələrini təşkil etdilər.

Azərbaycanda suvarma əkinçiliyi əsas yer tuturdu. Suvarma mənbələrinə, suyun paylanmasına nəzarət edən mirablar suyu, bir qayda olaraq, peşkeş verənlərə, habelə mirab seçkiləri zamanı onların tərəfini saxlamış kəndlilərə verirdilər. Mirabların getdikcə qubernatorlar tərəfindən təyin edilməsi onların özbaşınalığını daha da artırdı, suya görə haqq xeyli qaldırıldı, nəticədə bir sıra əkinlər susuzluqdan tələf oldu.

Kəndlilər məcburi şəkildə ödəməli olduqları çox ağır «qanuni» vergilərdən əlavə, bəylərə və mülkədarlara, artıq ənənəyə çevrilmiş müxtəlif peşkeşlər verirdilər. Məsələn, Novruz bayramı münasibətilə bayramlıq, kəndli evlənəndə toy pulu, mülkədar evlənəndə toy xərci və s. Kəndlilərdən taxıl ölçüb alınmasına nəzarət edən mülkədarın darğası hər kəndlidən 20 qəpikdən 50 qəpiyədək xərclik alırdı.

Zemski rüsumunun bölüşdürülməsində elə qayda qoyulmuşdu ki, ağırlıq əsasən kəndlilərin üzərinə düşürdü. Belə ki, zemski rüsumu kəndin ümumi əkin sahəsinin həcminə görə müəyyənləşdirilməli olduğu halda, o, təsərrüfatlar arasında bərabər surətdə bölünürdü. Ona görə də, gəliri əsas götürdükdə kəndlilər varlılara nisbətən ölçüyəgəlməz dərəcədə artıq zemski rüsumu ödəməli olurdular.

Kəndlilər bir sıra «könüllü» ianələr də verməli idilər. Onlar özlərinin illik gəlirinin $^1/_7$ hissəsini «xüms», $^1/_{10}$ hissəsini «zəkat» olaraq verir, orucluq

qurtaranda ailənin hər bir üzvünə 7 kirvənkə taxıl hesabilə «kasıblara paylamaq» üçün mollalara «fitrə» göndərirdilər.

Çar məmurlarının rüşvətxorluğu, özbaşınalığı həddini aşmışdı. Bütün mübahisəli məsələlər bir qayda olaraq, rüşvət verənin xeyrinə həll olunurdu. Məmurlar kəndlilərdən müxtəlif bəhanələrlə əlavə məhsul və pul tələb edir, vergiləri görünməmiş vəhşiliklə yığır, onları təhqir edir və döyürdülər.

1904-cü ilin təkcə noyabr ayında Şuşa qəzasının Qaravəlli kənd camaatından qanunsuz olaraq 425 manat pul toplanıb mənimsənilmişdi.

Quba qəzasının Şıx-Xızı kəndinin kəndliləri 1907-ci ilin vergilərini ödədikdən sonra pristav Kanyuşevski əlavə olaraq 699 manat verilməsini tələb edir. Kəndlilər rüşvotxoru məhkəməyə verirlər. Məhkəmə işi pristavın xeyrinə həll etdikdən sonra, kəndlilər tələb edilən məbləği toplayıb verməyə məcbur olurlar. Pristav pulu alarkən hələ üstəlik bildirir ki, 60 manat da borcları qalıbdır.

Başqa bir məmur vergini toplayıb qurtardıqdan sonra kəndlilərdən rüşvət olaraq taxıl, arı təknəsi, həmçinin xeyli məbləğdə pul tələb edir. Kəndlilər bundan imtina etdikdə, yüzbaşı onların arvadlarını aparıb rüşvəti almayıncaya qədər - iki gün saxlayıb buraxmır.

Bəzən bəylər və mülkədarlar sahibkar kəndlilərdən vergi yığmağı iri icarədarlara icarəyə verirdilər, həmin icarədar da, öz növbəsində, vergi toplamağı bir neçə vasitəçi icarədara icarəyə verirdi. Vasitəçi icarədarlar fırıldaq və aldatma yolu ilə kəndlilərdən xeyli artıq vergi alırdılar.

Vergi yığmaq ilə bərabər, hətta rəiyyət üzərindəki özünün bütün hüquqlarını da icarəyə verən iri torpaq sahiblərinə təsadüf edilirdi. Məsələn, 1903-cü ildə Zaqatala dairəsində bir kəndi oranın camaatı üzərində bəyin bütün hüquqları ilə birlikdə 9 il müddətinə icarəyə götürən iki nəfər nuxalı tacir misli görünməmiş özbaşınalıq etmişdir. Onlar özlərini kəndin tam ağası kimi apararaq, xeyli artıq vergi toplayır, heç bir etiraza məhəl qoymadan kəndlilərin həyətlərinə soxulub, onların əzizləyib saxladıqları çoxillik çinarları, xurma və başqa meyvə ağaclarını kəsir, xoşlarına gələn sahələri, hətta kəndin mal-qarasının səhər toplandığı naxır meydançasını sürdürüb əkir, otlaqlara müntəzəm olaraq su buraxmaqla heyvanları örüşsüz qoyur, özlərinin sürülərini gətirib bu yerlərdə otarırdılar.

Vergi verməyə imkanı olmayan kəndliləri bəzən vəhşicəsinə döyürdülər ki, bu zaman ölənlər də olurdu. Məsələn, var-yoxu olan təkcə toyuğunu vermədiyinə görə yüzbaşı bir kəndlini şallaqla döymüş, sonra şallağın dəstəyi ilə onun sol böyrunə vurub öldürmüşdü. Yaxud, bir kəndli ilə sorğu-sual aparan zaman məftildən toxunmuş qırmancla onu döymüş, sonra tüfəngin qundağı ilə qarnına elə vurmuşlar ki, zavallı ertəsi gün ölmüş, arvadı və yeddi uşağı başsız qalmışdır və s. Kəndlilər pristavların, uryadniklərin və digər çar məmurlarının özbaşınalığından yuxarı hökumət idarələrinə saysız-hesabsız şikayət ərizələri

yazırdılar. Lakin çar hakimiyyət orqanları işi həmişə cibidoluların xeyrinə həll edirdi.

Ədalətsizlik gəlib o yerə çatmışdı ki, hətta bəzi yüksək rütbəli dövlət məmurları da bunu etiraf etməyə məcbur olmuşdular.

Lənkəran qəzasının rəisi Bakı qubernatoruna raportunda yazırdı ki, yüzbaşılar və hakimlər istisnasız olaraq rüşvət alırlar. Kənd məhkəmələrində işlər haqlı olanın xeyrinə deyil, çox pul verənin xeyrinə həll edilir.

Qafqaz canişini Vorontsov-Daşkovun özü etiraf etmişdir ki, bürokratiyanın bütün qayğısı Qafqazda imtiyazlı təbəqələri müdafiə etməkdir. O göstərirdi ki, kəndlilərin pay torpaqlarına mülkədarların bütün münasibətlərində özbaşınalıq hökm sürür, yerli hakimiyyət orqanları mülkədarların təsiri altındadır.

Birinci dünya müharibəsi illərində kəndlilərin yaşayışı olduqca pisləşdi. Ərzaq və sənaye malları qat-qat bahalaşdı, qıtlıq son dərəcə gücləndi.

1914-cü ilin dekabrında çarın verdiyi qanuna əsasən torpaq vergisinin miqdarı 50 faiz artırıldı.

1915-ci ildə çar hökumətinin fərmanı ilə 25 yaşınadək gənclər cəbhəarxası işlərə səfərbər edildi. Azərbaycanın əmək qabiliyyətli kənd əhalisinin 30 faizi təsərrüfatdan ayrılıb arxa işlərə göndərildi.

Hərbi ehtiyaclar üçün on minlərlə at, qaramal müsadirə edildi.

1916-cı ildə qeyri-xristian əhalisinə əlavə olaraq xüsusi hərbi vergi qoyuldu.

Bütün bunlar onsuz da ölgün vəziyyətə düşmüş kəndli təsərrüfatlarının müflisləşməsinə səbəb oldu. İş heyvanı olmadığına görə yüzlərlə kəndli təsərrüfatı becərilməmiş qaldı. Əhali aclıq çəkməyə başladı.

Çar müstəmləkə orqanlarının, rus məmurlarının və digər zalımların özbaşınalığı, zorakılığı zəhmətkeş kütlələrin sinfi və milli-azadlıq mübarizəsinin daha da güclənməsinə səbəb oldu.

* * *

1. 1915-ci ildə Bakı sənaye rayonu Azərbaycanın ümumi gəlirinin yarıya qədərini, bütün sənaye məhsulunun isə 71 faizdən çoxunu verirdi. Buranın sənaye, nəqliyyat, ticarət, rabitə və xidmət sahələrində 109 minə qədər fəhlə çalışırdı. Onların 45 min nəfəri neft sənaye fəhlələrindən ibarət idi.

Fəhlələrin sırasında 29 millətin nümayəndəsi vardı. Onların 41 faizindən çoxunu azərbaycanlılar, 27,5 faizini ruslar, 17,7 faizini ermənilər, 6 faizini dağıstanlılar və digər millətlərin nümayəndələri təşkil edirdi.

Rusiya imperiyasında əhalinin hər 100 nəfərinə düşən fəhlənin sayına görə Bakı quberniyası Moskva, Vladimir və Peterburq kimi iri mərkəzi-sənaye quberniyalarından sonra dördüncü yeri tuturdu. Bakı quberniyasında hər yüz nəfərə 5,3 fəhlə düşürdü.

2. Neft sənayesində toplanan külli miqdarda kapitalın vasitəsilə Azərbaycanda, Rusiyada, həmçinin xarici ölkələrdə bir sıra istehsal sahələri ələ keçirilmiş və yeniləri yaradılmışdır. Erməni kapitalisti S. Q. Lianozov başqa bir neft sənayeçisi ilə şərikli sement və digər tikinti materialları istehsal edən «Tauz» şirkətini təsis etmişdi. O, Ənzəli - Tehran yolu avtomobil nəqliyyatı şirkətinin 25 faiz payını və Qafqazda dəmir filizi sənayesinə nəzarətin 30 faizini öz əlinə keçirmişdi. Azərbaycan neftindən hədsiz dərəcədə varlanmış erməni milyonçuları olan Qukasovlar ailəsi Rusiyada iri elektronika, akkumulyator və armatur-elektrik sahələrini ələ keçirərək, əslində, bütün elektrotexnika sənayesinmi inhisarçısına çevrilmişdi və s. b. k.

3. 1913-cü ildə, Bakı sənaye rayonunu çıxdıqdan sonra, qəzalarda ümumi məhsulun 40 faizini onun sənaye sahələri verirdi. Bu, Azərbaycanın bütün sənaye məhsulunun təqribən 29 faizini təşkil edirdi.

4. Bu dövrdə yüngül sənaye sahələrində 13600 nəfərdən çox, yeyinti sənaye sahələrində isə 58 min nəfərdən çox, cəmi 71,7 min fəhlə işləyirdi. Digər sənaye, nəqliyyat, rabitə və xidmət sahələrində çalışan fəhlələrlə birlikdə qəzalarda (Bakısız) fəhlələrin ümumi sayı 90 min nəfərə çatırdı.

Qəzalarda sənaye fəhlələrinin 4/5 hissəsindən çoxunu azərbaycanlılar təşkil edirdi.

5. 1913-cu ildə daimi kənd təsərrüfatı fəhlələri ilə birlikdə Azərbaycanda fəhlələrin ümumi sayı 305 min nəfərə çatırdı.

Fəhlələr Azərbaycan əhalisinin 12,4 faizini təşkil edirdi. Həmin dövrdə müvafiq Ümumrusiya səviyyəsi 12 faizə bərabər idi.

# II FƏSİL

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

## § 1. AZƏRBAYCAN XALQININ MİLLİ OYANIŞI. ZƏHMƏTKEŞLƏRİN KÜTLƏVİ İNQİLABİ MÜBARİZƏSİNİN BAŞLANMASI. AZƏRBAYCANLILARIN RUS-YAPON MÜHARİBƏSİNDƏ İŞTİRAKI

**Milli burjuaziya:** Xalqın oyanması və azadlıq mübarizəsinə qalxması üçün iqtisadi cəhətdən güclü, siyasi cəhətdən yaxşı təşkil olunmuş milli burjuaziyanın mövcudluğu mühüm şərtdir.

Azərbaycan milli burjuaziyasının müstəmləkə asılılığı şəraitində, Ümumrusiya bazarının tələbləri əsasında formalaşması onun sosial-siyasi mövqelərinə qüvvətli təsir etmişdir. Bu özünü, hər şeydən əvvəl, Azərbaycan burjuaziyasının çoxmillətli tərkibində, iqtisadiyyatın aparıcı sahələrinin əsasən rus, xarici və erməni kapitalistlərinin əlində cəmləşməsində, milli burjuaziyanın hüquqsuzluğunda və zəifliyində göstərirdi.

Milli burjuaziya neft sənayeçilərini birləşdirən təşkilatların heç birinin idarə heyətində təmsil edilmirdi.

Azərbaycanlı sahibkarlar Bakı neft sənayeçiləri qurultayı Şurası (BNSQŞ) və müharibə dövründə təşkil edilmiş Bakı hərbi-sənaye komitəsi (BHSK) tərkibinə daxil deyildilər. On illər boyu Şuraya və Komitəyə məşhur erməni kapitalistləri A. O. və P. O. Qukasov qardaşları başçılıq etmişlər.

Bakı rayonunda Birja cəmiyyətinin daimi seçkili orqanı olan birja komitəsində milli burjuaziyadan nümayəndə yox idi. Halbuki şəhərdə tacirlərin yarıya qədərini azərbaycanlılar təşkil edirdi. Birja komitəsinin sədri daim erməni neft sənayeçisi S. S. Taqianosov olmuşdur. Azərbaycanda fəaliyyət göstərən çoxlu bank ruslara məxsus idi. (İlk milli bank yalnız 1914-cü ildə Bakıda H. Z. Tağıyev və M. Nağıyev tərəfindən təsis edilmişdir).

Müstəmləkəçilər rus kapitalistlərinin mənafeyini güdərək, milli ucqarlarda bəzi sənaye sahələrinin yaradılmasına və inkişafına ciddi müqavimət göstərirdilər. Milli kapitalın ən görkəmli nümayəndəsi H. Z. Tağıyev ilk toxuculuq fabrikinin hələ tikintisinə icazə almaqdan ötrü bir neçə il çalışmış, Peterburq və Moskvanın yüksək rütbəli məmurlarına külli miqdarda «hədiyyələr» verməyə məcbur olmuşdu. Çünki, yeni fabrikin açılması məşhur milyonçu Morozovun başçılıq etdiyi rus toxuculuq sənayesinə zərər vura bilərdi. Yaxud, Azərbaycanın xam ipəyi

Rusiyanın toxuculuq fabriklərinə, hətta xarici ölkələrə göndərildiyi halda, onun özündə ipək parça toxuyan müəssisə yox idi və s.

Lakin çarizmin iqtisadiyyat sahəsində ayrı-seçkilik siyasətinə baxmayaraq, milli burjuaziya daim inkişaf edirdi. Milli burjuaziya neft sənayesində üstün mövqe tutmasa da, öz kapitalını yüngül və yeyinti sənayesinə, mexaniki istehsala, ticarətə, tikintiyə və sair sahələrə qoymaqla xeyli sərvət toplamışdı. Bakıda irili-xırdalı mülk sahiblərinin 80 faizdən çoxunu azərbaycanlı kapitalistlər təşkil edirdi. Topdansatış ticarətində də onlar mühüm rol oynayırdılar. Xəzər dənizi vasitəsilə daşınan yüklərin 1/3 hissəsi azərbaycanlı gəmi sahiblərinin payına düşürdü. Neftdaşıyan yelkənli gəmilərin 60 faizi onlara məxsus idi.

XX əsrin əvvəllərində milli kapitalın Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov və başqa görkəmli nümayəndələri vardı. Bunların bir qismi, o cümlədən H. Z. Tağıyev, Ş. Əsədullayev, M. Muxtarov əhalinin yoxsul təbəqələri içərisindən çıxmış və çətin həyat yolu keçmişlər. Yalnız xoşbəxt təsadüf nəticəsində - özlərinin icarəyə götürdükləri torpaq sahələrində neftin fontan vurması ilə əlaqədar olaraq varlanmışlar.

**H. Z. Tağıyev** (1823—1924-cü illər) milli burjuaziyanın ən görkəmli nümayəndəsi idi. Keçən əsrin sonlarınadək, əsasən, iri neft sənayeçisi kimi məşhur olmuşdur. 1896-cı ildə «H. Z. Tağıyev» neft şirkəti o zaman fəaliyyət göstərən 90 şirkətin içərisində ən çox—32 milyon puddan artıq—bütün hasilatın 8,3 faizi qədər neft çıxarmışdı. Az sonra, Tağıyev, şirkətin milyon manat dəyərində 20 faizlik səhmini özündə saxlayıb, onu beş milyon manata satdı və çoxsahəli sahibkarlıq fəaliyyətinə keçdi. Neft sənayesində toplanmış nəhəng kapital ona xalq təsərrüfatının başqa sahələrində, ticarətdə mühüm mövqelər tutmağa imkan verdi.

XX əsrin əvvəllərində Tağıyev Zaqafqaziyada ilk pambıq-parça kombinatının əsasını qoymuş məşhur fabrikant, iri mülk və torpaq sahibi, tacir və bankir kimi tanınmışdı. Xəzərdə çoxlu gəmisi, şərikli iki doku şəhərdə xeyli yaşayış binası, mağazaları, un dəyirmanı, onlarca iri balıq vətəgəsi, qəzalarda minlərlə desyatin torpağı və müxtəlif istehsal sahələri vardı. Tağıyev ticarət firmasının Bakıda və Rusiyanın bir sıra şəhərlərində, həmçinin Ənzəlidə (İranda) nümayəndəlikləri (kontorları), iri yük anbarları vardı. Tağıyev Bakıda ilk milli bank təsis etmişdi. O, şəhərdə fəaliyyət göstərən bir neçə mərkəzi rus bankı və onun filiallarının idarə heyəti üzvü, bir sıra səhmdar müəssisəsinin sədri və ya sədr müavini seçilmişdi.

H. Z. Tağıyev böyük mesenat, maarifçi və xeyriyyəçi idi. Xalqın mədəni inkişafı və savadlanması üçün çox işlər görmüşdü. İlk milli teatr binası, ambulatoriya, ilk rus-müsəlman qız məktəbi onun pulu ilə tikilmişdi. «Kaspi», «Həyat» qəzetləri, «Füyüzat» jurnalı onun vəsaiti ilə çıxırdı. Onun pulu hesabına bir neçə təqaüd təsis edilmişdi. O, Azərbaycanda və Rusiyada fəaliyyət göstərən bir sıra xeyriyyə cəmiyyətlərinin sədri və ya üzvü idi. Bir neçə məktəb və digər mədəni-maarif müəssisəsinə himayədarlıq edirdi. Çoxlu azərbaycanlı gənc, o

cümlədən N. Nərimanov, Əlimərdanbəy Topçubaşov, Həsən bəy Ağayev onun yardımı ilə Rusiyanın və xarici ölkələrin ali məktəblərində təhsil almışdılar. Tağıyev xeyriyyəçilik işlərinə milyon manatdan artıq pul xərcləmişdi.

Azərbaycanda, Rusiyada, həmçinın bəzi xarici ölkələrdə geniş xeyriyyəçilik fəaliyyəti Tağıyevə nəinki müsəlman xalqları arasında, həm də rus hökumət dairələrində böyük hörmət qazandırmışdı.

Ona birinci kildiya taciri dərəcəsi, ələlxüsus, o dövrdə ən nüfuzlu sayılan həqiqi mülkü müşavir rütbəsi verilmişdi. (Azərbaycanda bu rütbəni alan təkcə E. Nobel idi). Senatın xüsusi fərmanı ilə H. Z. Tağıyev irsi dvoryan təsdiq edilmişdi. O, Rusiyanın bir sıra yüksək dövlət orden və medalları ilə, həmçinin xarici ordenlərlə təltif olunmuşdu.

XX əsrin əvvəllərində neft sənayesində milli burjuaziyanı, əsasən, Ş. Əsədullayev və M. Nağıyev təmsil edirdi. Onlar 20 milyon puda qədər - milli kapitalın payına düşən neftin 80 faizini çıxarırdılar. Onların neft emalı zavodları və neftdaşıyan gəmiləri vardı. İllik dövriyyəsi milyon manatlarla hesablanan geniş ticarət əməliyyatları aparırdılar. Ş. Əsədullayevin şirkəti Rusiyada yüzə yaxın və daha çox neft anbarı olan dörd iri şirkətdən biri idi.

Ş. Əsədullayev, M. Nağıyev, M. Muxtarov, həmçinin milli burjuaziyanın bir sıra başqa nümayəndələri xeyriyyəçilik işlərində yaxından iştirak edirdilər.

Milli burjuaziyanın inkişafı Azərbaycan zəhmətkeşlərinin sosial həyatında müsbət rol oynayırdı. Belə ki, milli sahibkarlar özlərinin müəssisələrində işləməyə, ilk növbədə, azərbaycanlı fəhlələri götürürdülər. Bu, Azərbaycanlı fəhlələrin güzəranının bir qədər yaxşılaşmasına, onlarda ictimai fəhlə şüurunun formalaşmasına səbəb olmaqla yanaşı, həm də çarizmin və qeyri-azərbaycanlı kapitalistlərin fəhlələrə münasibətdə yürütdükləri milli ayrı-seçkilik siyasətinə güclü zərbə vururdu.

Yelizavetpolda, Nuxada milli kapitalın iqtisadi cəhətdən nisbətən güclü bəzi nümayəndələri istisna edilərsə, ümumiyyətlə, Azərbaycanda milli burjuaziyanın çox böyük kütləsini xırda sahibkarlar təşkil edirdi. Xırda burjuaziya iri milli kapitalın güclü təsiri altında idi.

Milli burjuaziyanın iqtisadi cəhətdən getdikcə qüvvətlənməsi Azərbaycanın çoxmillətli burjuaziyası daxilində rəqabəti daha da gücləndirirdi. Milli kapitalın inkişafı yolunda erməni burjuaziyası daha böyük maneə idi. Erməni burjuaziyası iqtisadi cəhətdən Zaqafqaziyada ən qüvvətli olub, nisbətən zəif gürcü və Azərbaycan milli kapitallarını sarsıtmaq hesabına öz mövqelərini daha da möhkəmləndirməyə çalışırdı. Erməni kapitalı Azərbaycan xalq təsərrüfatının bir sıra mühüm sahələrində, o cümlədən neft sənayesində üstün mövqe tuturdu. Neft sənayesində Mantaşov, Lianozov, Qukasovlar, Mirzoyevlər və başqa erməni kapitalistləri hasilatın xeyli hissəsinə sahib idilər. 1912-ci ildə təkcə Mantaşovun şirkəti milli burjuaziyanın istehsal etdiyi qədər - 24 milyon pud neft çıxarmışdı. Rusiyanın içərilərinə doğru soxulmağa başlayan erməni milli kapitalının

nümayəndələri hökumət dairələrinə yaxın olub, siyasi cəhətdən nüfuzlu idi. Azərbaycan və erməni burjuaziyası arasındakı iqtisadi rəqabət getdikcə daha da genişlənərək, ictimai-siyasi xarakter alır və gələcək milli toqquşmalar üçün zəmin yaradırdı. Gənc Azərbaycan burjuaziyası iqtisadi cəhətdən zəif olduğu kimi, siyasi cəhətdən də yetişməmişdi. Birinci rus inqilabına qədər onun nəinki siyasi partiyası, hətta az-çox aydın siyasi platforması da yox idi.

Milli burjuaziya, xüsusən onun yuxarı təbəqəsi sahibkarlıq fəaliyyətində ayrı-seçkiliyin olmasından, azərbaycanlı kapitalistlərə ruslarla eyni hüquq verilməməsindən, şəhər özünüidarəsində milli nümayəndəliyə say məhdudiyyəti qoyulmasından və sairdən özünün narazılığını bildirsə də, çarizmə qarşı münasibətdə loyal mövqedə dayanır, siyasi passivlik göstərirdi.

Odur ki, XX əsrin əvvəllərində Azərbaycan zəhmətkeşlərinin çarizmə, müstəmləkəçilərə qarşı hərəkatı genişləndiyi zaman bu hərəkata başçılıq edə biləcək heç bir milli siyasi təşkilat, partiya yox idi. Halbuki bu zaman çarizmə qarşı başlıca siyasi qüvvə kimi çıxış edən RSDFP Azərbaycanda özünün təşkilatlarını yaradıb, yerli zəhmətkeşlər arasında iş aparırdı.

**Milli şüurun oyanması. Azadlıq ideyaları:** XIX əsrin axırlarında neft sənayesinin sürətli inkişafı nəticəsində Azərbaycanın Rusiya və Avropanın bir sıra ölkələri ilə əlaqələri xeyli genişləndi. Milli burjuaziyanın açıq-görən nümayəndələri xaricdə olarkən bir daha yəqin etdilər ki, Azərbaycanın iqtisadi-ictimai geriliyinin başlıca səbəblərindən biri onun özünün kifayət qədər ziyalı kadrlarının olmamasıdır.

Çar hökuməti digər müsəlman ucqarlarında olduğu kimi, Azərbaycanda da ali, həmçinin orta təhsil ocaqlarınım açılmasına icazə vermirdi. Ali təhsil almaq üçün Rusiya və ya xarici ölkələrə getmək lazım idi.

Artıq XIX əsrin axırı—XX əsrin əvvəllərində xeyli azərbaycanlı gənc Azərbaycandan kənardakı ali məktəblərdə təhsil alıb vətənə qayıtmışdı. Bunlar, əsasən, bəy-xan, həmçinin burjua ailələrindən çıxmışdılar. Onların arasında varlı xeyriyyəçilərin vəsaiti ilə oxuyan aztəminatlı azərbaycanlı gənclər də vardı. Peterburq, Moskva, Kiyev və Rusiyanın digər şəhərlərində, həmçinin Avropanın Fransa, Almaniya, İngiltərə kimi qabaqcıl kapitalist ölkələrinin iri mədəniyyət mərkəzlərində təhsil illəri azərbaycanlı tələbələrin ictimai-siyasi şüurunun formalaşmasında mühüm rol oynadı.

Avropanın qabaqcıl, mədəni ölkələrində xalqın tarixinin öyrənilməsinə, onun dilinin, adət və ənənələrinin qorunub saxlanmasına, elm və mədəniyyətinin inkişafına milli hökumətlərin xüsusi qayğı göstərməsi azərbaycanlı gənclərə əyani surətdə sübut etdi ki, xalqın mənəvi yüksəlişi yalnız onun milli-siyasi azadlığı şəraitində mümkündür. Müstəmləkə əsarətindən qurtarmaq üçün hər şeydən əvvəl, xalqın oyanması, onun milli özünüdərketməsi lazımdır.

Hələ XIX əsrin axırlarında milli şüurun oyanışı sahəsində bəzi addımlar atılmışdı. Mütərəqqi fikirli ədiblər, maarifçilər və başqa ziyalılar xalqın tarixini,

mədəni irsini araşdırmağa başlamış, onu milli süstlükdən xilas etməyin yollarını tapmağa çalışmışlar. Bu elə bir dövr idi ki, nəinki savadsız adamlar, hətta ziyalıların çoxu öz mənşəyini bilmir, milləti isə hər kəs istədiyi kimi: «tatar», «Qafqaz tatarları», «müsəlman», «tuzems» və s. adlandırırdılar.

Belə bir şəraitdə H. Zərdabi, C. Məmmədquluzadə, M. Ə. Sabir, N. Nərimanov, Ə. Haqverdiyev və digər demokratik ziyalıların maarifçilik ideyaları, onların orta əsr qalıqlarını tənqid edən ədəbi-publisistik yazıları milli oyanışa güclü təsir göstərdi.

Bu cəhətdən H. Z. Tağıyevin vəsaiti ilə rus dilində çıxan «Kaspi» qəzeti müəyyən rol oynayırdı. 1897-ci ildən Əlimərdan bəy Topçubaşovun redaktor olduğu həmin qəzetin ətrafında Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Haşım bəy Vəzirov və başqa demokratik ziyalılar birləşdilər. Onun səhifələrində milli hərəkatın bu və ya digər məsələlərinə dair məqalələr dərc edildi.

XX əsrin əvvəlində, milli hərəkat hələ aydın forma almadığı zaman, rus azadlıq hərəkatında geniş vüsət tapmış liberal və sosial-demokrat ideyaları Azərbaycanda milli şüurun formalaşmasına güclü təsir etdi. Ziyalıların bir hissəsi, xüsusən Rusiyada və Qərbi Avropada təhsil alanlar içərisində liberalizm baxışları möhkəmləndi. Milli-demokratik hərəkatın Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli kimi liberal əhval-ruhiyyəli xadimləri meydana çıxdı.

Milli-azadlıq hərəkatının fəal xadimi olmuş bir sıra mütərəqqi ziyalılar, o cümlədən Məmməd Əmin Rəsulzadə özlərinin ilk ictimai-siyasi fəaliyyətlərinə sosial-demokratiyanın sıralarında başlamışlar. Azərbaycan ziyalılarını sosial-demokrat hərəkatına cəlb edən, birincisi, RSDFP-nin Rusiyada mütləqiyyətə qarşı açıq mübarizə aparan güclü siyasi təşkilat olması, ikincisi, bu partiyanın II qurultayında millətlərə öz müqəddəratını təyin etmək hüququ verən qərarın qəbul edilməsi idi. M. Ə. Rəsulzadə gənc ziyalıların sosial-demokrat hərəkatına qoşulmalarının səbəbini izah edərək sonralar yazırdı ki, «Müasir sosializmdə onlar çarizmə qarşı mübarizədə etibarlı olmasa da, hər halda ən əlverişli müttəfiqi görürdülər».

XX əsrin əvvəllərində Rusiyada baş verən mühüm ictimai-siyasi hadisələrin təsiri altında milli tərəqqi, demokratiya və azadlıq haqqında ideyalar qəti şəkildə formalaşdı. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev və başqa ziyalıların milli dirçəlişə və azadlığa çağıran ideyaları meydana gəldi.

Əli bəy Hüseynzadə (1864-1940-cı illər) Peterburq və İstanbulun ali məktəblərində təhsil almışdı.

Xalqı ilk dəfə açıq surətdə «hürriyyət və müsavat»a (azadlıq və bərabərliyə) çağıran Ə. Hüseynzadə məqsədə çatmağın başlıca vasitəsi olaraq türk birliyi (ittihadi-türk) ideyasını irəli sürdü. O, bütün müsəlman türk xalqlarının müstəmləkə əsarətində olmasının, onların son dərəcə iqtisadi-mədəni geriliyinin başlıca səbəbini bu xalqların parçalanmış vəziyyətində görürdü.

Onun türk birliyi ideyasının pantürkizmlə heç bir əlaqəsi yox idi. Millətlərin hüquq bərabərliyini qəbul edən, habelə bütün türk xalqlarını Türkiyənin başçılığı altında birləşdirmək çağırışına biganə qalan bu ideyanın mərkəzində sırf milli azadlıq məsələləri dururdu. Türk xalqlarının tarixən formalaşmış mənşə, dil, dini etiqad və bu kimi soykök oxşarlıqlarına əsaslanan türk birliyi müstəmləkəçilərə qarşı mübarizədə vahid, ümumtürk cəbhəsi təşkil etməli idi.

Ə. Hüseynzadənin türk xalqlarının tərəqqisi ideyası «türklük, müsəlmanlıq və avropalılıq» prinsiplərinə əsaslanırdı.

«Türklük» dedikdə, ayrıca mənşəyə mənsub olan türk tayfa və xalqlarının hələ lap qədimdə yaranmış müstəqil dövlətlərinin yenidən baş qaldıracağı ehtiva olunurdu.

Ə. Hüseynzadə müsəlmanlığı milli tərəqqinin mənəvi əsası hesab edirdi. O, İslam dininin humanizminə toxunaraq göstərirdi: «İslamiyyətin məqsədi istiqlaliyyəti - insaniyyədir. Çünki islamiyyət bir dindir ki, millət və milliyyət tanımaz». Əli bəy İslamı paklığa, sosial ədalətə çağıran bir din kimi səciyyələndirərək qeyd edirdi ki, faizi və müamiləçiliyi, hər növ inhisarı haram buyuran islamiyyətin millətçilik və kapitalizmlə heç bir əlaqəsi yoxdur. O, qeyri-müsəlman ölkələrində müsəlmanlara qarşı xoşagəlməz münasibətin bir səbəbini orada Quranın kəlamlarına yaxşı bələd olmamaları ilə əsaslandırırdı.

Əli bəy milli tərəqqidə avropalılığı Avropada bu və ya digər xalqın, dinin çərçivəsindən çıxıb, ümumbəşəri əhəmiyyət kəsb edən mədəniyyətlərinin əsaslarını İslam dininin qanunlarını nəzərə almaqla, Azərbaycanda tətbiq etməkdə görürdü.

Azadlığı mədəniyyətin, tərəqqi və təkamülün ən qəvi* mühərriki adlandıran Ə. Hüseynzadə milli və dini fərqlərindən asılı olmayaraq, bütün xalqları azadlığa çağırırdı. O, birinci rus inqilabına Azərbaycan xalqının milli-azadlıq hərəkatına təkan verən qüvvə kimi baxırdı.

Ə. Hüseynzadə sinfi bərabərsizliyin əleyhinə çıxırdı. O, «əmələnin əlilə hasil olan sərvəti-milliyyəni bir neçə sərmayədar arasında bölüşdürmək üçün şərtlər, qanunlar ixtira» edənləri məzəmmətləyərək, göstərirdi ki, «məzlum olan sinifləri zalım siniflərin təcavüzatından azad etmək», «yersiz, yurdsuz əkinçilərimizə» torpaq vermək, kasıbların həyat şəraitini yaxşılaşdırmaq lazımdır.

**Əhməd bəy Ağayev** (1869-1939-cu illər) əvvəlcə Peterburqda, sonra Fransada Parisin Sarbonna universitetində ali təhsil almışdı. İxtisasca hüquqşünas idi. Beş dildə sərbəst danışırdı. O, vaxtilə Böyük Fransa inqilabının elan etdiyi «Azadlıq, bərabərlik, ədalət» prinsiplərinə qızğın tərəfdar idi. Xarici, rus və yerli mətbuatda milli və dini məsələlərə dair bir sıra məqalələrlə çıxış etmişdi.

Ə. Ağayev birinci rus inqilabı ərəfəsində müsəlman müstəmləkə xalqlarının vəziyyətini səciyyələndirərək deyirdi: «Rusiyada biz müsəlmanlar, əslində, lazımsız artıq yükük. Biz yaşamırıq, ancaq sürünürük... Nəhəng, cansız

* qəvi – qüvvətli

vücud kimi səssiz-səmirsiz, susaraq uzanmışıq». O, milli istiqlaliyyətə nail olmağın başlıca şərti kimi mədəniyyət və maarifin tərəqqisini ön plana çəkirdi. Bunun üçün isə, Quranın kəlamlarını dərindən öyrənib, onlara əməl etməyi və Avropanın mədəni xalqlarının ən yaxşı ənənələrini mənimsəməyi, oradakı elmi və texniki nailiyyətlərlə yaxından tanış olmağı bütün müsəlman xalqlarına tövsiyə edirdi.

Müxtəlif millətlərə mənsub olan müsəlman xalqlarının mənşəyində, dilində, adət-ənənələrində tarixən formalaşmış fərqlərin və başqa özünəməxsusluqların, əlahiddəliyin mövcudluğu şəraitində, Ə. Ağayev həmin xalqların istisnasız qail olduqları İslam dininə onları azadlıq uğrunda birgə mübarizəyə səfərbər edən vahid qüvvə kimi baxırdı. O göstərirdi ki, müsəlman xalqlarının dirçəliş və tərəqqisi bu xalqlar arasında «yeganə fəal qüvvə olan din vasitəsilə» mümkündür.

İctimai-siyasi hadisələrə münasibətdə İslam qanunlarına istinad edilməsi panislamizmə əsla meyl demək deyildi. Əhməd bəyin İslam amilinin əsaslarını bu dinin humanist, yüksək əxlaqi keyfiyyətləri təşkil edirdi.

O, Qərbin və Rusiyanın antiislam təbliğatına qarşı ciddi mübarizə aparmağı, müsəlman ölkələrini müstəmləkə asılılığından, milli-siyasi iflasdan qurtarmağı qarşıya başlıca məqsəd olaraq qoyurdu. Ə. Ağayev deyirdi: «Əgər işlərimiz bu günkü kimi getsə, şübhəsiz ki, müsəlman aləmi məhv olmağa qadirdir; ən azı siyasi cəhətdən... Bunu gözümüzün qabağında müstəqilliyini itirmiş müsəlman dövlətlərinin timsalında daha aydın görə bilərik». O, ümummüsəlman birliyinə unitarizm məqsədlərindən tamamilə uzaq olan, milli istiqlaliyyətin zəmanəti kimi baxırdı.

Ə. Ağayev dini və milli ayrı-seçkiliyin əleyhinə çıxaraq deyirdi ki, «din və məzhəb heç vaxt nifaq və ayrılığa səbəb olmayıb və olmaz». Milli münasibətlərdə hər hansı millət özünə ehtiram tələb etməklə bərabər, başqa milliyyətlərdən olanlara da hörmət bəsləməlidir.

O, dövlətin bacarıqsız, ləyaqətsiz adamların əlində olduğu istibdad üsulunu pisləyir, «hakimiyyətin xalqın əlində olduğu», xalq tərəfindən seçilmiş adamların idarə etdiyi dövlət quruluşuna tərəfdar çıxırdı.

«Azadlıq şüurun cövhəridir» deyən Əhməd bəy qeyd edirdi ki, azadlıq hər şeydən əvvəl, «sərbəst düşünmək və düşündüyünü sərbəst, səmimi söyləməkdir». Yüksək humanizm mədəniyyətinə malik olan Ə. Ağayev insanın nəinki fikirlərinə, onun şəxsiyyətinə də hər yerdə hörmət göstərilməsini tələb edirdi. O deyirdi ki, «İstər kasıb olsun, istər dövlətli, istər kiçik olsun, istər böyük, istər mənsəb sahibi olsun, istər mənsəbsiz—madam ki, insandır,—hörmətə layiqdir».

Ə. Ağayev hələ birinci rus inqilabından əvvəl, cəmiyyətin yüksək əxlaqi keyfiyyətlərə malik adamlara böyük ehtiyacı olduğu bir zamanda, milli burjuaziyanın yenə də siyasi gerilikdən çıxmağa səy göstərməməsini, onun meşşan və lovğa təbiətini ciddi tənqid edirdi. Göstərirdi ki, müsəlman dövlətlilərinin çoxu öz vəzifələrini anlamırlar, beləlari hətta dumaya işləmək üçün yox, şan-şöhrət üçün

üzv olurlar. Məhz bunun nəticəsidir ki, 1905-ci il hadisələrindən sonra Əli bəydə sosial-demokratiyaya rəğbət hissi oyanmağa başladı. Proletariatın çarizmə qarşı inqilabi mübarizədə qətiyyətliliyi və cəsarətliliyi onu razı salırdı. Xalqın inqilabi hərəkata qoşulmasını milli oyanışın əlaməti hesab edirdi.

**Fəhlələrin kütləvi inqilabi mübarizəsinin başlanması:** Azərbaycan zəhmətkeşləri rus müstəmləkəçilərinə və istismarçılara qarşı daim mübarizə aparmışlar.

Hələ XIX əsrin axırlarında Azərbaycanın bir sıra şəhərlərində fəhlələrin ilk çıxışları baş vermişdi. Bunlar, başlıca olaraq, kiçik və qeyri-mütəşəkkil iqtisadi tətillərdən ibarət idi.

Rusiyada proletariatın çarizmə və istismarçılara qarşı inqilabi mübarizəsinin qüvvətlənməsi Azərbaycanda fəhlə hərəkatına güclü təkan verdi.

XX əsrin başlanğıcında Bakı, Yelizavetpol və Gədəbəydə ilk sosial-demokrat dərnəkləri meydana gəldi. Bu dərnəklərin yaradılmasında Rusiyadan Qafqaza sürgün edilmiş inqilabçılar və iş dalınca buraya gələn rus fəhlələri mühüm rol oynayırdılar.

Bu dövrdə çoxmillətli Bakı proletariatı fəhlə və sosial-demokratiya hərəkatının ön sıralarında gedirdi. 1901-ci ildə Bakıda 15 sosial-demokrat dərnəyi vardı. Bu dərnəklərin işinə, ümumiyyətlə inqilabi hərəkata rəhbərlik etmək üçün həmin ilin yazında RSDFP-nin Bakı Komitəsi yaradıldı.

1901-çi ilin sentyabrında sosial-demokrat «İskra» qəzetinin xaricdən Təbriz vasitəsilə Bakıya gətirilən nömrələrini çoxaldıb Rusiyaya göndərmək üçün burada gizli «Nina» mətbəəsi təşkil edildi. (Mətbəə 1906-cı ilin əvvəllərinə qədər fəaliyyət göstərmiş, sonra Peterburqa köçürülmüşdür).

Fəhlələrin çıxışları getdikcə daha mütəşəkkil şəkil alırdı. Onlar təkcə iqtisadi tələblərlə kifayətlənmir, siyasi tələblər irəli sürürdülər.

1902-ci il aprelin 21-də Bakıdakı müəssisələrin 5 min fəhləsi əllərində «Rədd olsun mütləqiyyət!», «Yaşasın siyasi azadlıq!» sözləri yazılmış şüarlar apararaq nümayiş etdilər. Bu ilk siyasi nümayiş çox çətinliklə yatırıldı.

1903-cü il martın 2-də Bakı proletariatının böyük nümayişi oldu. Əllərində qırmızı bayraqlar tutaraq gedən nümayişçilər çarizmə qarşı mübarizəyə çağırırdılar. Nümayişçilərin üzərinə hücum edən kazaklar hətta uşaqlara və qocalara aman vermədən, onları döydülər, ələ keçən fəhlələri həbs etdilər. Hər iki tərəfdən yaralananlar oldu. Nümayiş polis və soldatların gücü ilə yatırıldı.

Həmin il martın axırlarında RSDFP-nin Qafqaz İttifaq Komitəsi yaradıldı.

Aprelin 27-də Bakı müəssisələrinin 10 mindən artıq fəhləsi Bir may nümayişinə çıxdı. Onların arasında qadınlar da vardı. Nümayiş silah gücünə yatırıldı. 12 nəfər ağır yaralandı. Onlarca qabaqcıl fəhlə həbs edildi.

1903-cü il iyulun 4-də ilk ümumbakı tətili baş verdi.

İyulun 1-də erməni kapitalisti Xatisovun Bibiheybətdəki mexaniki emalatxanasında işləyən fəhlələrin tətili şəhərdə ümumi tətilin başlanması üçün siqnal oldu. Müəssisələrin 50 minə yaxın fəhləsi işi dayandırıb tətil etdi.

Fəhlələr tərəfindən seçilmiş tətil komitəsi öz tələblərini hazırlayıb sahibkarlara verdi. Həmin tələblərin içərisində 8 saatlıq iş günü, 1903-cü ilin 2 mart və 27 aprelində nümayişlər zamanı həbs olunanların azad edilməsi, bu nümayişlərdə iştirak etmək üstündə işdən qovulanların öz yerlərinə qaytarılması, əmək haqqının artırılması və başqa tələblər vardı.

Tətilçilərin tələbləri rədd edildi. Çar hökuməti onlara qarşı ciddi cəza tədbirlərinə əl atdı. Bakı tətili haqqında qəzəblə: «Ümumrusiya miqyasındakı hərc-mərcliyin bu yuvasını məhv etmək lazımdır» - deyən Rusiya daxili işlər naziri Plevenin bilavasitə əmri ilə şəhərə qoşun yeridildi.

Tətilçilərin bir qismini şallaqların zərbəsi altında zorla işə çıxmağa məcbur etdilər. Onları vəhşicəsinə döydülər, xeyli tətilçi şəhərdən sürgün olundu, yüzlərlə qabaqcıl fəhləni tutub həbsxanaya saldılar.

Fəhlələrin sıralarına soxularaq, onları yalnız iqtisadi mübarizə aparmağa çağıran, əslində isə, gizli polis üçün işləyən zubatovçular iyun tətili günlərində tamamilə ifşa edildilər. Fəhlə hərəkatı fəallarının bir çoxu onların danosu ilə ələ keçmişdi.

İyulun 22-də tətil yatırıldı. Tətil nəticəsində kapitalistlərə xeyli ziyan dəydi. Onlar bəzi kiçik güzəştlərə getməyə məcbur oldular.

Ümumbakı iyun tətili azərbaycanlı fəhlələrin siyasi şüurunun oyanmasında mühüm rol oynadı, onların daha böyük kütlələr halında çıxışlarının əsasını qoydu. Bu tətil Zaqafqaziyada və Rusiyanın cənubunda tətil hərəkatının yüksəlməsinə səbəb oldu.

Bu zaman sosial-demokratiyanın daxilində bolşeviklərlə menşeviklər arasında fəhlə hərəkatında hegemonluq uğrunda mübarizə son dərəcə kəskinləşdi.

1904-cü ilin yayında Şendrikov qardaşlarının başçılıq etdiyi opportunist təşkilat geniş fəaliyyətə başladı. Şendrikovçular öz sələfləri zubatovçular kimi, fəhlələri yalnız iqtisadi tələblərlə kifayətlənməyə çağırır, əks təqdirdə, hətta fitnəkarlıq törətməkdən də çəkinmirdilər.

Bu zaman «Daşnaksütyun» partiyasının və «Daşnak tələbə ittifaqı»nın Bakıda şöbələri separatçılıq və millətçilik təbliğatını xeyli gücləndirdilər. Onlar ermənilərlə azərbaycanlılar arasında nifaq salmağa çalışır, tələbə-gənclər, xüsusən gimnaziyada oxuyanlar arasında milli eqoizm toxumu səpirdilər.

1904-cü ilin axırlarında RSDFP Bakı Komitəsinin nəzdində müsəlman ziyalıları tərəfindən sosial-demokrat «Hümmət» təşkilatı yaradıldı. Onun baniləri Mir Həsən Möhsümov (1882-1907-ci illər), Məmməd Əmin Rəsulzadə (1884—1955-ci illər) və Məmmədhəsən Hacınski (1875—1931-ci illər) idi. 1905-ci ildən təşkilata Məşədi Əzizbəyov, Nəriman Nərimanov, Soltanməcid Əfəndiyev, Bünyad Sərdarov və başqa bolşeviklər daxil oldular.

«Hümmət»in əsas məqsədi Azərbaycanda, eləcə də Rusiyanın müxtəlif yerlərində yaşayan müsəlmanları inqilabi hərəkata cəlb etmək idi. Bu zaman ana dilində təbliğat və təşviqata böyük ehtiyac vardı.

M. Ə. Rəsulzadə başda olmaqla bir qrup hümmətçi inqilabi mübarizəyə eyni zamanda milli-azadlıq hərəkatının ayrılmaz hissəsi kimi baxırdı. Bu cəhətdən onlar qeyri-azərbaycanlı sosial-demokratlarda» fərqlənirdilər.

Lakin «Hümmət» təşkilatının milli əsaslarda təşkil edilməsi, onun çox zaman müstəqil fəaliyyət göstərməsi, M. Ə. Rəsulzadə başda olmaqla bir qrup hümmətçinin RSDFP sıralarına daxil olmaqdan imtina etməsi partiya mərkəzində, xüsusən partiyanın Qafqaz komitəsində yaxşı qarşılanmırdı. Bu komitənin üzvü İ. Stalin partiyadan kənarda qalan hümmətçilərin hətta fiziki cəhətdən məhv ediləcəyi ilə hədələmişdi.

M. Ə. Rəsulzadə «Hümmət» təşkilatının 1904-1907-ci illərdə bir-birini əvəz edən «Hümmət», «Dəvət qoç», «Təkamül» və «Yoldaş» qəzetlərinin rəhbər və redaktorlarından biri olmuşdur. Bu qəzetin səhifələrində S. M. Əfəndiyevin, M. Əzizbəyov va başqa bolşeviklərin bütün millətlərin zəhmətkeşlərini mütləqiyyətə və istismarçılara qarşı mübarizəyə çağıran məqalələri ilə yanaşı, M. Ə. Rəsulzadə, M. H. Hacınski və başqa hümmətçilərin milli birliyə çağıran yazıları da dərc olunurdu.

1904-cü il dekabrın 13-də Bakı fəhlələrinin ikinci ümumi tətili başladı. Həmin gün «Hümmət»in Azərbaycan dilində «Rədd olsun mütləqiyyət!», «Yaşasın azadlıq!» sözləri ilə bitən intibahnaməsi buraxıldı. Tezliklə şəhərdə tətil edənlərin sayı 50 min nəfərə çatdı.

Tətilə rəhbərdik etmək üçün P. Caparidze, İ. Fioletov və A. Stopanidən ibarət tətil komitəsi yaradıldı. Tətil komitəsinin işində, ümumiyyətlə, tətilin hazırlanıb keçirilməsində Məmməd Məmmədyarov, Xanlar Səfərəliyev, Soltanməcid Əfəndiyev və başqa azərbaycanlı inqilabçılar yaxından iştirak edirdilər.

Tətil komitəsi tərəfindən fəhlələrin 34 maddədən ibarət tələbləri hazırlandı. Tələblərin içərisində: 8 saatlıq iş günü, həftəlik məcburi istirahət günləri verilməsi, fəhlə və sahibkarlardan ibarət mədən münaqişə komitələri yaradılması, ictimai sığorta, müdiriyyətin təqsiri uzündən, yaxud 1 May günlərində tətillə əlaqədar olaraq işlənilməyən vaxtın əmək haqqının ödənilməsi, fəhlələrin işə qəbulu və işdən çıxarılmasında onların numayəndələrinin iştirak etməsi və s. vardı.

Tətillə əlaqədar olaraq şəhərdə həyat ölgünləşmişdi. Müəssisələr və nəqliyyat işləmirdi.

Fəhlələri xırda güzəştlərlə aldadıb, tətili dayandırmaq cəhdləri baş tutmadı. Çar hökuməti zorakı tədbirlərə əl atdı. Şəhərdə hərbi vəziyyət elan edildi, dəmir yol və hökumot idarələrində qoşun yerləşdirildi.

Balaxanıda tətilçiləri silah gücünə işləməyə məcbur etdikdə, polislə qanlı toqquşma baş verdi. 15 tətilçi öldürüldü. Öldürülənlərin dəfn mərasimi möhtəşəm siyasi nümayişə çevrildi.

Tətili yatırmaq üçün bir sıra fitnələrə əl atıldı. Daşnakların köməyi ilə milli nifaq salmağa cəhd göstərildi. Qoşunların işə qarışması üçün mədənlərdə yanğınlar törədildi. Təkcə dekabrın son həftəsi ərzində iki yüzdən artıq buruq yandırıldı. Bu fitnəkarlıqların törədilməsində tətilçilərin siyasi mübarizəsinin kəskinliyindən narazı qalan şendrikovçular yaxından iştirak edirdilər.

Tətilin inadla davam etdirilməsi nəticəsində milyon manatlarla zərər çəkən neft sənayeçiləri və çar hökuməti, nəhayət, güzəştə getməyə məcbur oldular.

1904-cü il dekabrın 30-da fəhlələrlə sahibkarlar arasında ilk müştərək müqavilə imzalandı. Fəhlələr bu müqaviləni «mazut konstitusiyası» adlandırdılar. Dekabrın 31-də Bakı proletariatının ikinci ümumi tətili qalibiyyətlə başa çatdırıldı.

Fəhlələrin vəziyyəti bir qədər yaxşılaşdı. Onların əmək haqqı 20 faiz artırıldı, 9 saatlıq iş günü qoyuldu, fəhlələrin tətil etdiyi günlərin maaşı ödənildi, müəssisələrdə fəhlələrin mənafeyini müdafiə etmək üçün mədən-zavod komissiyalarının təşkilinə başlandı və s.

Tətil bir daha göstərdi ki, yalıız vahid mərkəz tərəfindən rəhbərlik edilən mütəşəkkil, həmrəy mübarizə qələbə ilə nəticələnə bilər. Bakı proletariatının çarizm və kapitalistlər üzərində dekabr qələbəsi Rusiyanın çox yerində tətil hərəkatına güclü təkan verdi.

**Kəndli çıxışları:** Kənddə sinfi mübarizə getdikcə qüvvətlənirdi. 1901 - 1903-cü illərdə Bakı qəzasının Buzovna, Zığ, Əhmədli və Maştağa kəndlərində, Şamaxı qəzasının Nəvahi kəndində, Yelizavetpol və Naxçıvan qəzalarında kəndlilərin çıxışları baş verdi

1903-cü ildə Yelizavetpol qəzasında Qarabulaq kəndinin kəndliləri məmur və hakimlərin zülmündən cana gələrək, köçüb Burcalar adlanan dərədə məskən saldılar. Əvvəlki zalımları onlardan yenə də əl çəkmədikdə, burcalılar Dəli Aslan Həsən oğlunun başçılığı ilə qaçaq dəstəsi düzəldib, onların üzərinə göndərilən 300 kazaka qarşı ciddi müqavimət göstərdilər. Burcalılar uzun müddət silahlı mübarizə apardılar.

Həmin qəzada Dəli Əli Məhərrəm oğlunun başçılıq etdiyi qaçaqlar hökumət quvvələrinə qarşı bir neçə cəsarətli hücumlar etdi. 1904-cü ilin mayında Dəli Əlinin qaçaq dəstəsi Bittili kəndi yaxınlığında strajniklərin bir bölüyü ilə döyüşə girib, onları qaçmağa məcbur etdi.

1904-cü ilin dekabrında Lənkəran qəzasında qaçaq dəstəsi məmurların evlərinə hücum etdi.

**Azərbaycanlıların rus-yapon müharibəsində iştirakı**: 1904-1905-ci illərdə Rusiya ilə Yaponiya arasında müharibə başlandı. Çarizm qalibiyyətli müharibə vasitəsilə özünün bir sıra imperialist planlarını həyata keçirmək və Rusiyada dərinləşməkdə olan inqilabi böhranın qarşısını almaq ümidində idi.

Bu müharibədə azərbaycanlı topçu zabitləri polkovnik Səməd bəy Mehmandarov (1855-1931-ci illər), kapitan Əliağa Şıxlinski (1863-1943-cü illər), süvari alayı komandiri Hüseyn xan Naxçıvanski (1863-1919-cu illər), mayor İbrahim ağa Usubov (1872-1920-ci illər), poruçik Ağababa Sadıqov (1875-1905-ci illər), poruçik Zülfüqar Bağırbəyov (1874-1916-cı illər) və başqaları iştirak etmişlər. Topçu zabiti Ağababa Sadıqov Port-Artur uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Döyüşlərdə, xüsusən Port-Arturun müdafiəsi zamanı göstərdikləri şücaətə görə S. Mehmandarov, Ə Şıxlinski, H. Naxçıvanski bir sıra orden və üstü yazılı qızıl qılıncla təltif edildilər. S. Mehmandarova general-mayor, Ə. Şıxlinskiyə polkovnik, İ. Usubova podpolkovnik rütbəsi verildi.

Müharibədə çarizmin dalbadal məğlubiyyətə uğraması Rusiyada, o cümlədən Azərbaycanda inqilabi böhranı daha da dərinləşdirdi.

## § 2. MİLLİ-DEMOKRATİK HƏRƏKATIN VƏ İNQİLABİ MÜBARİZƏNİN YÜKSƏLMƏSİ. MİLLƏTLƏRARASI MÜNAQİŞƏLƏR

**Milli siyasi mübarizənin qüvvətlənməsi:** 1905-1907-ci illərin birinci rus inqilabı mütləqiyyətin dayaqlarını kökündən sarsıtdı, müstəmləkə xalqlarının milli-azadlıq hərəkatına güclü təkan verdi. Başlanmış inqilabla əlaqədar olaraq Rusiyanın siyasi həyatında baş verən dönüş bütün sinif, siyasi qrup və cərəyanları öz xətt-hərəkətlərini yeni şəraitə uyğunlaşdırmağa, mütləqiyyət quruluşuna yeni münasibətlər müəyyənləşdirməyə məcbur etdi.

1905-1907-ci illər inqilabi zamanı rus proletariatı və zəhmətkeş kəndliləri çar istibdadına qarşı sinfi mübarizəyə qalxmışlarsa, müstəmləkə xalqları, o cümlədən Azərbaycan xalqı üçun bu inqilab, hər şeydən əvvəl, milli-azadlıq mübarizəsi idi.

Rus inqilabının təsiri ilə Azərbaycanda milli hərəkat xeyli canlandı. Milli-demokratlar hazırkı dövrdə çarizmin hələ kifayət qədər güclü olduğunu və özlərinin real imkanlarını nəzərə alaraq, əsasən, dinc mübarizə vasitələrindən istifadə etməklə hökumətdən bir sıra əhəmiyyətli sosial-siyasi güzəştlər qoparmağı qarşıya məqsəd qoymuşdular.

1905-ci ilin yaz və yayında ərz-hal (petisiya) kampaniyası genişləndi. Aprel ayında burjuaziyanın, liberal mülkədarlar və ziyalıların nümayəndələri tərəfindən bütün Qafqaz müsəlmanları adından hazırlanan ərz-hal Nazirlər Kabinetinin sədri Vitteyə və Qafqaz canişini Vorontsov-Daşkova göndərildi. Bu ərz-halda müsəlmanların dövlət idarələrində xidmətə qəbul edilməsi və irəli çəkilməsində, onların şəhər özünüidarəsində iştirak etməsində mövcud məhdudiyyətlərin aradan qaldırılması, andlı iclasçılar məhkəməsinin müsəlmanlar

yaşayan ərazilərdə də tətbiq edilməsi, məhkəmə işlərinin xalqın başa düşdüyü dildə aparılması, müsəlmanlara yığıncaq, ittifaq, vicdan, söz, rus və ana dillərində təhsil, mətbuat azadlıqları verilməsi, hökumətin yardımı ilə pay torpaqlarının kəndlilər tərəfindən məcburi surətdə satın alınması, boş qalan xəzinə torpaqlarından torpaqsız və aztorpaqlı kəndlilərə pay verilməsi, dövlətin ixtiyarına keçmiş vəqf torpaqlarının müsəlman ruhanilərinə qaytarılması və din xadimlərinin hüquqlarının genişləndirilməsi, rus kəndlilərinin Azərbaycana köçürülməsinin dayandırılması və başqa tələblər vardı.

Həmin ərz-halla əlaqədar olaraq, aprelin 17-də verilmiş «ali fərman»da müsəlmanlara ən çox özlərinin mənəvi və maddi qüvvələrinin inkişafı qayğısına qalmağı riyakarcasına «məsləhət» görən mütləqiyyət onlara yalnız müfti, qazı və məhəllə ruhanisi seçmək, həmçinin istədikləri dini etiqada qail olmaq hüququ verməklə kifayətləndi.

Sonralar da yuxarı hökumət dairələrinə bir-birinin ardınca ərz-hallar göndərildi. Azərbaycan müəllimlərinin yolladıqları ərz-halda ana dilində təhsil, azərbaycanlı müəllimlərinə başqa millətlərdən olan müəllimlərlə eyni hüquq verilməsi, azərbaycanlı muəllimlər hazırlamaq üçun seminariyalar açılması və başqa tələblər vardı.

1905-ci ilin iyununda Ə. Ağayev və Ə. Hüseynzadənin redaktorluğu ilə Azərbaycan dilində ilk qəzet «Həyat»ın nəşrinə başlandı. Bu qəzet milli burjuaziyanın siyasi cəhətdən təşkilinə xeyli kömək etdi.

Həmin ilin yayında Yelizavetpolda Azərbaycan mülkədarları və burjuaziyanın «Qeyrət» adlı partiyası yaradıldı. Hələ dəqiq məramnaməsi və mükəmməl təşkilat əsasları olmayan bu partiya Azərbaycanda ilk siyasi təşkilat idi. Onun Bakıda və Şuşada şöbələri təşkil edilmişdi.

Birinci rus inqilabı dövrünün ideoloqlarından və siyasi xadimlərindən biri **Əlimərdan bəy Topçubaşov** (1862—1934-cü illər) idi. O, milli zəmində baş verən mühüm ictimai-siyasi hadisələrin hamısında yaxından iştirak etmişdi.

Ə. M. Topçubaşov Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdi. Redaktoru olduğu «Kaspi» qəzetində və başqa mətbuat orqanlarında onun milli-azadlıq, ədəbiyyat, mədəniyyət və s. məsələlərə dair çoxlu məqaləsi dərc olunmuşdu.

Xalqın adından yuxarılara göndərilən aprel ərz-halını Topçubaşov yazmış, milli məsələlərlə əlaqədar olaraq dəfələrlə Qafqaz canişininin, hətta hökumət başçısının yanında olmuşdur. «Həyat» qəzetinin nəşrinə icazənin alınması onun xidmətinin nəticəsi idi.

Ə. M. Topçubaşov sosial ədalətsizliyin əleyhinə çıxırdı. Xüsusən 1905-ci ilin mayında ümumbakı tətilindən sonra azərbaycanlı fəhlələrin şüurluluğunun və fəallığının artmasına böyük əhəmiyyət verən Topçubaşov sahibkarlara xatırladırdı ki, «məzlum və unudulmuş azərbaycanlı fəhlələr artıq onların ucuz əməyindən istifadə edildiyi kor-koranə mütilik dövründən çıxmışlar». O, kapitalistləri

millətindən və dinindən asılı olmayaraq, bütün fəhlələrə əmək haqqını artırmaq, müəssisələrdə üçnövbəli iş gününə keçmək, ayda 4 istirahət günü, illik məzuniyyət, mükafatlar vermək və başqa yollarla kömək etməyə çağırırdı. Müstəmləkəçilərin fəhlələrə münasibətdə milli ayrı-seçkilik siyasətinə cavab olaraq, işçi qüvvəsinin yarıya qədərini təşkil edən azərbaycanlılara özlərinin fəhlə təşkilatlarını təşkil etməyi məsləhət görürdü.

1905-ci il avqustun 15-də Ə. M. Topçubaşovun təşəbbüsü və rəhbərliyi ilə Nijni-Novqorodda yarmarka zamanı, Oka çayındakı gəmilərdən birində Rusiya müsəlmanlarının gizli surətdə I qurultayı açıldı. Qurultayda Qafqaz, Krım, Qazan, Türküstan, Ural və Sibirdən 150 nəfərə yaxın nümayəndə iştirak edirdi. Topçubaşovun yazdığı və qurultayda cüzi dəyişikliklərlə bəyənilən qətnamədə Rusiya müsəlmanlarının bütün siyasi və mədəni məsələlərdə, həmçinin Rusiyanın hazırkı vəziyyətindən irəli gələ biləcək məsələlərdə həmrəy olmasının zəruriliyi qeyd edilirdi.

Qurultayda «İttifaqi-müslimin» (Ümumrusiya müsəlman ittifaqı) partiyasını təşkil etmək qərara alındı. Bu partiyanın məqsədi müstəmləkəçilərə və beynəlxalq imperializmə qarşı mübarizədə Rusiya müsəlmanlarını vahid cəbhədə birləşdirmək idi. «İttifaq»a rəhbərlik etmək üçün daimi yeri Bakıda olan mərkəzi komitə yaratmaq qərara alındı.

Xalq kütlələrinin təzyiqi altında çar 1905-ci il oktyabrın 17-də manifest verməyə məcbur oldu. Burada söz, mətbuat, yığıncaq, ittifaq azadlıqları elan edilir və qanunverici duma çağırmaq vəd olunurdu.

Ə. M. Topçubaşov 17 oktyabr manifesti üzrə «elan edilmiş azadlıqlarla xüsusən... Qafqaz işlərindəki asılı vəziyyət» arasında böyük uçurum olmasını qeyd edərək göstərirdi ki, burada hökumətin özbaşınalığı, satqınlıq və rüşvətxorluq, qanunsuzluq hökm sürməkdə davam edir, yerli idarə orqanlarının tərkibi dəyişilməz qalmaqdadır. O, Qafqaz əhalisinin nümayəndələrindən ibarət «ölkəni mülki və siyasi azadlıqlara hazırlayan orqan»ın təşkili, Qafqazda «ölkənin daxili həyat məsələləri üzrə qanunvericilik funksiyaları olan seymin» yaradılması ideyasını irəli sürürdü.

Ə. M. Topçubaşov 17 oktyabrda verilmiş vədlərin səmimiliyinə inanmırdı. O, hələ dekabrın əvvəlində irticanın hücumunun əlamətləri, «vətənin, şübhəsiz, təhlükədə olması» haqqında qabaqcadan xəbərdarlıq edirdi. Əksinqilabın hücumunun qarşısını alıb, «17 oktyabr azadlıq aktı»nı qorumaq məqsədilə, hətta sağ partiyalar da daxil olmaqla, bütün siyasi partiyaları birləşməyə çağırırdı.

Birinci ruc inqilabı dövrünün mübarizə vasitələrinə münasibətini bildirərkən, Ə. M. Topçubaşov silahlı üsyan və barrikada döyüşlərinə «dövrü keçmiş inqilabi priyomlar» kimi baxırdı. O, həmin dövrün konkret şəraitində siyasi tətillərə tərəfdar çıxaraq göstərirdi ki, belə tətillər «müasir ictimai-dövlət quruluşu üçün paytaxtın tutulub müvəqqəti hökumət təşkili qədər qorxulu və təhlükəlidir».

17 oktyabr manifestindən sonra Bakıda və başqa şəhərlərdə bir sıra qəzet və jurnallar nəşr olundu, müxtəlif adda kitablar buraxıldı, məktəblər açıldı, yeni mədəniyyət ocaqları yaradıldı.

İlk dəfə olaraq xeyriyyə cəmiyyətləri və siyasi təşkilatlar meydana gəldi.

Xeyriyyə cəmiyyətləri içərisində ən görkəmliləri və uzun müddət fəaliyyət göstərənləri «Cəmiyyəti xeyriyyə» (1905—1917-ci illər), «Nəşr maarif» (1906—1917-ci illər), «Nicat» (1906—1917-ci illər) idi. Bu cəmiyyətlərə çoxlu vəsait verənlərdən H. Z. Tağıyev və M. Muxtarov «Nəşr maarif»in fəxri sədrləri seçildilər.

Yelizavetpolda, əsasən, «Müsəlman xeyriyyə cəmiyyəti», «Müsəlmanlar içərisində maarifi yayan cəmiyyət» fəaliyyət göstərirdi. Xarkov Universitetinin tibb fakültəsini bitirmiş gənc həkim Xudadat bəy Rəfibəyov xeyriyyə işlərinin təşkilində mühüm rol oynayırdı.

Xeyriyyə cəmiyyətlərinin fəaliyyətinə, başlıca olaraq, ana dilini inkişaf etdirmək, məktəb, kitabxana, qiraətxana, savadsızlığın ləğvi üçün axşam kursları, həmçinin teatrlar açmaq, müəllimlər hazırlamaq, aktyorlar yetişdirmək, kimsəsizlərə, qaçqınlara yardım göstərmək və başqaları daxil idi. Cəmiyyətlərin ayrı-ayrı şəhərlərdə filialları, özlərinin qəzetləri, məktəbləri, teatr truppaları vardı. Dövrün görkəmli ziyalıları bu cəmiyyətlərin işində yaxından iştirak edirdilər. Cəmiyyətlər tərəfindən xeyriyyə konsertləri verilir, teatr tamaşaları göstərilir, müxtəlif mövzularda məruzələr oxunurdu və i. a.

Xeyriyyə cəmiyyətləri xalqın milli dirçəlişində mühüm rol oynamışlar.

1905-ci ilin axırlarında Gəncədə «Difahi» partiyası təsis edildi. Bu siyasi təşkilatın başçıları Əhməd bəy Ağayev, Məmmədhəsən Hacınski idilər. Müxtəlif təbəqələrin nümayəndələrinin, xüsusən qabaqcıl ziyalıların daxil olduğu bu partiyanın başlıca məqsədi həmin dövrdə Yelizavetpol quberniyasında son dərəcə kəskin şəkil almış erməni-daşiak təcavüzünə və onların havadarlarına qarşı mübarizə aparmaqdan ibarət idi. «Difahi»nin bəyannaməsində deyilirdi: «Daşnak» firqəsi əmin olsun ki, heç bir vaxt millətimizin xarabazarlığı və gülü üzərində erməni millətinin səadət və xoşgüzəranlıq qurmasına yol verməyərik». «Difahi» adlı müdafiə dəstələri yaradılırdı. «Difahi»nin fəaliyyəti nəticəsində Zaqafqaziyada millətlərarası münaqişələrin əsas təşkilatçısı olan rus çarizminə qarşı hərəkat xeyli gücləndi. «Difahi»nin başçıları çarizmin bu riyakar siyasətini ifşa etmək məqsədilə, hətta, «Daşnaksütyun» partiyasının liderləri ilə danışıqlar da aparırdılar.

Həmin dövrdə Gəncədə başqa bir siyasi təşkilat— «Müdafiə» partiyası yaradıldı. Təşkilatın başında İsmayıl xan Ziyadxanov dururdu. Yelizavetpol quberniyasında, başlıca olaraq, liberal ruhlu mülkədar-burjua ünsürlərinə arxalanan bu partiyanın əsas məramı müstəmləkə üsul-idarəsinə qarşı mübarizə aparmaq və müsəlmanları erməni millətçilərinin hücumlarından müdafiə etmək idi.

1905-ci ilin dekabrında kadetlər (konstitusiyalı demokratlar) partiyasının Bakı şöbəsi yaradıldı.. Milli burjuaziyanın, liberal mülkədarların və ziyalıların bəzi nümayəndələri bu partiyanın ətrafında birləşdilər.

1906-cı il yanvarın 13-dən 23-dək Peterburqda gizli surətdə çağırılmış ikinci Ümumrusiya müsəlman turultayı «İttifaqi-müslimin» partiyasının Ə. M. Topçubaşov tərəfindən hazırlanmış 23 maddədən ibarət Nizamnaməsini qəbul etdi. Nizamnamədə Rusiya müsəlmanlarının vahid siyasi ittifaqını yaratmaq və onun yerlərdə şöbələrini təşkil etmək, Ümumrusiya müsəlmanları qurultayını hər il çağırmaq, qurultaylararası dövrdə «İttifaq»ın daimi fəaliyyət göstərən Ali Şurasını yaratmaq və s. haqqında maddələr vardı. Ə. M. Topçubaşov «İttifaq»ın Mərkəzi Komitəsinin sədri seçildi. Avqust ayında Nijni-Novqorodda onun rəhbərliyi ilə açıq surətdə keçirilən üçüncü qurultayda Topçubaşovu yenidən Mərkəzi Komitənin sədri seçdidər.

1906-cı ilin aprelində Tiflisdə C. Məmmədquluzadənin redaktorluğu ilə Azərbaycan dilində «Molla Nəsrəddin» jurnalının nəşrinə başlandı.

Həmin dövrdə Bakıda Əli bəy Hüseynzadənin redaktorluğu ilə daha bir jurnal—«Füyuzat» (1906-1907-ci illər) nəşr olundu.

Azərbaycan azadlıq hərəkatının hələ ideya əsaslarının hazırlandığı bu ilk mərhələdə milli demokratik ziyalılar, başlıca olaraq, «Füyuzat» və «Molla Nəsrəddin» jurnallarının ətrafında birləşdilər. «Füyuzat»da, əsasən, liberal əhval-ruhiyyəli ziyalılar, o cümlədən Ə. Hüseynzadə, Ə. Ağayev, Ə. M. Topçubaşov, M. Ə. Rəsulzadə; «Molla Nəsrəddin»də isə inqilabi-demokratik ideyalı ziyalılar, o cümlədən C. Məmmədquluzadə, M. Ə. Sabir, M. S. Ordubadi, Əliqulu Qəmküsar təmsil edilirdilər.

«Mollanəsrəddinçi»lər çarizmin milli müstəmləkə zülmünə, ictimai ədalətsizliyə və istismarçılara qarşı çıxır, Azərbaycan xalqına siyasi azadlıqlar və hüquq bərabərliyi tələb edirdilər.

«Füyuzatçılar» və «mollanəsrəddinçilər»in ictimai-siyasi hadisələrə münasibətlərində müəyyən fikir ayrılıqları vardı. Əgər, birincilər milli-mənəvi təkamüldə İslam dininin rolunu yüksək qiymətləndirirdilərsə, ikincilər dini cəhalət və avamlığın mənbəyi kimi ifşa edirdilər. «Mollanəsrəddinçilər» ictimai-siyasi inkişafda sinfi mübarizəni zəruri saydıqları halda, o biriləri ümummilli mənafeləri ön plana çəkirdilər. «Füyuzatçılar» üçün məzlum siniflərdən əvvəl məzlum millətlər mövcuddur və s.

1906 və 1907-ci illərin avqust aylarında Azərbaycan müəllimlərinin Bakıda çağırılmış I və II qurultayları milli məktəbin inkişafında mühüm rol oynadı. Bu qurultaylarda məktəblərdə dərslərin ana dilində aparılması, yeni əlifba kitablarının türk əlifba məktəbinin təcrübəsindən istifadə etməklə yazılması, Müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Qoridən Azərbaycan şəhərlərindən birinə köçürülməsi barədə və digər qərarlar qəbul olundu.

Dövlət dumasında azərbaycanlı deputatların fəaliyyəti milli hərəkatın parlaq səhifələrindən birini təşkil edir.

I və II Dövlət dumalarına keçirilmiş seçkilərdə Azərbaycan əhalisinin çox böyük əksəriyyəti milli demokratiyanın nümayəndələrinə səs verdilər. Bakı və Yelizavetpol qəzalarından I və II Dövlət dumalarına Rusiyanın və Avropanın ən məşhur ali məktəblərində təhsil almış Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov kimi hüquqşünaslar, publisist-dramaturq Əbdürrəhim bəy Haqverdiyev, Petrov kənd təsərrüfatı akademiyasının məzunu Məmmədtağı Əliyev, müəllimlər—Əsədulla bəy Muradxanov və Mustafa Mahmudov, trudoviklərin nümayəndəsi Zeynal Zeynalov deputat seçildilər.

1906-cı il aprelin 27-də Peterburqda I Dövlət duması açıldı.

Rusiyanın müsəlman əyalətlərinin, o cümlədən Azərbaycanın deputatları I Dumada müsəlman fraksiyasını təşkil etdilər. Fraksiyanın sədrliyinə Ə. M. Topçubaşov seçildi. Ə. M. Topçubaşovun hazırladığı müsəlman siyasi proqramında: imperiyanın bütün ərazisində möhkəm konstitusiya əsaslarında özünüidarə vahidləri və vilayət məclisləri yaradılması, torpağın vilayət üzrə milliləşdirilməsi, din işlərində tam muxtariyyət olması və yerlərdə geniş muxtar idarəetmə sisteminin təşkili tələbləri irəli sürülürdü.

Azərbaycandan olan deputatlar Dumanın ayrı-ayrı komissiya və şöbələrinə seçildilər. Onlar öz çıxışlarında 1905-ci ilin yazında Azərbaycandan dəfələrlə hökumətə göndərilmiş ərz-hallarda qaldırılan problemlərə toxunurdular.

İsmayıl xan Ziyadxanov öz çıxışlarında çar hökumətinin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini çox kəskin surətdə tənqid etdi. (1-ci sənədə bax). Onu hətta həbs edib dörd ay Şəki türməsində saxladılar.

1906-cı il iyulun 9-da, daha itaətkar duma yaratmaq məqsədilə, çarın xüsusi fərmanına əsasən, I Dövlət duması buraxıldı. Ertəsi gün 170 nəfərə yaxın deputat, o cümlədən azərbaycanlı deputatlar Dumanın qovulmasına etiraz əlaməti olaraq, «Vıborq» müraciətnaməsini qəbul etdilər. «Müraciətiamə»də Duma çağırılana qədər «Rusiyanın bütün vətəndaşları... xəzinəyə nə bir qəpik pul, orduya nə bir nəfər əsgər» verməməyə çağrılır, "Rusiyanın bağlayacağı bütün müqavilələr etibarsız elan edilirdi.! Çar hökuməti itaətsizlik edən deputatlarla haqq-hesab çəkmək üçün daha münasib fürsətin ələ düşməsini gözlədi.

1907-ci il fevralın 20-də işə başlayan II Dövlət duması çarizmin gözlədiyinin əksinə olaraq, birincidən daha sol və müxalifətçi oldu.

II Dövlət dumasındakı çıxışında deputat Fətəli xan Xoyski çar hökumətinin Mərkəzi Rusiyadan rusların Azərbaycana köçürülməsinə son qoymasını və əsarət altına alınmış xalqlara məhəlli muxtariyyət verməsini tələb etdi. Deputat Zeynal Zeynalov xəzinə torpaqları da daxil olmaqla, bütün mülkədar torpaqlarının alınıb, heç bir şərt qoymadan, pulsuz kəndlilər arasında bölüşdürülməsini tələb etdi.

Ali qanunvericilər kimi Dövlət dumasının tribunasından rus müstəmləkəçilərinin milli ayrı-seçkilik siyasətini cəsarətlə tənqid edib, öz xalqının qanuni hüquqlarının ödənilməsini təkidlə tələb edən milli ziyalı kadrlarının yetişməsi Azərbaycanda azadlıq hərəkatının yüksəldiyini göstərirdi.

**İnqilabi fəhlə hərəkatının yüksəldilməsi:** Birinci rus inqilabının qarşısını almaq üçün çar hökuməti Azərbaycanda bir sıra ciddi tədbirlərə, hətta cinayətlərə əl atdı. 1905-ci il fevralın 6-dan 9-dək Bakıda erməni-müsəlman qırğını törədildi.

Polis təqiblərini gücləndirmək üçün fevralın 15-də Bakıda müvəqqəti olaraq general-qubernator vəzifəsi təsis edildi. Fevralın 18-də çarın fərmanına əsasən, Bakıda və Bakı quberniyasında hərbi vəziyyət elan olundu. Fevralın 26-da Qafqazın baş rəisi vəzifəsi ləğv edilərək, əvəzində hələ 1882-ci ildə ləğv edilmiş Qafqaz canişinliyi yenidən bərpa olundu və «ona fövqəladə səlahiyyətlər verildi.

Bütün bunlara baxmayaraq, inqilabi mübarizə güclənməkdə davam edirdi.

Martın 19-da Yelizavetpol dəmiryolçuları tətil etdilər. Tətilçilər «Rədd olsun mütləqiyyət!», «Yaşasın azadlıq!» şüarları altında siyasi nümayiş keçirdilər. Tezliklə tətil Zaqafqaziyanın digər dəmir yol stansiyalarını əhatə etdi. Tətilçilər bir sıra iqtisadi tələblərlə yanaşı, 1 Mayın qeyri-iş günü elan edilməsini, Zaqafqaziya dəmir yolunda hərbi vəziyyətin ləğv olunmasını, tətil zamanı həbsə alınmış yoldaşlarının azad edilməsini və başqa siyasi tələblər irəli sürdülər.

Zaqafqaziya dəmiryolçularının tətili aprelin 1-dən 12-dək davam edərək, qoşunun gücü ilə yatırıldı. Təkcə Bakıda 400 nəfərə qədər tətilçi həbs edildi.

Mayın əvvəllərində Bakıda başlanan tətillər daha da genişlənərək, ayın 10-da artıq yüzdən çox müəssisəni əhatə edən ümumi tətilə çevrildi. Tətilçilər 26 siyasi və iqtisadi tələb, o cümlədən təşkilatlar, ittifaqlar, mətbuat, yığıncaq və tətil azadlıqları verilməsini irəli sürdülər. Mayın 19-da tətil zor gücünə yatırıldı.

May tətilinin müvəffəqiyyətsizliklə qurtarmasına baxmayaraq, bir sıra müəssisələrin sahibləri 9 saatlıq iş günü qoymağa məcbur oldular.

Bu tətildə ilk dəfə olaraq, azərbaycanlı fəhlələr daha fəal surətdə iştirak etdilər.

İyun—iyul aylarında Bakının bütün mədən və sənaye müəssisələrinin 3/4 hissəsini tətil dalğası bürüdü. Xəzər Ticarət Donanması dənizçiləri tətil etdilər. Nuxa, Gədəbəy və Şuşada fəhlələrin güclü tətilləri baş verdi.

Avqustun 16-da Bakıda şəhərin demək olar bütün müəssisələrini əhatə edən siyasi tətil başladı. Tətilin hazırlanıb keçirilməsində P. Çaparidze, M. Məmmədyarov, S. Bünyadov və digər inqilabçılar mühüm rol oynayırdılar.

Tətilçilərin irəli sürdükləri tələblər içərisində çox ciddi siyasi tələblər, o cümlədən hələ fevral ayından Bakıda tətbiq olunan hərbi vəziyyətin ləğv edilməsi, əksinqilabi tör-töküntülərdən yaradılmış «qaragüruhçu alayın» tərk-silah olunması, mədən-zavod komissiyalarının təşkili və s. vardı.

Tətili yatırmaq üçün müxtəlif fitnəkarlıqlara əl atıldı.

Avqustun 20-26-da Bakıda daşnakların köməyi ilə erməni-müsəlman qırğını təşkil edildi. Gizli polis idarəsinin casusları tərəfindən neft mədənlərində yanğın və partlayışlar törədildi. Bu, qoşunun işə qarışması üçün bəhanə oldu.

Avqustun 22-də Bakıda mühasirə vəziyyəti elan edildi. Şəhərə qoşun yeridildi. Silahlı fəhlə dəstələrinin səngər kimi istifadə etdikləri Sabunçu xəstəxanası top atəşinə tutuldu.

Tətilçilərə divan tutulması sentyabr ayınadək davam etdi. Türmələr həbs edilən siyasi dustaqlarla ağzına qədər doldu. Çoxlu fəhlə işdən çıxarıldı. Minlərlə tətilçi şəhərdən sürgün edildi. Bakıda hərbi-səhra məhkəməsi yaradıldı.

Tətil zamanı neft sənayeçilərinə külli miqdarda ziyan dəydi. Neft buruqlarının 3/4 hissəsi yandırıldı, 68 neftayırma zavodundan 24-ü dayandı.

İki ay davam edən avqust tətili müvəffəqiyyətsizliklə qurtardı. Burada özlərinin təxribatçılıq, casusluq və fitnəkarlıq hərəkətləri ilə gizli polisə kömək etmiş şendrikovçular, daşnaklar və başqaları muhüm rol oynadılar.

Payızda inqilabi hərəkat öz inkişafının yüksək zirvəsinə çatdı.

Oktyabrın 15-də Zaqafqaziyanın, o cümlədən Azərbaycanın dəmiryolçuları Ümumrusiya siyasi tətilinə qoşuldular. Qatarların hərəkəti iki həftə dayandı.

Dəmiryolçuların tətili digər nümayiş və tətillər üçün siqnal oldu.

Oktyabrın 19-da Bakıda və 20-24-də Yelizavetpolda əllərində «Rədd olsun mülləqiyyət!», «Yaşasın azadlıq!» sözləri yazılmış şüarlar aparan nümayişçilər Bakının Bayıl və Yelizavetpolun şəhər həbsxanalarına yaxınlaşıb, siyasi məhbusların buraxılmasını tələb etdilər. Polis və kazaklar onları atəşlə qarşıladılar. Bakıda 17 nəfər öldürüldü və yaralandı. Bayıl və Yelizavetpol həbsxanalarından dustaqların bir hissəsi azad edildi.

Çar hökuməti xalqın inqilabi mübarizəsini və milli coşğunluğunu zəiflətmək məqsədilə növbəti fitnəkarlığa əl atdı. Noyabrın 18-də Yelizavetpolda erməni-müsəlman qırğını törədildi. Bu cür fitnəkarlığa noyabrın 26-da Bakıda da cəhd edildi.

Noyabrın 25-də mədən-zavod komissiyaları tərəfindən göndərilmiş nümayəndələrin yığıncağında 226 nəfərdən ibarət ilk Bakı fəhlə deputatları Soveti seçildi. Bakı Soveti fəhlələrin iqtisadi tələblərinin ödənilməsi, tətil mübarizəsinin təşkili və s. məsələlər üzrə bir sıra tədbirlər həyata keçirdi.

Sovetin «Bakı fəhlə deputatları Sovetinin əxbarı» adlı qəzeti çıxmağa başladı.

Dekabrın 7-də Moskvada başlanan və tezliklə silahlı üsyana çevrilən Ümumrusiya siyasi tətili Azərbaycanda inqilabi çıxışlara yeni təkan verdi.

Dekabrın 10-da Zaqafqaziyanın, o cümlədən Azərbaycanın dəmiryolçuları tətil etdilər. Bakı-Tiflis, Bakı-Petrovsk dəmir yollarının ixtiyarı tətil komitəsinin əlinə keçdi. Qatarların hərəkəti dayandı. Yalnız tətil komitəsinin icazə verdiyi bəzi qatarlar hərəkət edə bilərdi.

Dekabrın 14-də Zaqafqaziyanın dəmir yollarında hərbi vəziyyət elan edildi. Kütləvi həbslər aparıldı, dəmiryolçuları işdən qovmağa başladılar. Təkcə Bakı-Tiflis dəmir yol xəttində işdən qovulan dəmiryolçuların sayı 500 nəfərə çatırdı.

Dəmiryolçularla eyni vaxtda - dekabrın 10-da, Bakıda 180-dən artıq müəssisəni əhatə edən ümumi siyasi tətil başladı. Tətil günlərində şəhərdə, xüsusən mədən rayonlarında hakimiyyət fəhlələrdən təşkil edilmiş döyüş drujinaçılarının əlinə keçdi.

Bakıda dəmiryolçuların və digər sənaye müəssisələri fəhlələrinin tətili dekabrın axırlarına qədər davam etdi.

Birinci rus inqilabının ilk ili çarizm və kapitalistlər üçün böyük itkilərlə başa çatdı. 1905-ci ildə təkcə 2 minədək buruq yandırıldı, neft hasilatı 200 min pud azaldı.

**Cəza tədbirlərinin gücləndirildiyi şəraitdə inqilabi mübarizənin davam etdirilməsi:** Çar hökuməti Moskvada silahlı üsyanı amansızlıqla yatırdıqdan sonra bütün ölkədə inqilabi qüvvələrin üzərinə hücuma keçdi.

1906-cı il yanvarın 4-də Bakı Sovetinin orqanı «Bakı fəhlə deputatları Sovetinin əxbarı» qəzeti bağlandı.

Yanvarın 26-da inqilabi təşkilatlara mitinq və iclaslar keçirməyi qadağan edən sərəncam verildi. Fevralın 23-də Bakı fəhlə deputatları Soveti polis tərəfindən qovuldu.

Bir sıra müəssisələrdə dekabr müştərək müqaviləsinin şərtlərini pozmağa başladılar. Fəhlələri gündə 9 saat əvəzinə 11 – 12 saat işləməyə məcbur edir, onlara müqavilə nəzərdə tutulduğundan 15-20 faiz az əmək haqqı verirdilər. Tətil iştirakçılarını təqib edir, döyür, işdən qovurdular. Çoxlu fəhlə «etibarsız» sayılaraq Bakıdan sürgün edildi. Həbsxanalar siyasi məhbuslarla doldu.

Bütün bunlara baxmayaraq, 1906-cı ildə inqilabi mübarizə inadla davam etdirilirdi.

Fevralın 12-də Bakı texniki məktəbinin tələbələri tətil etdilər. Tətil tezliklə şəhərdəki digər tədris müəssisələrinə keçdi. Demokratik əhval-ruhiyyəli müəllimlər də tətilə qoşuldular. Yelizavetpol tələbələri həmrəylik tətili keçirdilər. Tətilçilər məktəblərdə hökm sürən polis qaydalarına son qoymağa çağırır, tələbələr arasına Bakı texniki məktəbinin direktoru Mixaylovski kimi millətçilik toxumu səpən irticaçıların vəzifədən götürülməsini tələb edirdilər.

1 Mayda Bakı müəssisələrinin fəhlələri işə çıxmadılar. İyunda Bibiheybətdə mədən fəhlələrinin üç ayadək davam edən tətili başlandı. Tətilçilər arasında nifaq salmaq, onların sıralarını parçalamaq üçün sahibkarlar peşkəş siyasətinə əl atdılar. Fəhlələrin, xüsusən onların azşüurlu hissəsinin müəyyən qismi ilk vaxtlar aldanaraq, bu dilənçi payını alsalar da, tezliklə peşkeşdən imtina etdilər.

Çar hökumət orqanları tətil komitələrinin 400 nəfərdən artıq üzvünü və tətillərin fəal iştirakçılarını həbs etdi.

Bu irticaçı tədbirə etiraz əlaməti olaraq, avqustun 25-26-da Bakıda fəhlələr ümumi siyasi tətil keçirdilər. Onlar həbs edilənlərin buraxılmasını, tətilçilərin sürgün edilməsi haqqında çıxarılmış qərarın ləğv olunmasını, onların ailələrini incitmiş yüksək vəzifəli məmurun məhkəməyə verilməsini və s. tələblər irəli sürdülər.

Hakimiyyət orqanları, nəhayət, güzəştə getmək məcburiyyətində qalaraq, tətil iştirakçılarının sürgün edilməsini dayandırdı, artıq sürgün olunanları isə geri qaytardı.

Noyabr-dekabr aylarında təkcə Rotşildin və Nobel qardaşlarının mədənlərində 15 minə qədər fəhlənin iki ay davam edən tətilləri baş verdi.

Tətil hərəkatına polisin nəzarətini daha da gücləndirmək məqsədilə, 1906-cı il sentyabrın 28-də çar II Nikolayın fərmanına əsasən, Bakı və onun ətrafındakı mədən və fabrik-zavod rayonları xüsusi qradonaçalnikliyə ayrıldı. Bu ərazidə polis və inzibati idarə işləri bütünlüklə qradonaçalnikə tapşırıldı. Dekabrın 6-da, çarın yeni fərmanı ilə Bakıda və Bakı quberniyasında daha sərt rejim—«fövqəladə mühafizə» vaxtı tətbiq edildi. «Fövqəladə mühafizə» vaxtı altı aydan bir uzadılaraq, 1917-ci ildə çarizm devrilənədək davam etdi.

1906-cı ildə kütləvi fəhlə təşkilatları olan Həmkarlar ittifaqlarının yaradılması uğrunda qızğın iş gedirdi.

Sentyabrın 24-də neft sənaye fəhlələrinin İttifaqı yaradıldı. İttifaqın 12 nəfərdən ibarət idarə heyətinə P. Çaparidze, M. Məmmədyarov, H. Sultanov və başqaları seçildilər.

Həmin ilin axırlarında təkcə Bakıda 20-dək sahə həmkarlar ittifaqı vardı. Bu ittifaqlarda 13 minə yaxın fəhlə birləşmişdi. Ən böyük həmkarlar təşkilatı olan neft sənaye fəhlələrinin İttifaqında 4 minədək üzv vardı.

1907-ci ilin birinci yarısında ən böyük inqilabi çıxış Xəzər Ticarət Donanması dənizçilərinin ümumi tətili idi.

Dənizçilər son dərəcə ağır şəraitdə yaşayır və işləyirdilər. Onlar, azacıq istirahət vaxtı nəzərə alınmazsa, demək olar, gecə-gündüz çalışır, lakin digər kateqoriya fəhlələrdən xeyli az — 15-20 manat aylıq zəhmət haqqı alırdılar.

Tətil «Hümmət» təşkilatının fəal iştirakı ilə hazırlanıb keçirildi.

Martın 8-də yaradılmış tətil komitəsi Xəzərdəki bütün dəniz donanmalarının dənizçiləri adından 42 maddədən ibarət tələbnamə hazırlayıb gəmi sahiblərinə verdi və bildirdi ki, həmin tələblər rədd edilərsə, martın 10-da ticarət gəmilərində iş dayandırılacaqdır. Dənizçilərin tələbləri sırasında 8 saatlıq iş günü, əmək haqqının artırılması, bütün gəmilərdə eyni miqdarda əmək haqqı müəyyənləşdirilməsi, həftədə bir dəfə istirahət günü və əmək haqqı saxlanılmaqla illik məzuniyyət verilməsi, cərimələrin ləğv olunması, həmkarlar ittifaqının bərpa edilməsi, tətildə iştirak etmək üstündə həbs olunanların hamısının azad edilməsi və s. tələblər vardı.

Dənizçilərin tələbləri rədd edildikdən sonra, martın 10-da Bakıda tətil başladı. Port-Petrovsk (indiki Mahaçqala) və Krasnovodsk limanlarında dayanan ticarət gəmilərinin dənizçiləri də tətilə qoşuldular.

Xəzər və Volqa vasitəsilə Rusiyanın içərilərinə yük daşınması dayandırıldı. Xəzər dənizçilərinin tətilindən daha çox zərər çəkən rus sənayeçiləri hökumətdən təcili tədbirlər görməyi tələb etdilər.

Çarın sərəncamı ilə Bakı, Port-Petrovsk və Krasnovodska cəza dəstələri göndərildi. Bakıda 800-ə qədər dənizçi həbs edildi, çoxları Rusiyaya, Cənubi Azərbaycandan olanlar isə İrana sürgün edildilər.

Aprelin 20-də Bakıda 25 minədək fəhlənin iştirak etdiyi ümumi həmrəylik tətili keçirildi. Tətil etmiş fəhlələr dənizçilərin həbs və sürgün edilməsinə qarşı qəti etirazlarını bildirdilər. Onlar dənizçilərə və onların ailələrinə kömək məqsədilə pul toplayıb verdilər.

Dənizçilərin neft sənaye fəhlələri tərəfindən müdafiə edilən ümumi tətili aprelin 25-də qələbə ilə başa çatdı. Gəmi sahibləri bütün gəmilərdə 8 saatlıq iş günü qoyulması, əmək haqqının artırılması, fabrik-zavod qanunlarının ticarət donanmasının dənizçilərinə də şamil edilməsi, onların gəmi sahibləri hesabına müalicə və sığorta edilməsi, cərimələrin ləğv olunması və s. haqqında dənizçilərin tələblərini qəbul etməyə məcbur oldular.

May—iyun aylarında Gədəbəy, Şuşa və Nuxada fəhlələrin güclü tətilləri oldu. Şuşada müxtəlif istehsal sahələrinin minlərlə fəhləsinin başladığı tətil onların irəli sürdükləri bir sıra tələblərin, o cümlədən 8 saatlıq iş günü tələbinin qəbul edilməsi ilə başa çatdı.

1907-ci ilin 23 iyununda Bankə balıq sənaye fəhlələrinin böyük tətili baş verdi. Tezliklə tətil digər iri balıqçılıq müəssisələrini də bürüyərək 2 ay davam etdi. Tətilçilər əmək haqqının 25-50 faiz artırılmasını, 8 saatlıq iş günü və hər il üçün 1 aylıq məzuniyyət verilməsini və s. tələb edirdilər. Balıqçıların tətili müvəffəqiyyətlə başa çatdı, onların tələbləri, əsasən, ödənildi. Onların əmək haqqı 20-25 faiz artırıldı.

Çar hökuməti və kapitalistlər tərəfindən fəhlələrin hüquqlarının daim tapdanmasına cavab olaraq, neft sənaye fəhləri İttifaqının çağırışı ilə həmin ilin yayında ümumi siyasi tətil keçirmək qərara alındı. Sahibkarlara veriləcək tələblər hazırlandı. Burada 8 saatlıq iş günü, həmkarlar ittifaqlarının, zavod və mədən komissiyalarının fəhlə nümayəndəliyi kimi rəsmi surətdə tanınması və başqa tələblər vardı.

Tətilin yayda başlanacağı xəbəri hakim dairələri bərk qorxuya saldı. Onlar tətilin, heç olmazsa, Xəzərdə və Volqada gediş-gəlişin kəsildiyi payıza qədər ləngidilməsi üçün yollar axtarmağa başladılar. Xırda güzəştlərlə fəhlələri aldatmaq mümkün olmadıqda, müşavirə kampaniyası fırıldağı ortaya atıldı. Bu, danışıqlar aparmaq yolu ilə vaxt qazanmaq cəhdi idi.

Müşavirə kampaniyasına hələ 1905-ci ilin sentyabrında və 1906-cı ilin oktyabrında Bakıda inqilabi mübarizənin qızğın çağında da əl atılmışdı. Lakin hər dəfə fəhlələrin aldadılmış hissəsi tərəfindən seçilib Peterburqa müşavirəyə göndərilmiş nümayəndələri, onların irəli sürdüyü tələblər qəbul edilmədiyinə görə, iclas zalını tərk etmiş və beləliklə, əvvəlki müşavirə fırıldaqları baş tutmamışdı.

Bolşeviklər fəhlələri müşavirə kampaniyasını baykot etməyə və dərhal tətil etməyə çağırırdılar.

Müxtəlif siyasi qüvvələrin müşavirə kampaniyası ətrafında mübahisələrinin qızğın çağında çar hökuməti tərəfindən yeni bir cinayət törədildi. 1907-ci il sentyabrın 19-da inqilabçı fəhlə Xanlar Səfərəliyev arxadan vurulan güllə ilə xaincəsinə öldürüldü. Bu qanlı cinayətə etiraz əlaməti olaraq, Bibiheybət neft mədənlərinin fəhlələri iki gün tətil etdilər. X. Səfərəliyevin dəfn mərasimi çarizmə qarşı qüdrətli siyasi nümayişə çevrildi. Onun qəbri üstündə çıxış edənlər arasında M. Ə. Rəsulzadə də vardı. Dəfn mərasimində 20 mindən artıq fəhlə iştirak edirdi.

Hökumət və neft sənayeçiləri müşavirə keçirilməsinə bilavasitə nail olmasalar da, müşavirə kampaniyası oyunbazlığı ilə ümumi tətilə payızda naviqasiyanın kəsilməsinə qədər mane ola bildilər. Payız-qış ayları isə Xəzər dənizçilərinin tətili üçün əlverişli deyildi.

1908-ci ilin əvvəllərində Bakının 30-dan çox müəssisəsinin on minə qədər fəhləsi tətil etmişdi.

Fevralın 14-də erməni kapitalisti Mirzoyevin mədənlərində 1500 fəhlənin başladığı tətil iki ay yarım sürdü. Tətil mübarizəsinin qarşısını almaq üçün kapitalistlər lokauta əl atdılar. Bir sıra müəssisələr zərərlə işləmək bəhanəsi ilə bağlandı, fəhlələr küçəyə atıldı.

1908-ci ildə Rusiyada tətillərin arası, demək olar, kəsildiyi halda, Bakıda, hətta Peterburq və Moskva kimi iri inqilab mərkəzlərində olduğundan 3-4 dəfə çox - 47 min fəhlə tətil etmişdi.

**Soldat və matrosların inqilabi çıxışları:** 1905-ci ilin inqilabi hadisələri ordunu da hərəkətə gətirdi.

Yayda Xəzər hərbi donanmasının matrosları, Bakı və Yelizavetpolda yerləşən qarnizonların soldatları tərəfindən mitinq və nümayişlər keçirildi. Onlar bir sıra iqtisadi və siyasi tələblər irəli sürdülər. Yelizavetpoldakı Aslandüz batalyonunun soldatları itaətsizlik göstərərək, keyfiyyətsiz yeməyi qəbul etmədilər. Şamaxı batalyonunun soldatları isə cırıq paltarları geyməkdən boyun qaçırdılar.

Oktyabrın 30-da matrosların nümayişi silah gücünə qovuldu. Çoxlu matros həbsə alındı, 11 nəfərin işi hərbi məhkəməyə verildi.

Noyabrın 27-də Bakıda 79-cu Kür alayının soldatları tabe olmaqdan imtina etdilər və komandanlığa bir sıra tələblər verdilər. Kiyevdən Bakıya köməyə göndərilmiş «ən etibarlı» iki alay 79-cu alayın tərəfinə keçdi, birgə nümayiş təşkil etdilər. Soldatlar həbsə alınmış inqilabçıların buraxılmasını tələb etdilər. Nümayişi

dağıtmaq üçün göndərilmiş üç alay kazak öz yoldaşlarına atəş açmaqdan boyun qaçırdı.

Dekabrın əvvəllərində Yelizavetpol və Zaqatala qarnizonlarında həyəcanlar baş verdi. Kubandan köməyə çağırılmış kazak batalyonunun soldatları nəinki bu həyəcanları yatırmadı, hətta özləri də üsyan qaldırıb evlərinə qayıtdılar.

1906-cı ilin yayı və payızında Yelizavetpol, Naxçıvan, Zaqatala və başqa qarnizonların soldatları, həmçinin Xəzər donanmasının matrosları arasında inqilabi çıxış və həyəcanlar baş verdi.

**Kəndli hərəkatı:** Azərbaycanda inqilabi hərəkatın yüksəldiyi dövrdə kənddə sinfi mübarizə xeyli gücləndi. Kəndlilərin mübarizə vasitələri, əsasən, dəyişməz qalsa da, onların çıxışları getdikcə daha kütləvi və şüurlu xarakter alırdı. Kəndli hərəkatının canlanmasında tətillərdə iştirak etmək üstündə işdən qovulan, yaxud sürgün edilən fəhlələrin kəndə qayıtmalarının xeyli rolu olmuşdur.

Kəndli həyəcanları Azərbaycan qəzalarının çoxunu bürümüşdü. Kəndlilər çar hökumətinin sərəncamlarını yerinə yetirmir, vergi verməkdən, mükəlləfiyyətləri icra etməkdən boyun qaçırır, xəzinə və mülkədar torpaqlarını zəbt edir, dövlət məmurlarına qarşı silahlı müqavimət göstərirdilər.

1905-ci ilin yay və payızında Zaqatala dairəsində güclü kəndli çıxışları oldu. Qavaxçöl kənd camaatı başda olmaqla dairənin bir sıra kəndlərinin kəndliləri mülkədar torpaqlarını tutdular və silaha sarılaraq onların üzərinə göndərilmiş, hətta topları olan 300 soldata qarşı güclü müqavimət göstərdilər. Qavaxçöllülər Nuxadan və qonşu kəndlərdən gələn kəndlilərin köməyi ilə kazakların bütün hücumlarını dəf etdilər.

Qaçaqlar xüsusilə fəallaşdılar. Onların dəstələri çar üsul-idarəsinin qatı düşməninə çevrilmiş kəndlilərin hesabına günü-gündən böyüyürdü. Göyçay və Şamaxı qəzalarında Qaçaq Zahidin, Yelizavetpol və Qazax qəzalarında Dəli Əlinin, Həsən Ləzgi oğlunun və Qandal Nağının, Zaqatala dairəsində Yusifin rəhbərlik etdikləri qaçaq dəstələri rus müstəmləkəçilərinin qənimi kəsilmişdilər.

Kəndlilər qaçaqlara bacardıqları köməyi edirdilər. Onları yeməklə, paltarla təmin edir, evlərində gizlədib saxlayırdılar. Çar hökuməti qaçaqlarla həmfikir olanlara amansız divan tuturdu. Məsələn, 1905-ci ilin yayında Yelizavetpol qəzasının Qaracəmirli və Qanseli kəndlərinii kəndliləri qaçaqları ələ verməkdən imtina etdiklərinə görə, hər iki kənd top atəşinə tutulmuşdu.

Qaçaqlar hər vasitə ilə erməni-müsəlman münaqişəsinin qarşısını almağa çalışırdılar.

O dövrdə çıxan qəzetlərin birində belə bir əhvalat barədə yazılır. Dəli Əlinin altı nəfərdən ibarət atlı qaçaq dəstəsi ilə rastlaşan erməni kəndliləri qorxudan özlərini itirdikdə, Dəli Əli onlara heç bir xələl yetirməyəcəyini bildirərək deyir: gedib ağsaqqallarınıza çatdırın ki, indiyədək azərbaycanlılarla nə cür yaşayıblarsa, yenə o qaydada yaşamaları və onlarla yaxşı rəftar etmələri barədə öz cavanlarına öyüd-nəsihət versinlər. Deyin ki, Dəli Əli özü də hər gün

azərbaycanlılarla bu barədə danışır və ermənilərlə azərbaycanlılar arasında münaqişələrin baş verməməsinə çalışır.

Başqa bir sənəddə—Bakı dairə məhkəməsinin məlumatında göstərilir: qaçaq Zahid 50 nəfərlik qaçaq dəstəsi ilə kəndləri gəzir, kəndxudaları və əhalini xəbərdar edir ki, «...tatarlar (azərbaycanlılar—T. Ə.) erməniləri və əksinə, ermənilər tatarları öldürməkdən əl çəksinlər, milli düşmənçiliyə əsaslanan belə hadisələr baş verərsə, bütün kənd cavabdeh olacaqdır». 1906-cı ildə kəndli hərəkatı daha kəskin şəkil aldı.

Zaqatala dairəsində Yusifin başçılıq etdiyi qaçaqlar toplarla silahlanmış kazak dəstələrini bir neçə dəfə məğlub etdi. Fevral ayında qaçaqlar özlərindən qat-qat güclü cəza dəstələrinin təzyiqi altında Gürcüstan ərazisinə çəkilməyə məcbur oldular. Orada baş verən döyüşlərin birində Yusif öldürüldü.

Kəndlilərin dövlət və başqa vergiləri ödəməkdən imtina etmələri kütləvi hal almışdı. Həmin ilin fevralında Yelizavetpol qəzasının Qaracəmirli və Kəpənək kəndləri yalnız topa tutulduqdan sonra kəndlilərdən vergi toplamaq mümkün olmuşdu.

Kəndlilər onları istismar edən əcnəbi sahibkarlara dərin nifrət bəsləyirdilər. Rusiyanın daxili işlər naziri Stolipin 1906-cı il 20 may tarixli teleqramında göstərirdi ki, Quba qəzası quldur dəstələri ilə doludur. Sahibkarlar özlərinin mülklərinə əsir düşməyi gözünün qabağına almadan gələ bilmirlər. De-Burun malikanəsi qarət edilmişdir. Spevakın malikanəsinə quldur dəstəsi soxulmuşdur. Sahibkarları, müdirləri tez-tez əsir götürürlər.

Həmin ilin iyul ayında Cavanşir qəzasının Papravənd kəndi kəndlilərinin silahlı çıxışını yatırmaq üçün podpolkovnik Veberin rəhbərliyi altında cəza dəstəsi göndərildi. Toplardan istifadə olunan bu toqquşmada altı soldat yaralandı. Avqust ayında Cavanşir qəza rəisi kəndlilər tərəfindən öldürüldü.

Müqəssirləri aşkara çıxarmaq üçün qəzaya 100 nəfərlik kazak dəstəsi göndərildi.

Kəndli çıxışlarının qarşısını almaq üçün qəzalara əlavə hərbi qüvvələr göndərilirdi. Qazax qəzasına 4 rota soldat, iki top, bir eskadron süvari; Nuxa qəzasına 40 strajnik və 150 nəfərlik kazak dəstəsi gətirildi.

Çar hökuməti əhalidə olan silahları müsadirə etməyə başladı. 1906-cı ilin yeddi-səkkiz ayı ərzində təkcə Yelizavetpol quberniyasında 10 mindən çox tüfəng, 50-dən çox tapanca müsadirə edildi.

1906-cı ilin axırı - 1907-ci ilin əvvəllərində kəndli hərəkatı zəifləməyə başladı.

Kəndli hərəkatı geniş vüsət alsa belə, gec-tez müvəffəqiyyətsizliyə uğrayırdı. Çünki kəndlilərin çıxışları kortəbii baş verir, kəndli dəstələrinin arasında birlik yox idi. Kəndlilərin ən mübariz və nisbətən mütəşəkkil hissəsini təşkil edən qaçaqlar bir-biri ilə əlaqəsi olmayan onlarca qaçaq dəstəsində birləşmişdilər. Təkcə

Nuxa qəzasında 10-na qədər qaçaq dəstəsi fəaliyyət göstərirdi. Kəndlilərlə fəhlələr arasında əlaqə çox zəif idi.

**Millətlərarası münaqişələr:** Milli-azadlıq hərəkatının qızğın çağında Azərbaycan xalqı erməni-daşnak təhlükəsi ilə üzləşdi.

XX əsrin başlanğıcında erməni millətçilərinin «Böyük Ermənistan» uğrunda hərəkatı gücləndi. «Daşnaksütyun» partiyasının başçılıq etdiyi bu hərəkatın mahiyyəti Türkiyə, Azərbaycan, Gürcüstan və İran əraziləri hesabına erməni dövləti yaratmaqdan ibarət idi.

Mərkəzi Tiflisdə yerləşən «Daşnaksütyun»un Zaqafqaziyanın çox yerində, o cümlədən Azərbaycanın Bakı, Gəncə, Şuşa və bir sıra başqa şəhərlərində təşkilatları vardı. Təşkilatlardan ən güclüsü Bakıda yerləşirdi. Burada iqtisadi cəhətdən çox güclü olan erməni kapitalistləri daşnak partiyasına geniş maliyyə yardımı göstərirdilər.

XX əsrin əvvəllərində daşnaklar Zaqafqaziyada yaşayan ermənilər arasında azərbaycanlılar əleyhinə düşmənçilik kampaniyasını daha da genişləndirdi, erməni əhalisindən vəsait toplanışını son dərəcə sərtləşdirdilər. Əvvəllər vəsait toplanışı könüllü şəkildə aparılırdısa, indi tələb olunan məbləği verməkdən boyun qaçıranları hətta ölüm cəzası gözləyirdi. Daşnaklar əsl mətləbi gizlədərək deyirdilər ki, guya həmin vəsait Türkiyədəki ermənilərin hərəkatına kömək məqsədilə toplanır.

Erməni-müsəlman ədavətinin qızışdırılmasında erməni kilsə xadimləri mühüm rol oynayırdılar. Onlara Eçmiədzindən (Üç kilsə) ümumi rəhbərlik edilirdi. Erməni kilsəsinin fəaliyyətini dərindən öyrənmiş bir rus diplomatı yazırdı: «Erməni din xadimlərinin fəaliyyəti «Allah kəlamını» çatdırmaqdan çox, müsəlmanlarla xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir».

Erməni kilsələri əslində hərbi sursat cəbbəxanasına çevrilmişdi. 1906-cı ildə Şuşada iki kilsənin yeraltı qatından çoxlu miqdarda tüfəng, güllə, top, bomba, dinamit və başqa hərbi sursat gizlədilmiş silah anbarları aşkara çıxarılmışdı.

Daşnakların məqsədi azərbaycanlıları yaşadıqları doğma torpaqlardan zorla qovub çıxarmaq və həmin yerlərdə erməni əhalisi yerləşdirməkdən ibarət idi. Onlar öz planlarını həyata keçirmək üçün Rusiyanın köməyinə bel bağlayırdılar. Daşnak liderlərindən biri Xatisov gizlətmədən deyirdi: «Bu daşnaksütyun Rusiyanın böyük şəxslərinin, generallarının və hətta Qafqaz canişini həzrətlərinin fikir və əqidələrinə qulluq edir və on beş ildir ki, təşkil olunub və onun qoşunu, xəzinəsi və soldatı da vardır». Erməni millətçiləri açıq çıxış etmək üçün əlverişli fürsət gözləyirdilər.

Belə fürsət 1905-1907-ci illər inqilabının başlanması ilə ələ düşdü.

1905-ci il fevralın əvvəlində erməni millətçiləri Bakıda iki azərbaycanlını qətlə yetirdilər. Bu terror aktı şəhərdə fevralın 6-dan 9-dək davam edən erməni-müsəlman qırğınına səbəb oldu. Yüzlərlə adam öldürüldü və yaralandı. Şəhərdə,

onun ətrafında çoxlu ev, dükan və müəssisə qarət edilib dağıdıldı, buruqlar yandırıldı.

Çar hökuməti kazak və polis qüvvələrini hadisə yerindən mümkün qədər uzaq saxlamağa çalışaraq, vuruşan tərəflərin taleyini, əslində, onların özlərinə tapşırmışdı.

Çar hökumətinin yeri düşdükcə daşnaklara kömək etməsinə baxmayaraq, ermənilər sayca onlardan qat-qat üstün olan müsəlmanların ciddi müqavimətinə rast gəldilər.

Münaqişənin ilk anından hər iki tərəfə bütünlüklə aydın oldu ki, çar hökuməti millətlərarası toqquşmaların nəinki qarşısını almaq istəmir, əksinə, ölkədə milli-azadlıq hərəkatını və inqilabi mübarizəni boğmaq üçün bu qarşıdurmadan istifadə etmək niyyətindədir. Daşnakların ifrat separatçılıq planları mütləqiyyətin ürəyincə olmasa da, çarizm aldığı ağır zərbədən özünə gələnədək, ona məzhəbcə yaxın və davakar erməni millətçilərinə müxtəlif vədlər verməklə, onlardan faydalanmağa çalışırdı. Belə ki, az-çox əhəmiyyətli fəhlə tətili, yaxud nümayiş tapmaq olmazdı ki, daşnaklar özlərinin pozuculuq fəaliyyətləri ilə çarizmə xidmət göstərməmiş olsunlar.

Bakıda qanlı fevral hadisələri ilə başlanan erməni-müsəlman münaqişəsi tezliklə Zaqafqaziyanın başqa regionlarına da yayılaraq, iki ilə qədər davam etdi. Bu münaqişələrə zorla cəlb edilmiş zəhmətkeş kütlələr olmazın müsibətlərə məruz qaldılar.

Terror, qətl-qarət erməni ekstremistlərinin başlıca mübarizə üsulu idi.

Azərbaycanın əsas yaylaqları ölkənin qərbində, ermənilərin yığcam halda yaşadıqları səfalı dağ-ətəyi ərazilərdə yerləşirdi. Ermənilər köç aparan müsəlman çobanlarına hücum edərək onları öldürür, heyvan sürülərini qovub aparırdılar.

Daşnak hərbi hissələri çar ordusunda və başqa ordularda xidmət keçmiş erməni döyüşçülərindən ibarət idi. Onlara erməni general və zabitləri başçılıq edirdilər. Ermənilərin müasir silahları, hətta topları da vardı.

Çar hökumətinin müsəlman əhalisindən əsgər çağırmaması öz acı bəhrəsini verdi. Hərbi təlim görməmiş azərbaycanlılar müsəlləh daşnak qüvvələrinə qarşı, yaxşı halda, ov tüfəngləri ilə, ata-babadan qalma çaxmaqlı tüfənglərlə, xəncər-qılıncla və əllərinə keçən başqa əşyalarla müqavimət göstərirdilər.

Erməni-müsəlman toqquşmaları, xüsusən, erməni əhatəsində olan, yaxud İrəvan quberniyası ilə qonşu ərazilərdə yaşayan azərbaycanlılar üçün son dərəcə faciəvi oldu. Bu yerlərdə daşnak terrorçularından qorxan, çox zaman onlardan rüşvət alan çar məmurları və hərbçiləri erməni millətçilərinin tərəfini saxlayırdılar.

1905-ci il mayın 11-də gecə ermənilər Naxçıvan şəhərini atəşə tutub, qətl-qarətə başladılar. Azərbaycanlılar bu zaman şəhərdə olan İrəvan vitse-qubernatoruna ermənilərin düşmən hərəkətlərindən şikayət etdilər. Vitse-qubernator şikayətçilərə demişdi ki, «əgər onlar sizə atəş açır, siz də tutub onların

tapançalarını alın... Mən bilmərəm». Cəhri kəndinin müsəlman əhalisi ermənilərin qətl-qarətinə məruz qaldı.

Mayın 23-də İrəvanda ermənilər tərəfindən törədilən milli münaqişə bir ayadək davam etdi. Şəhərin ermənilər və müsəlmanlar yaşayan hissələri arasında əsl səngər döyüşü başladı. İrəvanın ətrafında olan 15 müsəlman kəndi ermənilər tərəfindən tutulub viran qoyuldu. Müsəlman əhalisi qaçmaqla canlarını qurtardı.

İyunun 9-10-da Eçmiədzin mahalında 16 azərbaycanlı kəndi dağıdıldı, onların əhalisi pərən-pərən salındı. Çoxlu müsəlman öldürüldü. Erməni millətçiləri südəmər uşaqlara və qoca qarılara da aman vermədilər.

Şuşada müsəlmanlara divan tutmaq üçün erməni millətçiləri çox ciddi hazırlaşırdılar. Onlar gizli yerlərdə və hündür qayalarda səngərlər qazırdılar.. Ermənilərin çoxlu silahı olmasına baxmayaraq, müsəlmanların əlindəki az miqdar tüfəng və tapançanı da çox baha qiymətə alıb, onları tamam tərk-silah etməyə çalışırdılar. Bu zaman ermənilər bazarda 20 manata satılan tüfəngə 100, 6 manata satılan tapançaya isə 30 manat verirdilər.

1905-ci il avqustun ortalarında Şuşada daşnaklar şayiə yaydılar ki, müsəlmanlar şəhərin yaxınlığındakı Zarıslı kəndində dörd ermənini qətlə yetirmişlər. Bunu bəhanə edən ermənilər avqustun 16-da şəhərdə kütləvi qətl-qarətə başladılar. 15 erməni əsgəri qazarmadan qaçıb daşnak dəstələrinə qoşuldu. Şəhərin müsəlmanlar yaşayan Köçərli və Xəlfəli məhəllələrində 20-yə yaxın evin ailələri qətlə yetirildi. Vuruşmanın dördüncü günü yaxın kəndlərdən müsəlmanlar köməyə gəldilər. Erməni qüvvələri tamamilə məğlub edildilər. Onların çoxu qaçıb kazarmalarda çarpayıların altında gizlənməklə canlarını qurtardılar. Avqustun 21-də erməni arxi-mandriti və qubernatorun iştirakı ilə sülh bağlandı. Sülhdən az sonra erməni millətçiləri Şuşa realnı məktəbində təmir işi görən 17 iranlı fəhləni işgəncə verərək qətlə yetirdilər.

Şəhərdə çoxlu ev və dükan talan edilib yandırıldı. Yüzlərlə adam öldürüldü və yaralandı. Ermənilərin itkiləri daha çox idi.

1905-ci ilin avqustunda daşnaklar Bakıda ikinci böyük qırğın törətdilər. Bu zaman müsəlman cavanlarının çoxu şəhərətrafı bağlarda dincəldikləri üçün Bakı, bir növ, müdafiəsiz qalmışdı.

Bakı konkasında işləyən fəhlə və qulluqçuların çoxu erməni idi. Onlar tətil edib işə çıxmadıqda, hökumət soldatların köməyi ilə konkanı işlətdi. Buna cavab olaraq, avqustun 20-də ermənilər konkanı gülləyə basdılar. Konkada olan bir neçə soldat və müsəlman sərnişinləri öldü və yaralandı.

Erməni millətçiləri bu hadisədən istifadə edərək, gözə sataşan müsəlmanlara atəş açdılar. Onlar daha da azğınlaşaraq, iri binaların pəncərələrindən, evlərin darvazaları arxasından yoldan keçənlərin hamısına — azərbaycanlıya, rusa, gürcüyə, həmçinin qoşuna və polis işçilərinə güllələr yağdırmağa başladılar.

Şəhərdə, onun ətrafında müsəlmanlara məxsus xeyli dükan və mağaza qarət edildi, bir neçə binaya od vurub yandırıldı. Balaxanı neft mədənlərinə daha çox ziyan dəydi. Ermənilər tərəfindən öldürülənlərin meyitləri arasında çoxlu azərbaycanlı ilə yanaşı, rus, gürcü və başqa millətlərin nümayəndələri də vardı.

Erməni millətçilərinin bu dəfə törətdikləri milli münaqişə qiyama daha çox oxşayırdı. Belə ki, erməni atəş nöqtələrini susdurmaq üçün çoxlu soldat, kazak və polis qüvvəsi səfərbər edilmişdi. Hətta bəzi erməni atəş nöqtəsinə top zərbəsi endirilmişdi.

Avqustun 26-da Bakıda erməni daşnak fitnəkarlığına son qoyuldu.

Sentyabrın 14-də, bu vaxt Bakıda olan Qafqaz canişini Vorontsov-Daşkovun rəhbərliyi altında müsəlmanlarla ermənilər arasında sülh bərpa edildi.

Oktyabrın 3-də daşnak generalı Hamazaspın başçılığı ilə erməni atlı və piyada hissələri Cavanşir qəzasında bir neçə müsəlman kəndini qarət edib yandırdılar, əhalisini isə ucdantutma qılıncdan keçirdilər. Onlar hətta südəmər körpələri beşiyi ilə odlayır, anasının qucağından alıb divara vuraraq parça-parça edir və süngülərə keçirirdilər. Müsəlmanların şikayət etmədiyi yer qalmadı, lakin heç bir nəticəsi olmadı.

Bu arada «Daşnaksütyun» partiyasına yaxın olan Pivovarov adlı birisi Cavanşir qəza rəisi təyin edildi. Ermənilər daha da fəallaşdılar.

1905-ci ilin axırlarında Cavanşir qəzasının ermənilər tərəfindən dağıdılmış müsəlman kəndlərinin salamat qalmış əhalisi Ümmidli kəndinə pənah gətirdi. Onlar kənddən təhlükəsiz çıxıb getmələri üçün pristav Pivovarovdan kazak dəstəsi verməyi xahiş etdilər. Pristav onlara rədd cavabı verdi.

Dekabrın 16-da Ümmidli kəndində toplaşmış azərbaycanlılar qiymətli əşyalarını və mal-qarasını götürüb, şaxtalı bir havada kəndi tərk etdilər. Gecə daşnak yaraqlıları onları yolda mühasirəyə alıb, qırmağa başladılar. Bir neçə kəndin əhalisindən yalnız 30 nəfər qaçıb canını qurtara bildi. Onların nəql etdiklərinə görə, ermənilər hamilə qadınların qarınlarını xəncərlə parçalayanda məsum cocuqların qanlı başları bayıra çıxırmış. Müsəlman qadınları, qızları erməni vəhşilərinin əlində qalıb, o tərəfə-bu tərəfə qaçışırdılar. Qaçanların bütün var-dövləti ermənilərin əlinə keçdi.

1906-cı ilin yanvarında general Hamazaspın qüvvələri Papravənd kəndi uğrunda iki gün davam edən şiddətli döyüşlərdə məğlubiyyətə uğrayaraq Ağdərə kəndinə doğru geri çəkildilər. Bu döyüşlərdə 120 erməni öldürüldü, onların arasında nizami əsgərlər də vardı. Azərbaycanlılar çoxlu qənimət, o cümlədən bir araba patron, xeyli tüfəng və qılınc ələ keçirdilər. Papravənd döyüşündən sonra erməni basqınçıları bir müddət özlərinə gələ bilmədilər.

Qarabağın ermənilər tərəfindən qarət edilən müsəlman kəndlərinin əhalisi bərk aclıq çəkirdi. 1905-ci ildə Azərbaycanın ayrı-ayrı yerlərindən, həmçinin Rusiyanın Qazan, Aşqabad və İranın bir sıra şəhərlərindən Şuşaya ərzaq, məişət malları, pul göndərildi. Təkcə H. Z. Tağıyev 750 pud un, 105 pud qənd və çay, 600

pud neft, iki yeşik şam, Murtuza Muxtarov 600 manat pul vermişdilər. Aşqabad camaatı 5100 manat pul yollamışdı və s.

1905-ci ilin axırlarında erməni millətçiləri Gəncə, Tiflis, Naxçıvan şəhərlərində və Qazax qəzasında qanlı cinayətlər törətdilər.

Gəncədə millətlərarası münaqişələr açıq şəkil alan günədək ermənilər artıq on nəfər azərbaycanlını qətlə yetirmişdilər. Noyabrın 18-də daşnak döyüşçüləri şəhərin erməni hissəsində vəhşicəsinə öldürülən iki nəfərin meyitini aparmağa gələn azərbaycanlıları atəşə tutdular. Ermənilər əvvəlcədən hazırlıq görmuş, dükanlarda silah gizlətmişdilər. Onlar qarşılarına çıxan müsəlmanları gülləyə basırdılar. Şəhərin erməni hissəsində yaşayan müsəlmanlara daha çox ziyan dəydi, onlarca adam öldürüldü. Nahəyət, noyabrın 24-də Qafqaz canişini müavininin vasitəçiliyi ilə erməni və müsəlman vəkilləri arasında sülh imzalandı.

Noyabrın 20-dən 29-dək Tiflisdə də erməni-müsəlman qırğını törədildi. Qırx nəfərə yaxın öldürüldü, xeyli adam yaralandı. Bir neçə mağaza, dükan qarət edildi. On gün davam edən münaqişə Qafqaz canişini, Tiflis qubernatoru və digər yüksək rütbəli məmurların işə qarışması, həmçinin dəmiryolçuların etiraz tətili nəticəsində dayandırıldı.

1905-ci ilin noyabrında Naxçıvanda ikinci erməni-müsəlman münaqişəsi baş verdi. Ayın 26-da şəhərin yaxınlığındakı Çeşmə-Bazar müsəlman kəndində kazaklar asayiş yaratmaq bəhanəsi ilə bir evi qarət etmək istədikdə, həmin evin müqavimət göstərən ailə üzvlərini bütövlüklə məhv etdilər. Bu vəhşilik şəhərdə böyük narazılığa səbəb oldu. Cəzasız qalan kazaklar, üstəlik, ermənilərlə əlbir olaraq, Naxçıvanda müsəlman bazarını tamam qarət edib yandırdılar. Üç gün ərzində 160-dan artıq dükan və anbar yanıb külə döndü. Bu cinayətlərin hamısı ermənilər tərəfindən ələ alınmış polis rəisi Angilin və kazakların başçısı polkovnik Krılovun gözləri qarşısında törədildi.

Noyabrın 30-də Cəhri kəndinin azərbaycanlılar yaşayan hissəsinə ermənilər və kazaklar od vurub yandırdılar. Bu zaman Cəhriyə gələn İrəvan general-qubernatoru Paskeviç kazakların götürülməsini tələb edən müsəlmanlara «tədbir görərəm» deyərək, çıxıb getmişdi.

Qazax qəzasında erməni-müsəlman münaqişəsi daha ağrılı keçdi. Bunun başlıca səbəbi həmin qəzada hökumət və polis qulluqçularından çoxunun erməni olması idi.

Noyabrın 29-da Şəmsəddin pristavının başçılığı ilə müsəlman libası geymiş ermənilər Qazağa yaxınlaşaraq, qəfildən atəş açdılar. Az sonra ermənilər qəflətən Yaradullu kəndinə hücum edib, əhalini qılıncdan keçirdilər. Onlar çox şey, hələ 9 vaqon arpa və buğda qarət etdilər, kəndə od vurub yandırdılar. Buna cavab olaraq müsəlmanlar Əskipara və digər erməni kəndlərinə hücum etdilər.

Qazax qəzasında erməni - müsəlman münaqişəsi 1906-cı ilin əvvəllərinədək davam etdi. Nəhayət, erməni millətçiləri bütünlüklə dəf edildilər. Onların insan tələfatı daha çox idi. Azərbaycanlılara böyük maddi ziyan dəymişdi.

İyirmiyədək Azərbaycan kəndi, o cümlədən, Əlibəyli, Hacallı, Yaradullu, Qızılhacılı talan edilib yandırılmışdı.

1906-cı il fevralın 20-də erməni-müsəlman münaqişəsinə son qoymaq məqsədilə, Qafqaz canişini Vorontsov-Daşkovun sərəncamı ilə Tiflisdə sülh məclisi toplandı. Məclisə dörd quberniyadan erməni və müsəlman nümayəndələri dəvət olunmuşdular. Müsəlmanları Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Ələkbər bəy Xasməmmədov, Adil xan Ziyadxanov və başqaları təmsil edirdi.

Məclisin gündəliyinə bir sıra məsələlərin müzakirəsi daxil edilmişdi. Lakin müsəlmanların təkidi ilə «Ermənilərin terror və sair ziyan gətirən qatil dəstələrinin aradan götürülməsi» məsələsi, erməni nümayəndələrinin ciddi müqavimətinə baxmayaraq, danışıqların əsas mövzusuna çevrildi.

Bu zaman erməni terroru Zaqafqaziyada müdhiş bir şəkil almışdı. Terrordan zərər çəkən təkcə azərbaycanlılar deyildi. Erməni terrorçuları dövlət məmurlarına güclü təsir göstərərək, məsələlərin ədalətli həllinə mane olurdular. İtaət etməyən məmurlar, bir qayda olaraq, ölümə məhkum idilər.

1905-ci ildə Bakıda ilk qırğından az sonra, şəhərin qubernatoru Nakaşidze erməni terrorçuları tərəfindən öldürüldü. Həmin il Tiflisdə öz qadını ilə faytonda gedən Qafqaz canişininə hücum çəkən dörd erməni terrorçusu onu xəncərlə vurub yaraladı və s.

Terror məsələsinin müzakirəsi zamanı Ə. Ağayev göstərdi ki, «Qafqazda olan mənsəb sahibləri və hakimlərin çoxu erməni terrorundan qorxub ədalət və insaf ilə iş görmürlər» (2-ci sənədə bax).

Başqa bir azərbaycanlı nümayəndə dedi: «Bilmirəm bu nə istinadır ki, erməni millətinə məxsusdur?! Xristian olub rus ilə həmmillət olmaları, mədəni və dövlətli olmaları bəs deyil, gərək bir terrorları da olsun!! Bizim də terrorlarımız ola bilər. Biz də mauzer tüfəngləri saxlayıb bomba ata bilərik, biz də ermənilərdən yaxşı mənsəb sahiblərini, qubernator da öldürə bilərik. Lakin biz bunların heç birini etmirik, çünki bu rəzil və alçaq, səltənətə layiq olmayan işlərdir».

Erməni nümayəndələri «Daşnaksütyun»un terrorla əlaqəsini riyakarcasına dansalar da, bu partiyanın öz qoşunu və xəzinəsi olduğunu öyünə-öyünə təsdiq etdilər. Onda müsəlman nümayəndələri müsəlləh partiyaların tamamilə ləğv edilməsini, əks halda, onların da bu cür partiya yaratmaq məcburiyyətində qalacaqlarını bildirdilər.

Məclis səs çoxluğu ilə terrorun aradan götürülməsi və müsəlləh partiyaların dağıdılması haqqında qətnamə qəbul etdi.

Tiflis sülh məclisinin qərarları daşnakları heç cürə qane etmirdi. Erməni millətçiləri yeni cinayətlər törətməyə başladılar.

Daşnaklar Qalaşçanov familiyalı bir generalın Şuşa qəza rəisi təyin edilməsinə nail oldular. General ermənilərdən aldığı on min manat rüşvət və digər hədiyyələrin müqabilində Şuşada müsəlmanları bütünlüklə məhv edəcəyinə söz

vermişdi. İrəvandan, Gəncədən və başqa yerlərdən, hətta Türkiyənin itaəti altında olan ərazilərdən tezliklə Şuşada yeddi min silahlı erməni döyüşçüsü cəmləşdirildi. Onların altı ədəd topu da vardı. Bundan əlavə, beş topla 850 rus kazakı və yüzlərlə ermənipərəst rus da hazır vəziyyətdə idi. Müsəlmanlara qarşı silahlıların ümumi sayı 12 min nəfərə çatırdı.

1906-cı il iyunun 12-də erməni millətçiləri rus hərbçiləri ilə birlikdə fiinəkarlıq edərək, bir erməni keşikçisini öldürüb müsəlman məhəlləsinə atır və həmin məhəllə səmtindən erməni tərəfinə bir neçə atəş açırlar. Bu xəbər Qalaşçanova çatan kimi dərhal şəhərin müsəlman yaşayan Köçərli məhəlləsini topa tutmaq əmrini verdi. Müsəlmanların üzərinə güclü hücum başlandı. Müsəlmanlar böyüklü-kiçikli, kişili-qadınlı ayağa qalxaraq, ermənilərin və kazakların bütün həmlələrini dəf etdilər. Vuruşmanın üçüncü günü bir neçə yüz müsəlləh müsəlman könüllüsü sursatla Şuşaya daxil oldu.

Altı gün davam edən qanlı çarpışma daşnak-rus fitnəkarlarının tam məğlubiyyəti ilə nəticələndi. Ayın 18-də müsəlmanların cəlladı Qalaşçanovun özü döyüşən tərəflərin barışığa gəlmələri üçün vasitəçilik etməyə məcbur oldu.

Şəhərdə çoxlu ev, dükan qarət edilib yandırıldı. Müsəlmanlardan 30 nəfər, ermənilərdən isə bundan xeyli çox adam öldürülmüşdü. Öldürülənlər arasında hələ 30 nəfərədək kazak və rusun meyiti vardı.

Müsəlmanlar rus generalı Qalaşçanovun xəyanəti barədə yuxarılara çox yazdılar. Dövlət onu vəzifəsindən çıxarıb geri çağırmaqla kifayətləndi. Az sonra o, Tiflisdə naməlum şəxs tərəfindən atılan iki gülllədən aldığı yaradan öldü.

1906-cı il avqustun 9-da ermənilər Zəngəzur qəzasında dörd müsəlman kəndini tutub qılıncdan keçirdilər. Bu kəndlərin erməni qətlindən salamat qalmış adamları qaçaraq qonşu Saqqarsu kəndinə doluşdular. Ertəsi gün sübh çağı Saqqarsuda olanlar «Ya Əli, ya Əli» çağıra-çağıra gələn böyük bir dəstəni müsəlman könüllüləri bilib sevinclə onlara doğru yüyürdükdə, donunu dəyişmiş erməni qatillərinin yaylım atəşi ilə qarşılandılar. Müsəlmanların dəhşətli qırğını başlandı. Canını qurtara bilənlər dağa-daşa səpələndilər. Bəziləri qaçaraq, özlərini bir təhər Ordubad şəhərinə yetirdilər.

Saqqarsu faciəsindən bir neçə gün sonra, kəndin ətrafında bir iri daşın arxasından 60 nəfərdən artıq qadın və uşağın öldürülərək üst-üstə qalanmış meyitləri tapıldı. Başqa bir yerdə palazı kənar etdikdə, altından 15 uşağın kəsilmiş başları və doğranaraq bir-birinə qarışmış bədənləri göründü. Bir qədər aralı çoxlu qadın və uşaq meyitləri tökülüb qalmışdı.

Ümumiyyətlə, avqustun 9-dan 15-dək Zəngəzurda davam edən qırğın nəticəsində 200 nəfərdən artıq müsəlman qətlə yetirildi, 22 müsəlman kəndi talan edilib dağıdıldı.

Ordubad camaatı Zəngəzurda ermənilər tərəfindən törədilmiş vəhşiliklər haqqında həm İrəvan, həm də Yelizavetpol general-qubernatorlarına yüzə qədər

teleqram vurdular. Lakin çar hökuməti heç bir tədbir görmədi. Onda ordubadlılar caniləri özləri cəzalandırmağı qərara aldılar.

Sentyabrın 16-da Ordubaddan və Zəngəzurun erməni təcavüzünə məruz qalmış müsəlman kəndlərindən Saqqarsuya iki minə yaxın silahlı toplandı. Onlar daşnak qüvvələri üzərinə hücum etdilər. Ermənilər davam gətirməyərək, tutduqları müsəlman kəndlərini buraxıb qaçdılar. Bu zaman beş yüz nəfərlik hökumət qoşunu hadisə yerinə gəlib çıxdı. Ev-eşiklərindən didərgin düşən adamlar hökumət hərbi qüvvələrinin müşayiəti ilə öz doğma yurdlarına qaytarıldılar.

1906-cı ilin payızında erməni ekstremist-separatçılıq hərəkatı söndü. İki ilə yaxın davam edən erməni-müsəlman münaqişələri zamanı minlərlə adam öldürüldü və yaralandı. Bakı, Şuşa, Naxçıvan, Gəncə şəhərlərində böyük dağıntılar törədildi. Azərbaycanlılar yaşayan yüzlərlə kənd talan edildi və yandırıldı.

## SƏNƏDLƏR

### 1-ci sənəd

### İ. ZİYADXANOVUN I DÖVLƏT DUMASINDA NİTQİNDƏN

«...İndi bizim üçün də hərəkətə gəlmək zamanı gəlmişdir, biz də bundan sonra susmamağa qərarlıyıq. Zaqafqaziya torpaqları 100 il bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu yüz il içində biz müsəlmanlar həmişə əsir müamiləsi görmüş və bu sifətlə hər cür təqibata məruz qalaraq, hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik. Sözün həqiqi mənasında 100 il içində biz gözləri hər şeyi görən hökumətin şiddətli və əleyhimizə mənfi düzəltmələri altında yaşadılmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansı sahəsi ələ alınırsa-alınsın, hər birində bizim haqqımızda haqsızlığın hökm sürdüyünü görmüş olacaqsınız. Ölkəmiz istila edilər-edilməz, dərhal milli varlığımıza təcavüzə qalxışıldı. Dinimizə və müqəddəslərimizə müdaxilə edildi, din xadimlərimizin seçilməsinə mane olundu, bizə hökumət tərəfindən 20 manat maaş alan müsəlman mollaları göndərildi.

...Bələdiyyəyə gəlincə biz müsəlmanlara, mövcud üzvlərin sayının ancaq beşdə birini seçmək haqqı tanınmışdır. Son zamanlarda isə, şəhərin sakinlərinin əksəriyyəti müsəlman olduğu halda, mövcud bələdiyyə üzvləri sayının yarısı qədər üzv seçmək haqqı tanınmışdır. Xalq təhsili, əsas olaraq maarif müəssisələrindən danışmağa dəyməz. Çünki bizim kəndlərin məktəbi yoxdur. Çoxlu insanların yaşadıqları məntəqələrin 100 kilometr sağına, soluna, önünə və arxasına gedilərsə, bir məktəbə belə rast gəlməzsiniz. Halbuki, bizdən maarif işləri vergisi toplanılır...

Biz müsəlmanlara bəzi ali məktəblərə girmək haqqı verilməmişdir. Başqa məktəblərə isə yalnız diplom almaq xatirinə girilməkdədir. Çünki ali məktəblərdən birini, məsəla filologiya fakultəsini bitirən bir türk (Azərbaycanlı - T. Ə.) gənci diplom alıb vətənə döndüyü zaman ancaq, «vodka»nın sərtlik dərəcəsini təyin etməklə məşğul olmaq məsburiyyətindədir. Bu yüksək təhsilli gənc müsəlman olduğu üçün yalnız Qafqazda deyil, bütün Rusiya sərhədləri daxilində orta dərəcəli məktəblərdə müəllimlik etmək hüququndan məhrumdur. Bu haqq bizdən alınmışdır. Məmur olmaq məsələsinə gəlincə, bu gün Qafqaz daxilində bir yüksək təhsilli mülki hakim istisna edilərsə, öz vətənində xidmət edən bir müsəlman məmuruna rast gəlməzsiniz... Əgər bütün Rusiya bir dəniz, Qafqaz da onun sahilləri olaraq düşünülərsə, sizə gərəkli olmayan nə qədər boş və səfil kimsə varsa, hamısını bizim Qafqaz sahillərinə fırıldadıb atırsınız və bunlar da əslən əxlaqsız olan bir idarənin məmur kadrlarını tamamlamağa yaramış olurlar. Bizim ölkəmizdə dövlət idarəsinin idealı: rüşvət və xalqa əziyyət verməkdir. Kim 90 yaşlı bir qocanın əlindən loğmasını qoparıb alırsa, o, bizdə ən yaxşı məmur sayılır...

İndiki anda İrəvan və Gəncə od içərisində yanır. Hadisə oradan da Şuşaya sıçramışdır. Üç aydan bəri buralarda silahlı iki cəbhə qurulmuşdur... Bu qanlı qardaş vuruşu hökumətcə təhrik edilmiş və sonra qabağı alınmamışdır... Cənablar, iki ildən bəri qanlar içərisində üzməkdə olan ölkəmizdə cəsədləri ayaq altı edərək keçməkdəyik... Biz anaların qucaqlarından alınıb havaya fırladılan südəmər uşaqların havada ikən xəncərlərə keçirildiklərini görmüş olanlardanız, biz hamilə qadınların qarnına saplanan xəncərlərin açdığı yaralardan uşaq əllərinin yerindən çıxarıldığını görənlərdənik. Şifahi, mətbuat və digər təbliğat vasitələri ilə aramızda nifaq toxumu səpən provokatorlar utansınlar, yanğın və alovlardan xoşlananlar iş başından çəkilsinlər, dəlik-deşik edilən cəsədlərdən, anaların və uşaqların fəryadından, inləməsindən həzz alanlar rədd olsunlar!».

«Vətən səsi» qəzeti, 1 avqust 1990-cı il.

### 2-ci sənəd

## 1906-CI İLİN FEVRALINDA TİFLİS SÜLH DANIŞIQLARI ZAMANI Ə. AĞAYEVİN NİTQİNDƏN

«Budur neçə ildir ki, biz Qafqaz camaatı bir qəribə vəziyyətə düşmüşük ki, bir dəstə hamını qorxu altında saxlayıb heç kəsə fürsət vermirlər ki, nə öz fikrini, nə də öz işlərini, necə ki, lazımdır, izah etsinlər. Camaat işinə müdaxilə edən şəxslər və qulluqçular həmişə qorxu içərisindədirlər. Əgər bir kəs cürət edib öz fikrini açıq-açığa danışsa və yainki bir qulluqçu cürət edib öz insafına görə iş görsə, həmin saat möhrlü kağızlar gəlib, qətl fərmanı yetişər. Belə dolanmaq

olmaz! Buna bir axır qoymaq gərəkdir. Qulluqçulardan və sahib-mənsəblərdən bəziləri o qədər alçaq, o qədər rəzil oldular ki, bu qorxu kağızlarından vahimə edib insaflarından və ixtiyarlarından keçirlər. Və qorxu kağızlarını mülahizə edib kağızları göndərən tərəfə meyil edib, müqabil tərəfə bilə-bilə ədalətsizlik və amansızlıq edirlər. Əgər işlər belə gedirsə, əsla dolanmaq olmaz. Bu hərəkətlərə terror deyib eləcə təmizə çıxarırlar. Lakin terrora müəyyən dərəcəyə qədər dözmək olar. Bir dövlətdə ki, danışmağa və yazmağa izn vermirlər, insanları zülm və zorakılıqdan azad edib, insaniyyətə xidmət etmək qəsdilə qəddarlar və zalımlar əleyhinə terror mümkündür. Lakin terror bu dərəcəyə keçdikdə səbr ediləsi və dözüləsi deyil.

Bir adamı, bir qulluqçunu öz millətinə xidmət etməyə və ya öz insafına görə iş görməyə qorxudub vicdansızlıqa, ədalətsizliyə dəvət edən terror davam edərsə, bizim vilayətdə nə azadlıq, nə hürriyyət, nə ədalət, nə də bərabərlik əmələ gələ bilər. Hal-hazırda qulluqçuların çoxu, bəlkə hamısı boyunlarını alçaqcasına terror dəstələrinin qabağında əyib, ancaq onlara xoş gələn işlər tutub bu tərəfə hər cür cövr, zülm, sitəm, sonsuz səfa etməkdədir.

Biz müsəlmanlar bu halətdə davam etməyəcəyik və aşkar deyirik ki, hərgah işlər elə gedərsə, nə qədər Qafqazda bir elə terror dəstələri hökm edərsə, Qafqazda asayiş və təhlükəsizlik bərpa olunmayacaqdır. Biz heç kəsin barəsində şeytançılıq etmərik. Ancaq sülhün xatirəsi üçün məclisin diqqətini bu nöqtəyə cəlb edərik və deyərik ki, Qafqazda olan mənsəb sahibləri və hakimlərin çoxu erməni terrorundan qorxub ədalət və insaf ilə iş görmürlər. Asayiş və dinclik olması üçün hər nə təşəbbüs və tədbir görülsə, bu qulluqçular qorxularından bir əlac etməyib ancaq bir tərəfə zülm və səbr edəcəklər və buna görə də heç vaxt asayiş olmayacaqdır».

M. S. Ordubadi. Qanlı illər.
Bakı, 1991, səh. 111-112.

## § 3. MİLLİ HƏRƏKATIN VƏ İNQİLABİ MÜBARİZƏNİN ZƏİFLƏMƏSİ VƏ YENİDƏN YÜKSƏLMƏYƏ BAŞLAMASI. AZƏRBAYCANLILARIN BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ İŞTİRAKI

**İrticanın hücumu:** Çarizmin 1907-ci il 3 iyun çevrilişindən sonra Rusiyanın hər yerində irtica hücuma keçdi.

Azərbaycanın, demək olar ki, bütün qəzalarında hərbi vəziyyət elan edildi. Yüzlərlə fəhlə və kəndli dara çəkildi, həbsxanaya salındı, sürgün olundu. 1907-ci ilin axırlarında təkcə Bakının mərkəzi şəhər həbsxanasında min nəfərdən artıq siyasi məhbus vardı.

Həbslər nəticəsində o qədər adam itirilmişdi ki, hətta Yelizavetpol, Şamaxı, Şuşa bolşevik təşkilat və qrupları, faktik olaraq, bir müddət fəaliyyət göstərə bilmədi.

Stolıpinin göstərişinə əsasən, Bakıda xəfiyyəçilərin sayı artırıldı. Qafqaz canişininın sərəncamı ilə şəhərə əlavə olaraq 12 batalyon qoşun göndərildi.

Fəhlələrin həmkarlar ittifaqları, mədəni-maarif cəmiyyətləri, əsasən, ləğv edildi. Onların salamat qalan çox az hissəsi, o cümlədən Bakı neft sənaye fəhlələri İttifaqı polisin ciddi nəzarəti altına alındı. Fəhlə qəzetləri bağlandı. 1 Mayın bayram edilməsi qadağan olundu və s.

Çar hökuməti mütləqiyyəti devirməyi qarşıya məqsəd qoyan sosial-demokratlara nisbətən, geniş islahatlar keçirilməsini tələb edən milli-demokratları daha təhlükəsiz düşmən hesab edirdi. Bununla belə, milli-demokratik qüvvələr də irticanın hücumuna məruz qaldılar.

Bir sıra milli-siyasi təşkilatlar, cəmiyyətlər, jurnal və qəzetlər bağlandı, görkəmli demokratik ziyalıları təqib etməyə başladılar.

Yelizavetpol qubernatorunun xüsusi sərəncamı ilə «Difahi» və «Müdafiə» müsəlman partiyalarının fəaliyyəti polisin ciddi nəzarəti altına alındı. Qafqaz canişini «Difahi»nin başçıları barədə daha təsirli tədbirlər görülməsini tələb etdi. 1908-ci ildə vəziyyətin son dərəcə təhlükəli olduğunu görən Ə. Ağayev Türkiyəyə getməyə məcbur oldu.

M. Ə. Rəsulzadə, Ə. Hüseynzadə və digər demokratik ziyalılar İrana, Türkiyəyə, həmçinin başqa ölkələrə getməklə, irticanın təqiblərindən yaxa qurtardılar. 1907-ci ilin dekabrında vaxtilə Vıborq müraciətnaməsini imzalamış duma deputatlarının, o cümlədən azərbaycanlı deputatların Peterburqda məhkəmə prosesi başlandı. Deputatların hərəsinə üç ay həbs cəzası verildi, onlar Dövlət dumasına və ictimai vəzifələrə seçkilərdə iştirak etməkdən məhrum edildilər.

**İrtica şəraitində milli hərəkat:** Milli-demokratik qüvvələr, əsasən, çar hökumətinin icazə verdiyi leqal imkanlardan istifadə etməklə fəaliyyət göstərirdilər. 1907-ci il iyunun 3-də qəbul edilmiş yeni seçki qanunu müsəlman xalqlarının seçmək hüququnu son dərəcə məhdudlaşdırdı. Bu qanuna əsasən, Bakı, Yelizavetpol və İrəvan quberniyaları bir seçki dairəsində birləşdirilərək, Dumaya biri müsəlman, digəri erməni millətindən olan cəmi iki deputat seçə bilərdi. Hətta Orta Asiyanın müsəlman əhalisi «qeyri yetkin» xalqlar elan olunaraq, seçki hüququndan bütünlüklə məhrum edildilər.

Həmin il noyabrın 1-də III Dövlət duması açıldı. Dumada Bakı, Yelizavetpol və İrəvan quberniyalarının müsəlman əhalisini təkcə Xəlil bəy Xasməmmədov təmsil edirdi. O, Dumadakı çıxışında Qafqaz xalqlarının bir-birinə qarşı qoyulması siyasətini kəskin tənqid edərək göstərdi ki, millətlər arasında heç bir ayrı-seçkilik olmamalı, onlar eyni hüquqlardan istifadə etməli və eyni vəzifələri daşımalıdırlar; ancaq belə şəraitdə əhali dövlətə etimad edə bilər. Xasməmmədov müsəlman fraksiyası adından çıxış edərək, çarizmin köçürmə

siyasətini pislədi, yerli torpaqsız və aztorpaqlı kəndlilərin torpaqla təmin olunmasını, ana dilində təhsil, qeyri-rus xalqlarının milli dillərinin öyrənilməsinin məcburi fənlər sırasına daxil edilməsini, Rusiyanın ali məktəblərinə qəbul zamanı müsəlmanlara qoyulmuş məhdudiyyətlərin götürülməsini və müsəlman tələbələrinə də dövlət təqaüdü verilməsini, milli ucqarlarda seminariyalar, ali məktəblər, müsəlman qızları üçün dövlət məktəbləri açılmasını, yerli məhkəmə işlərində milli dilin işlədilməsini və sair tələb etdi.

İrticanın hücumuna düçar olmayan mədəni-maarif cəmiyyətləri, o cümlədən «Nəşr maarif», «Nicat», 1910-cu ildə təşkil edilmiş «Səfa» cəmiyyəti, xüsusən, jurnal və qəzetlər vasitəsilə milli azadlıq ideyaları təbliğ edilirdi. Buna görə də jurnal və qəzetlərin demokratik fikirli naşirləri dəfələrlə təqiblərə, böyük məbləğdə cərimələrə, həbslərə və başqa cəzalara məruz qalırdılar.

Xeyriyyəçilik işləri güclənirdi. Təkcə 1912-ci ildə «Nəşr maarif» cəmiyyətinın vəsaiti hesabına Abşeron kəndlərində 12 məktəb açılmışdı. H. Z. Tağıyev Bakı kommersiya məktəbini, ikinci qız gimnaziyasını, Musa Nağıyev və Murtuza Muxtarov realnı məktəbini himayədarlığa götürdülər. Himayədarlar sırasında Həbib bəy Mahmudbəyov, Əsədulla Əhmədov, İsa bəy Hacınski və başqaları vardı. Milli burjuaziyanın vəsaiti hesabına gənclərin Rusiyaya və xarici ölkələrə ali təhsil almağa göndərilməsi davam etdirilir, imkansızlara pul yardımı göstərilirdi. Cəmiyyətin xətti ilə müxtəlif ictimai-mədəni tədbirlər həyata keçirilirdi və s.

Bu zaman mühacirətdə olan demokratik əhval-ruhiyyəli Azərbaycan ziyalıları milli istiqlal ideyalarını yayır və inkişaf etdirirdilər. Bunun üçün həmin dövrdə İran və Türkiyədə mürtəce rejimlərə qarşı çevrilmiş ümumxalq hərəkatları əlverişli şərait yaradırdı. Azərbaycanın şimalından olan mühacirlər Cənubi Azərbaycan məşrutəçiləri (konstitusiya tərəfdarları) ilə və gənc türklərlə yaxınlaşdılar. Milli ziyalılar İran və Türkiyə mətbuatında, xüsusən özlərinin bu ölkələrdə yaratdıqları jurnal və qəzet səhifələrində Azərbaycanın milli qurtuluşu yollarını, onun tarixi keçmişini, mədəniyyətini, dil və mənəviyyatını araşdıran, həmçinin gənc türklər və məşrutə inqilablarından bəhs edən bir sıra məqalələr dərc etdirdilər, kitablar buraxdılar.

1910-cu ildə İran demokrat partiyasının yaradılmasında yaxından iştirak edən və bu partiyanın Mərkəzi Komitəsinin üzvü seçilən M. Ə. Rəsulzadə vətəndəki məsləkdaşlarına göndərdiyi məktublarında milli-azadlıq hərəkatına rəhbərlik etmək üçün siyasi partiya yaratmağın vacibliyini göstərir və müvafiq tövsiyələrini verirdi.

1911-ci il oktyabrın 11-də keçmiş hümmətçilərdən Nağı Nağıyev, Məmmədəli Rəsulzadə və Abbasqulu Kazımzadə tərəfindən gizli fəaliyyət göstərən «Müsəlman demokrat «Müsavat» partiyası»nın əsası qoyuldu.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilən əhvümumidən sonra Vətənə qayıdan M. Ə. Rəsulzadə «Müsavat» partiyasına girdi və tezliklə onun rəhbəri oldu.

«Müsavat» Qərbin nümunəsində kapitalist inkişaf yolunu müdafiə edən liberal burjua partiyası idi.

«Müsavat»ın qəbul olunmuş ilk proqramında milli və dil fərqlərindən asılı olmayaraq, bütün müsəlman xalqlarını müstəqillik və tərəqqi uğrunda mübarizədə birləşdirmək ideyası əsas məqsəd götürülürdü.

«Müsavat»ın fəaliyyəti getdikcə genişlənir, Azərbaycanın müxtəlif yerlərində onun şöbələri yaradılırdı.

**Birinci dünya müharibəsi illərində milli-siyasi fəallığın artması:** 1914-cü ilin yayında birinci dünya müharibəsi başlandı. Şimali Azərbaycanda hərbi əməliyyatlar getməsə də, müharibənin məhrumiyyətləri lap ilk çağlarından hiss olunurdu. Müharibənin yaraları ilə əlaqədar olaraq, xeyriyyə cəmiyyətlərinin qayğıları olduqca artdı. Milyonçu Şəmsi Əsədullayevin oğlu Mirzə Əsədullayevin sədr olduğu və H. Z. Tağıyevdən böyük pul yardımı alan Bakı müsəlman «Xeyriyyə cəmiyyəti»nin üzvləri didərginlərə, yaralılara, qaçqınlara kömək məqsədilə bütün cəbhə boyu türk xalqlarının yaşadıqları rayonlara getdilər. Cəmiyyətin fəaliyyətində gənc şair Əhməd Cavad (1891-1937-ci illər) yaxından iştirak edirdi. O xeyriyyəçilik məqsədilə Şimali Qafqaza, Gürcüstana, Türkiyəyə və başqa yerlərə gedib çıxmışdı. Onun köməyi ilə kimsəsiz uşaqlar üçün yetim evləri təşkil edilmişdi.

Müharibənin əvvəllərində Bakıda qadın xeyriyyə cəmiyyəti yaradıldı. Bu cəmiyyət, ilk növbədə, xaricdə təhsil alan azərbaycanlı gənclərə müharibə ilə əlaqədar maddi çətinlikləri dəf edib, öz təhsillərini başa vurmaları üçün vəsait toplayıb göndərirdi. Az sonra Bakıda Qaçqınlara kömək komitəsi təşkil edildi. Şəhərdə onun çoxlu şöbələri vardı. Milli-demokratik ziyalılar, şəhərin varlıları Komitəyə yaxından kömək edirdilər.

Bu dövrdə Yelizavetpolda ali təhsilli həkimlər Xudadat bəy Rəfibəyov və Həsən bəy Ağayev tərəfindən yaradılmış «Yelizavetpol tibb cəmiyyəti» əhaliyə çox zaman pulsuz xidmət edir, imkansız xəstələrə dərman almağa vəsait verirdi.

1915-ci ilin yazında rus müstəmləkəçilərinə arxalanan erməni millətçiləri tərəfindən törədilən Qars qırğını ilə əlaqədar böyük müsibətlərə düçar olmuş türk əhalisinə kömək etmək üçün Yelizavetpolda Ələkbər bəy Rəfibəyovun rəhbərliyi altında ianə komissiyası yaradıldı. Komissiyanın üzvləri on min manatlarla vəsait toplayıb zərərçəkənlərə çatdırdılar.

Bu zaman, birinci dünya müharibəsinin təsiri altında Azərbaycanda milli-azadlıq hərəkatı yenidən vüsət aldı. M. Ə. Rəsulzadə bu hərəkatın ideya rəhbəri oldu. O, əsası hələ XX əsrin ilk illərində Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə tərəfindən qoyulmuş milli-azadlıq ideyalarını yeni ictimai

şəraitdə inkişaf etdirdi. M. Ə. Rəsulzadənin milli-azadlıq ideyaları qəzet və jurnal səhifələrində dərc edilərək yayılırdı.

1914-cü ilin axırlarında «Dirilik» jurnalında M. Ə. Rəsulzadənin «Dirilik nədir?» silsilə məqalələri dərc olundu. O elmi surətdə əsaslandırdı ki, Araz çayından şimalda yaşayan və indiyədək rəsmi adı məlum olmayıb, gah türk, gah tatar, hətta «müsəlman» kimi hallandırılan bu xalq hazırda Arazın o tayında İran hakimiyyəti altında «Azərbaycan» adı ilə qərar tutan xalqla eyni mənşədəndir. Xalqımızın azərbaycanlı kimi tanıdılması istiqamətində bəzi demokratik ziyalılar əvvəllər də cəhdlər göstərmişlər, lakin «Azərbaycan» termininin ictimai-siyasi həyatda istinasız olaraq xalqın rəsmi adına çevrilməsi M. Ə. Rəsulzadənin xidmətinin nəticəsidir.

Milli-azadlıq hərəkatında M. Ə. Rəsulzadənin əsas şüarı «türkləşmək, islamlaşmaq, müasirləşmək» idi. Belə bir şüar vaxtilə Ə. Hüseynzadə tərəfindən də irəli sürülmüşdü. M. Ə. Rəsulzadə türk xalqlarının bir dövlətdə birləşdirilməsini təbliğ edən pantürkizmin və bütün millətlərdən olan müsəlmanların vahid dövlətinin yaradılmasını təbliğ edən panislamizmin əleyhinə olub, həm pantürkizmə, həm panislamizmə milliliyin itirilməsi kimi qiymət verirdi. Göstərirdi ki, «...müsəlman ölkələrində milli özünüdərketmənin oyadılması prosesini qüvvətləndirmək lazımdır». O, türk birliyinə müstəmləkəçilərə qarşı mübarizədə birgə çıxış etmək vasitəsi kimi baxırdı.

1915-ci il oktyabrın 2-də M. Ə. Rəsulzadə «Açıq söz» qəzetinin nəşrinə başladı. Bu qəzet, əslində, gizli fəaliyyət göstərən «Müsavat» partiyasının orqanı idi. Qəzetin ilk nömrəsinin baş məqaləsində göstərilirdi ki, «dəhşətlərinə şahid olduğumuz böyük müharibə böyük bir həqiqəti—əsrimizin milliyyət əsri olduğunu isbat etdi... Ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək böyük bir məfkurəyə... sahib olmalıdırlar». M. Ə. Rəsulzadə cəmiyyətin sinfi təbəqələşməsini qəti rədd edərək, demokratik prinsiplər əsasında xalqın bütün zümrələrinin birliyinə onun milli, dini və mənəvi inkişafının, bütövlüyünün və müstəqilliyinin əsası kimi baxırdı.

Bu dövrdə sosial-demokratların içərisində milli məsələnin həllinə müxtəlif cür yanaşılırdı. Azərbaycan xalqının siyasi cəhətdən hələ yetişmədiyini iddia edən menşeviklər, eserlər milli məsələnin həlli yolunu bu xalqa yalnız milli-mədəni muxtariyyət verilməsində (mədəni təşkilatlar yaratmaq, ana dilində məktəblər açmaq və s.) görürdülər. S. Şaumyan da Qafqaz xalqlarına vilayət (ərazi) muxtariyyəti verilməsinin əleyhinə çıxırdı. Buna görə hətta V. İ. Lenin onu ciddi tənqid etmişdi.

V. İ. Lenin başda olmaqla bolşeviklər milli-mədəni muxtariyyətin əksinə olaraq, xalqlara, vahid çoxmillətli dövlətin tərkibində qalmaq şərti ilə, vilayət muxtariyyəti verilməsinə tərəfdar idilər. O göstərirdi ki, barışmaz sinfi mübarizə, proletar beynəlmiləlçiliyi, bütün millətlərdən olan proletarların birgə fəaliyyəti

zəminində millətlərə hətta müstəqil dövlətini yaratmağa qədər öz müqəddəratını təyin etmək hüququ verilə bilər.

Milli-demokratlar bolşeviklərin milli siyasətinə xalqları sinfi cəhətdən parçalamaq yolu ilə bu xalqların milli bütövlüyünü məhv etmək kimi baxırdılar. Onlar millətin bütün təbəqələrinin mənafeyinin eyni dərəcədə müdafiə olunduğu vilayət muxtariyyətinə tərəfdar idilər.

Mətbuat səhifələrində, leqal və gizli fəaliyyət göstərən təşkilatların vasitəsilə xalqı milli birliyə, türk və müsəlman birliyinə çağırışlar xeyli qüvvətləndi. Sosial-demokratlarla hələ əlaqəni üzməyən, hətta 1914-cü ildə M. Qorkinin «Ana» romanının bir hissəsini Azərbaycan dilinə çevirən M. Ə. Rəsulzadə millətlərin öz müqəddəratını təyin etmək prinsipinə bolşeviklərin deklarativ yanaşmasına tam yəqinlik hasil edərək, onlardan tamam uzaqlaşdı.

Müharibə uzandıqca milli-müstəmləkə zülmü daha da şiddətlənir, əhalinin mövcud quruluşdan narazılığı durmadan artırdı.

1916-cı ilin noyabrında IV Dövlət dumasında Zaqafqaziya müsəlmanlarının yeganə deputatı Məmməd Yusif Cəfərov müxalifətə qoşularaq müsəlman fraksiyası adından hökumətə etimad göstərmədiyini bildirmiş və bütün xalqlara azadlıq verilməsini tələb etmişdir. O demişdir ki, hələ heç vaxt milli zülm bu səviyyəyə çatmamış, Rusiya mərkəzi bürokratik mexanizmi «özgə xalqların»[2] hissiyyatı ilə bu dərəcədə oynamamış, onların məişət və mənəvi xüsusiyyətlərini bu qədər eybəcər hala salmamışdır.

**Azərbaycanlıların birinci dünya müharibəsində iştirakı:** Birinci dünya müharibəsi cəbhələrində 200 nəfərədək azərbaycanlı zabit vuruşmuşdu. Onlar çarizmin özünə yaxın saydığı xan-bəy, burjua ailələrinə mənsub adamlar idilər. Bu zabitlərin içərisində generallardan Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseyn xan Naxçıvanski, polkovnik İbrahim ağa Orucov, mayor Zülfüqar Bağırov, ştabs-kapitan Tərlan Əliyarbəyov və başqaları vardı.

Müharibənin əvvəllərində Port-Artur qəhrəmanı general-leytenant S. Mehmandarovun komandir olduğu 21-ci piyada diviziyası Lodz əməliyyatı zamanı xüsusi fərqləndi. Az sonra II Qafqaz ordu korpusunun komandiri təyin olunan Mehmandarov müharibənin sonuna yaxın artıq korpuslar qrupuna komandanlıq edirdi ki, bu da ordu komandanlığına bərabər vəzifə idi. O, hərbi xidmətlərinə görə dəfələrlə qızıl qılıncla, Rusiyanın, həmçinin İran, İngiltərə, Fransa və Rumıniyanın müxtəlif döyüş ordenləri ilə təltif edilmiş, artilleriya üzrə tam general rütbəsinə qədər yüksəlmişdi.

Port-Arturun digər qəhrəmanı general-mayor Ə. Şıxlinski müharibənin ilk günündən Rusiya paytaxtını artilleriya ilə müdafiənin rəisi təyin olundu. Sonra, ağır artilleriya üzrə taktiki döyüş hazırlıqlarına rəhbərlik etmək üçün, Şimal-Qərb cəbhəsinə göndərildi.

---

[2] Çar hökuməti müstəmləkə əhalisinin bu cür – "inorodtsı" – adlandırdı.

Bir müddət Baş qərargahda işləyən Şıxlinski müharibəni 10-cu ordunun komandanı vəzifəsində başa vurdu. Onun hərbi xidmətləri Rusiyanın yüksək döyüş ordenləri və qızıl qılıncla qiymətləndirildi, Şıxlinskiyə general-leytenant rütbəsi verildi.

General-leytenant, Hüseyn xan Naxçıvanskinnn komandanlıq etdiyi 1-ci və 2-ci qvardiya süvari diviziyaları Şərqi Prussiyada alman qoşunlarına qarşı müvəffəqiyyətli döyüşlər apararaq, onları bir sıra strateji mövqelərdən vurub çıxartdılar. Onun hərbi hissələri düşmənin canlı qüvvəsinə böyük tələfat verdi, xeyli hərbi qənimət ələ keçirdilər. Naxçıvanskiyə süvari qoşun üzrə tam general rütbəsi verildi. O bir sıra döyüş ordenləri ilə, o cümlədən «Müqəddəs Georgi» ordeninin bütün dörd dərəcəsi ilə təltif edildi.

Vuruşmalarda qəhrəmanlıq göstərərək, yüksək döyüş ordeni olan Georgi xaçı ilə təltif edilmiş onlarca azərbaycanlı zabit vardı.

İlk azərbaycanlı təyyarəçisi Fərrux Qayıbov özünün idarə etdiyi «İlya Muromets № 16» təyyarəsi ilə düşmən istehkamlarına, körpülərə və digər hərbi obyektlərə aramsız zərbələr endirir, havadan onların mövqelərinin şəkillərini çəkir, alman təyyarələrini atəşə tuturdu. 1916-cı ilin sentyabrında Vilno səmasında onun üstünə gələn dörd alman təyyarəsi ilə qeyri-bərabər döyüşdə F. Qayıbov düşmənin üç təyyarəsini vurub saldı, özü isə od tutub yanan təyyarənin içərisində komanda üzvləri ilə birlikdə həlak oldu.

Nijqorod draqun alayının rotmistri Teymur Novruzov öz eskadronu ilə düşmən süvarilərini qılıncdan keçirərək, onların iki ağır topunu qənimət götürdü. O, «Müqəddəs Georgi» ordeninin dörd dərəcəsi ilə təltif edilmişdi.

Birinci dünya müharibəsi zamanı «Qafqaz süvari diviziyası»nın tərkibində azərbaycanlılardan təşkil olunmuş «Tatar (Azərbaycan-T. Ə.) süvari alayı» da vardı. Çar generalları, velikorus millətçiləri bu alayı təhqiranə tərzdə «Dikaya diviziya» adlandırırdılar. Alayın döyüşçüləri özlərinin cəsurluqları ilə xüsusilə fərqlənirdilər.

Müharibə cəbhələrində 3 min nəfərədək azərbaycanlı iştirak etmişdi.

1915-ci ilin iyununda çar hökuməti «özgə xalqlar»dan olan 18 yaşından 23 yaşınadək gənclərin cəbhəarxası işlərə səfərbərliyi haqqında fərman verdi. IV Dövlət dumasında deputat Məmməd Yusif Cəfərov müsəlman fraksiyası adından çıxış edərək, çar hökumətinin müstəmləkə əhalisinə qarşı çevrilmiş bu fərmanını ciddi tənqid etdi və «özgə xalqlar»dan olanların tarla işləri qurtaranadək cəbhəarxası işlərə səfərbərlikdən saxlanmasına nail oldu.

**İnqilabi fəhlə hərəkatında tənəzzül və nisbi yüksəliş:** İrtica illərində sosial-demokratiyanın sıraları xeyli seyrəldi. Təqiblərdən yaxa qurtara bilmiş bolşeviklər gizli işə keçdilər.

Fəhlələrin ara-sıra kiçik tətilləri baş verirdi. 1909-cu ildə bu tətillərdə 20 mindən artıq fəhlə iştirak etmişdi. Tətilçilərə amansız divan tutulurdu. Həmin ilin üç ayı ərzində Bakıdan 12500 fəhlə sürgün olunmuşdu.

1912-ci il Lena gülləbaranından sonra Rusiya, o cümlədən Azərbaycan fəhlə hərəkatında nisbi canlanma başladı.

Həmin ilin aprelində Şollar-Bakı su kəməri tikintisinin Xaçmaz bölməsində işləyən fəhlələr beş gün tətil etdilər. Onlar əmək haqqının 25 faiz artırılmasını, iş gününün qısaldılmasını tələb edirdilər.

Mayda Nuxanın ipəksarıma müəssisələri fəhlələrinin 8 gün davam edən tətili baş verdi. Bu tətil nəinki Azərbaycanda, hətta bütün Rusiyada ipəksarıma müəssisələri fəhlələrinin ən iri tətili idi. Belə ki, 1912-ci ildə Rusiyanın bütün ipəksarıma müəssisələrində cəmi 5,3 min fəhlə tətil etdiyi halda, təkcə Nuxa tətilində 6 min fəhlə iştirak etmişdi. Sentyabrda Nuxa ipəksarıma müəssisələrinin 3 min fəhləsi yenidən tətil etdilər. Tətilçilər əmək haqqının artırılmasını, iş gününün qısaldılmasını və digər tələblər irəli sürdülər. Tətil polisin gücü ilə yatırıldı, onun 49 nəfər başçısı həbs olundu. Lakin beş gün davam edən bu tətilin nəticəsində fəhlələr bəzi güzəştlər qopara bildilər.

1913-cü ilin yayında tətillərin sayı çoxaldı.

İyulun 27-də Bakıda 40 mindən artıq fəhlənin iştirak etdiyi ümumi tətil baş verdi. Tətilçilər 8 saatlıq iş günü, əmək haqqının artırılması, mədən-zavod komissiyalarının və həmkarlar ittifaqlarının rəsmən tanınması, mətbuat azadlığı, 1 Mayın azad surətdə bayram edilməsi, fəhlə qəsəbələri salınması, fəhlələr üçün ana dilində məktəblər açılması və s. tələblər irəli sürdülər.

Tətil Rusiyanın duru yanacaqla işləyən sənaye sahələrini və nəqliyyatını təhlükə qarşısında qoydu. Vəziyyətdən çıxmaq üçün II Nikolayın razılığı ilə xaricdən gətirilən neftin üzərinə qoyulmuş çox böyük qoruyucu gömrük dekabrın 15-dək götürüldü.

Çar hökuməti tətilçilərə qarşı cəza tədbirlərinə əl atdı. 3 min nəfərədək fəhlə mədən mənzillərindən çıxarıldı, tətilçiləri döydülər, onların ailələri su və yanacaqdan məhrum edildilər.

Bir sıra şirkətlər fəhlələrlə ayrılıqda danışıqlar apararaq, bəzi güzəştlərə getdilər. Tətilçilərin bir hissəsi işə çıxdı, beləliklə, tətil zəifləməyə başladı və sentyabrın ortalarında dayandırıldı. Fəhlələrin əmək haqqı 20-30 faiz artırıldı. Bu tətil Azərbaycanda irticanın hücumundan sonra ən böyük inqilabi hadisə idi.

1914-cü ilin yanvarında Tovuz sement zavodu fəhlələrinin tətili polisin gücü ilə yatırıldı.

Bu zaman Bakıda vəba xəstəliyi halları müşahidə olunurdu. Neftçi fəhlələr xəstəliyin yayılmasının qarşısını almaq üçün xüsusi fəhlə qəsəbələri salınmasını hökumətdən tələb etdilər. Bu tələbin rədd edilməsi 1914-cu il mayın 28-də ümumi tətilin başlanması üçün siqnal oldu. Tətilçilər 8 saatlıq iş günü, 1 Mayın azad surətdə bayram edilməsini, əmək haqqının artırılmasını, dilənçi sədəqəsi olan peşkeşlərin ləğv edilməsini, mədən ərazilərindən kənarda fəhlə qəsəbələri tikilməsini və s. tələb edirdilər.

İyunun 3-də artıq 50 min fəhlə tətil edirdi. Tətil günlərində izdihamlı yığıncaqlar keçirildi. Polislə silahlı toqquşmalar baş verdi. Çoxlu tətilçi fəhlə həbs edildi.

Cəza tədbirləri son dərəcə gücləndirildi. Bakıya 600 nəfərlik kazak dəstəsi gətirildi. Şəhərdə hərbi vəziyyət elan edildi. Mədən rayonlarında axşam saat 8-dən sonra küçəyə çıxmaq qadağan olundu. Neftçilərin həmkarlar İttifaqı dağıdıldı və onun rəhbərləri həbs edildilər. Təkcə beş gün ərzində 300 fəhlə tutulub həbsxanaya salındı. İşə çıxmayan fəhlələri müəssisədən qovur, onların ailə üzvlərini fəhlə mənzillərindən zorla bayıra atırdılar. 6 minə yaxın fəhləni mənzildən çıxarmaq haqqında məhkəmə qərarı verildi.

Çarın bilavasitə göstərişinə əsasən daxili işlər nazirinin müavini qəddar irticaçı Çukovski Bakıya gəldi. Az vaxt içərisində onun sərəncamı ilə 1600 fəhlə həbs edildi, 3500-dən artıq fəhlə Rusiyanın daxili quberniyalarına sürgün olundu, 1750 tətilçi işdən qovuldu. Bakı tətilçilərinə kömək üçün poçtla göndərilən pullar müsadirə edildi, bütün teleqramların üzərinə senzura qoyuldu.

İyulda Bakıya içərisində pulemyot bölüyü olan əlavə batalyon göndərildi. Neft gəmilərini doldurmaq və elektrik stansiyalarını işlətmək üçün soldat və matroslardan istifadə edilməsi haqqında sərəncam verildi.

İyulun 8-də Sabunçuda həbs olunmuş tətilçilərdən 300 nəfərinin arvadları uşaqlarını qucaqlarına alaraq nümayişə çıxdılar. Onlar ərlərinin həbsdən azad olunmasını tələb edir, tətilçi ailələrinə çatacaq əmək haqqının verilməməsindən, içməli suyun kəsilməsindən, onların ev sahibləri tərəfindən mənzillərdən çıxarılmasından şikayət edirdilər. Nümayişi dağıtmaq üçün kazak dəstəsi göndərildi. Kazaklar qadın və uşaqları döyür, atların ayaqları altına salırdılar. Qadınların 40 nəfərdən çoxu həbs edildi.

Amansız cəza tədbirləri və ciddi maddi çətinliklərlə qarşılaşan tətilçilərin bir hissəsi işə çıxmağa məcbur oldu və tətil tədricən zəifləməyə başladı.

1914-cü ilin yayında Bakıda fəhlələrin iki ay davam edən ümumi tətili müvəffəqiyyətsizliyə uğrasa da, mütləqiyyətə, sənaye-ticarət dairələrinə böyük maddi ziyan vurdu, Rusiyanın bir sıra şəhərlərində həmrəylik tətillərinə səbəb oldu.

Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq polisin təqibləri son dərəcə gücləndi. Çoxlu fəhlə həbs olunub sürgün edildi. Neft sənaye fəhlələrinin İttifaqı və digər leqal təşkilatlar qadağan olundu.

1915-ci il aprelin 9-da Nuxanın 20 ipəksarıma müəssisəsi fəhlələrinin on iki gün davam edən tətili baş verdi. Burada polislə toqquşmalar nəticəsində hər iki tərəfdən yaralananlar oldu. Tətilçilər gündəlik əmək haqqının 5-15 qəpik arasında artırılmasına, iş gününün yarım saat qısaldılmasına nail oldular. İpək sarıyanlar iyun ayında da iki həftə sürən tətil etdilər.

Yayda Xəzər ticarət donanmasının matrosları, Tovuz sement zavodunun fəhlələri, Gədəbəy mədənçiləri və misəridənləri iqtisadi tələblərlə tətil etdilər.

1915-ci ilin axırlarına doğru fəhlə hərəkatı canlandı. Hələ müharibənin əvvəllərində bağlanmış həmkarlar ittifaqları, mədən-zavod komissiyaları yenidən fəaliyyətə başladı.

1916-cı il fevralın 14-dən 16-dək Bakıda qıtlıq və aclıqdan cana gəlmiş yoxsullar ərzaq mağazaları və anbarlarına hücum etdilər. Bunun təşəbbüskarları, əsasən, qadınlar olduğuna görə xəfiyyəçilər bu çıxışları «arvad ixtişaşları» adlandırırdılar. İğtişaşları yatırmaq üçün çağırılmış soldatlar atəş atmaqdan imtina etdilər.

Yaz və yayda Bakının bir sıra müəssisələrində tətillər baş verdi. Tətilçilər mövcud bahalıqla əlaqədar olaraq əmək haqlarının artırılmasını tələb edirdilər.

1917-ci il yanvarın 3-də Qara şəhərdə Nobel qardaşlarının mexaniki emalatxanalarında tətil başladı. Tezliklə şəhərin bir sıra müəssisələrinin fəhlələri bu tətilə qoşuldular. Tətilçilərin tələbləri sırasında cəza tədbiri olaraq orduya çağırılmış fəhlələrin tərxis edilməsi, həbsə alınmış tətilçilərin buraxılması, fəhlə komissiyalarının tanınması, fəhlələrin əmək haqqının 30 faizdən 100 faizədək artırılması və sair vardı. Bakının 87 müəssisəsində 22 min fəhləni əhatə edən bu tətil yanvarın 31-dək davam etdi. Həbsə alınmış tətilçilər azad edildi, cəza tədbiri olaraq orduya göndərilmiş tətilçilərin tərxis edilməsi vəd olundu.

**Kəndli hərəkatı:** İrtica illərində kəndli hərəkatının zəifləməsinə baxmayaraq, ayrı-ayrı çıxışlar yenə də baş verirdi. 1908-1909-cu illərdə Yelizavetpol qəzasında, Goran və Seyfəli kəndlərində qaçaqlarla strajniklər arasında insan tələfatı ilə nəticələnən atışmalar baş vermiş; Qaybəli kənd sakinləri tərəfindən tutulmuş mübahisəli torpaqları kəndlilərdən geri almağa gəlmiş hökumət nümayəndələrinə silahlı müqavimət göstərilmiş; Forer qardaşlarının malikanəsinə hücum edilmişdi.

1910-cu ildə Quba qəzasında kəndli çıxışları gücləndi. O dövrdə çıxan qəzetlərin biri yazırdı ki, Quba qəzası nəinki Bakı quberniyasında, həm də Zaqafqaziyada ən çox qaçaq-quldur olan qəzalardan biridir, bir quldur dəstəsini ləğv etməmiş, yağışdan sonra çıxan göbələk kimi, yeni dəstələr yaranır.

Mart ayında Lənkəran qəzasında silahlı kəndli dəstəsi polis strajnikləri üzərinə hücum etdi və həbsxanaya aparılan 17 nəfəri azad etdilər.

Qəzanın Arus kənd camaatı kəndxuda və digər vəzifələrə «seçkilərdə» iştirak etməkdən boyun qaçırdı. Kəndə «seçki» keçirməyə gələn uryadnik və strajniklər kəndlilərin ciddi müqavimətinə rast gəldi və yalnız yaxınlıqdakı sərhəd gözətçiləri köməyə gələndən sonra canlarını qurtarıb qaça bildilər.

Həmin ildə Şamaxı qəzasının Xanıslı kənd camaatı dəyənəklərlə silahlanaraq mübahisəli torpaqların sərhədlərini müəyyənləşdirmək üçün gəlmiş hökumət nümayəndələrinə ciddi müqavimət göstərdi. Kəndlilərin çıxışı silah gücünə yatırıldı. Buna bənzər hadisə qəzanın Qurbançı kəndində də baş verdi.

Yelizavetpol qəzasında xüsusən Kərbəlayi Əsgərin, Məşədi Yolçunun, Qatır Məmmədin, Qandal Nağının başçılıq etdikləri qaçaq dəstələri müstəmləkəçilərə və zalımlara amansız divan tuturdular.

1910-cu ilin yanvarında qəzanın Goranboy-Əhmədli kəndində Qatır Məmməd adı ilə məşhur olan 17 yaşlı Məmməd Əli oğlu Məmmədovun başçılıq etdiyi qaçaqlar böyük bir cəza dəstəsini darmadağın etdilər.

1910-cu ilin yayında Nuxa qəzasının Səbətli kəndində baş verən böyük kəndli çıxışını yatırmaq üçün oraya 300 kazak və bir pulemyot rotası göndərildi.

Cavanşir qəzasının Qara-Pirim kəndinin kəndliləri əkin yerlərini zəbt etdiklərinə görə, kəndə başda pristav olmaqla strajniklər dəstəsi gəldi. Kəndlilər onlara ciddi silahlı müqavimət göstərdilər. Qiyamın təşkilatçıları həbs olundu. Lakin kəndlilər hücum edərək məhbusları azad etdilər.

1911-ci ilin dekabrında Yelizavetpol qəzasında Hacı Əsgər adlı yerdə Məşədi Yolçunun və Qandal Nağının başçılıq etdiyi qaçaq dəstələri çar qoşunları ilə açıq döyüşə girdilər. Qat-qat güclü hökumət qoşunları xalq qisasçılarını mühasirəyə ala bilmədi, qaçaqlar dağlara çəkildilər.

1912-1913-cü illərdə kəndli hərəkatı yüksəldi. Bu illər aqrar islahatlarının hazırlandığı və həyata keçirilməyə başlandığı dövr idi. Kəndlilər aqrar islahatları nəticəsində özlərinin aldadılması ilə barışa bilmirdilər. Torpaqsızlığın, aztorpaqlılığın aradan qaldırılmaması kəndli iğtişaşlarının başlıca mənbəyi olaraq yenə də qalırdı.

Azərbaycan qəzaları içərisində torpaqsızlıqdan ən çox əziyyət çəkən Lənkəran qəzasında kəndli çıxışları kəskin şəkil aldı.

1912-ci ilin aprelində qəzanın Butəsər və Qaqalos kəndlərinin kəndliləri aqrar islahatının hazırlanmasından xəbər tutaraq, mülkədarların əkin yerlərini zəbt edib becərməyə başladılar. Kəndlilər onların üzərinə göndərilən polis qüvvələrinə qarşı ciddi müqavimət göstərdilər. Çıxış silah gücünə yatırıldı, 14 kəndli həbs edildi.

Kəndli həyacanlarının daha geniş vüsət aldığı 1913-cü ilin hadisələri içərisində kəndlilərin yerölçənlərlə (zemlemerlərlə) münaqişələri xüsusi yer tutur.

1913-cü ildə Bakı qəzasının Qobu kəndi yaxınlığında dədə-babadan kənd camaatına məxsus olan Qobustan yaylaq otlaqları başqaları tərəfindən dövlətdən satın alındı. Həmin torpaq sahələrini yeni sahibkarlar arasında bölüşdürmək üçün yerölçənlər bir dəstə strajniklə kəndə gəldilər. Yüz nəfərə yaxın qobulu onlara ciddi müqavimət göstərərək, yerölçənləri kənddən qovdular.

Cavad qəzasının Cinli kəndində də yerölçənlərlə bu cür rəftar edildi.

Qaçaq hərəkatı xeyli gücləndi. Qaçaqlar kəndli hərəkatının çox qüvvətli olduğu Yelizavetpol qəzasında özlərini daha sərbəst hiss edirdilər. O dövrdə çıxan qəzetlərin birində yazılırdı: Yelizavetpol qəzası ən təhlükəli quldur dəstələrinin alınmaz yuvasıdır; burada keçilməz meşələrin və dağların olması onlarla mübarizəni son dərəcə çətinləşdirir. Bütün cinayətkar ünsürlər—türmədən,

sürgündən, katorqadan qaçanlar buraya axışırlar. Onların hamısı burada nəinki özlərinə sığınacaq tapır, həm də quldur bandaları ilə birləşərək onları məhv etməyə göndərilən qoşunlara silahlı müqavimət göstərirlər. Yelizavetpol qəza hökuməti həmin bandalarla çoxillik arasıkəsilməz müharibə aparır. Bandanın biri dağıdıldıqda, əvəzində başqası meydana gəlir.

Çar hökuməti qaçaqlara kömək göstərməkdə şübhə edilən kəndlərin əhalisinə amansız divan tuturdu. 1912-ci ildə Yelizavetpol qəzasının Goranboy-Əhmədli və ona qonşu olan bir neçə kəndində 92 nəfər həbs edilmişdi. Onları bu rayonda Qatır Məmmədin başçılıq etdiyi qaçaqlara kömək göstərməkdə təqsirləndirirdilər. Bütün bunlara baxmayaraq, 1913-cü ilin avqustunda Goranboy-Əhmədli kəndində günün günorta çağı hamının gözü qarşısında iki strajniki vurub öldürdülər. Az sonra Qatır Məmməd həbs olunaraq, uzaq İrkutsk quberniyasına sürgün edildi.

Birinci dünya müharibəsi illərində kəndli hərəkatı ciddi təqiblərə məruz qaldı.

1916-cı ildə təkcə Yelizavetpol quberniyasında 278 yeni polis məntəqəsi təşkil edildi. Bu məntəqələrdə iki minə yaxın strajnik xidmət edirdi.

Dağınıq kəndli çıxışlarını çar hökuməti asanlıqla yatırırdı. Kəndlilər çox zaman dağlara, meşələrə çəkilərək, cəza dəstələrinə müqavimət göstərirdilər.

## § 4. MİLLİ İSTİQLAL HƏRƏKATININ BAŞLANMASI VƏ İNKİŞAFI. İNQİLABİ BÖHRANIN DƏRİNLƏŞMƏSİ

**Milli istiqlal hərəkatının başlanması və inkişafı:** Rusiyada 1917-ci ilin fevral inqilabı nəticəsində çarizm devrildi, müvəqqəti burjua höküməti təşkil edildi. İnsan hüquqlarının qorunması, bütün xalqların və millətlərin bərabərliyi üçün təminatlar elan olundu.

Keçmiş Rusiya imperiyasının bütövlüyünü saxlamağa çalışan Müvəqqəti hökumət müstəmləkələrdə öz hakimiyyət orqanlarını yaratdı. Martın 9-da Qafqaz canişinliyi Xüsusi Zaqafqaziya komitəsi ilə, qubernatorlar quberniya komissarları ilə əvəz olundu. Bakıda, Yelizavetpolda İctimai təşkilatların icraiyyə komitələri meydana gəldi.

Rusiyanın başqa yerlərində olduğu kimi, Azərbaycanda da gizli fəaliyyət göstərən siyasi partiyalar, təşkilatlar açıq işə keçdilər və yeniləri yaradıldı.

1917-ci ilin martında «Müsavat» partiyası açıq fəaliyyətə başladı. Yelizavetpolda Nəsib bəy Yusifbəylinin başçılığı ilə yeni «Türk ədəmi-mərkəziyyət partiyası» təsis edildi.

Martın 29-da, milli hərəkata vahid rəhbərlik etmək məqsədi ilə siyasi xadimlər tərəfindən Bakıda demokratik əsaslarda «Müsəlman Milli Şurası» yaradıldı. Bu təşkilatda Azərbaycanın müsəlman əhalisinin bütün təbəqələri, siyasi partiya və təşkilatları təmsil olunurdu. Milli hərəkatla əlaqədar bütün tədbirlər,

deмək olar ki, bu Şura tərəfindən hazırlanıb həyata keçirilirdi. «Müsəlman Milli Şurası»-nın demokratik ziyalılardan ibarət müvəqqəti icraiyyə komitəsi yaradıldı. Məmmədhəsən Hacınski komitənin sədri, M. Ə. Rəsulzadə isə sədr müavini təyin olundu. «Müsəlman Milli Şurası»nın Azərbaycanın bütün şəhər və qəzalarında şöbələri vardı.

Bu zaman Bakıda, Yelizavetpolda və Azərbaycanın bir sıra şəhərlərində daşnaklar özlərinin «erməni milli şuraları»nı, kadetlər isə «rus milli şuraları»nı yaratdılar.

1917-ci il aprelin 15-dən 20-dək Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi. Qurultayda ilk dəfə olaraq milli ərazi muxtariyyəti ideyası irəli sürüldü. «Müsavat» partiyasının lideri M. Ə. Rəsulzadənin məruzəsi üzrə qəbul edilmiş qərarda deyilirdi ki, «...Rusiyanın müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən dövlət quruluşu forması ərazi-federasiya prinsiplərinə əsaslanan demokratik respublikadır».

Bu zaman Rusiyanın müsəlman xalqlarının milli-azadlıq hərəkatında iki əsas cərəyan vardı. Tatar ticarət burjuaziyasının çoxluq təşkil etdiyi cərəyan—unitaristlər müsəlmanlara yalnız milli-mədəni muxtariyyət vermək şərti ilə onların vahid Rusiya dövlətinin tərkibində qalmasına tərəfdar idilər. Unitaristlər geniş Rusiya bazarının əllərindən alınmasından ehtiyat edirdilər. Başlıca olaraq Azərbaycan milli ziyalılarının, yeni yaranmış sənaye burjuaziyasının daxil olduğu ikinci cərəyan-federalistlər Rusiyada federativ burjua respublikası daxilində müsəlmanlara ərazi muxtariyyəti verilməsini tələb edirdilər.

1917-ci il mayın 1-dən 11-dək Moskvada keçirilən Ümumrusiya müsəlmanları qurultayında M. Ə. Rəsulzadə Rusiyanı federativ şəkildə qurmaq haqqında məruzə ilə çıxış etdi. Qurultay unitaristlərin təklifini rədd edərək, M. Ə. Rəsulzadənin «...Türküstan, Qazaxıstan, Başqırdıstan və Azərbaycan—Dağıstan kimi bir neçə muxtariyyətlərdən ibarət olan gələcək Rusiyanı federativ şəkildə qurmaq» haqqında irəli sürdüyü qətnaməni 271 səsə qarşı 446 səs çoxluğu ilə qəbul etdi.

Həmin il iyunun ikinci yarısında «Müsəlman demokratik «Müsavat» partiyası» ilə «Türk ədəmi-mərkəziyyət partiyası» birləşib, «Türk ədəmi-mərkəziyyət partiyası «Müsavat» adını aldı. Partiyanın başçısı Məmməd Əmin Rəsulzadə, onun Yelizavetpol şöbəsinin rəhbəri Nəsib bəy Yusifbəyli oldu.

Müxtəlif sosial təbəqələrin təmsil olunduğu «Müsavat» partiyası dövlətçilikdə milli ərazi muxtariyyəti formasını, iqtisadiyyatda isə kapitalizmin Qərb inkişaf modelini müdafiə edirdi. M. Ə. Rəsulzadə deyirdi ki, «Müsavat» sinnfi deyil, milli partiyadır. «Müsavat»ın fəaliyyəti xeyli genişləndi. Onun nəinki Azərbaycanın bütün qəzalarında, hətta Tiflis, İrəvan, Həştərxan, Daşkənd, Kiyev, Təbriz, Rəşt, İstanbul və digər yerlərdə də şöbələri yaradıldı.

1917-ci ilin sentyabrında Azərbaycanda panislamistlər tərəfindən yaradılıb, əvvəlcə «Rusiyada müsəlmanlıq», sonralarsa, «İttihad» adlandırılan

partiya meydana gəldi. Qara bəy Qarabəyovun sədr olduğu bu partiya millətlər arasında fərqi yalnız onların dini mənsubiyyətində görür, ona görə də milli azadlığa müsəlman xalqlarının ümumi qurtuluşu çərçivəsində baxırdı. İttihadçıların fikrincə, Azərbaycan xalqının müstəqil dövlət yaratması İslam birliyinn parçalamaq demək idi. Onlar Azərbaycana Rusiya daxilində yalnız milli-mədəni muxtariyyət verilməsinə tərəfdar idilər.

Bu dövrdə Azərbaycan milli hərəkətında, eləcə də Müsəlman Milli Şurasının fəaliyyətində milli-demokratların «Müsavat» partiyasından sosialistlərin «Hümmət» və «Ədalət» təşkilatlarından və İslam radikalistlərinin «İttihad» partiyasından ibarət üç əsas ictimai-siyasi qüvvə vardı.

«Müsavat» partiyasının rəhbərlik etdiyi milli-demokratik qüvvələr Azərbaycan dövləti yaratmaq uğrunda mübarizə aparırdılar. Məhz buna görə də xalqın böyük əksəriyyəti «Müsavat»ın arxasınca gedirdi. «Müsavat»ın nüfuzu durmadan artırdı. Müəssislər məclisinə seçkilər zamanı Azərbaycan qəzalarında səslərin 90 faizi bu partiyaya verilmişdi.

«Hümmət» və «Ədalət» təşkilatları RSDF(b)P-nin mövqeyindən çıxış edərək, xalqı yalnız sinfi mübarizəyə çağırırdılar. Lakin müstəmləkə əsarətində olan, milli ayrı-seçkiliyin ağır məngənəsində boğulan xalq sinfi mübarizədən daha çox milli-azadlıq mübarizəsinə qoşulur, müstəqil Azərbaycan dövləti yaratmağa can atırdı. Millətlərin öz müqəddəratını təyin etmək hüququnu bolşeviklər Azərbaycanda Rusiyasız təsəvvür etmirdilər. Ona görə də sosial-demokratlar azərbaycanlı əhalinin az qismini, başlıca olaraq, beynəlmiləl tərkibli Bakı fəhlələrinin müəyyən hissəsini öz tərəflərinə çəkə bilmişdilər.

İttihadçıların Azərbaycanın müstəqilliyi, hətta ona ərazi muxtariyyəti hüququ verilməsi əleyhinə çıxmaları onları xalq arasında nüfuzdan salmışdı. Buna baxmayaraq, onlar müəyyən klerikal dairələrə arxalanaraq, Müsavatçı demokratlara qarşı inadla mübarizə aparırdılar. Təsadüfi deyil ki, Yelizavetpolda Müəssislər məclisinə seçkilər zamanı «Müsavat»ın liderlərindən olan N. Yusifbəyli üzünü azərbaycanlılara tutaraq demişdi: «Kimə istəyirsiniz səs verin, hətta daşnaklara və cuhudlara da, ancaq «İttihad»a səs verməyin».

Azərbaycan milli-azadlıq hərəkatında başlıca olaraq üç istiqamətdə mübarizə aparılırdı.

1. Milli partiyalar, xüsusən «Müsavat», ilk növbədə, Müvəqqəti hökumətin müsəlman xalqlarının əleyhinə çevirilmiş siyasətinə qarşı çıxırdı. Çünki Müvəqqəti hökumət çarizmin müstəmləkəçilik siyasətini daha incə və üstüörtülü şəkildə davam etdirir, azərbaycanlıları separatçılıqda təqsirləndirərək, milli-azadlıq hərəkatını boğmağa çalışır, Zaqafqaziya xalqları arasında dini ayrı-seçkilik salaraq, erməni və gürcülərə bir sıra üstünlüklər, o cümlədən milli qoşun yaratmağa icazə verir, Rusiya üçün uğursuz imperialist müharibəsini inadla davam etdirirdi və s.

2. Milli partiyalar Fevral inqilabından sonra Azərbaycanda, xüsusən Bakıda inqilabi orqan kimi meydana gəlmiş fəhlə deputatları Sovetinə qarşı daim

mübarizə aparırdılar. Sovetin tərkibində azərbaycanlılar yox dərəcəsində idi. Eser-menşevik-daşnak blokunun rəhbərlik etdiyi bu Sovet Müvəqqəti hökumətin müstəmləkəçilik siyasətinə tərəfdar çıxır, «vahid və bölünməz» Rusiya ideyasını təbliğ edirdi. Azərbaycanlıları geridə qalmış, inqilab üçün yetişməmiş xalq elan edən Sovet onları inqilabi orqanlara yaxın buraxmırdı. Hətta, Bakı fəhlələrinin böyük hissəsini təşkil edən Cənubi Azərbaycandan gəlmiş azərbaycanlılar seçkilərdə iştirak etmək hüququndan məhrum edilmişdilər.

3. Azərbaycan milli qüvvələri durmadan güclənən erməni-daşnak təhlükəsinə qarşı ciddi müqavimət göstərirdilər. Rusiyanın köməyi ilə «Böyük Ermənistan» dövləti yaratmağa böyük ümidlər bəsləyən erməni millətçiləri rus müstəmləkəçiləri ilə dil tapmağa çalışır, hətta birinci dünya müharibəsi zamanı ayrıca silahlı dəstələr təşkil edib Türkiyə cəbhəcinə Rusiyanın köməyinə göndərirdilər.

Erməni Milli Şurası öz silahlı qüvvələrini sürətlə artırırdı. Bu məqsədlə, başlıca olaraq, cəbhələrdən gətirilib yenidən komplektləşdirmək üçün Bakıda cəmləşdirilən minlərlə erməni əsgər və zabitindən istifadə edilirdi.

Azərbaycan iqtisadiyyatında üstün mövqe tutan, hərbi cəhətdən hazırlıqlı və ruslar tərəfindən müdafiə olunan erməni millətçilərinə qarşı mübarizədə, adətən, bütün müsəlman partiyaları öz qüvvələrini birləşdirirdilər.

Oktyabrın 22-də Bakı Sovetinə seçkilərdə «Müsavat» bütün partiyaları geridə qoyaraq, səslərin 40 faizə qədərini - 9617 səs qazandı. Halbuki zəhmətkeşlərin əsas müdafiəçisi kimi çıxış edən bolşeviklər cəmi 15 faiz - 3823 səs aldı. Əhalinin yarıdan çoxunu qeyri-azərbaycanlılar təşkil etdiyi Bakıda «Müsavat»ın qələbəsinin əsas səbəbi ondan ibarət idi ki, bu partiya bir sıra problemlərin həllində inqilabi-demokratik mövqelərdə dururdu. Belə ki, «Müsavat» müharibənın dərhal dayandırılaraq, təzminatsız və ilhaqsız sülh bağlanmasına, bütün torpaqların müsadirə edilib, heç bir şərt qoymadan, pulsuz kəndlilərə verilməsinə, zəhmətkeşlərin ən ümdə tələblərinin ödənilməsinə və digər radikal tədbirlərə tərəfdar çıxırdı.

Lakin, seçkilərdə parlaq qələbə çalmasına baxmayaraq, «Müsavat» Bakı Sovetinə seçkilərin demokratik əsaslarda aparılmamasını, burada kəndlilərin təmsil olunmamasını tənqid edərək, hakimiyyətin belə bir Sovetə verilməsinə qarşı çıxdı və Sovetin İcraiyyə Komitəsinə daxil olmadı. Bununla da, «Müsavat» böyük bir səhvə yol verdi. Belə ki, Sovetin İcraiyyə Komitəsindən milli mübarizə məqsədilə istifadə olunmalı idi. Bakı Sovetinə başçılıq edən S. Şaumyan sonralar «Müsavat»ın bu səhvindən istifadə etdi.

1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda «Türk ədəmi-mərkəziyyət partiyası «Müsavat»ın I qurultayı keçirildi. Qurultayda 500 nümayəndə iştirak edirdi. «Müsavat»ın qəbul etdiyi yeni proqramda deyilirdi: «...hər millət öz hüdudları olan əraziyə malikdir, yəni həmin regionda əksəriyyəti təşkil edir ki, ona ərazi muxtariyyəti hüququ verilməlidir. Bizim partiyanın fəaliyyət işığında bu

prinsip Azərbaycan, Türküstan, Qırğızıstan, Başqırdıstan və s. kimi türk ölkələrinə tətbiq edilməlidir. Məhdud bir ərazisi olmayan millətlərə isə mədəni muxtariyyət hüququ verilməlidir». O zamankı ictimai-siyasi şəraitdə, bolşeviklərin dünya inqilabı ideyasını rəhbər tutaraq unitar dövlət quruluşunu saxlamağa çalışdığı bir vaxtda, «Müsavat»ın federalizmə tərəfdar çıxması seçilmiş ən düzgün yol idi.

Proqramın ideyalarına əsasən, dini etiqadından, millətindən, cinsindən və siyasi əqidəsindəi asılı olmayaraq, bütün vətəndaşlar qanun qarşısında bərabər elan edilir; söz, vicdan, mətbuat, ittifaq və cəmiyyətlər yaratmaq, tətil azadlıqları verilir; pasport sistemi aradan götürülməklə, vətəndaşlara nəinki öz ölkələri daxilində azad hərəkət etmək, həmçinin ölkədən sərbəst surətdə çıxıb getmək hüququ verilir; bütün fəhlə və qulluqçular üçün 8 saatlıq iş günü müəyyən edilir; bütün dövlət və mülkədar torpaqları alınıb, pulsuz və əvəzi ödənilmədən, kəndlilər arasında bölüşdürülür; ümumi, pulsuz və icbari təhsil sistemi qoyulur və s.

Qurultayda M. Ə. Rəsulzadə «Müsavat»ın Mərkəzi Komitəsinin sədri seçildi.

Bu qurultaydan sonra Azərbaycanın bütün qəzalarında «Azərbaycana muxtariyyət!» şüarı altında hərəkat genişləndi.

Noyabrın əvvəllərində bolşevik Bakı Sovetinin hakimiyyəti altında olan Bakı rayonu istisna edilməklə, Azərbaycanın bütün qəzaları «Müsavat» partiyasının təsiri dairəsində idi. Bakının özündə də Sovetlərin mövqeyi möhkəm deyildi. Şəhərin təsərrüfat və ərzaqla təminat işlərinə, maliyyə, məktəb və səhiyyə idarələrinin fəaliyyətinə milli qüvvələrin əlində olan Bakı şəhər duması və Müsəlman Milli Şurası rəhbərlik edirdi.

«Müsavat»ın I qurultayı getdiyi dövrdə Rusiyada dövlət çevrilişi baş verdi, bolşeviklər hakimiyyətə gəldilər. Bu hadisə Azərbaycan azadlıq hərəkatı tərəfindən xeyirxahlıqla qarşılandı. Çünki, o zaman bolşeviklər yeganə siyasi qüvvə idi ki, millətlərə öz müqəddəratını hətta ayrılmağa qədər təyin etmək prinsipini elan etmişdilər.

Sovet dövləti milli məsələnin həlli yolunda ilk addımlar atdı.

1917-ci il oktyabrın 26-da II Sovetlər qurultayı «Fəhlələrə, əsgərlərə və kəndlilərə!» müraciətini qəbul etdi. Sovet Rusiyasının yaradıldığını elan edən bu sənəddə bütün millətlərin öz müqəddəratını təyin etmək hüququna təminat verilirdi.

Noyabrın 2-də Sovet hökuməti «Rusiya xalqlarının hüquq Bəyannaməsi»ni qəbul etdi. Həmin bəyannamə ilə bütün xalqların bərabərliyi və müstəqilliyi, onların öz müqəddəratını təyin etmək, hətta ayrılmaq və müstəqil dövlət təşkil etmək hüququ elan edilirdi.

Noyabrın 22-də Sovet hökuməti «Rusiya və Şərqin bütün müsəlmanlarına müraciət»lə çıxış etdi. Müraciətdə deyilirdi ki, indən belə müsəlmanların dini, adət-ənənələri, milli və mədəni təsisatları sərbəst və toxunulmazdır, onlar milli həyatlarını azad və maneəsiz qura bilərlər.

Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, Sovet dövləti keçmiş Rusiya imperiyasının ərazi bütövlüyünü qoruyub saxlamaq niyyətindədir. RSDF(b)P-nin mövqeyindən çıxış edən və Sovet Rusiyası tərəfindən müdafiə olunan bolşevik Bakı Soveti şəhərdə və Bakı rayonunda Sovet hakimiyyəti qurulduğunu elan etdi. Bakı, əslində, Sovet hakimiyyətinin Zaqafqaziyada genişlənməsi və möhkəmlənməsi üçün dayaq nöqtəsinə çevrildi.

«Bəyannamə» və «Müraciət»lərdə elan edilənlərin, faktik olaraq, yalnız quru vədlərdən ibarət olduğu tezliklə aşkara çıxdı. «Müsavat»la bolşevik Bakı Soveti arasında münasibətlər daha da pisləşdi.

Noyabrın 9-dan 12-dək Zaqafqaziya milli komitəsinin Bakıda «Müsavat»ın rəhbərliyi altında keçən konfransı Azərbaycanın öz müqəddəratını təyin etmək və muxtariyyət yaratmaq hüququnu həyata keçirmək üçün təcili olaraq milli müəssisələr məclisi çağırılmasını qərara aldı. Konfransda qəbul edilmiş qərarla deyilirdi ki, hazırkı «şəraitin xarakteri millətin taleyi üçün cavabdeh rəhbərlərdən... Rusiya federasiyası daxilində yeni muxtariyyot vahidini yaratmaq işində millətin bütün canlı qüvvələrini birləşdirmək bacarığı tələb edir». Ayrılmaq barədə öz niyyətini açıq bildirən «Müsavat»a zərbə endirmək üçün Bakı Soveti əlverişli fürsətin ələ düşməsini gözlədi.

Belə şəraitdə, Müsəlman Milli Şurası özünün silahlı qüvvələrini möhkəmləndirməyə başladı. Bakıda, Yelizavetpolda və Azərbaycanın başqa şəhərlərində yeni milli qoşun hissələri yaradıldı. Bu hissələrin əsasını «Vəhşi diviziya»nın tərkibində olmuş və bu diviziya ləğv edildikdən sonra vətənə qayıtmış «Tatar (Azərbaycan-T. Ə.) süvari alayı» təşkil edirdi. Noyabrın ortalarında Bakıda milli praporşiklər məktəbi açıldı.

Noyabrın 2-də Sovet hökuməti tərəfindən «Rusiya xalqlarının hüquq Bəyannaməsi» elan edildikdən sonra, keçmiş imperiyanın ərazisində bir sıra milli dövlətlər meydana gəldi.

Noyabrın 15-də gürcü menşevikləri, Müsavat və daşnak nümayəndələri tərəfindən Xüsusi Zaqafqaziya Komitəsi əvəzinə müstəqil Zaqafqaziya Komissarlığı yaradıldı. Bu hökumətin tərkibinə Azərbaycandan Məmməd Yusif Cəfərov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov və başqaları daxil oldular.

Zaqafqaziya komissarlığının yaradılması Zaqafqaziyanın Rusiyadan ayrılması yolunda ilk addım idi. Lakin yeni meydana gəlmiş Sovet dövləti Zaqafqaziyaya keçmiş imperiyanın ayrılmaz hissəsi kimi baxırdı. 1917-ci il dekabrın 16-da RSFSR Xalq Komissarları Sovetinin V. İ. Leninin sədrliyi ilə keçən iclasının qərarı ilə S. Şaumyan Qafqaz işləri üzrə müvəqqəti Fövqəladə komissar təyin edildi və bolşeviklərin hakimiyyəti altında olan Bakıya kömək məqsədilə 500 min manat miqdarında vəsait ayrıldı.

Sovet hökumətinin bu qərarı milli qüvvələr tərəfindən dövlət unitarizminin təzahürü kimi qiymətləndirildi və Zaqafqaziyada ictimai-siyasi

vəziyyət xeyli gərginləşdi. Zaqafqaziya komissarlığı milli — gürcü, Azərbaycan, erməni hərbi hissələrinin təşkilini gücləndirdi.

Beləliklə, Sovet Rusiyası Azərbaycan xalqına nəinki milli-ərazi muxtariyyəti hüququ vermədi, hələ üstəlik onun ərazisinin bir hissəsini—neftlə zəngin Bakı rayonunu faktik olaraq, ondan qoparıb aldı. Bundan sonra, Müstəqil Azərbaycan dövləti yaratmaq ideyası milli-demokratik hərəkatda ön plana keçdi.

**İnqilabi fəhlə hərəkatının inkişafı:** Fevral inqilabından sonra bolşeviklər açıq işə keçdilər. Mart ayında «Hümmət» qəzeti yenidən fəaliyyətə başladı. Cənubi Azərbaycandan gələn fəhlələr, həmçinin İrandakı fəhlələr arasında inqilabi iş aparmaq üçün, sosial-demokrat «Ədalət» təşkilatını yaratdılar.

Martın 6-da Bakı fəhlə deputatları Soveti, az sonra soldat və matrosların hərbi deputatlar Soveti təşkil edildi. Azərbaycanın başqa şəhərlərində də Sovetlər meydana gəldi.

Bakı Sovetinin qərarları ilə şəhərdə çar inzibati, polis və xəfiyyə idarələri ləğv edildi, qubernator və şəhər qarnizonunun rəisi işdən götürüldü, bir sıra məmur, o cümlədən xəfiyyə idarəsinin rəisi həbs olundu. Şəhərin mərkəzi və mədən-zavod rayonlarında, həmçinin iri müəssisələrdə qanun-qaydanı qorumaq üçün fəhlə milisi təşkil edildi və s.

Beləliklə, Rusiyada olduğu kimi, Azərbaycanın bir sıra şəhərlərində də ikihakimiyyətlik meydana gəldi. Məsələn, Bakıda Müvəqqəti hökumətə tabe olan İctimai təşkilatların icraiyyə komitəsi ilə yanaşı, Bakı Soveti də dövlət funksiyaları yerinə yetirirdi.

Martın axırında Bakı Sovetinin orqanı «İzvestiya» qəzetinin ilk nömrəsi çıxdı. Apreldə RSDFP Bakı komitəsinin orqanı «Bakinski raboçi» qəzeti yenidən nəşrə başladı. İyunda «Ədalət» təşkilatının Azərbaycan və fars dillərində «Ədalətin səsi» qəzetinin ilk nömrəsi buraxıldı.

Həmkarlar hərəkatı genişləndi. May ayında təkcə Bakıda 28 sahə həmkarlar ittifaqı vardı ki, onların üzvlərinin sayı 20 min nəfərdən çox idi.

1917-ci ilin avqustunda Azərbaycanda olan həmkarlar ittifaqı 50 mindən artıq fəhləni birləşdirirdi.

Lakin mütləqiyyətin devrilməsi zəhmətkeş kütlələrin həyatında əsaslı dəyişikliyə səbəb olmadı. Çarizm dövrünün qanunları, müstəmləkə əsarəti, milli ayrı-seçkilik və s. olduğu kimi qalırdı. Müvəqqəti hökumət hələlik bir sıra vədlər verməklə öz hakimiyyətini möhkəmləndirmək üçün vaxt qazanmağa çalışırdı.

1917-ci ilin yaz və yayında Bakının bir sıra mədən və zavodlarında tətillər, mitinq və yığıncaqlar keçirildi. Fəhlələr 8 saatlıq iş günü, əmək haqqının artırılmasını, onların nifrətini qazanmış sərəncamçıların işdən qovulmasını, mədən-zavod komissiyalarının sahibkarlar tərəfindən tanınmasını, məhsulun istehsalı və bölüşdürülməsi üzərində fəhlə nəzarəti qoyulmasını, müştərək müqavilə bağlanmasını və s. tələb edirdilər.

Bu tələblər qəbul olunmasa da, Bakının bəzi müəssisələrində, Zaqafqaziya dəmir yolunda fəhlələr özbaşına 8 saatlıq iş günü qoydular. Bakıda fəhlələrin tələbi ilə bir sıra şirkətləri idarə edən müdirlər, sahə və sex rəisləri işdən kənar edildilər, bəzi sənaye müəssisələrində fəhlə nəzarəti qoyuldu.

Peterburqda 3 iyul hadisələrindən sonra əksinqilab güclü hücuma keçdi. Belə şəraitdə fəhlələrin mənafeyini müdafiə edə biləcək nüfuzlu və mübariz təşkilatlar lazım idi. Mədən-zavod komissiyaları bu cür təşkilatlardan idi. Ona görə fəhlələr-mədən-zavod komissiyalarının iyulun 16-da keçirilən növbəti konfransında bu konfransı daimi fəaliyyət göstərən orqana çevirməyi qərara aldılar.

Konfrans fəhlələrin mənafeləri uğrunda inadla mübarizə aparırdı. İyulun 27-də Konfransın iclasında müştərək müqavilə bağlanılmasını sahibkarlardan tələb edən qərar qəbul olundu. Əks təqdirdə ümumi tətilə başlamaqla hədələdilər.

Müştərək müqavilə bağlanılmasının kapitalistlər tərəfindən uzadılmasına etiraz əlaməti olaraq, avqustda Bakının çox mədən və müəssisələrinin fəhlələri tətil etdilər.

Sentyabrın 17-də mədən-zavod komissiyaları konfransının növbəti iclasında Müvəqqəti hökumətin siyasəti pisləndi və sahibkarlara mədən-zavod komissiyalarının danışıqsız tanınmasını, fəhlələrin işə götürülməsi və işdən çıxarılmasında bu komissiyaların iştirakını, müştərək müqavilənin bağlanılmasını tələb edən ultimatum verildi. Fəhlələrin ultimatumu rədd edildi.

Sentyabrın 27-də Bakının bütün mədənlərində, sənaye müəssisələrində, Xəzər ticarət donanmasında ümumi tətil başladı. Tətilə rəhbərlik etmək üçün P. Çaparidze, M. Əzizbəyov, M. Basin, İ. Fioletov və başqalarından ibarət Mərkəzi tətil komitəsi yaradıldı. Mərkəzi tətil komitəsinin icazəsi ilə yalnız dəmiryolçular, xəstəxanaların işçiləri, neft və su kəmərlərinin fəhlələri işləyirdilər.

Sentyabr ümumbakı tətilində 65 mindən çox fəhlə və qulluqçu iştirak edirdi. Tətilçiləri şəhərin bütün əməkçiləri, Bakı qarnizonunun inqilabçı soldatları, Xəzər hərbi donanmasının matrosları müdafiə edirdilər.

Mərkəzi tətil komitəsi əslində şəhərin iqtisadi həyatına rəhbərliyi ələ almışdı. O, əhalinin ərzaqla təmin edilməsinə, nəqliyyat vasitələrinin bölüşdürülməsinə, mədənlərin və başqa obyektlərin qorunmasına nəzarət edirdi.

Oktyabrın 2-də müştərək müqavilənin qəbul olunması haqqında protokol imzalandıqdan sonra tətil dayandırıldı. Sentyabr ümumi tətili proletariatın kapitalistlər və müvəqqəti hökumət üzərində böyük qələbəsi idi.

Sentyabr hadisələrindən sonra bolşeviklərin nüfuzu xeyli artdı. Oktyabrın 13-də Bakı Sovetinin eser-menşevik İcraiyyə Komitəsi istefa verməyə məcbur oldu. S. Şaumyan başda olmaqla Bakı Sovetinin Müvəqqəti İcraiyyə Komitəsi seçildi.

1917-ci ilin oktyabrında bolşeviklər Rusiyada hakimiyyəti ələ aldıqdan sonra, noyabrın 2-də Bakı fəhlə deputatları Sovetinin Bakı hərbi deputatları Soveti

ilə birgə iclasında Sovetin İcraiyyə Komitəsi Bakı şəhərində və Bakı rayonunda ali hakimiyyət orqanı elan edildi. Bakı Soveti İcraiyyə Komitəsinin yeni tərkibi seçildi. Buraya S. Şaumyan, M. Basin, P. Caparidze, İ. Fioletov, M. H. Vəzirov (sol eser) və başqaları daxil oldular. S. Şaumyan yenidən İcraiyyə Komitəsinin sədri seçildi. Bu iclasda, həmçinin, Bakı fəhlə deputatları Soveti ilə Bakı hərbi deputatları Sovetini birləşdirərək, onu Bakı fəhlə və əsgər deputatları Soveti adlandırmaq qərara alındı.

Beləliklə, bolşevik Bakı Soveti Bakı rayonunu Azərbaycandan ayıraraq, orada Sovet hakimiyyəti elan etdi.

1917-ci il dekabrın ortalarında fəhlə və əsgər deputatları Sovetinə yeni seçkilər keçirildi. Sovetin yeni tərkibinə 190 deputat, o cümlədən «Müsavat» partiyasından 18 deputat seçildi. Deputatların çoxunu əksəriyyəti rus olan eserlər və bolşeviklər təşkil edirdilər. Sovetin İcraiyyə Komitəsi sədrliyinə bolşevik P. Çaparidze seçildi. Bu zaman S. Şaumyan Sovet Rusiyası tərəfindən Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilmişdi.

**Kəndli hərəkatı:** Çarizmin devrilməsi və Müvəqqəti hökumətin yaradılması kəndlilərin torpaq sarıdan korluğuna, onların hüquqsuzluğuna son qoymadı. Müvəqqəti hökumətin Xüsusi Zaqafqaziya Komitəsi tərəfindən hələ martın 18-də elan edilmiş müraciətində göstərilirdi ki, çar hökumətinin qoymuş olduğu vergilər ödənilməlidir, torpaqları tutmaq və mülkədarın itaətindən çıxmaq qadağan olunur, keçmiş məhkəmələr və idarələr dəyişməz qalır.

1917-ci ilin yazından başlayaraq kəndli çıxışları gücləndi. Kəndlilər vergi verməkdən boyun qaçırır, əkin yerlərini və su mənbələrini zəbt edir, cəza dəstələrini tərk-silah edirdilər.

Mayda Nuxa qəzasının Zəyzit kənd yoxsulları bəylərə məxsus su mənbələrini zəbt etdi və silaha sarılaraq onların üzərinə göndərilən cəza dəstəsini qovdular. Müvəqqəti hökumət tərəfindən yenicə yaradılmış Nuxa İcraiyyə komitəsi zəyzitliləri baykot etdi—onlarla hər cür əlaqə saxlamaq qadağan olundu. Lakin zəyzitlilər öz mübarizəsini dayandırmadılar.

Yayda Yelizavetpol quberniyasının bütun qəzalarını kəndli həyəcanları bürüdü.

İyun ayında Şuşa qəzasının Hindarx kəndində yoxsulların çıxışına tezliklə Şuşa və Cavanşir qəzalarının kəndliləri də qoşuldular. Bu qəzalarda kəndli çıxışlarının əsas təşkilatçılarından biri müəllim Salman Əlibəyov idi.

İyul ayında Yelizavetpol qəzasının Gəlgəldi, Bolçalı və Qazax qəzasının Çaxmaqlı kəndlərində xüsusilə kəskin çıxışlar oldu. Kəndli çıxışlarına Müseyib Əliyev, Əmiraslan Süleyman oğlu rəhbərlik edirdilər.

Yelizavetpol qəzasının Miskinli kəndində Rüstəm Əliyev kəndli deputatları Soveti yaratdı. Onun təşkil etdiyi silahlı kəndli dəstəsi yoxsulları cəsarətlə müdafiə edirdi.

Yelizavetpol quberniyasının komissarı Xüsusi Zaqafqaziya Komitəsinə məlumatında Yelizavetpol, Ərəş, Nuxa, Qazax və Zəngəzur qəzalarında kəndlilərin mübarizəsinin gücləndiyini qeyd edərək göstərirdi ki, qəza milisi onların öhdəsindən gələ bilmir və kəndli çıxışlarını yatırmaq üçün təcili kazak hissələri göndərilməlidir.

Kəndli hərəkatının getdikcə qorxunc forma almasından təşfişə düşən Xüsusi Zaqafqaziya Komitəsi kəndliləri bir qədər sakitləşdirmək üçün, 1912—1913-cü illərin aqrar qanunlarına əsasən onların məcburi şəkildə verməli olduqları ödənc pulunun ödənilməsini iyunun 7-dən müvəqqəti olaraq dayandırdı.

Avqustun 20-də Qazax qəzasının Çaylı kəndində kəndlilər üsyan etdilər. Onlar dörd gün Yelizavetpoldan göndərilən cəza dəstəsinə qarşı mətanətlə vuruşdular və hökumət qoşunlarını dəfələrlə məğlub edib qaçmağa məcbur etdilər.

Payızda kəndli çıxışları daha da kəskinləşdi.

Xüsusi Zaqafqaziya Komitəsinın məlumatında deyilirdi ki, Naxçıvan və Şərur-Dərələyəz qəzalarında üsyan etmiş kəndlilərin qarşısını yerli hakimiyyət orqanları heç cür ala bilmirlər.

Dekabrda Yelizavetpol qəzasında Alabaşlı kəndinin kəndliləri üsyan edərək, knyaz Qolitsının mülkünü dağıtdılar.

Kəndli çıxışlarından bərk qorxuya düşmüş Zaqafqaziya komissarlığı 1917-ci il dekabrın 16-da «Dövlət, keçmiş xanədən, kilsə, monastır, hüquqi şəxslər və xüsusi sahibkar torpaqlarının torpaq komitələrinə verilməsi haqqında» qanun qəbul etdi. Qanuna görə, torpaqlar bilavasitə kəndlilərə deyil, mülkədarların başçılıq etdikləri torpaq komitələrinə verilirdi. Kəndlilər müəyyən olunmuş şərtlərlə torpaq komitələrindən torpaq icarəyə götürməli idilər.

Bu qanun müxtəlif yollarla böyük mülkədarların ixtiyarındakı geniş torpaq mülklərini onların özündə saxlayırdı. Belə ki, qanunla «ölkə torpaq fondu» adlanan fond yaradılır və buraya «məlum normadan yuxarı» xüsusi sahibkar torpaqları daxil edilirdi. Lakin «məlum normanın» miqdarı dəqiq müəyyən olunmamışdı. Zəhmətkeş kəndlilər 1917-ci il 16 dekabr tarixli qanunla əslində torpaq ala bilmədilər.

Azərbaycan kəndlilərinin rus müstəmləkəçilərinə qarşı, torpaq uğrunda mübarizəsi son dərəcə kəskinləşib, hətta silahlı üsyan dərəcəsinə çatmasına baxmayaraq, bu mübarizə yenə də pərakəndə şəkildə aparılır və qeyri-mütəşəkkil xarakter daşıyırdı. Kəndlilərin əsas kütləsinin siyasi şüurunun yetişməməsi də öz mənfi təsirini göstərirdi.

***

Azarbaycanda milli hərəkatın bir sıra xüsusiyyətləri vardı.

1. Xalq azadlıq hərəkatına loyal mövqedə dayanan milli burjuaziya deyil, demokratik əhval-ruhiyyəli ziyalılar rəhbərlik edirdilər. Milli partiyaların özəyi müsəlman ziyalılarından ibarət idi. Azadlıq hərəkatına ziyalıların rəhbərlik etməsi

nəticəsində milli hərəkat daha radikal xarakter aldı və demokratik istiqamətdə inkişaf etdi.

2. Birinci rus inqilabı illərində ilk dəfə olaraq meydana gəlmiş milli partiyalar ümumxalq azadlıq mübarizəsinə rəhbərlik edəcək qədər güclü deyildi. Ona görə də milli qüvvələr, başlıca olaraq, azadlıq hərəkatının görkəmli liderlərinin və onların güclü təsiri altında olan cəmiyyətlərin və təşkilatların ətrafında birləşirdilər.

İlk partiyalar - «Difahi» və «Müdafiə» məhəlli təşkilatlar idi. «Qeyrət»in heç məramnaməsi belə qəbul edilməmişdi. «İttifaqi-müslimin» isə Rusiya müsəlman-türk xalqlarının birgə siyasi təşkilatı olmuşdur. İrtica illərinin əvvəllərində həmin partiyalar öz fəaliyyətlərini dayandırdılar.

2. Tətil hərəkatında azərbaycanlı fəhlələrin faizi çox yüksək deyildi. Bu, əsasən, onunla əlaqədar idi ki, azərbaycanlı fəhlələrin əksər hissəsi,— hətta iri sənaye şəhəri olan Bakının özündə belə, — ticarət, xırda istehsal və xidmət sahələrində çalışırdılar. Əgər həmin sahələrin fəhlələri işi buraxıb günlərlə, hətta on günlərlə tətil edərdilərsə, onların ailələri aclıq çəkərdi, həmçinin bir sıra qida maddələri satılmamış qaldığından xarab ola bilərdi. Ən başlıcası isə, bu kateqoriya fəhlələrin neftçilərdən, dəmiryolçulardan fərqli olaraq, sahibkarları işlənilməmiş tətil günlərinin pulunu ödəməyə məcbur edə bilən güclü ictimai təşkilatları yox idi.

4. Tətillərdən ən çox zərər çəkən qeyri-milli kapital idi. Belə ki, uzun sürən, mütəşəkkil və izdihamlı tətillər, başlıca olaraq, neft və dağ-mədən sənaye sahələrində, dəmir yol nəqliyyatında baş verirdi. Bu istehsal və nəqliyyat sahələri isə, demək olar ki, bütünlüklə rus, əcnəbi və erməni kapitalistlərinə, həmçinin dövlətə məxsus idi.

5. Kəndlilərin torpaqsızlıqdan korluq çəkmələrinin başlıca səbəbkarı mütləqiyyət idi. Xəzinə ən iri torpaq sahibi olub, Azərbaycanda əkinə yararlı torpaqların 2/3 hissəsindən çoxunu öz əlində saxlayırdı. Ona görə də, Rusiyada kəndlilər, başlıca olaraq, torpaq sahiblərinə qarşı mübarizə apardıqları halda, Azərbaycanda kəndli hərəkatı, ilk növbədə, mütləqiyyətə və onun yerlərdəki əlaltılarına qarşı çevrilmişdi.

## III FƏSİL

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI

### § 1. AZƏRBAYCAN ZAQAFQAZİYA SEYMİNİN TƏRKİBİNDƏ. BAKI QUBERNİYASINDA SOVET HAKİMİYYƏTİ QURULMASI

**Zaqafqaziya seyminin yaradılması:** 1918-ci il yanvarın 6-da Ümumrusiya Müəssislər məclisi Sovet hökuməti tərəfindən qovuldu. Bununla, milli azlıqların Rusiya daxilində özlərinin muxtar qurumlarını yaratmaq yolunda son ümidləri puça çıxdı.

Müəssislər məclisinə Zaqafqaziyadan seçilmiş nümayəndələr fevralın 23-də Tiflisdə toplaşaraq özlərinin qanunverici orqanını—Zaqafqaziya seymini (parlamentini) yaratdılar. Seymdə üç fraksiya — gürcü, Azərbaycan və erməni fraksiyaları vardı. M. Ə. Rəsulzadənin başçılıq etdiyi Azərbaycan fraksiyası 44 nümayəndədən ibarət idi. Burada «Müsavat» və «İttihad» partiyaları, bitərəf demokratlar və «Hümmət» qrupları, eserlərə yaxın olan «Müsəlman sosialist bloku» təmsil edilmişdi.

Seymin gürcü, Azərbaycan və erməni millətinin hərəsindən bir nümayəndə olmaqla, üç nəfərdən ibarət rəhbərliyi yaradıldı. Seymin sədri gürcü menşeviki N. Çxeidze idi.

Seymin bütün fəaliyyəti fraksiyaların mübarizəsi şəraitində keçmişdir. Bu mübarizənin əsasını fraksiyaların bir-birinə ərazi iddiaları təşkil edirdi.

Ermənilərin azərbaycanlılara ərazi iddiaları tamamilə əsassız olub, olduqca faciəvi şəkil almışdı.

Sovet Rusiyasının köməyinə arxalanan Bakı Sovetinin mövqeləri getdikcə möhkəmlənirdi. Sovetdə S. Şaumyanın rəhbərlik etdiyi bolşeviklər başlıca qüvvə idilər. Bundan başqa burada daşnaklar, eserlər, menşeviklər də təmsil edilmişdilər.

Lakin Bakıda real hakimiyyət olmaq üçün, hər şeydən əvvəl, azərbaycanlıların nüfuzu altında fəaliyyət göstərən şəhər dumasını, Müsəlman Milli Şurasını qovmaq, milli qoşun hissələrini tərk-silah etmək lazım idi. Şəhər duması hələ də maliyyə işlərinə rəhbərlik edir, pul buraxır, şəhər nəqliyyatına nəzarət edirdi.

Bolşeviklər «Müsavat»a özlərinin ən təhlükəli və güclü rəqibi kimi baxırdılar. Bu partiyanın müsəlman əhalisi içərisində böyük nüfuzu vardı. «Müsavat» Azərbaycana muxtariyyət verilməsini təkidlə tələb edirdi

Bakı bolşevikləri Azərbaycan milli qüvvələrini darmadağın etmək üçün ciddi hazırlaşırdılar. Qızıl ordunun yeni hissələri təşkil edildi. Moskvadan Bakıya döyüşçülər dəstəsi, iki təyyarə, iki zirehli maşın və 5 min tüfəng göndərildi.

Bolşevik Bakı Soveti Azərbaycan xalqına qarşı mübarizədə daşnak partiyası və Erməni Milli Şurası ilə asanlıqla dil tapa bildi.

1918-ci il martın 29-da bolşeviklər silahlı qüvvə ilə Azərbaycan hərbi hissələrini Lənkərana aparmağa hazırlaşan «Evolina» gəmisinə gəlib, onları tərk-silah etdilər.

Azərbaycan hərbi hissələrinin bolşeviklər tərəfindən tərk-silah edilməsi şəhərin müsəlman əhalisi içərisində böyük həyəcana səbəb oldu. «Müsavat» partiyası əhalini təmkinli olmağa, fitnəkarlıqlara uymamağa çağırırdı. Ayın 30-da səhər şəhərin müxtəlif yerlərində azərbaycanlıların müsadirə edilmiş silahların geri qaytarılmasını tələb edən özbaşına mitinqləri başlandı.

Bakı Soveti nəinki müsadirə edilmiş silahları qaytarmadı, hələ üstəlik, Qızıl ordu hissələrinin hücuma keçmələri üçün bəhanələr axtardı. Bu zaman Qızıl ordunun süvari dəstəsinə fitnəkarcasına atəş açılması hərbi əməliyyatlara başlamaq üçün bəhanə oldu. Bu müharibədən Bakıdakı erməni liderləri yerli azərbaycanlılara divan tutmaq üçün istifadə etdilər.

Martın 30-da şəhərin müsəlmanlar yaşayan məhəllələri toplardan və Xəzər sahilində dayanmış hərbi gəmilərdən atəşə tutuldu, havadan bombardman edildi. Müsəlmanları ucdantutma qırmağa başladılar. İki gün ərzində on mindən artıq azərbaycanlı, başlıca olaraq qoca, qadın və uşaq qətlə yetirildi.

Martın 30-da S. Şaumyan başda olmaqla, Bakı və ətraf rayonların İnqilabi Müdafiə Komitəsi yaradıldı. İnqilabi Müdafiə Komitəsi müsəlmanlara ultimatum verərək, Bakı Sovetini danışıqsız tanımağı və silahlı müqavimətin dayandırılmasını tələb etdi. Müsəlmanlar ultimatum şərtlərini qəbul etmələrinə baxmayaraq, ermənilər heç nəyə məhəl qoymadan qırğın və talanları daha iki gün davam etdirdilər.

Martın axırlarında Bakıda yerli müsəlman əhalisinə qarşı "vətəndaş müharibəsi", "sinfi mübarizə" adı ilə aparılan hərbi əməliyyatlar sinfi mənafelərdən tamamilə uzaq, əsl millət qırğını idi.

Mart hadisələrindən sonra S. Şaumyanın ermənipərəst siyasətinin nəticəsi olaraq, Bakı şəhəri müsəlman əhalisindən təmizləndi.

Azərbaycanlıların bütün ümidləri Zaqafqaziya seyminə qalmışdı. Qanlı mart hadisələri haqqında Tiflisə xəbər çatan kimi Zaqafqaziya seyminin müsəlman fraksiyasının üzvləri Bakıda erməni-bolşevik cinayətkarlarına hərbi müdaxilə yolu ilə cavab verilməsini tələb etdilər. Seymin üzvü olan daşnak liderləri ilə S. Şaumyanın başçılıq etdiyi Bakı Soveti arasında sıx əlaqə vardı.

Bu zaman Azərbaycanda, xüsusən Yelizavetpol quberniyasında Bakı qırğınını törədənlərə qarşı geniş hərəkat başlamışdı. Bakı müsəlmanlarına kömək üçün silahlı dəstələr düzəldilir, hətta osmanlı türklərini köməyə çağırış sədaları eşidilirdi.

Aprelin 17-də Zaqafqaziya hökümətinin xüsusi iclasında Yelizavetpol quberniyasına səfərdən qayıtmış F. Xoyski bildirdi ki, hökümət Bakı hadisələrinə

biganə qalmaqla, regionun müsəlman əhalisini ayağa qaldıra bilər. İclasda müsəlman fraksiyasının təkidi ilə hökümət 400 nəfərlik hərbi dəstənin Bakıya göndərilməsi haqqında qərar qəbul etdi. (Lakin bu qərar kağız üzərində qaldı). Zaqafqaziya seymi adından S. Şaumyanla danışıqlar aparmaq üçün biri erməni, digəri azərbaycanlı olmaqla iki nümayəndə Bakıya göndərildi.

Mart qırğınından sonra Azərbaycan milli qüvvələri müsəlman siyasi partiyaları ətrafında daha sıx birləşdilər.

1918-ci il aprelin 22-də Zaqafqaziya seymi müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradıldığını elan etdi. Gürcüstan, Azərbaycan və Ermənistan müstəqil respublikalar elan edilərək, bu federasiyada birləşdilər.

Aprelin 26-da A. Çxenkelinin başçılığı ilə federativ hökümət təşkil edildi. Azərbaycandan beş nümayəndə, o cümlədən F. Xoyski daxili işlər naziri, N. Yusifbəyli maarif naziri sifətilə bu hökümətə daxil oldular.

Lakin yeni hökümətin ömrü az oldu. Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları arasında iqtisadi bağlılığın olmaması onların bir-birinə yaxınlaşmasına imkan vermədi.

Seymin daxilində milli zəmində ixtilaflar Zaqafqaziya Federativ Respublikasının son dərəcə zəiflətdi. Mayın 26-da Gürcüstan Respublikasının Federasiyasının tərkibindən çıxması ilə Zaqafqaziya seymi dağıldı.

Mart hadisələrindən sonra Bakıda bolşeviklərin hakimiyyəti möhkəmləndi. Aprelin 20-də müsəlman müxalifətinin başlıca dayağı olan şəhər duması Bakı Soveti tərəfindən buraxıldı. Bütün inzibati aparat yenidən quruldu. Yeni fəhlə-kəndli milisi yaradıldı.

Sovet Rusiyası ərzaq, pul, silah, döyüş sursatı, həmçinin döyüşçülər göndərməklə Bakı Sovetinə yardım göstərirdi. S. Şaumyanın rəhbərlik etdiyi bolşevik Bakı Soveti açıq ermənipərəst siyasət yeridirdi.

Aprel ayında bolşeviklər Sovet hakimiyyətini bütün Bakı quberniyasına yaymaq üçün hərbi əməmliyyatlara başladılar. Lənkəran, Şamaxı, Salyan, Kürdəmir və Qubada Sovet hakimiyyəti quruldu.

Mart hadisələrindən sonra bolşeviklər müsəlman əhalisi içərisində öz nüfuzlarını tamamilə itirmişdilər. Odur ki, Bakı quberniyasının qəzalarında azərbaycanlılar sovet qoşunlarını düşməncəsinə qarşıladılar, onlara müqavimət göstərdilər.

1918-ci il aprelin 25-də Bakı quberniya Xalq Komissarları Soveti yaradıldı. Bu hökümət tarixə "Bakı kommunası" adı ilə daxil olmuşdur. Xalq Komissarları Sovetinin sədrliyində S. Şaumyan seçildi. Hökumətdə iki nəfər azərbaycanlı komissar – şəhər təsərrüfatı komissarı bolşevik N. Nərimanov və torpaq komissarı sol eser M. Vəzirov vardı. Səkkiz millətin nümayəndəsinin təmsil olunduğu Xalq Komissarları Sovetində komissarların yarıya qədəri, həm də əhəmiyyətliləri ermənilərdən ibarət idi.

1918-ci il mayın 1-də Bakı Xalq Komissarları Sovetinin bəyannaməsi elan edildi. Bəyannamədə bildirilirdi ki, Xalq Komissarları Soveti Ümumrusiya Mərkəzi höküməti ilə ən sıx əlaqə saxlayacaqdır və onun bütün dekret və qərarlarını özü üçün vacib bilir. Bakı Xalq Komissarları Soveti "Bakı fəhlələrini və Bakı quberniyasının kəndlilərini bütün Rusiyanın fəhlə və kəndliləri ilə sıx birləşdirməyi" özünün başlıca vəzifələrindən biri hesab edir.

Mayın 27-də Tiflisdə keçmiş seymin müsəlman üzvlərinin fövqəladə yığıncağı toplandı. Yığıncaqda müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi. M. Ə. Rəsulzadə Milli Şuranın sədri seçildi. Yığıncaqda qəbul edilmiş qərarda göstərilirdi ki, müəssisələr məclisi çağırılana qədər Azərbaycanı Milli Şura və müvəqqəti hökümət idarə edəcəkdir.

1918-ci il mayın 28-də axşam Milli Şura Azərbaycan Demokratik Respublikasının yaradıldığını elan etdi.

Həmin gün Ermənistan da öz müstəqilliyini elan etmişdir.

Müstəqil Azərbaycan Demokratik Respublikasının yaranması ilə əlaqədar olaraq İstiqlal bəyannaməsi qəbul edildi. Bəyannamədə deyilirdi ki, rus qoşunları çıxıb getdikdən və Zaqafqaziya Federativ Respublikası parçalandıqdan sonra yaranmış vəziyyət Azərbaycandan xalqı ağır daxili vəziyyətindən çıxarmaq üçün öz dövlət orqanını yaratmağı tələb edir. Azərbaycan demokratik respublika formasında suveren müstəqil dövlətdir. Azərbaycan Demokratik Respublikası milliyyətindən, dini etiqadından, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşların hüquq bərabərliyinə təminat verir. (Sənədə bax).

Fətəli xan Xoyski (1875-1920-ci illər) başda olmaqla Azərbaycan Demokratik Respublikasının ilk hökuməti təşkil edildi.

Mayın 30-da Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında dünyanın bir sıra dövlətlərinə radio ilə xəbər verildi.

İlk Azərbaycan hökuməti son dərəcə ağır bir şəraitdə fəaliyyətə başladı. Ölkədə hərc-mərclik baş alıb gedirdi. Bakı bolşevikləri və erməni-daşnak ekstremistləri tərəfindən hər an hücum təhlükəsi gözlənilirdi. Əhalinin içərisində ilhaqçılıq (Türkiyə ilə birləşmək) meylləri artırdı. Belə vəziyyətdə Azərbaycan hökuməti kömək üçün Türkiyəyə müraciət etməyə məcbur oldu.

1918-ci il iyunun 4-də Batumda Türkiyə ilə Azərbaycan Demokratik Respublikası arasında sülh və dostluq haqqında müqavilə bağlandı. Bu müqaviləyə əsasən, Türkiyə hökuməti «qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə Azərbaycan Respublikası hökumətinə silahlı qüvvələrlə yardım etməyi» öz öhdəsinə götürdü.

1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və hökumət Tiflisdən Gəncəyə köçdü. Gəncə Azərbaycan Demokratik Respublikasının müvəqqəti paytaxtı elan edildi. Bu zaman şəhərdə Nuru paşanın başçılığı ilə 300 nəfər türk hərbi təlimatçısı vardı. Onları Azərbaycan hökuməti dəvət etmişdi.

Azərbaycan hökumətinin Gəncəyə gəlişi ilə eyni vaxtda milli qüvvələrin arasında ciddi ixtilafların olduğu aşkara çıxdı. Milli Şurada, həmçinin hökumətin tərkibində təmsil olunmayan bəzi qüvvələr və ilhaqçılar, o cümlədən ittihadçılar Milli Şuranı hakimiyyətdən uzaqlaşdırmağa çalışırdılar. Onlar öz ümidlərini türk generalı Nuru paşaya bağlamışdılar. Azərbaycan dövləti faktik olaraq onun hakimiyyəti altında idi. Milli Şuranın və ona tabe olan hökumətin demokratik əhval-ruhiyyəli, sol meyilli tərkibi Türkiyə hökumətinin ürəyincə deyildi. Milli Şura üzvlərinin böyük əksəriyyətinin fikrini ifadə edən M. Ə. Rəsulzadə bildirdi ki, Milli Şura Azərbaycanın suverenliyini saxlamaq şərtilə güzəştə getməyə hazırdır. Bu zaman Nuru paşanın yanında siyasi işlər üzrə müşavir işləyən Əhməd bəy Ağaoğlunun (Ağayevin) vasitəçiliyi ilə belə bir razılıq əldə edildi ki, Milli Şura buraxılır, bütün ali qanunverici və icraedici hakimiyyət bitərəf Fətəli xan Xoyskinin yenidən təşkil edəcəyi müvəqqəti hökumətinin əlində cəmləşir. Beləliklə, milli demokratik qüvvələr Azərbaycan Respublikasının (suverenliyinə qoruyub saxlamağa müvəffəq olurlar.

İyunun 17-də Milli Şuranın iclasında iki qətnamə qəbul edildi. Birinci qətnamə yeni yaradılacaq müvəqqəti hökumətin hüququ və vəzifələrinə aid idi. Qətnamədə göstərilirdi ki, Müvəqqəti hökumət dövlətin müstəqilliyinə, mövcud siyasi azadlıqlara xələl gətirən dəyişikliklər istisna edilməklə, bütün məsələlərin həllində tam hüquqa malikdir. O, altı aydan gec olmayaraq Müəssislər məclisini çağırmalıdır

Həmin gün F. Xoyskinin başçılığı ilə ikinci Müvəqqəti hökumət təşkil edildi. Hökumətin tərkibində on iki nazir vardı. Nazirlərin yeddi nəfəri bitərəf, beş nəfəri isə «Müsavat» partiyasından idi.

1918-ci il iyunun əvvəlində Azərbaycanda siyasi vəziyyət olduqca gərgin idi. Ölkədə, əslində bir-birilə düşmənçilik edən iki hakimiyyət vardı. Bakı quberniyası Bakı Sovetinin, Gəncə quberniyası və Zaqatala dairəsi Azərbaycan Demokratik Respublikasının hakimiyyəti altında idi.

F. Xoyski hökumətinin xahişi ilə, həmçinin 4 iyun tarixli Türkiyə-Azərbaycan müqaviləsinə uyğun olaraq, Azərbaycana təcili surətdə bir türk diviziyası göndərildi. General Əliağa Şıxlinskinin rəhbərlik etdiyi əlahiddə Azərbaycan korpusu ilə həmin türk diviziyasının birləşməsi əsasında Qafqaz İslam ordusu yaradıldı.

İyunun 23-də bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan edildi. Qafqaz İslam ordusu Nuru paşanın ümumi komandası altında Bakıya doğru hərəkət etdi.

Azərbaycan Demokratik Respublikasının Gəncə dövründə vəziyyəti son dərəcə mürəkkəb olmasına baxmayaraq, hökumət bir sıra tədbirlər həyata keçirdi. İlk növbədə, daxili asayiş bərpa edildi. Yerli idarə orqanlarının işi sahmana salındı. Dağıdılmış dəmir yollar bərpa edildi, poçt və teleqrafın işi qaydaya düşdü

Milli hökumətin Azərbaycan xalqına 1918-ci il 17 iyun tarixli müraciətnaməsində bütün dövlət idarələrinin, məhkəmə və məktəblərin milliləşdirilməsi elan edildi.

Qaryagin qəzası yenidən Cəbrayıl adlandırıldı. Ağdaşa şəhər statusu verildi.

Milli hökümətin Azərbaycan xalqına 1918-ci il 17 iyun tarixli müraciətnaməsində bütün dövlət idarələrinin, məhkəmə və məktəblərin milliləşdirilməsi elan edildi.

İyunun 24-də Azərbaycan Dövlət bayrağı qəbul edildi. İlk bayraq qırmızı rəngdə olub, üzərində ağ fonda aypara və səkkizguşə ulduz rəsmi təsvir olunmuşdu. Sonralar, 1918-ci il noyabrın 9-da Azərbaycan Demokratik Respublikasının hazırkı Dövlət bayrağı qəbul edildi. Yeni bayrağın üzərində aypara və səkkizguşəli ulduz rəsmi yenə saxlanmaqla, o, mavi, qırmızı və yaşıl rəngdə verildi. M. Ə. Rəsulzadə göstərirdi ki, Azərbaycan Respublikasının üçrəngli bayrağı «türk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və İslam sivilizasiyasının simvoludur».

İyunun 26-da Azərbaycan və Gürcüstan respublikaları arasında Zaqatala dairəsi üzrə ərazi mübahisələri sülh yolu ilə həll edildi. Zaqatala dairəsi Milli Şurasının yekdil qərarı ilə Zaqatala həmişəlik Azərbaycan Respublikasına qovuşdu.

İyunun 27-də Azərbaycan dili dövlət dili elan edildi. Avqustun 11-də ümumi hərbi səfərbərlik elan edildi.

Sentyabrın 1-də hərbi nazirlik yaradıldı. Baş nazir F. Xoyski eyni zamanda hərbi nazir oldu. General Səməd ağa Mehmandarov isə nazir müavini təyin edildi. 1918-ci ilin yayında Bakıda ərzaq vəziyyəti olduqca pisləşdi.

Bakı Sovetinin qoşunları içərisində xəyanətkarlıq baş alıb gedirdi. Sovet Rusiyasından Bakı bolşeviklərinə müntəzəm olaraq hərbi yardım göndərilirdi.

Lakin türk-Azərbaycan qoşunları irəlilədikcə, Bakı Soveti rəhbərlərinin özlərinə «müttəfiq» saydıqları daşnaklar və biçeraxovçular daha böyük xəyanətkarlıq edirdilər. Onların Bakının girəcəyində cəbhəni qoyub qaçmaları Bakı Sovetini çıxılmaz vəziyyətə saldı.

Bundan istifadə edən eserlər, menşeviklər və daşnaklar iyulun 25-də Bakı Sovetinin fövqəladə geniş iclasında ingilisləri köməyə çağırmaq haqqında qərarı səs çoxluğu ilə qəbul etdirdilər. İyulun 31-də S. Şaumyan başda olmaqla, Bakı Xalq Komissarları Soveti istefa verdi. Hakimiyyət «Sentrokaspi diktaturası» deyilən eser-daşnak-menşevik «hökumətinin» əlinə keçdi.

«Sentrokaspi diktaturası»nın əhali içərisində dayağı yox idi. O, hərbi cəhətdən zəif olduğu üçün İrandakı ingilis qoşunlarına bel bağlayırdı. İngilisləri Bakıya dəvət etmək üçün dərhal Ənzəliyə nümayəndələr göndərildi. Avqustun 4-də ingilislərin ilk dəstəsi Bakıya daxil oldu. Avqustun 17-də general Denstervil başda

olmaqla, ingilis qoşunları öz qərargahları ilə birlikdə Ənzəlidən Bakıya gəldilər. İngilis qoşunlarının sayı çox az - cəmi 1500 nəfər idi.

Sentyabrın 15-də, ağır döyüşlərdən sonra, Azərbaycan hərbi hissələri Bakıya daxil oldular. Üç gün sonra türk qoşunları gəldilər.

Azərbaycan qoşunlarının Bakıya girmələrinin əvvəli günü ingilislər gəmilərə minib Ənzəliyə qaçdılar. Onların ardınca «Sentrokaspi diktaturası»nın üzvləri, həmçinin keçmiş Bakı Sovetinin komissarları şəhəri tərk etdilər.

Bakı komissarlarını Həştərxana aparan paroxod Sentrokaspinin hərb gəmiləri tərəfindən tutulub Krasnovodska qaytarıldı. Sentyabrın 20-də Krasnovodsk ilə Aşqabad arasındakı Ağcaqum çölündə 26 Bakı komissarı ingilis və sentrokaspiçilər tərəfindən vəhşicəsinə güllələndilər.

Sentyabrın 17-də Azərbaycan Demokratik Respublikası hökuməti Gəncədən Bakıya köçdü. Ölkənin siyasi, iqtisadi, mədəni və mənəvi mərkəzi olan Bakı suveren Azərbaycan dövlətinin paytaxtına çevrildi. Beləliklə, bütün Şimali Azərbaycan ərazisi Azərbaycan Respublikasının hakimiyyəti altına keçdi.

Bakıya yeni köçmüş Azərbaycan hökuməti ciddi iqtisadi çətinliklərlə qarşılaşdı. Vətəndaş müharibəsi, daşnak talanları nəticəsində dağılmış təsərrüfatı bərpa etmək üçün külli miqdarda vəsait lazım idi.

Birinci dünya müharibəsində Türkiyənin məğlub olması nəticəsində Zaqafqaziyada siyasi vəziyyət tamam dəyişdi. 1918-ci il oktyabrın 30-da Antanta ilə bağlanmış Mudros sülhünün şərtlərinə görə Türkiyə öz qoşunlarını Zaqafqaziyadan çıxarmağa başladı. Zaqafqaziyanı, o cümlədən Azərbaycanı Antanta dövlətləri adından Böyük Britaniya işğal etməli idi.

General Tomsonun komandanlığı altında Ənzəlidə olan ingilis qoşunları Bakı üzərinə səfərə hazırlaşırdılar. Bu zaman Ənzəli Azərbaycanın istiqlaliyyətinə düşmən qüvvələrin – sentrokaspiçilərin, biçeraxovçuların, rus ağqvardiyaçılarının və digər pozucu tör-töküntülərin yuvasına çevrilmişdi. İngilislərə yaltaqlıq edən bu qara qüvvələr general Tomsonun Azərbaycan barədə daha sərt mövqe tutması üçün əllərindən gələni edirdilər.

Milli qüvvələr özündən qat-qat güclü düşmən qarşısında Azərbaycanın istiqlaliyyətini qoruyub saxlamaq üçün ingilislərlə mütləq dil tapmalı idi.

Ə. Ağayev, N. Yusifbəyli və Musa bəy Rəfiyevdən ibarət xüsusi nümayəndə heyəti Azərbaycanı tanımaq barədə ingilislərlə danışıq aparmaq üçün Ənzəliyə gəldi. General Tomson Azərbaycan nümayəndəliyi ilə görüşündə Bakıya gəlişi qarşısında bəyanat verdi. Bəyanata əsasən, Azərbaycan qoşunları dərhal Bakıdan çıxarılır, Tomson Bakının general-qubernatoru elan edilir, şəhər polisi ingilislərin tabeçiliyinə keçir, şəhər Dumasına azad fəaliyyət göstərmək imkanı verilir. Bəyanatda həmçinin göstərilirdi ki, İngiltərə, Fransa və ABŞ Azərbaycanı rəsmən tanımasalar da, onunla faktik surətdə (de-fakto) əlaqələr saxlayacaqlar və Azərbaycan beynəlxalq Paris sülh konfransında millətlərin öz müqəddəratını təyin etmək prinsipinə dair diskussiyalarda iştirak edəcəkdir.

Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. General Tomson gəmidən sahilə qədəm basarkən yaxınlıqda asılmış Azərbaycan bayrağının çıxarılmasını əmr etdi. İngilislərin gəlişi erməni və rus milli şuraları tərəfindən sevinclə qarşılandı.

İngilislər hərb gəmilərinin bir hissəsini öz əllərinə keçirərək, Britaniyanın Xəzər hərbi donanmasını yaratdılar. Azərbaycanın neft sənayesinə nəzarət etmək üçün Britaniya Neft Müdiriyyəti və Xəzər dənizində ticarət gəmilərinə nəzarət etmək üçün Britaniya Dəniz Nəqliyyatı İdarəsi təsis etsilər.

Gəncə, Şuşa və Naxçıvanda ingilis qoşun hissələri yerləşdirildi.

General Tomsonun əmrinə əsasən, on nəfərdən artıq adamın iştirakı ilə hər cür yığıncaq keçirmək və tətillər qadağan olundu. İngilis hərbi tribunalı yaradıldı, ölüm cəzası tətbiq edildi.

İngilislərin Bakıya gəlişindən bir gün əvvəl, noyabrın 16-da, milli demokratiyanın nümayəndələri iclasa toplaşaraq, beş aylıq fasilədən sonra, Azərbaycan Milli Şurasını yenidən bərpa etdilər. İclasda dünyanın demokratik dövlətləri ilə əlaqələr yaratmaq üçün parlament üsul-idarəsinin zəruriliyi qeyd edildi.

Noyabrın 19-da Milli Şura "Azərbaycan parlamentinin yaradılması haqqında Qanun" qəbul etdi. Ölkədə vəziyyət son dərəcə mürəkkəb olduğundan, çağırılması nəzərdə tutulmuş Müəssislər məclisinə ümumi seçkilər keçirmək daha mümkün deyildi. Ona görə də Milli Şuranın tərkibini yeni seçiləcək üzvlər hesabına genişləndirməklə, onu Azərbaycanın müvəqqəti parlamentinə çevirmək qərara alındı. Həmin gün seçki qanunu qəbul edildi.

Bu qanuna görə, Azərbaycan parlamenti 120 deputatdan ibarət olacaqdı. Əhalinin ümumi sayına uyğun olaraq azərbaycanlılar parlamentdə 80 yer alırdılar. Beləliklə, Milli Şura üzvlərinin sayı (44 nəfər) inzibati-ərazi bölgüsü üzrə əlavə olaraq seçilib göndəriləcək 36 nümayəndənin hesabına artırılırdı. Ermənilər 21, ruslar 10 deputat yeri aldılar. Azlıqda qalan yəhudi, gürcü, alman və polyak millətlərinin hərəsinə kooptasiya* qaydasında bir yer verildi. Bakı həmkarlar təşkilatına 3 və sənaye-ticarət ittifaqlarına 2 yer ayrıldı. Lakin "Rus Milli Şurası" "vahid və bölünməz Rusiya" mövqeyindən çıxış edərək, öz nümayəndələrini parlamentə göndərməkdən imtina etdi. Bununla belə, "Rus Milli Şurası" üzvlərinin bir hissəsi ayrılaraq, "Slavyan-Rus Cəmiyyəti" adlı təşkilat yaratdı.

1918-ci il dekabrın 7-də H. Z. Tağıyevin qız məktəbinin binasında (indi Azərbaycan EA M. Füzuli adına Əlyazmalar İnstitutunun binası) Azərbaycan parlamenti təntənəli sürətdə açıldı.

Parlamentin açılışı münasibətilə M.Ə. Rəsulzadə təbrik nitqi söyləyərək, partiya, fraksiya və qrup münasibətindən asılı olmayaraq, bütün parlamentin üzvlərini vətən qeyrətini hər şeydən uca tutmağa çağırdı.

* Kooptasiya – hər hansı seçkili orqanın öz heyətinə seçkisiz olaraq yeni üzv daxil etməsi.

Ə. M. Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə sədrin birinci müavini seçildilər.

Parlamentin təsis iclasında F. Xoyski ötən altı ay ərzində başçılıq etdiyi Müvəqqəti hökümətin fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış etdi. Sonra öz hökümətinin istefasını və hakimiyyəti parlamentə təhvil verdiyini bildirdi. Parlament istefanı qəbul etdi və hökümət təşkilini yenidən X. Xoyskiyə tapşırdı.

İngilis komandanlığı bildirdi ki, yalnız rus və erməni nümayəndələrinin daxil olduğu koalisyon hökümətini tanıyacaqdır.

İlk Azərbaycan parlamenti öz dövrünün demokratik əsaslarda təşkil edilmiş ali qanunvericilik orqanı idi. Azərbaycanda yaşayan bütün millət və milli qruplar bu parlamentdə təmsil edilmişdir.

Parlamentin ilk iclasında 96 deputat iştirak edirdi. Parlament təkpalatalı idi. 11 komissiya, o cümlədən büdcə, təsərrüfat, fəhlə, aqrar, hərbi məsələlər üzrə komissiyalar təşkil edilmişdi.

Parlamentin geniş səlahiyyətləri vardı. O, qanunvericilik və mərkəzi dövlət orqanlarını yaradır, onların fəaliyyəti üzərində ali dövlət nəzarətini həyata keçirirdi.

Parlamentdə 11 partiya, fraksiya və qrup təmsil edilmişdi. “Müsavat” və bitərəflər fraksiyasının parlamentdə 38, “İttihad”ın 13, “Əhrar”ın 6, “Hümmət” və “Müsəlman sosialist bloku”ndan ibarət sosialistlər fraksiyasının 13, “Slavyan-Rus Cəmiyyəti”nin 3, “Daşnaksütyun”un 6, erməni icmaları fraksiyasının 5, milli azlıqların 4, “partiyadan kənar olanlar”ın 4, “bitərəflər”in 3 üzvü vardı. Bundan əlavə, 1 yer də sol bitərəfə məxsus idi.

Deputatlar partiya mənsubiyyətindən asılı olaraq, mərkəzçilərə, sağlara və sollara ayrılırdılar. “Müsavat” mərkəz partiyası, “İttihad” sağ partiya, “Hümmət” və “Müsəlman sosialist bloku” isə sol qruplar idi.

“Müsavat” ən böyük parlament partiyası idi. Onun 23 deputat yeri vardı. Partiyanın lideri M. Ə. Rəsulzadə başda olmaqla demokratik ziyalılar geniş sosial islahatlar tərəfdarı idilər. Onlar Azərbaycanın istiqlaliyyətinin möhkəmləndirilməsini, qüvvətli ordu yaradlmasını, torpaqların kəndlilərin arasında pulsuz bölüşdürülməsini, 8 saatlıq iş günü, söz, mətbuat, ittifaq və başqa azadlıqlar irəli sürürdülər.

Bitərəf demokratlar qrupu öz üzvlərinin sayına görə parlamentdə ikinci yeri tuturdu. Onun 15 üzvü vardı. Bitərəflərlə “Müsavat”ın mövqeləri bir-birinə çox yaxın idi.

“Müsavat”la bitərəflər bir fraksiyada birləşərək, parlamentdə hakim mövqe tuturdu. Fraksiyanın sədri M. Ə. Rəsulzadə idi.

Parlamentdə sollar ayrıca fraksiya təşkil edirlər. Bu fraksiya menşevik “Hümmət” qrupu ilə eserlərə yaxın olan “Müsəlman sosialist bloku”nun ittifaqı nəticəsində yaranmışdı. Fraksiyanın 13 nəfər üzvü olmasına baxmayaraq, fəhlə və kəndlilər arasında böyük nüfuza malik idi. Həmkarlar İttifaqı Şurası kimi nüfuzlu

təşkilata, əslində, menşeviklər rəhbərlik edirdilər. Sosialist fraksiyasının sədri Səməd ağa Ağamalı idi.

Sosialistlər Azərbaycanın suverenliyinə tərəfdar olsalar da, onu bolşeviklərsiz, demokratik Rusiyanın tərkibində görmək istəyirdilər. Onlar parlamentdən öz məqsədlərinə çatmaq üçün vasitə kimi istifadə edirdilər.

Sosialistlər söz, mətbuat, ittifaq və digər azadlıqlar, 8 saatlıq iş günü, uşaq və qadın əməyinin mühafizəsini, torpaqların kəndlilər arasında bölüşdürülməsini, Müəssislər məclisinin tezliklə çağırılmasını və s. irəli sürürdülər.

"İttihad" partiyasının parlamentdə 13 deputat yeri vardı. İttihadçı sağlar parlamentdə ayrıca fraksiya təşkil edirdilər. Onlar mülkədar-klerikal dairələrin mənafeyini müdafiə edirdilər. İttihadçılar "İslam sosializmi" prinsiplərinə uyğun islahatlar aparılmasına tərəfdar idilər. "İttihad" fraksiyasının sədri Qara bəy Qarabəyli idi. Bu fraksiya hakim "Müsavat" və bitərəflər fraksiyasının barışmaz rəqibi olmuşdur.

Rus partiyaları, rus və erməni milli şuralar, əslində, Azərbaycan respublikasının suverenliyini tanımır, parlamenti baykot etmişdilər. Odur ki, rus və erməni millətləri üçün ayrılmış 31 deputat yerinin yarısı boş qalmışdı. Parlamenti baykot etmiş bolşeviklərin təsiri altında olan Bakı həmkarlar təşkilatı özünün üç nümayəndəsini seçib göndərməmişdi.

Deputatların parlament təcrübəsi çatışmırdı. Milli Şura üzvlərindən fərqli olaraq seçilmiş deputatların çoxunun nə siyasi hazırlığı, nə də aydın proqramları vardı. Bu hal parlamentin işini çətinləşdirirdi. Parlamentdə qanun və qərar layihələri səs çoxluğu ilə qəbul olunurdu. Lakin parlamentin çoxmillətli olması nəticəsində çox zaman yekdil fikrə gəlmək çətinləşirdi. Üç yüz qanun layihəsinin, demək olar ki, 1/3 hissəsi yenidən işlənilmək üçün komissiyalara geri qaytarılmış, ya da rədd edilmişdi.

Parlamentdə rəsmi dil Azərbaycan türkcəsi idi. Qeyri-azərbaycanlı deputatlar rus dilində çıxış etmələrinə baxmayaraq, bu sənədlər Azərbaycan dilində tərtib edilirdi.

Parlamentin 140-a yaxın iclası keçirilmişdi (sənədə bax).

1918-ci il dekabrın 26-da F. Xoyski yeni koalisyon hökümətin tərkibini parlamentə təqdim etdi. O, hökümət proqramı ilə çıxış edərək göstərdi ki, hökümətin əsas vəzifəsi Azərbaycanın müstəqilliyini qorumaqdır.

Hökümətin tərkibində 14 nazir vardı. "Slavyan-Rus Cəmiyyəti"ndən üç nazir daxil idi. Ermənilər onlara təklif olunan iki nazir vəzifəsindən imtina etdilər. Baş nazir F. Xoyski eyni zamanda xarici işlər naziri, N. Yusifbəyli maarif və dini etiqad naziri, general S. Mehmandarov hərbi nazir oldu.

Dekabrın 28-də general Tomson xüsusi bəyənatla elan etdi ki, ingilis komandanlığı "bu hökümətə tamamilə tərəfdar olacaqdır". Həmin bəyənatdan sonra Azərbaycan istiqlalının düşmənləri daha da qızışdılar.

“Rus Milli Şurası” Azərbaycan hökümətini tanımaq haqqında general Tomsonun təklifini rədd etdi.

1919-cu il yanvarın əvvəlində L. Biçexarov başda olmaqla “Qafqaz-Xəzər hökuməti” deyilən bir təşkilat yaradıldı. Bişeraxovun məqsədi Azərbaycanda hakimiyyəti zorla ələ almaq idi. Erməni silahlı dəstələri Biçeraxovun dövlət çevrilişi cəhdinin zorla üstü açıldıqdan sonra, Azərbaycan hökümətinin təkidi ilə ingilislər Biçeraxovun qoşunlarını 24 saat içərisində şəhərdən çıxartdılar, erməni dəstələri isə tərk-silah edilib buraxıldı.

İngilislər bilavasitə özlərinin nəzarəti altında olan bir sıra sahələri, o cümlədən, şəhər polisini, maliyyə idarələrini, mətbuatı, Bakı dəniz portunu milli hökümətin ixtiyarına verdilər.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi. Həmin ay hərbi nazirlik və milli qoşun hissələri Gəncədən Bakıya qaytarıldı. Beləliklə, dövlət aparatı demək olar ki, özünün bütün funksiyaları ilə yenidən Respublika hökümətinin əlinə keçdi.

İngilislərin davranışındakı dəyişikliklərlə əlaqədar olaraq, M. Ə. Rəsulzadə deyirdi ki, “ingilislərin bu davranşı, neftin müstəqil Azərbaycan hökümətinin əlində olması və ümumiyyətlə Azərbaycanın Rusiyadan ayrılması ingilislər üçün sərfəli idi.

Aprelin 14-də N. Yusifbəylinin başçılığı ilə yeni hökümət təşkil edildi. Bu hökümət əvvəlkindən daha radikal idi. N. Yusifbəyli bir il Nazirlər Şurasının sədri olmuşdur. Yeni baş nazir hökümət proqramı ilə çıxış edərək bildirdi ki, Azərbaycanın iri dövlətlər tərəfindən tanınmasına, ölkənin bütövlüyünün qorunub saxlanmasına, qonşu dövlətlərlə mehriban əlaqələrin yaradılmasına nail olmaq onun xarici siyasət xəttinin əsasını təşkil edir.

Mayın 28-də Azərbaycan müstəqilliyinin birinci ildönümü bayram edildi.

Kəndlərdə sosial-iqtisadi problemlərin həllinə kömək məqsədilə kiçik kredit idarələri yaradıldı.

İqtisadiyyatın dirçəldilməsi sahəsində müəyyən işlər görüldü. Neft sənayesi dağıntılar girdabından çıxarıldı. Bakı-Batum neft kəməri yenidən işə salındı. Culfa – Ələt dəmir yolunun tikintisinə başlandı. Kür çayı üzərində körpünün tikintisi başa çatmaq üzrə idi.

1919-cu ilin iyulun 21-də parlament “Azərbaycan Müəssislər məclisinə seçkilər haqqında Əsasnamə” qəbul etdi. Əsasnaməyə görə, Müəssislər məclisinə seçkilərdə cinsindən, dilindən, dinindən, milliyətindən asılı olmayaraq, 20 yaşına çatmış bütün Respublika vətəndaşları iştirak edə bilərdilər. Seçkilər məclisinə 120 üzv seçməli idilər. Seçkilər 1920-ci il aprelin 20-nə təyin edildi.

Avqustun 11-də “Azərbaycan vətəndaçlığı haqqında Qanun” qəbul olundu. Bu qanuna əsasən Azərbaycan Respublikası ərazisində doğulmuş keçmiş Rusiya imperiyası vətəndaşları və onların valideynləri milliyətindən və dinindən asılı olmayaraq, Azərbaycan vətəndaşı hesab edilirdi.

Azərbaycan Respublikasının pul və poçt markaları dövriyyəyə buraxıldı.

1919-cu il 1 sentyabr tarixli qanunla Bakı Dövlət Universiteti təsis edildi.

1919-cu ilin yazından Azərbaycanda ingilislərin mövqeləri zəifləməyə başladı.

Xalqın yadellilərə qarşı mübarizəzi xeyli gücləndi. İngilis əsgərləri və matrosları həmin dövrdə İran, Türkiyə, Hindistan, Misir və Şərqin digər müstəmləkə və asılı ölkələrində ingilislərə qarşı milli-azadlıq hərəkatı geniş vüsət aldı. Bu hərəkatı yatırtmaq üçün ingilislərə çoxlu hərbi qüvvə lazım idi. İngiltərə Zaqafqaziyanın öz qoşunlarını tədricən çıxarmağa məcbur oldu.

1919-cu ilin ortalarına doğru ölkə daxilində mövqelərini xeyli möhkəmləndirən Azərbaycan hökümətinin beynəlxalq əlaqələri canlandı. Paris sülh konfransında müvəffəqiyyətlə danışıqlar aparırdı. İngilislər mövcud reallıqlarla hesablaşmalı oldular. Onlar avqustun axırınadək Azərbaycan ərazisini bütünlüklə tərk etdilər. Beləliklə, Azərbaycan Respublikası yenidən tam müstəqillik əldə etdi.

Azərbaycan Respublikası xarici siyasətinin başlıca məqsədi respublikanın suverenliyinin digər dövlətlər tərəfindən tanınmasına nail olmaqdan ibarət idi. Bu məsələ, əslində, Parisdə çağırılmış sülh konfransında həll edilirdi.

Azərbaycan parlamentinin ilk iclaslarının birində Paris sülh konfransına yollanacaq nümayəndə heyətinin tərkibi müəyyən edildi. Bir sıra partiya və qrupların daxil olduğu nümayəndə heyəti yaradıldı. Parlamentin sədri Ə. M. Topçubaşov nümayəndə heyətinin başçısı təyin edildi.

1919-cu il yanvarın 20-də İstanbula çatan Azərbaycan nümayəndə heyəti Fransa hökümətindən Parisə getməyə icazə almaqdan ötrü üç aydan artıq gözləməli oldu. Nümayəndə heyəti yalnız mayın əvvəlində Parisə gəlib çatdı.

Paris sülh konfransı dünyanın müharibədən sonrakı siyasi vəziyyətini nizama salmaq məqsədilə çağırılmışdı. Konfransda 27 ölkə iştirak edirdi. Bütün mühüm məsələlər İngiltərə, Fransa və ABŞ tərəfindən həll edilirdi.

Konfrans keçmiş Rusiya dövlətinin bölünməzliyini təsdiq etdi. Antantanın bu qərarı Rusiyadan ayrılaraq öz müstəqilliyini elan etmiş Azərbaycan, Gürcüstan, Ukrayna və başqa respublikaların ciddi etirazına səbəb oldu.

1920-ci il yanvarın 11-də Paris kofransının ali şurası Azərbaycanın, Gürcüstanın, az sonra isə Ermənistanın suverenliyini de-fakto tanıdı. Azərbaycanın suverenliyinin tanınması xəbəri martın 14-də Bakıya çatdı. Bu tarixi hadisə münasibətilə ümumi amnistiya elan edildi, Bakıda hərbi parad keçirildi.

Azərbaycan Demokratik Respublikası ilə Sovet Rusiyası arasında münasibətlərin normal inkişafı hər iki ölkə üçün sərfəli idi. Uzun illər bu ölkələri möhkəm iqtisadi əlaqələr bağlamışdı.

1920-i il yanvarın 2-də, Sovet qoşunları denikinçiləri cənuba doğru sıxışdıran zaman, G. B. Çiçerin Azərbaycan hökümətinə nota göndərdi. O, “nə

qədər ki, gec deyil, Denikinə qarşı mübarizəyə başlamağı" məsləhət görür və hərbi ittifaq bağlamağı təklif edirdi.

Azərbaycan Respublikasının xarici işlər naziri F. Xoyski bu notaya cavabında göstərdi ki, "Azərbaycan xalqı başqa xalqların daxili işlərinə qarışmır".

Yanvarın 23-də və fevralın 20-də, Qızıl Ordu hissələri artıq Dağıstan sərhədlərinə gəlib çatan zaman, Sovet hökümətinin daha iki notası alındı. Azərbaycan hököməti öz növbəsində bildirdi ki, "Sovet Rusiyası ilə Azərbaycan Respublikası arasında hər hansı məsələ üzrə hər cür danışıqlar yalnız Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyinin Sovet hökuməti tərəfindən qeyd-şərtsiz tanınması əsasında aparıla bilər". Sovet hökuməti F. Xoyskinin 1920-ci il 9 mart tarixli axırıncı notasına heç cavab da vermədi.

Sovet Rusiyası özünün Zaqafqaziyadakı planlarını həyata keçirən zaman buradakı bolşevik təşkilatlarına arxalanırdı. PK (b)P bolşeviklərin milli zəmində fəaliyyətini canlandırmaq məqsədilə "müstəqil" Azərbaycan kommunist partiyasının təşkilinə icazə verdi.

1920-ci il fevralın 11-12-də PK(b)P-nin Bakı komitəsi, "Hümmət" və iranlı fəhlələrin "Ədalət" partiyası birləşərək, Azərbaycan Kommunist (bolşeviklər) Partiyasını yaratdılar. Ak(b)P Mərkəzi Komitəsi Prezidiumunun sədri Mirzə Davud Hüseynov təsdiq olundu. Lakin partiyaya faktik olaraq, A. İ. Mikoyan rəhbərlik edirdi. AK(b)P Mərkəzi Komitəsi "müstəqil Azərbaycan" şüarına qarşı "müstəqil Sovet Azərbaycanı" şüarını irəli sürdü.

Rusiyanın dövlət xadimləri arasında bir qismi, hətta, Azərbayanın suverenliyinin tanınmasına tərəfdar idi. RSFSR Xalq Xarici İşlər Komissarlığı sorğu göndərərək, bu məsələyə AK(B)P Mərkəzi Komitəsinin münasibətini öyrənmək istədi. Mərkəzi Komitə Azərbaycan Respublikasının suverenliyi əleyhinə olduğunu bildirdi. Rusiyada yaşayan Azərbaycan bolşevikləri də eyni mövqedə dayandılar. Bundan sonra, Sovet höküməti Azərbaycan Respublikasının suverenliyini tanımamaq haqqında qərar qəbul etdi.

1920-ci ilin əvvəllərində Azərbaycan Respublikasının beynəlxalq vəziyyəti normal hala düşmüşdü. O, Gürcüstan, Ermənistan, İran və Türkiyə ilə diplomatik əlaqələr saxlayırdı. İranın bir sıra şəhərlərində, Batumda, Kiyevdə, Aşqabadda, Krımda və başqa yerlərdə Azərbaycanın baş konsulluqları və konsul agentlikləri açılmışdı. Azərbaycanda iyirmiyə yaxın xarici ölkənin, o cümlədən, Gürcüstan, Ermənistan, Fransa, İngiltərə, İtaliya, ABŞ və Polşanın müxtəlif səviyyəli rəsmi nümayəndəlikləri fəaliyyət göstərirdi. Azərbaycan Demokratik Respublikasının suverenliyini, Sovet Rusiyası və Ermənistan istisna edilməklə, çoxlu dövlət, hətta Denikin də tanımışdı. Apreldən başlayaraq, Fransa, İngiltərə, İtaliya, ABŞ və Polşanın paytaxtlarında Azərbaycanın diplomatik nümayəndəliklərinin yaradılması planlaşdırılmışdı.

Biirnci dünya müharibəsi dövründə Azərbaycan iqtisadiyyatında başlanan tənəzzül sonrakı illərdə daha da dərinləşdi. Neft sənayesi böhran içərisində idi.

Neft ixracatı son dərəcə azalmışdı. İqtisadi sabitliyin pozulması əhalinin sosial vəziyyətinə ağır təsir göstərdi.

Müəssisələrin bağlanması və istehsalın ixtisar edilməsi nəticəsində hər gün onlarla, yüzlərlə fəhlə işdən çıxarılırdı.

1918-ci ilin sonlarından Azərbaycanda fəhlə hərəkatı canlandı. Bir sıra şəhərlərdə həmkarlar təşkilatları yenidən fəaliyyətə başladı.

Dekabrın 15-də, fabrik-zavod komitələri və mədən-zavod komitələri tərəfindən seçilib göndərilmiş nümayəndələrin konfransında Bakı Mərkəzi Fəhlə konfransı adlı təşkilat yaradıldı. Bakı Mərkəzi Fəhlə konfransı fəhlələrin daimi fəaliyyət göstərən ali orqanı idi.

Dekabrın 24-də başlanan tətildə Bakının 28 müəssisəsinin 12 min fəhləsi iştirak edirdi. Dekabrın 27-də tətil fəhlələrin qələbəsi ilə başa çatdı. Bakıda, Nuxada, Gədəbəydə tətillər oldu.

Bakı Sovetinin süqutundan sonra bolşeviklər gizli iş şəraitinə keçməyə məcbur olmuşdular. Kəndlilərin torpaq uğrunda mübarizəsi Azərbaycan Demokratik Respublikası dövründə də öz kəskinliyini saxlayırdı.

1919-cu ilin yazında kəndli hərəkatı gücləndi. Kəndlilər başlıca olaraq, milli hökümətin aqrar siyasətindən narazı idilər. Bundan sitifadə edən bolşeviklər kəndlilər içərisində inqilabi təşviqatı gücləndirərək, onları milli hökümətə qarşı silahlı mübarizəyə təhrik edirdilər.

Gəncə qəzasında Qatır Məmmədin başçılığı ilə Goranboy – Əhmədli və ətraf kəndlərin kəndlilərindən ibarət güclü partizan dəstəsi təşkil edilmişdi. Qatır Məmməd bolşeviklərlə əlaqə saxlayırdı. Partizan dəstəsi mülkədarların malikanələrinə hücum edir, telefon və teleqraf xətlərini kəsir, dəmir yolunda qatarların hərəkətini pozur, hökümət və ingilis qoşunlarına qarşı vuruşurdu. 1919-cu il sentyabrın 18-də Qatır Məmməd həlak oldu və onun dəstəsi dağıldı.

1920-ci ilin əvvəllərində Azərbaycan Demokratik Respublikasının daxili və xarici vəziyyəti xeyli ağırlaşdı. İqtisadiyyatın tənəzzülü davam edirdi.

Ermənistanın nümayəndələri Moskvaya gedərək Azərbaycan Respublikasını devirməkdə Sovet Rusiyasına kömək göstərməyə hazır olduqlarını bildirdilər. Onlar bunun müqabilində bir sıra Azərbaycan ərazilərinin Ermənistana verilməsini tələb etdilər.

Aprelin 27-də səhər XI Qızıl Ordunun 72 min nəfərdən ibarət hərbi hissələri, müharibə elan etmədən, Azərbaycan Respublikasının dövlət sərhəddini keçdi və ciddi müqavimətə rast gəlməyərək, Bakı üzərinə irəliləməyə başladı.

Aprelin 27-də, axşam saat 11-də, Azərbaycan parlamenti altı şərt irəli sürərək, hakimiyyəti kommunistlərə təhvil verdi.

Aprelin 28-də, Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. Ertəsi gün hərbi yardım göstərilməsi barədə Sovet Rusiyasına rəsmi müraciət olundu. Halbuki bu zaman rus ordusu artıq iki gün idi ki, Azərbaycan ərazisində idi.

# IV FƏSİL

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

## § 1. MAARİF. SƏHİYYƏ

**Maarif:** XX əsrin əvvəllərində Rusiya imperiyasında əhalinin $^3/_4$ hissəsi savadsız idi. Rusiya xalq maarifinə çəkilən xərcə görə Avropa dövlətləri arasında axırıncı yerlərdən birini tuturdu.

Çarizm qeyri-rus xalqların savadlanmasını xüsusilə təhlükəli hesab edərək, milli ucqarlarda maarifin inkişafına hər vəchlə mane olurdu.

Azərbaycanda maarifin ehtiyaclarına xəzinə çox az məbləğdə - 1,7 milyon manat pul buraxırdı. Həmin məbləği adambaşına böldükdə, hərəyə 64 qəpik düşürdü.

Əhalinin hər on min nəfərinə Bakı quberniyasında 140, Yelizavetpol quberniyasında isə 132 şagird düşürdü. Bu rəqəmlər bütövlükdə Rusiyada əhalinin hər on min nəfərinə düşən şagirdin sayını göstərən rəqəmdən son dərəcə aşağı idi.

Təhsilin başlıca olaraq rus dilində aparılması məktəblərin qapısını azərbaycanlı uşaqların üzünə bağlayırdı. 1903-cü ildə Qafqaz tədris dairəsinin məlumatına görə, rus dili ilə yanaşı ana dilinin də öyrənildiyi ibtidai məktəblər cəmi 7,6 faiz təşkil edirdi.

1902-ci ildə Bakı və Yelizavetpol quberniyalarında 230 ibtidai məktəb vardı. Bu məktəblərdə 15 minə qədər şagird oxuyurdu. Şagirdlərin 45 faizə qədərini qızlar təşkil edirdi. Azərbaycanlı şagirdlərin sayı 3600 nəfərdən bir qədər çox idi.

Dörd ibtidai sənət məktəbi vardı. Bu məktəblərdə 472 şagird təhsil alırdı. Onların yalnız 91 nəfəri azərbaycanlı idi.

Orta və natamam orta məktəblərin sayı çox az idi. 1902-ci ildə iki quberniyada cəmi 6 gimnaziya, realnı məktəb və digər orta təhsil müəssisəsi vardı. Bu məktəblərin dördü oğlanlara, ikisi isə qızlara məxsus idi. Orta məktəblərin dördü Bakıda, ikisi Yelizavetpol və Şuşa şəhərlərində yerləşirdi. İki natamam orta məktəb (natamam gimnaziya) vardı. Orta və natamam orta məktəblərdə 4200 nəfərdən bir qədər artıq şagird oxuyurdu. Azərbaycanlı şagirdlər yalnız 5,6 faiz-235 nəfər təşkil edirdi.

Azərbaycanın mütərəqqi ziyalıları H. B. Zərdabi, C. Məmmədquluzadə, M. Ə. Sabir, R. Əfəndiyev və başqaları xalq maarifi şəbəkələrinin genişləndirilməsi, məktəblərin demokratikləşdirilməsi, ana dilində pulsuz ümumi təhsilin həyata keçirilməsi, müsəlman qızlarının təhsilə cəlb edilməsi uğrunda mübarizə aparırdılar.

Birinci rus inqilabi illərində çar hökuməti ictimai-siyasi həyatın başqa sahələrində olduğu kimi, maarif sahəsində də bəzi güzəştlərə getməyə məcbur oldu.

Məktəblərin sayı bir qədər artırıldı, ibtidai məktəblərdə dərslərin ana dilində aparılmasına, birsinifli məktəblərin üçillik əvəzinə dördillik olmasına icazə verildi.

A. Səhhət, S. S. Axundov, A. Şaiq, Mahmud bəy Mahmudbəyov və başqa demokratik ziyalılar tərəfindən bir sıra dərsliklər yazıldı. Bu dərs kitablarının çoxu dəfələrlə nəşr edildi.

1905-1907-ci illər inqilabının məğlubiyyətindən sonra irtica maarif və mədəniyyət sahəsindən də yan keçmədi. Azərbaycanda bir sıra məktəblər bağlandı, mütərəqqi fikirli müəllimlər təqib edildi. Məktəblərdə rus dilinin əvvəlki hakim mövqeyi bərpa edildi. 1911-ci ildə çağırılmış Ümumrusiya dvoryan qurultayında, hətta, milli ucqarlarda ana dilində tədrisin tamamilə aradan qaldırılması haqqında qərar da qəbul olundu. Məktəbdə davranış qaydaları sərtləşdirildi.

Bununla belə, çar hökuməti müstəmləkə ucqarlarında mütləqiyyətə sadiq məmurlar hazırlanması, həmçinin birinci rus inqilabının təsiri altında oyanmış xalqların milli-mənəvi tələbatının cüzi də olsa ödənilməsi zəruriyyəti ilə qarşılaşaraq, maarifin sonrakı inkişafına ciddi müqavimət göstərə bilmədi.

1914 - 1915-ci dərs ilində ibtidai məktəblərin və bu məktəblərdə oxuyan şagirdlərin sayı 1902-ci ildə olduğundan dörd dəfədən çox artdı. 943 ibtidai məktəbdə 61 mindən artıq şagird təhsil alırdı. Onların 30 faizini qızlar təşkil edirdi. Həmin dövrdə azərbaycanlı şagirdlərin sayı altı dəfə artaraq, 21650 nəfərə çatdı. İndi onlar bütün ibtidai məktəb şagirdlərinin 35,2 faizini təşkil edirdi.

Bu zaman ana dilinin az-çox öyrənildiyi rus-Azərbaycan məktəblərinin sayı əsrin əvvəlində olduğundan iki dəfədən çox artaraq, 27-yə çatdı. Həmin ibtidai məktəblərin 12-si Bakıda, qalanları isə Azərbaycanın digər şəhərlərində yerləşirdi.

1912-ci ildə yüksək tipli bir neçə şəhər məktəbi ali ibtidai məktəblərə çevrildi. Bu məktəblərə adi ibtidai məktəbləri bitirmiş şagirdlər qəbul edilirdilər. 1914-1915-ci dərs ilində ali ibtidai məktəblərin sayı 21-ə çatdı. Onların 9-u Bakıda yerləşirdi. Həmin məktəblərdə oxuyanların yalnız 23,2 faizini azərbaycanlılar təşkil edirdi.

Bakının mədən-zavod rayonlarında neft sənayeçiləri qurultayı Şurası tərəfindən açılmış 10 ibtidai məktəb fəaliyyət göstərirdi. Bu məktəblər yalnız erməni və azərbaycanlı uşaqlarına məxsus idi. Məktəblərin hərəsində üç erməni və bir Azərbaycan sinfi vardı. Burada cəmi 2900-ə yaxın şagird təhsil alırdı. Dərslər faktik olaraq, rus dilində keçilirdi.

H. Z. Tağıyev və digər sahibkarlarıı müəssisələrində 9 ibtidai məktəb fəaliyyət göstərirdi. Bu məktəblərdə 700-ə yaxın şagird təhsil alırdı.

İbtidai sənət məktəblərində vəziyyət, demək olar ki, on beş il əvvəl olduğu kimi qalırdı.

1914-1915-ci dərs ilində 15 orta və 18 natamam orta təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu məktəblərin sayı əsrin əvvəlində olduğundan dörd dəfə çox idi. 5 kişi və 6 qadın gimnaziyası, 4 realnı məktəb, 2 ticarət məktəbi, 1 texniki məktəb və sair vardı. Orta və natamam orta məktəblərdə cəmi 11860 şagird təhsil alırdı. Onların yalnız 11,8 faizi-1400 nəfərə qədəri azərbaycanlı idi. Azərbaycanlı şagirdlərin içərisində qızlar 2,2 faiz təşkil edirdi. Orta məktəblərin 13-ü Bakıda, 2-si Yelizavetpolda yerləşirdi. Şamaxı, Şuşa, Lənkəran və başqa şəhərlərdə natamam orta məktəblər vardı.

1914-cü ildə Gəncə müəllimlər seminariyası açıldı.

Azərbaycanda, ümumiyyətlə, Zaqafqaziyada ali məktəb yox idi. Azərbaycanlılar ali təhsil almaq üçün Rusiyaya və xarici ölkələrə gedirdilər.

1914-1915-ci dərs ilində Azərbaycanda əhalinin hər on min nəfərinə 320 şagird düşmüşdü. Bu, əsrin əvvəlində olduğundan iki dəfədən də yüksək idi. Lakin həmin rəqəmin özü məktəb yaşlı uşaqların çox böyük hissəsinin təhsildən kənarda qaldığını göstərirdi. Belə ki, 1914-cü ildə Qafqaz təhsil dairəsinin məlumatına görə, bütün məktəbyaşlı azərbaycanlı uşaqların yalnız 12 faizi ibtidai təhsil alırdı. Orta təhsilə isə azərbaycanlı uşaqların cəmi 2,8 faizi cəlb edilmişdi.

Orta məktəblərdə yüksək təhsil haqqı alınırdı. 1912-ci ildən sonra Bakının əvvəllər təhsil haqqı alınmayan bir sıra ibtidai məktəbləri də pullu oldu. Yoxsulların yüksək təhsil haqqı ödəməyə gücləri çatmırdı.

Ümumtəhsil məktəblərində azərbaycanlı şagirdlərin sayı nisbətən az idi. Azərbaycanlılar əhalinin $^{2}/_{3}$ hissəsindən çoxunu təşkil etdikləri halda, onların payına ümumtəhsil məktəblərində yerlərin heç $^{1}/_{3}$-i də düşmürdü. Belə ki, bütün tip ümumtəhsil məktəblərində təhsil alan 73 min şagirdin yalnız 23 min nəfəri azərbaycanlı idi. Azərbaycanlı qızların içərisində oxuyanların sayı heç 1500 nəfərə çatmırdı.

Dünyəvi məktəblərlə yanaşı, dini təhsil müəssisələri - mollaxana və mədrəsələr, pravoslav, erməni-qriqorian, lüteran, katolik kilsə məktəbləri, həmçinin Qarabağ qriqorian ruhani seminariyası fəaliyyət göstərirdi.

Mollaxana və mədrəsələrdə 12 mindən artıq uşaq oxuyurdu.

Ə. Hüseynzadənin təşəbbüsü ilə köhnə dini məktəbləri yenidən qurmağa cəhdlər göstərildi. 1907-ci ildə Bakıda «Səadət» müsəlman cəmiyyəti tərəfindən «Mədrəseyi-səadət» adlı yeni tip dini məktəb açıldı. Bir il sonra Bakıda Ə. Hüseynzadənin bilavasitə rəhbərlik etdiyi ikinci belə bir məktəb yaradıldı. Bu məktəblərdə Quranla yanaşı, bir sıra dillər və Rusiya tarixi əvəzinə türk xalqlarının tarixi öyrədilirdi.

Müəllimlərin sayı olduqca az idi. 1914-cü ildə cəmi 2600 nəfərdən bir qədər artıq müəllim vardı. Onların çox hissəsini qeyri-azərbaycanlı müəllimlər təşkil edirdi. Ali təhsilli müəllimləri barmaqla saymaq olardı. Qafqazdakı müəllimlər seminariyalarını bitirmiş orta ixtisaslı müəllimlər və ali təhsilli

müəllimlər birlikdə 3 faiz təşkil edirdi. Müəllim heyəti, əsasən, rus-Azərbaycan məktəblərini bitirənlərdən ibarət idi.

Birinci dünya müharibəsi illərində və çarizm devrildikdən sonra Zaqafqaziyada yaranmış ictimai-siyasi sabitsizlik şəraitində, bütün başqa sahələr kimi, maarif sahəsi də geriləməyə başladı. Ələlxüsus, Bakıda mart qırğınlarından sonra müsəlman əhalisinin şəhəri tərk etməyə məcbur olması, həmçinin Bakı quberniyası qəzalarında minlərlə müsəlmanın məhvi ilə nəticələnən erməni-bolşevik terroru azərbaycanlıların maariflənməsi işinə ciddi zərbə vurdu.

Azərbaycan Demokratik Respublikası yarandıqdan sonra milli məktəb quruculuğuna başlandı. Azərbaycan türkcəsinin dövlət dili elan edilməsi bu işə güclü təkan verdi.

1918-ci ilin avqustunda Gəncə, Şuşa, Cavanşir, Zəngəzur, Cəbrayıl qəzalarının maarif orqanlarında işləyən yüksək vəzifəli erməni və rus məmurları milli kadrlarla əvəz edildi.

Avqustun 28-də xalq maarifinin milliləşdirilməsi haqqında qanun qəbul olundu. Mövcud məktəblərin çoxu milliləşdirildi.

Azərbaycan dilinin tədrisi bütün məktəb proqramlarına daxil edildi. Hətta tədris rus dilində olan məktəblərdə Azərbaycan dilinə məcburi fənn kimi həftədə 3-4 saat ayrıldı.

Lakin milli kadrların çatışmaması üzündən, bir çox hallarda, tədris ana dili əvəzinə rus dilində aparılırdı.

Ona görə, ilk tədbir olaraq, Gəncə, Şəki və Şuşa şəhərlərində milli məktəblərin aşağı sinifləri üçün 200 müəllim hazırlayan qısa müddətli kurslar təşkil edildi.

Maarif Nazirliyinin nəzdində Bakı xalq məktəbləri müdiri Mahmud bəy Mahmudbəyov, 1-ci gimnaziyanın müdiri Rəşid bəy Əfəndiyev, 1-ci realnı məktəbin müəllimi Abdulla Şaiq və digər görkəmli pedaqoqlardan ibarət imtahan komissiyası yaradıldı. Müəllim işləmək arzusunda olanlar imtahan verərək, bu komissiyanın qərarı ilə müvafiq sənəd alırdılar. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazağa köçürüldü. 1918-ci ilin noyabrında, Firudin bəy Köçərlinin böyük səyi nəticəsində, həmin şöbə müstəqil seminariya kimi fəaliyyətə başladı.

1919-cu ilin martında ərəb əlifbasından latın əlifbasına keçmək üçün parlament komissiyası yaradıldı.

Həmin ilin yayında milli müəllim kadrları hazırlamaq üçün Bakı, Gəncə, Şəki, Şuşa, Qazax, Salyan, Qusar və Zaqatalada xüsusi pedaqoji kurslar təşkil edildi.

Türkiyədən 50 nəfər kişi və qadın müəllimi dəvət olundu.

Bu zaman Respublikada ibtidai, orta və natamam orta məktəblərin sayı 700-ə çatırdı. Bu məktəblərdə 48 min nəfərdən artıq şagird təhsil alırdı. Onların

yarıdan bir qədər çoxunu - 24260 nəfərini azərbaycanlı şagirdlər təşkil edirdi. Təhsil alanlar içərisində 2 minə yaxın azərbaycanlı qız vardı.

23 orta və natamam orta təhsil müəssisəsi, o cümlədən 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 qadın məktəbi, politeknik və ticarət məktəbləri fəaliyyət göstərirdi. Bakıda 4 kişi və 4 qadın gimnaziyası, 3 realnı məktəb, müəllimlər seminariyası, qadın məktəbi, politexnik və ticarət məktəbləri, Gəncədə kişi gimnaziyası, müəllimlər seminariyası və qadın məktəbi, Şəkidə kişi gimnaziyası və qadın məktəbi, Şuşada realnı məktəb, Qazaxda müəllimlər seminariyası, Salyanda realnı məktəb vardı.

1919-cu ildə Azərbaycanda 23 yeni ibtidai və orta məktəb açıldı.

Azərbaycanda ilk dəfə olaraq, minlərlə gəncin milli ordu sıralarına çağırılması da məktəb-təhsil işinə müəyyən təsir göstərirdi.

Azərbaycan dilində dərsliklər olduqca az idi. Dərsliklərin hazırlanması ilə məşğul olan xüsusi komissiya yaradıldı. Bir sıra dərs kitabları nəşr edildi. Məktəblərdə Rusiya tarixi əvəzinə ümumi türk tarixi öyrənilməyə başlandı.

Savadsızlığın ləğvi üçün bir sıra addımlar atıldı. 1919-cu ildə Bakı, Şəki, Şuşa, Qazax və Zaqatalada yaşlılar üçün Azərbaycan dilində axşam kursları açıldı.

Ali təhsilli mütəxəssislərə hədsiz dərəcədə böyük ehtiyac vardı.

1919-cu ilin sentyabrında Azərbaycanda ilk ali təhsil ocağı - Bakı Dövlət Universiteti təsis edildi. Noyabrın 15-də Universitetdə dərslər başlandı. Dörd fakültənin təşkili nəzərdə tutulurdu. Hələlik isə iki fakültə - tarix-filologiya və tibb fakültələri fəaliyyət göstərirdi. Universitetdə 877 tələbə təhsil alırdı. Bundan əlavə, 217 nəfər azad dinləyici vardı. Bakıda politexnik institutun və Gəncədə kənd təsərrüfatı institutunun təşkili üzrə layihələr hazırlandı.

Parlamentin qəbul etdiyi xüsusi qərara əsasən, 1919-1920-ci dərs ilində 100 nəfər abituriyent və tələbəni dövlət hesabına təhsil almaq üçün İngiltərə, Fransa, İtaliya, Türkiyə və Rusiyanın ali məktəblərinə göndərmək nəzərdə tutulurdu. Onlardan yalnız 13 nəfər Rusiyada baş verən hadisələrlə əlaqədar olaraq, oraya oxumağa gedə bilmədi.

Azərbaycan hökuməti demokratik prinsiplərə sadiq qalaraq, ölkədə yaşayan bütün millətlərin maariflənməsinə səy göstərirdi; hələ 1918-ci il sentyabrın 7-də milli azlıqların ana dilində təhsili haqqında qanun qəbul edilmişdi.

1919-cu il oktyabrın 1-də Dağlıq Qarabağın erməni məktəbləri üzrə xüsusi müfəttişlik yaradıldı.

**Mədəni-maarif müəssisələri:** XX əsrin əvvəllərində Azərbaycanda bir neçə kiçik kitabxana və qiraətxana müəssisələri açıldı. Bunlar əsasən Bakıda yerləşirdi.

Birinci rus inqilabından sonra meydana gəlmiş mədəni-maarif cəmiyyətləri tərəfindən Bakıda, Şuşada, Şamaxıda və Azərbaycanın digər qəza mərkəzlərində kitabxana və qiraətxanalar açıldı.

Bir neçə kiçik kitabxana və qiraətxana çox zəif maddi bazaya malik olub, məhdud oxucu kütləsinin belə tələbatını ödəyə bilmirdi. Bundan başqa, kitabxanalardan kitab götürmək üçün qoyulan girovun və kitabdan istifadə müddətinin gecikməsinə görə alınan cərimənin son dərəcə yüksək olması kasıb oxucuların buraya gəlməsinə imkan vermirdi. Kənd yerlərində isə oxucuların böyük əksəriyyəti kitab oxumaq imkanından məhrum idi.

Bakıda sənaye muzeyi, texniki muzey, pedaqoji muzey vardı. Bunlar, əslində, eksponatlar saxlanan kiçik fondu xatırladaraq, demək olar ki, heç bir mədəni-maarif işi aparmırdı.

Fəhlələrin təşəbbüsü ilə Bakıda bir neçə fəhlə klubu və xalq evi açılmışdı. Bunlarda kitabxanalar, dram və musiqi dərnəkləri təşkil edilmişdi.

Əsrin əvvəllərindən başlayaraq, ümumi fəhlə kursları adlanan kurslar fəaliyyət göstərirdi. Bakı kursları xüsusilə fərqlənirdi. 1908-ci ildə həmin kurslarda 450 müdavim vardı ki, onların da 190 nəfərindən çoxunu azərbaycanlılar təşkil edirdi. 1909-cu ildə «Nicat» cəmiyyətinin axşam kurslarında 280 adam oxuyurdu. Bakının bəzi mədən-zavod rayonlarında da axşam kursları açılmışdı.

Azərbaycan Demokratik Respublikasında mədəni-maarif işləri milli məzmun aldı. Dövlət dili elan edilmiş Azərbaycan dilində çap məhsullarının çoxalması bunun üçün əlverişli şərait yaratdı. Kitabxanalar ana dilində olan kitab və dövri mətbuat vasitələri ilə zənginləşdirildi.

Bir sıra yeni kitabxanalar açıldı. Hətta bəzi kənd məktəblərində də kitabxana-qiraətxana təşkil edildi. Bakıda mərkəzi kitabxananın və kütləvi kitabxanaların layihələri hazırlandı.

«Türk ocağı», «Mədəni-maarif», «Nəsiri-maarif» və digər cəmiyyətlər mədəni-maarif işlərinin genişləndirilməsində mühüm rol oynadılar. Bu cəmiyyətlərin xətti ilə çoxlu kitabxana, axşam kursları, özfəaliyyət dərnəkləri və başqaları təşkil edildi.

**Səhiyyə** XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin vəziyyəti çox acınacaqlı idi. Bakı quberniyasında 105 həkim, 30-a yaxın aptek vardı. Yelizavetpol quberniyasında vəziyyət daha pis idi. 1909-cu ildə burada cəmi 9 həkim və 27 feldşer vardı. Həkimlər əsasən şəhər yerlərində işləyirdilər, kənd əhalisi, əslində, tibbi yardımdan məhrum idi.

Xəstəxanaların sayı olduqca az idi. Hətta bütün Zaqafqaziyada Moskva quberniyasının bəzi qəzalarında olduğundan xeyli az xəstəxana vardı. 1910-cu ildə xəstəxanalarla nisbətən yaxşı təmin edilmiş Bakı şəhərində 34 xəstəxana fəaliyyət göstərirdi. Bu xəstəxanalarda 41 həkim, 60 feldşer və 113 başqa tibb işçisi çalışırdı. Birinci dünya müharibəsi illərində Bakıda hərbi qospitallarla yanaşı, çoxlu lazaret təşkil edildi. Həmin hərbi xəstəxanalarda çarpayıların sayı 5800-ə çatırdı.

Səhiyyə xidmətinin yarıtmaz olması nəticəsində yoluxucu xəstəliklər baş alıb gedirdi. Mədə-bağırsaq xəstəlikləri, malyariya, revmatizm, traxoma geniş

yayılmışdı. 1910-cu ildə Bakı quberniyasının 150-yə yaxın yaşayış məntəqəsini, xüsusilə Lənkəran, Cavad, Quba və Şamaxı qəzalarını vəba xəstəliyi bürümüşdü. Azərbaycanda bir yaşınadək olan uşaqlar arasında ölüm halları Mərkəzi Rusiyada olduğundan xeyli yüksək idi. Bu, Bakıda 38 faiz təşkil edirdi. 1914-cü ildə şəhərdə «Uşaqlar arasında ölüm halları ilə mübarizə cəmiyyəti»nin sanatoriyası açıldı və uşaq xəstəxanasının tikintisinə başlandı.

Azərbaycan Demokratik Respublikası zamanında əhalinin sağlamlığına xüsusi qayğı göstərilirdi. Respublika hökumətinin fəaliyyətə başladığı ilk gündən səhiyyə nazirliyi təşkil edildi. Maliyyə imkanlarının son dərəcə məhdud olmasına baxmayaraq, 1919-cu ilin fevralında səhiyyənin inkişafı üçün 4,5 milyon manatdan artıq vəsait buraxıldı.

Bakı, Gəncə, Şuşa və Lənkəranda pulsuz dövlət xəstəxanaları, 35 yeni kənd xəstəxanası, 56 feldşer məntəqəsi, şəhərlərdə apteklər açıldı. Kənd yerlərində əhaliyə tibbi yardım göstərmək məqsədilə şəhərlərdən sanitar dəstələri göndərildi.

Ali və orta təhsilli tibb kadrlarının olduqca çatışmaması səhiyyənin işini yaxşılaşdırmağa ciddi maneçilik törədirdi. Bütün bunları nəzərə alan Respublika hökumətinin sərəncamı ilə, 1919-cu ilin sentyabrında Bakı Dövlət Universitetində tibb fakültəsi təşkil edildi, Bakıda üçillik feldşer məktəbi açıldı

## § 2. ELM. MƏTBUAT

XX əsrin əvvəllərində Azərbaycanda elm çox ləng inkişaf edirdi. Çar hökuməti elmi-zehni inkişafa milli oyanışın əsaslarından biri kimi baxaraq, müstəmləkələrdə bu sahəyə lazımi diqqət yetirmirdi. Bununla belə, iqtisadi inkişafın tələbləri bəzi elmi axtarışlar aparılmasını zəruri edirdi.

Texniki elmlər sahəsində başlıca tədqiqat işləri neft geologiyası, neft texnikası və neft kimyası ilə əlaqədar idi. Özünün yüksək ixtisaslı milli texniki kadrları olmayan Azərbaycanda bu elm sahəsi ilə Rusiyadan gələn alimlər, həmçinin Geoloji komitə, Rus texniki cəmiyyəti, Dağ-mədən komitəsi kimi mərkəzi idarələr məşğul olurdular.

D. V. Qolubyatnikov, İ. M. Qubkin və digər rus alim və mühəndisləri tərəfindən Abşeronda geoloji quruluşun öyrənilməsi, neftin kimyəvi üsullarla emalı prosesinin texniki cəhətdən təkmilləşdirilməsi sahəsində bir sıra kəşflər, ixtiralar edildi. Bunun nəticəsində neft yataqlarının dəqiq yerini aşkara çıxarmaq xeyli asanlaşdı, neft məhsullarının təmizlənməsində turşulardan və qələvilərdən istifadə genişləndi. 1916-cı ildə, ilk dəfə olaraq, neftin proliz üsulu ilə - hava vurmadan 400-1200 dərəcə qızdırmaqla emalına başlandı.

**Kimya** elminin inkişafı, əsasən, neft istehsalı ilə məhdudlaşırdı. Neft emalı istisna edilərsə, heç bir istehsal sahəsində kimya laboratoriyası yox idi.

Təbiət elmləri sahəsində irəliyə doğru bəzi addımlar atıldı. Rus alimləri tərəfindən Azərbaycanın təbiəti və kənd təsərrüfatı istehsalı şəraiti öyrənilərək bir neçə elmi əsər yazıldı.

Sarıtəpə, Ağstafa, Cəfərxan təcrübə stansiyaları təşkil edildi. Bu stansiyalarda bitkilərin genetika və seleksiyası üzrə elmi tədqiqatlar aparılmasa da, yaxşı bitki növlərinin seçilib çoxaldılması və yayılması, həmçinin başqa regionlarda yetişən kənd təsərrüfatı bitkilərinin yerli şəraitə uyğunlaşdırılması sahəsində müəyyən işlər görüldü.

**Tibb elmləri** çox ləng irəliləyirdi. Bu sahədə tədqiqatlar, əsasən, Bakı həkimlər cəmiyyətinin üzvləri tərəfindən aparılırdı. Lakin həmin cəmiyyətin kifayət qədər maliyyə vəsaitinin olmaması geniş tədqiqatlar aparılmasına imkan vermirdi. Bir sıra elmi-kütləvi əsərlər, o cümlədən N. Nərimanovun «Vəba», «Vərəm» və başqaları nəşr edildi.

**Humanitar elmlər** sahəsində müəyyən irəliləyiş vardı. Bu cəhətdən tarix və ədəbiyyatşünaslıq xüsusilə fərqlənirdi.

1905-ci ildə Rəşid bəy İsmayilovun «Müxtəsər Qafqaz tarixi» və 1905—1913-cü illərdə Hacı Şeyx Həsən Gəncəvinin dördcildlik «Zübdətüt təvarix» kitabları nəşr olundu. Ümumiyyətlə, Qafqazın və Şərq İslam ölkələrinin tarixinə həsr olunmuş bu kitablarda Azərbaycanın XIX əsr siyasi-mənəvi tarixindən də bəhs edilirdi.

Mətbuat səhifələrində Fərhad Ağazadə, Şair Tahir Musayev və başqalarının Azərbaycan tarixinin müxtəlif məsələlərinə dair məqalələri dərc olundu.

Rus tarixçiləri, həmçinin bir qrup rus zabiti və məmurları tərəfindən Qafqazın tarixinə dair xeyli kitab yazıldı. Həmin kitablarda Azərbaycan tarixinin bəzi məsələlərinə toxunulurdu.

M. Ə. Rəsulzadənin Azərbaycan xalqının məişətinə və ictimai-siyasi tarixinə həsr etdiyi «Acı bir həyat» (1912), «Cəmaət idarəsi» və «Bizə hansı hökumət faydalıdır» (1917) kitabları nəşr olundu.

Ədəbi tənqid və ədəbiyyatşünaslığın inkişafında F. Köçərli, C. Məmmədquluzadə, N. Nərimanov və başqaları mühüm rol oynamışlar. Onlar bədii sənətkarlıq, ədəbiyyat və dil məsələlərinə, Azərbaycan, həmçinin rus klassik irsinin bir sıra görkəmli nümayəndələrinin yaradıcılığına dair çoxlu ədəbi-tənqidi məqalə və publisistik əsərlər həsr etmişlər.

Coğrafiya elminin bəzi uğurları vardı. 1904-cü ildə Mollazadənin coğrafiya məsələlərinə həsr olunmuş kitabı Azərbaycan dilində çapdan çıxdı. Daha sonra Qafur Rəşad Mirzəzadənin Qafqaz coğrafiyasına dair, Yusif Əliyev və Fərhad Ağazadənin Avropa ölkələrinin coğrafiyasına dair əsərləri nəşr olundu.

Bu dövrdə pedaqoji elmlər sahəsində müəyyən inkişaf gözə çarpırdı. Həsən bəy Zərdabi, Həbib bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev və

başqalarının elmi-pedaqoji əsərləri və məqalələri, tədris vəsaitləri məktəb-təlim işinin yaxşılaşmasına xeyli kömək etdi.

Vaxtilə, başlıca olaraq rus alimləri tərəfindən az-çox inkişaf etdirilən elm sahələri Azərbaycan Demokratik Respublikası zamanı bir qədər tənəzzülə uğradı.

1919-cu ildə Adil xan Ziyadxanovun «Azərbaycan tarixinə, ədəbiyyatına, siyasətinə dair oçerklər»i nəşr edildi. Zəngin faktik materiala və tarixi mənbələrə istinadən yazılmış bu elmi-kütləvi əsərdə, əsasən, Azərbaycan Demokratik Respublikasının siyasi tarixindən, onun inkişaf perspektivlərindən bəhs edilirdi. Kitab rus və ingilis dillərinə tərcümə olunaraq, o zaman Parisdə öz işini davam etdirən Beynəlxalq sülh konfransının üzvləri arasında yayılmışdı.

Paris sülh konfransında Azərbaycan numayəndə heyətinin üzvləri tərəfindən elmi dəyəri olan bir sıra kitabça və məqalələr, o cümlədən «Qafqaz Azərbaycanı Respublikası», «Azərbaycan Respublikası. Qafqaz Azərbaycanının iqtisadi və maliyyə vəziyyəti», «Qafqaz Azərbaycanı Respublikasının Paris sülh konfransından tələbləri» adlı kitabçalar hazırlanıb buraxıldı. Həmin kitabçalarda Azərbaycanın lap qədimlərdən başlayaraq müasir dövrə qədərki tarixi, etnoqrafiyası, iqtisadiyyatı, mədəniyyəti, xalqın yadelli işğalçılara qarşı mübarizəsi, milli-azadlıq hərəkatı, müstəqil dövlət quruculuğu və digər məsələlər barəsində yığcam məlumatlar verilirdi. Təbliğat-informasiya məqsədilə yazılmış bu kitabçalar 1919-cu ildə Parisdə ingilis və fransız dillərində nəşr edilərək, konfrans iştirakçılarına paylanmışdı.

Müstəqil Azərbaycan dövlətinin qarşısında özünün elmi kadrlarını hazırlamaq, milli elmi-tədqiqat mərkəzləri yaratmaq mühüm vəzifə olaraq dururdu. 1919-cu ilin axırı-1920-ci ilin əvvəllərində Bakıda «Müsəlman Şərqini öyrənən cəmiyyət», Maarif nazirliyinin nəzdində arxeologiya şöbəsi yaradıldı. Bunlar Azərbaycanın qədim və orta əsr tarixi abidələrini araşdırıb öyrənməklə məşğul olurdular.

Bu zaman fəaliyyətə başlayan Bakı Dövlət Universitetində müxtəlif elm sahələri üzrə müəyyən tədqiqatlar aparmaq imkanı yaranmışdı. Universitetin elmi şurası vardı, o, həmçinin, alimlik dərəcələri vermək hüququna malik idi

**Mətbuat:** XX əsrin əvvəllərində Azərbaycanda mətbuat inkişaf edirdi.

1903-1905-ci illərdə Tiflisdə Azərbaycan dilində ilk qəzetlərdən biri «Şərqi-Rus» qəzeti nəşr edildi. Qəzetin redaktoru görkəmli maarifçi Məmmədağa Şahtaxtinski (1848-1930-cu illər) idi. Onun xüsusi mətbəəsi də vardı.

«Şərqi-Rus» qəzetində C. Məmmədquluzadə, M. Ə. Sabir, A. Səhhət, F. Köçərli, M. S. Ordubadi və başqa ziyalıların bir sıra məqalələri dərc olunmuşdu.

Qəzetin səhifələrində ictimai həyatın müxtəlif məsələləri, o cümlədən xalqın milli özünüdərki, mədəniyyət, ədəbiyyat məsələləri haqqında yazılırdı.

Birinci rus inqilabı illərində Azərbaycanda bir sıra yeni qəzet və jurnallar çıxmağa başladı.

1905-1906-cı illərdə Azərbaycanda ana dilində ilk qəzet olan «Həyat», 1906-1907-ci illərdə «Füyuzat» jurnalı və «İrşad» (Düz yol) qəzeti nəşr edildi. Həmin dövrdə «Rəhbər» (1906) və «Dəbistan» (1906-1908) adlı pedaqoji jurnallar buraxıldı.

1906-1917-ci illərdə Tiflisdə «Molla Nəsrəddin» jurnalı nəşr edildi. (İyirminci illərdən başlayaraq jurnal öz fəaliyyətini Bakıda davam etdirmişdi).

Milli mənlik şüurunun oyanması prosesində meydana gələn qəzet və jurnallar Azərbaycan ictimai fikrinin formalaşmasında mühüm rol oynadı. Milli demokratiyanın qabaqcıl nümayəndələri tərəfindən daim işlənib inkişaf etdirilən azadlıq və müstəqillik ideyaları mətbuat orqanları vasitəsilə dərhal yayılaraq, Azərbaycan ictimai fikrini əhatə edirdi.

Ə. Ağayevin, Ə. Hüseynzadənin redaktorluğu ilə çıxan «Həyat» qəzeti və «Füyuzat» jurnalının səhifələrində, əsasən, liberal əhval-ruhiyyəli ziyalılar, o cümlədən Ə. Hüseynzadə, Ə. Ağayev, gələcək müstəqil Azərbaycan dövlətinin yaradıcılarından olan M. Ə. Rəsulzadə və Ə. M. Topçubaşov milli özünüdərkə, milli azadlığa çağıran məqalələrlə çıxış edirdilər. Burada, həmçinin H. Zərdabinin elmi-nəzəri məqalələri, N. Vəzirov və Ə. Haqverdiyevin hekayələri, M. Ə. Sabirin şerləri, hətta bolşevik N. Nərimanovun inqilabi-publisist yazıları dərc olunurdu.

C. Məmmədquluzadənin redaktoru olduğu «Molla Nəsrəddin» jurnalında, əsasən, inqilabi-demokratik ziyalılar, o cümlədən, M. Ə. Sabir, M. S. Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi, Əzim Əzimzadə, həmçinin Ü. Hacıbəyov, F. Köçərli çıxış edirdilər. Jurnalın kəskin silahı satira idi. İctimai-siyasi həyatın ziddiyyətləri və eybəcərlikləri həcvlər, felyetonlar, karikatura və jarjlar vasitəsilə ifşa edilirdi.

«Molla Nəsrəddin» jurnalı Azərbaycan satiraçılarının böyük bir nəslini tərbiyə edib yetişdirmişdir. O, nəinki Azərbaycanda, həm də Yaxın və Orta Şərq ölkələrində böyuk şöhrət qazanmışdı.

İrtica illərində mətbuat ciddi hücumlara məruz qaldı. Bir sıra qəzet və jurnallar bağlandı, onların naşirləri təqib edildi. Lakin artıq oyanmış milli şüurun qarşısını almaq mümkün deyildi. Bağlanmış qəzet və jurnallar bəzən yeni adda çıxır, yaxud yeniləri nəşr edilirdi.

1908-1919-cu illərdə Azərbaycanda muxtəlif adda onlarca yeni qəzet və jurnal nəşr edilmişdir. Təkcə «Molla Nəsrəddin»in təsiri altında 10-a qədər satirik jurnal, o cümlədən «Bəhlul», «Zənbur», «Babayi-Əmir», «Məzəli», «Şeypur» nəşr edilmişdi. Bundan əlavə, rus dilində çıxan «Kaspi», «Baku», «Bakinskiye izvestiya» və digər mətbuat orqanları da vardı.

XX əsrin əvvəllərində, müxtəlif vaxtlarda, Azərbaycan dilində «Hümmət», «Qoç-dəvət», «Təkamül», «Bakı həyatı», rus dilində «Bakinski raboçi», «Prizıv», «Bakinski proletari», «Qudok» və başqa bolşevik mətbuatı çıxmışdır.

«Həyat» qəzeti və «Füyuzat» jurnalının nəşri dayandırıldıqdan sonra, keçmiş «həyatçılar» və «füyuzatçılar» yeni meydana çıxan «Təzə həyat» və «Yeni füyuzat»ın ətrafında toplaşdılar.

Onuncu illərin ortalarında Azərbaycanda milli hərəkat genişlənən dövrdə «İqbal» və onu əvəz etmiş «Açıq söz» qəzeti, «Dirilik» və «Şəlalə» jurnalları milli azadlıq ideyalarını yayan başlıca mətbuat vasitələrinə çevrildi. Bu zaman milli-azadlıq hərəkatının lideri M. Ə. Rəsulzadənin qəzet və jurnal səhifələrində azadlıq ideyalarının yeni ictimai şəraitdə inkişafına həsr olunmuş silsilə məqalələri dərc edildi.

M. Ə. Rəsulzadənin bilavasitə redaktoru olduğu «Açıq söz» qəzetinın ətrafında xalqın bütün zümrələrinin əhval-ruhiyyəsini əks etdirən siyasi xadimlər, ədiblər, publisistlər cəmləşmişdilər. Qəzetin səhifələrində milli-azadlıq hərəkatının görkəmli nümayəndələri ilə yanaşı, Şəfiqə xanım Əfəndizadə, Ömər Faiq, Abdulla Şaiq, Nəriman Nərimanov, Ə. Haqverdiyev, Hüseyn Cavid və başqa ziyalılar çıxış edirdilər.

«Müsavat»ın mətbu orqanı olan «Açıq söz» qəzetində milli-azadlıq ideyaları ilə bərabər, milləti birliyə, vətənpərvərliyə, qeyrətə, sayıqlığa çağıran çoxlu məqalə verilirdi.

C. Cabbarlının dostu şair Mirzəbala Məmmədzadə «Açıq söz» qəzetində Zaqafqaziya komissarlığının tərkibində müsəlman ordusunun yaradılması çətinliklərinə həsr etdiyi «Azərbaycan çağırır» adlı məqalə ilə çıxış edərək yazırdı: «Ey gənc türklər! Bu gün Kəbeyi-müqəddəsiniz olan vətəninizi azad ediniz! Əgər milli ədəbiyyat istəyirsiniz yenə onu qurtarmalısınız. Əgər milli məktəblər... elmi-fənn arzulayırsınız yenə vətəni azad etməlisiniz... hürriyyət və vətən yolunda can verməyən bir millət, muxtariyyəti və istiqlalı yolunda varından keçməyən bir millət yaşamaq istəməmək deməkdir».

Vaxtilə «İqbal» qəzetinin redaktoru olmuş Sənətulla Eynullayev Bakıdakı mart qırğınlarından üç gün əvvəl «Açıq söz»də dərc etdirdiyi «Dəhşətli saət gəlir, birlik gərək!» adlı məqaləsində müsəlmanlara xəbərdarlıqla yazırdı: «Bakıda millətlərin cəmi partiyaları bu gün məlum məsələlər xüsusunda sözlərini bir etdilər. Müsəlman partiyaları da «milləti fəlakətdən xilas etmək» xatirinə birləşməyə borcludurlar. Çünki «baş kəsildikdə saqqalla bərabər gedəcək» olduğundan dəhşətli saətlərdə partiya fərqinə baxmayaraq, proqram və partiyalar da millətlə bərabər gedəcəkdir. Dəhşətli saət gəlir, birləşin!».

Bakıda mart hadisələri zamanı mətbəələrin avadanlıqlarının çoxu ermənilər tərəfindən məhv edildiyindən xeyli qəzet və jurnal, o cümlədən «Açıq söz» uzun müddət işıq üzü görmədi. Qəzet öz fəaliyyətini yalnız 1918-ci ilin payızında, Azərbaycan Demokratik Respublikası zamanı bərpa etdi. 1919-cu ilin əvvəllərindən «Açıq söz»ün əvəzinə «İstiqlal» qəzeti çıxmağa başladı.

Azərbaycan Demokratik Respublikası dövründə fəaliyyət göstərən mətbuat orqanlarının ən mühümlərindən biri «Azərbaycan» qəzeti idi. Milli

istiqlaliyyət qazanıldıqdan az sonra meydana gələn bu qəzetin 1919-cu ilin yanvarından 1920-ci ilin aprelinədək redaktoru Üzeyir Hacıbəyov olmuşdur. Ü. Hacıbəyov əvvəllər də bir müddət «Tərəqqi» (1908-1910-cu illər) qəzetinə, həmçinin «Həqiqət» (1909-1910-cu illər) və «Yeni İqbal» (1915-1916-cı illər) qəzetlərinə redaktorluq etmişdir.

«Azərbaycan» qəzeti ictimai-mənəvi həyatın başlıca məsələlərini öz səhifələrində işıqlandıraraq, onlara öz münasibətini bildirirdi, O, ictimaiyyəti xəbərdar edərək yazırdı: «Bir Denikin var, bizi xaricdən təhdid edir, bir çox denikinlər var ki, içimizə dolub, ən xətərli yerlərdə gizlənib, bizi daxildən qorxudurlar... Buna görə, istiqlalımızı əldən verməmək üçün bu fövqəladə zamanda fövqəladə işlər də görülməlidir, o işlərin ən mühümü özümüzü xarici denikinlərlə bərabər, daxili denikinlərdən qorumaq təşəbbüsüdür».

«Azərbaycan» qəzeti heç bir siyasi partiyaya mənsub olmayıb, ardıcıl surətdə milli azadlığı, milli müstəqilliyi, milli birliyi müdafiə mövqelərindən çıxış edirdi.

1919-cu ildə Azərbaycanda, ümumiyyətlə, 80-dən artıq qəzet və jurnal çıxırdı. Bunların 40-a qədəri Azərbaycan dilində idi.

Azərbaycanda mətbuatın inkişafı xeyli dərəcədə nəşriyyat işlərinin genişlənməsi ilə əlaqədar idi.

1905-ci ildə Bakı quberniyasında cəmi 15 xırda mətbəə və litoqrafiya, həmçinin 15 kitab mağazası vardı. Gəncə, Şuşa və Naxçıvanda da mətbəələr yaradılmışdı.

Həmin dövrdə Tiflisdə C. Məmmədquluzadə və Ömər Faiq tərəfindən «Qeyrət» adlı mətbəə təsis edildi.

1908-ci ildə Bakı quberniyasında mətbəə və litoqrafnyaların sayı artıq 30-a çatdı. Gəncə, Şuşa və Lənkəranda yeni mətbəələr açıldı.

Bakıda Orucov qardaşlarının və Haşım bəy Vəzirovun mətbəələri, Tiflisdə «Qeyrət» mətbəəsi daha iri müəssisələr olub, Azərbaycanda dövrü mətbuat və kitab nəşrində mühüm rol oynamışdır

## § 3. ƏDƏBİYYAT. İNCƏSƏNƏT

**Ədəbiyyat:** XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı inkişaf dövrü keçirirdi. Bu cəhətdən ədəbiyyatın nəsr və dramaturgiya janrları xüsusilə fərqlənirdi. Nəsr əsərləri, əsasən, novellalar və kiçik hekayələrdən ibarət idi.

Bu dövrdə satira bədii fikrin başlıca ifadə tərzinə çevrildi. Əsrlər boyu epik və lirik janrlarda qərar tutan Azərbaycan şeri üzünü satiraya tutdu.

1906-cı ildə «Molla Nəsrəddin» jurnalının nəşrindən sonra, bu jurnalın ətrafında satirik qələm ustalarının böyük bir dəstəsi toplaşdı. Kiçik satirik hekayə, satirik şer, felyeton yazmaq dəbə düşdü.

XX əsrin əvvəllərində yaşayıb-yaratmış C. Məmmədquluzadə, M. Ə. Sabir, N. Vəzirov, Ə. Haqverdiyev, M. S. Ordubadi, H. Cavid, A. Səhhət, A. Şaiq, Əhməd Cavad, C. Cabbarlı və digər görkəmli ədiblər milli bədii-ictimai fikrin görkəmli nümayəndələri idilər.

Bu dövrdə Azərbaycan ədəbiyyatında realist sənətkarlardan ibarət güclü ədəbi cərəyan fəaliyyət göstərirdi.

**C. Məmmədquluzadə** (1869-1932-ci illər) M. F. Axundovun realist ənənələrinin görkəmli davametdiricisi idi. O, Azərbaycan ədəbiyyatında realist hekayəçiliyin əsasını qoyanlardan biridir. Onun «Danabaş kəndinin əhvalatları», «Poçt qutusu» hekayələrində Azərbaycan kəndlilərinin acınacaqlı həyatı güzgü kimi əks etdirilmişdir. Ədibin şah əsəri olan «Ölülər» pyesində avam kütlələri aldadan fırıldaqçı mollalar ifşa edilirdi. C. Məmmədquluzadənin yaradıcılığında milli ayrı-seçkilik siyasəti yeridən, xalqlar arasında milli nifaq toxumu səpən, milli-azadlıq hərəkatlarını boğan çarizm ciddi tənqid atəşinə tutulurdu.

«Molla Nəsrəddin» jurnalını təsis etdikdən sonra, C. Məmmədquluzadənin ədəbi fəaliyyətində publisistika üstün yer tutdu.

Böyük vətənpərvər yazıçı müstəqil Azərbaycan Demokratik Respublikasının yaranmasını sevinclə qarşıladı. O, ölkədə müxtəlif siyasi qüvvələr arasında birliyin zəruriliyini qeyd edir və belə bir birliyin olmamasının acı nəticələrini əvvəlcədən görürdü. 1919-cu ildə yazdığı «Anamın kitabı» pyesində bu narahatçılığı obrazlı şəkildə ifadə etmişdir. Əsərin əsas süjetini Peterburq, İstanbul və Nəcəfdə təhsil almış müxtəlif məsləkli üç qardaşın heç cürə ümumi dil tapa bilməmələri təşkil edir. Qardaşlar bacıları Gülbaharı hərə öz psixologiyasına uyğun adama ərə vermək istədikdə, müəllif qızın dili ilə onlardan soruşur: «Nə səbəbə axır, hamı bir tərəfə getmir?».

C. Məmmədquluzadə Azərbaycanın bütövlüyünün qızğın tərəfdarı idi. O, «Azərbaycan» adlı məqaləsində açıq yazırdı ki, «Bir tərəfdən Qafqaz Azərbaycanını, digər tərəfdən İran Azərbaycanını... bir-birinə ilhaq edib, müstəqil Azərbaycan hökuməti əmələ gətirilməlidir».

Azərbaycan realist ədəbiyyatının inkişafında **Mirzə Ələkbər Sabir** (Tahirzadə) (1862-1911-ci illər) mühüm rol oynamışdır. Sabirin yaradıcılığında

Azərbaycan satirik şeri özünün yüksək zirvəsinə qalxmışdı. O, «Molla Nəsrəddin» jurnalının fəal əməkdaşlarından idi.

Sabirin poeziyası kəskin ictimai xarakter daşıyırdı. Xalqı qəflət yuxusundan qalxmağa, azadlığa səsləyən şair öz əsərlərində çarizmin qarşısında yaltaqlananlara istehza edir, cəmiyyəti bürümüş özbaşınalığı və rüşvətxorluğu ifşa edir, ədalətsizliyə qarşı çıxır, xalqlar dostluğunu mədh edirdi.

Azadlıq carçısı olan Sabirin satirası təkcə Azərbaycanda deyil, Rusiya, İran, Türkiyə və digər şərq ölkələrində məzlum kütlələrin oyanmasına təkan vermişdi. A. Səhhət yazırdı ki, Sabirin əsərləri «beş ilin müddətində İran məşrutəsinə bir ordudan ziyadə xidmət etmişdir».

Sabirin əsərləri məcmuəsi ilk dəfə, şairin ölümündən bir il sonra, «Hophopnamə» adı ilə nəşr edildi.

Əbdürrəhim bəy Haqverdiyev (1870-1933-cü illər) özünün bir sıra povest və hekayələrində, həmçinin «Dağılan tifaq», «Bəxtsiz cavan» pyeslərində o dövrdəki Azərbaycan məişətini reallıqla əks etdirmişdir. Cəhalətpərəstliyin, müftəxorluq və rüşvətxorluğun tənqidi, millətlər arasında ədavət salanların ifşası, xalqlar dostluğunun təbliği Haqverdiyev nəsrinin səciyyəvi cəhətləri idi. «Molla Nəsrəddin»in fəal əməkdaşlarından olan Ə. Haqverdiyev bu jurnalın səhifələrində «Marallarım», «Bomba» kimi bir sıra güclü satirik məqalələrlə çıxış etmişdir.

Ədəbi fəaliyyətə publisist kimi başlayan **Məmməd Səid Ordubadi** (1872-1950-ci illər) 1906-1907-ci illərdə özünün «Vətən və hürriyyət», «Qəflət» adlı ilk şer məcmuələrini və «Bədbəxt milyonçu» romanını nəşr etdirdi. «Bədbəxt milyonçu» əsəri Azərbaycanda roman janrı sahəsində atılan ilk addımlardan biri idi. Fəal mollanəsrəddinçi olan Ordubadinin sonrakı yaradıcılığında inqilab mövzusu üstün yer tutmuşdur.

1903-cü ildə gənc **Məmməd Əmin Rəsulzadənin** (1884-1955-ci illər) «Şərqi-Rus» qəzetində «Məxəmməs» adlı ilk şeri dərc olundu. 1908-ci ildə onun «Qaranlıqda işıqlar» pyesi tamaşaya qoyuldu. Milli oyanışa və istiqlala çağıran bu pyes Azərbaycanda azadlıq hərəkatına həsr olunmuş ilk səhnə əsəri idi. Həmin il o, «Nagəhan bəla» pyesini yazdı. Sonrakı illərdə M. Ə. Rəsulzadə əsasən siyasi publisistika ilə məşğul olmuşdur.

**Nəriman Nərimanov** (1870-1925-ci illər) inqilabi-bədii ədəbiyyatın görkəmli nümayəndəsi idi. O bir sıra əsərlərində, o cümlədən «Pir», «Bir kəndin sərgüzəşti» hekayələrində, «Nadanlıq», «Şamdan bəy» pyeslərində tamahkarlığı, vəhşi eqoizmi, müftəxorluğu, geriliyi, cəhaləti ifşa etmişdir. Nərimanov xalqlar dostluğunu təbliğ edir, zəhmətkeşlərin rus inqilabının dərslərindən öyrənməyə çağırırdı. N. Nərimanov başlıca olaraq inqilabi-siyasi publisistika sahəsində çalışmışdır.

Azərbaycan Demokratik Respublikası zamanı gənc ədiblərdən ibarət yeni yaradıcı qüvvələr meydana gəldi. Buraya Əhməd Cavad, Cəfər Cabbarlı,

Balaqardaş Mürşid, Ümgülsüm, Əbdürrəhman Dai, Mirzəbala Məmmədzadə və başqaları daxil idi.

**Əhməd Cavad** (1891-1937-ci illər) və şerlərində humanizmi, azadlığı, milli müstəqilliyi tərənnüm edirdi.

Gənc Ə. Cavad birinci dünya müharibəsi illərində xeyriyyəçilik məqsədilə cəbhə xəttinə yaxın əraziləri qarış-qarış gəzmişdi. Şahidi olduğu hadisələri və reallıqları qələmə almışdı. Şair üçün azad vətən sevgisi bütün ülvi duyğuların ən müqəddəsi idi. 1916-cı ildə onun «Qoşma» adlı ilk şer məcmuəsi nəşr olundu. Üç il sonra «Dalğa» adlı daha bir şer kitabı çıxdı. Azərbaycan Dövlət Himninin və «Azərbaycan marşı»nın sözlərini Ə. Cavad yazmışdır.

Görkəmli dramaturq **Cəfər Cabbarlı** (1899-1934-cü illər) ədəbi fəaliyyətə çox erkən başlamışdır. Hələ 16 yaşında ikən, o, bir sıra satirik şerlər, «Vəfalı Səriyyə, yaxud göz yaşları içində qəhqəhələr» və «Solğun çiçəklər» pyeslərini yazmışdır.

1917-1918-ci illərin coşğun ictimai-siyasi hadisələrinin təsiri altında gənc sənətkarın yaradıcılığında millilik, türkçülük və milli müstəqillik ideyaları gücləndi. Həmin dövrdə «Ədirnə fəthi», «Trablis müharibəsi və ya Ulduz» pyeslərini yazdı. Bu əsərlər Osmanlı imperiyasını parçalamağa çalışan xarici imperialist qüvvələrə qarşı türk vətənpərvərlərinin qəhrəman mübarizəsinə həsr olunmuşdur.

1919-cu ildə C. Cabbarlı «Bakı müharibəsi» pyesini yazdı. Əsərdə 1918-ci ilin mart milli qırğınından bəhs edilir. Hadisələrin bilavasitə şahidi olmuş müəllif gördüklərini real surətdə qələmə almışdır.

«Ədirnə fəthi», «Trablis müharibəsi» və «Bakı müharibəsi» dramları həmin dövrdə dövlət teatrında tamaşaya qoyulmuşdur.

C. Cabbarlı ölkənin ictimai həyatında yaxından iştirak edirdi. O, Respublika Gənclər hərəkatına rəhbərlik etmiş, Azərbaycan parlamentində stenoqraf işləmişdir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında realizmlə yanaşı, romantizm meydana gəlib inkişaf edirdi. Bu ədəbi cərəyanı H. Cavid, M. Hadi, A. Səhhət, A. Şaiq və digər görkəmli sənətkarlar təmsil edirdi.

**Hüseyn Cavid** (Rasizadə) (1882-1941-ci illər) romantik poeziyanın ən görkəmli nümayəndəsi idi. Onun qələmindən 15-dən artıq səhnə əsəri və çoxlu lirik şer çıxmışdır. Öz əsərlərində Azərbaycan mühitinin reallıqlarını - geri qalmış dəb adətləri, köhnəliklə yeniliyin mübarizəsini, çarizmin zülmünü, ədalətsizliyi və sairi romantik boyalarla əks etdirirdi.

Türkiyədə təhsil alan H. Cavidin ictimai-ədəbi görüşlərinə osmanizmin güclü təsiri olmuşdur. O, «Topal Teymur» pyesinin finalında türk xalqlarını birliyə çağırırdı.

Azərbaycan Demokratik Respublikasının yaranmasını alqışlayan vətənpərvər şair bu gənc dövlətin varlığı üçün ciddi təhlükəni qabaqcadan hiss

edirdi. Həmin dövrdə yazdığı «İblis» və «Afət» pyeslərində Respublikanı təhdid edən qara qüvvələr İblis və Qaratayın obrazlarında verilmişdir. İblis və Qaratay hər cür çirkin əməllərə əl ataraq, özlərinin alçaq niyyətlərinə nail olurlar.

Azərbaycan şerinin inkişafında **Abbas Səhhət** (Mehdizadə) (1874-1918-ci illər) mühüm rol oynamışdır. O, əsərlərində vətənə məhəbbət tərənnüm etmiş, ictimai bərabərsizliyi qamçılamışdır.

Əslən romantik şair olan A. Səhhət çoxlu realist səpkili şer yazmışdı. «Əhmədin qeyrəti» poeması, «Cəhalət səmərəsi» pyesi, «Yay səhəri» şeri bu qəbildəndir.

A. Səhhət uşaq ədəbiyyatının görkəmli nümayəndəsi idi. Onun kiçik yaşlı uşaqlar üçün yazdığı lirik şerlər, nəğmə, təmsil və alleqorik şerlər bu gün də sevilə-sevilə oxunur. O, gözəl tərcüməçi idi. Şairin sağlığında onun ikicildlik bədii tərcümələr məcmuəsi və şerlər kitabı nəşr edilmişdir.

XX əsrin əvvəllərində şifahi xalq ədəbiyyatının bir sıra uğurları vardı. Aşıqlardan tovuzlu Xəyyam Mirzə, kəlbəcərli Nəbi, Göyçəli Məmməd «Nağı», «Dilsuz və Xəzəngül», «Gürcü qızı» dastanlarını yaratmışdılar.

Bu dövrdə Azərbaycan uşaq ədəbiyyatı inkişaf edirdi. M. Ə. Sabir, C. Məmmədquluzadə, A. Səhhət, A. Şaiq, S. S. Axundov uşaqlar üçün bir sıra yeni əsərlər yazdılar. Bu əsərlər gənc nəsildə doğma vətənə, təbiətə və xalqa məhəbbət tərbiyə edirdi.

Azərbaycanda bədii fikrin inkişafında «Yaşıl qələm» ədəbi cəmiyyətinin böyük rolu olmuşdur. Bu cəmiyyət 1919-cu ilin avqustunda təsis edilmişdir.

Cəmiyyətin məqsədi milli tarixə və milli ənənələrə dair əsərləri toplayıb nəşr etdirməkdən, gənc yaradıcı qüvvələri yeni bədii üsullarla tanış etməkdən, itib-batmış türk lüğətlərini toplamaqdan, əcnəbi dillərdə yazılmış əsərləri Azərbaycan dilinə çevirməkdən, elmi-nəzəri mövzularda məruzələr təşkil etməkdən və s. ibarət idi.

Az vaxt içərisində «Yaşıl qələm»in üzvlərinin sayı 80 nəfərə çatdı. Onların sırasında görkəmli yazıçılar, şair və publisistlərlə yanaşı, bəzi dövlət xadimləri, o cümlədən parlament sədrinin müavini Həsən bəy Ağayev, parlamentin deputatı Əhməd bəy Pepinov və başqaları vardı.

**Teatr:** XX əsrin əvvəllərində Azərbaycan teatrı böyük çətinliklərə baxmayaraq, inkişaf edirdi. Teatr başlıca olaraq, həvəskar artistlərin qüvvəsinə arxalanırdı.

XX əsrin ilk illərində Bakıda «Müsəlman artistləri cəmiyyəti» təşkil edildi. Az sonra «Nicat», «Səfa», «Nəşr maarif» və digər mədəni-maarif cəmiyyətlərinin nəzdində teatr truppaları yaradıldı. Bunların içərisində görkəmli teatr xadimi Cahangir Zeynalovun rəhbərlik etdiyi «Səfa» cəmiyyəti truppası xüsusilə fərqlənirdi.

Bakının neft rayonlarında dram dərnəkləri yaradılırdı. «Balaxanı müsəlman dram dərnəyi»nin rəhbəri məşhur rejissor və artist Hüseyn Ərəblinski idi. Dərnək ilyarım ərzində 140 tamaşa vermişdi.

Azərbaycan milli teatrının inkişafında Cahangir Zeynalov (1865-1918-ci illər), H. Ərəblinski (1881-1919-cu illər), Mirzağa Əliyev (1883-1954-cü illər), Hüseynqulu Sarabski (1879-1945-ci illər), Sidqi Ruhulla (1886-1959-cu illər), Mir Mahmud Kazımovski (1882-1940-cı illər) xüsusi rol oynamışlar.

**Hüseyn Ərəblinski** «Bəxtsiz cavan» pyesində Fərhad, «Müsibəti Fəxrəddin»də Fəxrəddin, «Otello»-da Otello, «Qaçaqlar»da Frans və digər rolları məharətlə ifa etmişdir. 1916-cı ildə o, C. Məmmədquluzadənin «Ölülər» komediyasını tamaşaya qoymuşdur. Həmin ildə Ərəblinski «Neft və milyonlar səltənəti» adlı ilk Azərbaycan filmində Lütfəli bəy rolunu oynadı. O, kinoda çıxış edən ilk azərbaycanlı artist idi.

Teatrlarda, əsasən, Azərbaycan dramaturqlarının pyesləri tamaşaya qoyulurdu. Rus və Qərbi Avropa klassiklərinin də əsərlərinə müraciət olunurdu. N. V. Qoqolun «Müfəttiş» və «Evlənmə», L. Tolstoyun «İlk araqçəkən», İ. S. Turgenevin «Pulsuzluq», V. Şekspirin «Otello», Şillerin «Qaçaqlar», H. Heynenin «Almanzor», həmçinin türk dramaturqlarından Namiq Kamalın «Qara bəla», Şəmsəddin Sami bəyin «Gaveyi-ahəng» və başqaları tamaşaya qoyulmuşdu.

Azərbaycanın bəzi qəza şəhərlərində yerli teatr həvəskarlarının qüvvəsi ilə tamaşalar göstərilirdi.

Yelizavetpol «Müsəlman xeyriyyə cəmiyyəti» və «Müsəlmanlar içərisində maarifi yayan cəmiyyət»in nəzdindəki teatr truppaları tərəfindən bir sıra pyeslər tamaşaya qoyulmuşdu. Nuxada yerli gənclərin qüvvəsi ilə teatr tamaşaları göstərildi. Bakıdan dəvət olunmuş artistlərin iştirakı ilə Lənkəranda bir neçə pyes tamaşaya qoyuldu.

1917-ci ildə Naxçıvanda «El güzgüsü» adlı teatr cəmiyyəti yaradıldı. Naxçıvanda teatr sənətinin inkişafında Rza Təhmasib və Əliqulu Qəmküsarın böyük zəhmətləri olmuşdur.

Azərbaycan aktyorlarından ibarət teatr truppaları Rusiyanın, Zaqafqaziya və Orta Asiyanın bir sıra şəhərlərinə tez-tez qastrollara gedirdilər.

Azərbaycan teatrı ciddi çətinliklərlə qarşılaşırdı. İlk növbədə, rəsmi dövlət teatrı və tamaşa göstərmək üçün daimi teatr binası yox idi. Cəmi iki xüsusi teatr binası vardı ki, onlardan biri H. Z. Tağıyevə, digəri isə Mayilov qardaşlarına məxsus idi. Tamaşa üçün bina tapmaq, həmçinin bu tamaşanın göstərilməsinə polisdən icazə almaq asan iş deyildi. O zaman Azərbaycan qadınlarının səhnəyə çıxmasına icazə verilmədiyinə görə, qadın rollarını kişi artistləri oynayırdılar. 1912-ci ildə ilk Azərbaycanlı qadın artistlərindən biri olan Şövkət Məmmədova belə bir işə risk etdikdə, cəhalətpərəstlərin ciddi müqaviməti ilə rastlaşdı.

Azərbaycan Demokratik Respublikası yarandıqdan sonra Mayılov qardaşlarının teatrı Maarif nazirliyinin tabeliyinə verildi.

**Musiqi:** XX əsrin əvvəllərində Azərbaycan əhalisinin musiqiyə marağı durmadan artırdı.

Bu dövrdə milli musiqi nümunələrinin – nəğmə və muğamların toplanması və təbliği sahəsində bir sıra addımlar atıldı. 1901-ci ildə Həsən bəy Zərdabinin «Türk (Azərbaycan - T. Ə.) nəğmələri məcmuəsi», 1910-cu ildə müəllim C. Bünyadzadənin «Kəşkül» adlı nəğmələr məcmuəsi, 1912-ci ildə milli musiqinin mükəmməl bilicisi M. M. Nəvvabın muğamlara həsr etdiyi «Vizuhül-ərqam» kitabı nəşr olundu.

Bakıda, Şuşada və Azərbaycanın digər şəhərlərində xalq musiqisindən ibarət tez-tez konsertlər təşkil edilirdi. Belə konsertlərin təşkilində yazıçı Ə. Haqverdiyevin böyük xidmətləri olmuşdur. 1901 - 1902-ci illərdə Şuşada və Bakıda onun təşəbbüsü və rəhbərliyi ilə bir sıra konsertlər verilmişdi. Bu konsertlər zamanı Ə. Haqverdiyev, müxtəlif musiqi nömrələri ilə yanaşı, «kostyumlu duet»in ifasında Füzulinin «Leyli və Məcnun» poemasından parçalar da səsləndirmişdir.

Şuşa şəhəri Azərbaycan musiqi mədəniyyətinin başlıca mərkəzlərindən idi. Qafqaz xalqlarının musiqisinə yaxından bələd olan V. D. Korqanov yayırdı ki, «Zaqafqaziya üçün çalğıçı və xanəndələri gözəl şer, musiqi və mahnılar vətəni olan Şuşa şəhəri verirdi; bütün Zaqafqaziya üçün bir konservatoriya rolunu oynamış olan bu şəhərdən hər mövsümdə və hətta hər ay Zaqafqaziyaya yeni mahnılar və təzə motivlər gəlirdi».

XX əsrin əvvəllərində Şuşada Hacı Hüsü, Cabbar Qaryağdı, İslam Abdullayev, Əbdulbağı Zülalov, Məmməd Fərzəliyev, Məcid Behbudov, Keçəçi Məmməd kimi görkəmli xadimlərin böyük bir dəstəsi fəaliyyət göstərirdi. Bakı xanəndələrindən Əla Palaz oğlu, Ağa Vəli oğlu, Kərim Hacı Zeynal oğlu, Seyid Mirzə Babayev və başqaları, həmçinin şamaxılı Mahmud Ağa, nuxalı Ələsgər Abdullayev, Salyanlı Şirin Axundov məşhur idilər.

Bu dövrdə rus və Avropa opera sənəti xadimləri tez-tez Bakıya qastrola gəlirdilər. Onların konsertləri və göstərdiyi tamaşalar Azərbaycanda dünya musiqi mədəniyyətinin yayılmasına güclü təsir göstərirdi.

Azərbaycan musiqisinin inkişafında və təbliğində Üzeyir Hacıbəyov (1885-1948-ci illər), Müslüm Maqomayev (1885-1937-ci illər), Zülfüqar Hacıbəyov (1884-1950-ci illər), Hüseynqulu Sarabski (1879-1945-ci illər), Qurban Pirimov (1880-1965-ci illər) görkəmli rol oynamışlar.

1908-ci ildə Ü. Hacıbəyov «Leyli və Məcnun» operası ilə milli opera sənətinin əsasını qoydu. Həmin il yanvarın 12-də, H. Z. Tağıyevin teatrında «Leyli və Məcnun» operasının ilk tamaşası göstərildi. Operanın rejissoru H. Ərəblinski, şərq çalğı alətləri orkestrinin rəhbəri Q. Pirimov, Məcnun rolunun ifaçısı H. Sarabski, Leyli rolunun ifaçısı Ə. Fərəcov idi. Az vaxt içərisində «Leyli və Məcnun» o qədər populyarlaşdı ki, hətta adamlar öz aralarında operadan «söylə görək» və başqa parçaları sevə-sevə oxuyurdular.

Sonrakı illərdə Ü. Hacıbəyov bir-birinin ardınca «Şeyx Sənan», «Rüstəm və Zöhrab», «Əsli və Kərəm», «Şah Abbas və Xurşud Banu», «Harun və Leyla» və başqa operalar yaratdı.

1909-cu ildə onun «Ər və arvad» operettası tamaşaya qoyuldu. Bununla, Azərbaycanda musiqili komediya sahəsində ilk addım atıldı. Həmin il «O olmasın, bu olsun» yaxud «Məşədi İbad», 1913-cü ildə isə məşhur «Arşın mal alan» musiqili komediyasını bəstələdi.

Müstəqil Azərbaycan Respublikası himninın və «Azərbaycan marşı»nın musiqisini Ü. Hacıbəyov yazmışdır.

Ü. Hacıbəyovun çoxşaxəli yaradıçılığı Azərbaycan peşəkar musiqi sənətinin inkişafına, bəstəkarların və ifaçıların bütöv bir nəslinin yetişməsinə təkan verdi.

Zülfüqar Hacıbəyov «Evlikən subay», «Əlli yaşında cavan», «Varlı» musiqili komediyalarını yaratdı. 1916-cı ildə onun «Aşıq Qərib» operası tamaşaya qoyuldu.

1916-cı ildə Müslüm Maqomayev məşhur «Şah İsmayıl» operasını yazdı.

**Təsviri incəsənət:** Mətbuatın və teatr sənətinin inkişafı təsviri incəsənətin yüksəlməsinə şərait yaratdı.

XX əsrin əvvəllərində Bakıda, Şuşada və başqa şəhərlərdə ara-sıra rəssamlıq sərgiləri təşkil olunurdu. Bu sərgilərdə rus və Qərbi Avropa klassiklərinin rəsm əsərləri nümayiş etdirilirdi.

Azərbaycan təsviri incəsənətinin ən çox satirik qrafika sahəsi inkişaf edirdi. Bu janrın görkəmli nümayəndəsi Əzim Əzimzadə (1880-1943-cü illər) idi. O, özünün satirik rəsmləri və siyasi karikaturaları ilə düz 20 il «Molla Nəsrəddin» jurnalının səhifələrini bəzəmişdi. Realist rəssamın əsərlərində rus müstəmləkəçiləri, onların yerlərdəki əlaltıları, müftəxorlar, rüşvətxorlar mürtəce ruhanilər ifşa edilirdi. 1914-cü ildə M. Ə. Sabirin «Hophopnamə» kitabına çəkdiyi illüstrasiyalar onun yaradıcılığında mühüm yer tutur.

**Bəhruz Kəngərli** (1898-1922-ci illər) xüsusi rəssamlıq təhsili almış ilk azərbaycanlı rəssam idi. O, Tiflis rəssamlıq məktəbini bitirmişdi. Realist rəssamın fırçasından üç yüzdən artıq şəkil və karikatura çıxmışdı. Naxçıvanda qoyulmuş bütün teatr tamaşalarının tərtibatını B. Kəngərli vermişdi.

1913-cü ildə Bakı rəssamlıq cəmiyyəti tərəfindən təşkil edilmiş şəkil sərgisində Qafqaz rəssamlarının yüzdən artıq əsəri nümayiş etdirildi.

Bu sərginin Azərbaycan təsviri incəsənətinin inkişafı üçün böyük əhəmiyyəti oldu.

O zaman Azərbaycanda çoxlu rus rəssamı, memarı, heykəltəraşı və b. işləyirdi. Onların bir qismi artıq daimi olaraq Bakıda yaşayırdı. Rus rəssamları Bakıda rəssamlıq məktəbi açdılar.

**Memarlıq:** XX əsrin əvvəllərində Azərbaycanda memarlıq sənəti inkişaf edirdi. Bu, ölkənin şəhər həyatındakı ümumi yüksəlişlə əlaqədar idi.

Bakıda şəhərin mərkəzi hissəsində sənaye-ticarət şirkətləri üçün bir sıra yaraşıqlı binalar tikilirdi. Milyonçular özlərinə gözəl saraylar ucaldırdılar. Bu dövrdə inşa edilən möhtəşəm ictimai tikililərin arasında Xeyriyyə cəmiyyətinin yerləşdiyi İsmailiyyənin (1908-1913-cü illərdə tikilib, indi Azərbaycan Elmlər Akademiyasının binası), Mayılov qardaşları teatrının (1910-1911-ci illərdə tikilib, indi Q. Qarayev adına Dövlət Akademik Opera və Balet Teatrı) binaları, Təzə pir məscidi (1905-1908-ci illərdə tikilib) və başqaları vardı.

Binalar yerli və Rusiyadan gəlmiş memarlar tərəfindən tikilirdi. Tikintidə əsasən modern üslubundan istifadə olunurdu. Bununla belə, mavritan, qotik, Roma və başqa üslubları təqlid edən binalara da tez-tez təsadüf edilirdi. Bakıda dövlətlilərin binaları gözəl naxışlar, barelyeflər və bağdatılarla bəzədilirdi.

Yelizavetpol, Nuxa, Quba, Şamaxı və digər qəza şəhərlərində yeni binalar tikilirdi. Bunlar, əsasən, inzibati-idarə və tək-tək tikilən məktəb binalarından ibarət olub, sayca çox deyildi. Yeni tikililər şəhərlərin memarlıq görkəmini xeyli dəyişdirirdi.

## XRONOLOGİYA

1823-1924 Hacı Zeynalabdin Tağıyev.
1841-1913 Şəmsi Əsədullayev.
1842 – 1919 Musa Nağıyev.
1855-1920 Murtuza Muxtarov.
1856-1931 Səmədbəy Mehmandarov.
1862-1911 Mirzə Ələkbər Sabir (Tahirzadə).
1862-1934 Əlimərdan bəy Topçubaşov.
1863-1919 Hüseyn xan Naxçıvanski.
1863-1920 Firudin bəy Köçərli.
1863-194 2 Rəşid bəy Əfəndiyev.
1863-194 3 Əliağa Şıxlinski.
1864-1940 Əli bəy Hüseynzadə.
1865-1918 Cahangir Zeynalov.
1867-1920 İsmayıl xan Ziyadxanov.
1869-1932 Cəlil Məmmədquluzadə.
1869-1949 Əhməd bəy Ağayev (Ağaoğlu).
1870-1925 Nəriman Nərimanov.
1870-1933 Əbdürrəhim bəy Haqverdiyev.
1870-1955 Adil xan Ziyadxanov.
1872-1950 Məmməd Səid Ordubadi.
1874-1918 Abbas Səhhət (Mehdizadə).
1874-1953 Qara bəy Qarabəyov.
1875-1920 Fətəli xan Xoyski.
1875-1931 Məmmədhəsən Hacınski.
1875-1947 Xəlil bəy Xasməmmədov.
1876-1918 Məşədi Əzizbəyov.
1878-1920 Xudadat bəy Rəfibəyov.
1879-1941 Xosrov bəy Sultanov.
1880-1943 Əzim Əzimzadə.
1881-1919 Hüseyn Ərəblinski (Xələfov).
1881-1920 Nəsib bəy Yusifbəyli.
1881- 1959 Abdulla Şaiq (Talıbzadə).
1882-1941 Hüseyn Cavid (Rasizadə).
1884-1955 Məmməd Əmin Rəsulzadə.
1885-1937 Müslüm Maqomayev.
1885-1938 Məmməd Yusif Cəfərov.
1885-194 8 Üzeyir Hacıbəyov.
1887-1919 Qatır Məmməd.

1891-1937 Əhməd Cavad.
1897-1901 Bakıda H. Z. Tağıyevin toxuculuq fabrikinin tikilməsi.
1897-1907 Bakı-Batum neft kəmərinin çəkilməsi.
1898-1922 Bəhruz Kəngərli.
1899-1934 Cəfər Cabbarlı.
1900-1903 Rusiyada sənaye böhranı.
1901, yaz RSDFP Bakı komitəsinin yaradılması.
1901, sentyabr Bakıda gizli «Nina» mətbəəsinin təşkili.
1901 Kür çayı üzərində ilk suvuran stansiyanın qurulması.
1902 Gəncədə Azərbaycan ipəkçilərinin qurultayı.
1902 Ləkidə ilk çiyid yağı zavodunun işə düşməsi.
1903, 2 mart Bakıda siyasi tətil.
1903, mart RSDFP Qafqaz İttifaq komitəsinin yaradılması.
1903, 1-22 iyul Bakı fəhlələrinin ilk ümumi tətili.
1903 Yelizavetpol qəzasının Qarabulaq kəndində burcalıların çıxışı.
1903-1904 «Müsəlman artistləri cəmiyyəti»nin yaradılması.
1903-1905 Tiflisdə Azərbaycan dilində «Şərqi-Rus» qəzetinin nəşri.
1904, 13-31 dekabr Bakı fəhlələrinin ümumi tətili. İlk müştərək müqavilə bağlanması.
1904 Ağdaşda pambıqçıların I qurultayı.
1904, axırları Sosial-demokrat «Hümmət» qrupunun yaradılması.
1904-1905 Rus-yapon müharibəsi.
1905, 9 yanvar «Qanlı bazar». Birinci rus inqilabının başlanması.
1806, 6-9 fevral Bakıda erməni-müsəlman qırğını.
1905, 15 fevral Bakının müvəqqəti general-qubernatoru vəzifəsinin təsis edilməsi.
1905, 26 fevral Qafqaz canişinliyinin bərpa edilməsi.
1905, 1-12 aprel Zaqafqaziya dəmiryolçularının ümumi siyasi tətili.
1905, may Naxçıvanda erməni-müsəlman qırğını.
1905, 10-19 may Bakı fəhlələrinin ümumi siyasi tətili.
1905, iyun Azərbaycanda ana dilində ilk qəzet olan «Həyat»ın nəşri.
1905, yay «Qeyrət» partiyasının təşkili.
190 5, 15 avqust Nijni-Novqorodda I Ümumrusiya müsəlman qurultayı. «İttifaqi-müslimin» təşkilatının yaradılması.
1905, 16 avqust Bakı fəhlələrinin ümumi tətili.
1905, 16-21 avqust Şuşada erməni-müsəlman qırğını.
1905, 20-26 avqust Bakıda ikinci erməni-müsəlman qırğını.
1905, 15-29 oktyabr Zaqafqaziya dəmiryolçularının tətili.
1905, 17 oktyabr Dövlət dumasının çağırılması və «konstitusiya azadlıqları» haqqında çar manifesti.
1905, 18-24 noyabr Gəncədə erməni-müsəlman qırğını.

1905, 20-29 noyabr Tiflisdə erməni-müsəlman qırğını.
1905, 25 noyabr Bakı şəhəri fəhlə deputatları Sovetinin yaradılması.
1905, 26-29 noyabr Naxçıvanda ikinci erməni-müsəlman qırğını.
1905, 29 noyabr-1906, əvvəlləri Qazaxda erməni-müsəlman qırğını.
1905, 10-26 dekabr Zaqafqaziya Dəmiryolçularının ümumi siyasi tətili.
1905, axırları «Difahi» partiyasının təşkili.
1905, axırları «Müdafiə» partiyasının təşkili.
1905, dekabr Kadetlər partiyasının Bakı şöbəsinin yaradılması.
1905-1917 «Cəmiyyəti xeyriyyə».
1906, 13-23 yanvar Ümumrusiya Müsəlmanlar İttifaqının Peterburqda keçirilən II qurultayı.
1906, 12 fevral Bakı texniki məktəbi tələbələrinin tətili.
1906, 23 fevral Bakı fəhlə deputatları Sovetinin qovulması.
1906, fevralın axırları Erməni-müsəlman münaqişəsi ilə əlaqədar olaraq Tiflis sülh məclisi.
1906, 7 aprel-fasilələrlə - 1917, dekabr «Molla Nəsrəddin» ədəbi-satirik və ictimai-siyasi jurnalının nəşri.
1906, 27 aprel-9 iyul I Dövlət duması.
1906, 12-18 iyun Şuşada ikinci erməni-müsəlman qırğını.
1906, avqust Azərbaycan müəllimlərinin I qurultayı.
1906, 24 sentyabr «Neft sənaye fəhlələri İttifaqı»nın yaradılması.
1906, 28 sentyabr Bakı qradonaçalnikliyinin təsis edilməsi.
1906 «Qafqaz yağ zavodu» səhmdar cəmiyyətinin təsis edilməsi.
1906 Bakının Keşlə kəndi yaxınlığında Zaqafqaziyada ilk sement zavodunun işə düşməsi.
1906-1907 «Füyuzat» jurnalının nəşri.
1906-1917 «Nicat» cəmiyyəti.
1906-1917 «Nəşr maarif» cəmiyyəti.
1907, 20 fevral- 3 iyun II Dövlət duması.
1907, 10 mart- 25 aprel Xəzər ticarət donanması dənizçilərinin ümumi tətili.
1907, avqust Azərbaycan müəllimlərinin II qurultayı.
1907, sentyabr-oktyabr Bakı və Yelizavetpol quberniyalarında III Dövlət dumasına seçkilər.
1907, sentyabr - 1908, may Fəhlələrin neft sahibkarları ilə müşavirəsi ətrafında kampaniya.
1907 Bakıda ictimai avtomobil nəqliyyatının işə düşməsi.
1907 Gədəbəy mis zavodunun da daxil olduğu Rus «Mis» sindikatının təşkili.
1907 «Mədrəseyi-səadət» adlı yeni tipli məktəbin açılması.
1907, 1 noyabr III Dövlət dumasının açılışı.
1907-1911 Muğan və Mil düzlərində 500 km uzunluğunda magistral və qol kanallarının çəkilməsi.

1908, 2 yanvar Uluxanlı ilə Culfa arasında dəmir yol xətti çəkilməsinə başlanması.
1908, 12 yanvar Bakıda Ü. Hacıbəyovun «Leyli və Məcnun» operasının tamaşaya qoyulması. Azərbaycan opera sənətinin meydana gəlməsi.
1909 Ü. Hacıbəyovun «Ər və arvad» adlı ilk Azərbaycan operettasının tamaşaya qoyulması.
1909-1911 Bakıda dənizkənarı parkın (bulvar) salınması.
1910 Quba qəzasında telefon xətti çəkilməsi.
1910-1917 «Səfa» maarif cəmiyyəti.
1911, 11 oktyabr «Müsəlman demokrat «Müsavat» partiyası»nın yaradılması.
1911-1916 Şollar-Bakı su kəmərinin çəkilişi.
1912 Bakıda ilk radiostansiyanın işə düşməsi.
1912, aprel Şollar-Bakı su kəməri inşaatçılarının tətili.
1912, 17 iyun «Xəzinəyə məxsus neftli torpaqların müqavilə üzrə icarəyə verilməsi haqqında qaydalar»ın qəbul edilməsi.
1912, 11 sentyabr Nuxa ipəkçilərinin ümumi tətili.
1912 Ali ibtidai məktəblərin təşkilinə başlanması.
1912 «Qafqaz pambığı» səhmdar cəmiyyətinin təsis edilməsi.
1912 «Rusiya baş neft korporasiyası»nın («Oyl») yaradılması.
1912 Bakı-Gəncə-Tiflis şəhərlərarası telefon rabitəsinin yaradılması.
1912 Ağstafa və Cəfərxan təcrübə stansiyalarının təşkili.
1912 Lənkəran, Qazax, Nuxa, Yelizavetpol, Şamaxı, Cavanşir, Bakı qəzalarında kəndlilərin çıxışları.
1912, 20 dekabr Tiflis, Kutais, Erivan, Yelizavetpol və Bakı quberniyalarında hökumətin köməyi ilə torpaqların alınıb mülkiyyətə keçirilməsi yolu ilə kəndlilərin mülkədarlara və torpaq sahibkarlarına olan müvəqqəti-icbari və asılı münasibətlərinin ləğv edilməsi haqqında qanun».
1913 «Rıbak» balıq sənayesi və ticarəti cəmiyyəti»nin təsis edilməsi.
1913, 7 iyul «Dağıstan vilayəti və Zaqatala mahalı kəndlilərinin bəylərə, torpaq sahibkarlarına olan asılı münasibətlərinin ləğv edilməsi və həmin yerlərdə kəndli işlərinə dair qaydalar qoyulması haqqında qanun».
1913, 27 iyul-17 sentyabr Bakı fəhlələrinin ümumi tətili.
1913, 25 oktyabr Ü. Hacıbəyovun «Arşın mal alan» operettasının ilk tamaşası.
1914, yanvar «H. Z. Tağıyevin birləşmiş fabriklərinin kontoru»nun təsis edilməsi.
1914, aprel H. Z. Tağıyev və M. Nağıyev tərəfindən ilk milli bank yaradılması.
1914, 28 may-iyun Bakı fəhlələrinin ümumi tətili.
1914 Tovuzda sement zavodunun işə düşməsi.
1914 Yelizavetpolda müəllimlər seminariyası açılması.
1914-1918 Birinci dünya müharibəsi.
1915, 8-20 aprel Nuxada ipəksarıma fabrikləri fəhlələrinin tətili.
1915, aprel Qarsda erməni-türk qırğını.

1915, iyun Mərkəzi hərbi—sənaye Komitəsinin Bakı hərbi-sənaye komitəsi (BHSK) yaradılması.
1915, avqust «Yanacaq üzrə xüsusi Müşavirə»nin (Osotop) yaradılması.
1915, 2 oktyabr «Açıq söz» qəzetinin nəşrinə başlanması.
1916, 14-16 fevral Bakının zəhmətkeş əhalisinin ərzaq qıtlığı və bahalıqla əlaqədar olaraq kortəbii çıxışları.
1916 Zülfüqar Hacıbəyovun «Aşıq Qərib» operasının tamaşaya qoyulması.
1916 M. Maqomayevin «Şah İsmayıl» operasının tamaşaya qoyulması.
1916 «Neft və milyonlar səltənətində» adlı ilk Azərbaycan filminin yaradılması.
1916 Neftin proliz üsulu ilə emalına başlanması.
1916 «Kaspi-Tağıyev balıq sənayesi cəmiyyəti»nin təsis edilməsi.
1917, yanvar Bakı fəhlələrinin siyasi tətili.
1917, 27 fevral Fevral burjua-demokratik inqilabının qələbəsi. Mütləqiyyətin devrilməsi.
1917, 6 mart Bakı fəhlə deputatları Sovetinin təşkili.
1917, 9 mart Xüsusi Zaqafqaziya Komitəsinin yaradılması.
1917, 29 mart «Müsəlman Milli Şurası»nın yaradılması.
1917, 15-20 aprel Bakıda Qafqaz müsəlmanlarının qurultayı.
1917, 1-11 may Moskvada Ümumrusiya müsəlmanlarının qurultayı.
1917, iyun Müsəlman demokratik «Müxavat» partiyası» ilə «Türk ədəmi-mərkəziyyət partiyası»nın «Türk ədəmi-mərkəziyyət partiyası «Müsavat» adı altında birləşməsi.
1917, sentyabr «İttihad» («Rusiyada müsəlmanlıq») partiyasının yaradılması.
1917, 27 sentyabr-2 oktyabr Bakıda ümumi tətil.
1917, 26-31 oktyabr Bakıda «Müsavat» partiyasının I qurultayı.
1917, 2 noyabr Bakı Soveti İcraiyyə Komitəsinin Bakı şəhəri və Bakı rayonunda ali hakimiyyət orqanı elan edilməsi.
1917, 9-12 noyabr Bakıda Zaqafqaziya müsəlmanlarının konfransı.
1917, 15 noyabr Zaqafqaziya komissarlığının elan edilməsi.
1917 Naxçıvanda «El güzgüsü» teatr cəmiyyəti yaradılması.
1917, 16 dekabr Zaqafqaziya komissarlığı tərəfindən «Dövlət, keçmiş xanədan, kilsə, monastır, hüquqi şəxslər və xüsusi sahibkarlar torpaqlarının torpaq komitələrinə verilməsi haqqında» qanun qəbul edilməsi.
1917, 16 dekabr Sovet Rusiyası tərəfindən S. Şaumyanın Qafqaz işləri üzrə müvəqqəti fövqəlada komissar təyin edilməsi.
1918, 23 fevral Zaqafqaziya seyminin yaradılması.
1918, 30 mart-1 aprel Bakıda erməni-müsəlman qırğını.
1918, 17-18 aprel Şamaxıda müsəlman əhalisinə qarşı bolşevik-erməni terroru.
1918, 22 aprel Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradılması.
1918, 23 aprel Qubada müsəlman əhalisinə qarşı bolşevik-erməni terroru.
1918, 25 aprel Bakı quberniya Xalq Komissarları Sovetinin təşkili.

1918, 28 may Azərbaycan Demokratik Respublikasının yaradılması.
1918, 4 iyun Batumda Türkiyə ilə Azərbaycan Demokratik Respublikası arasında sülh və dostluq haqqında müqavilə bağlanması.
1918, 16 iyun Azərbaycan Demokratik Respublikası hökümətinın Tiflisdən Gəncəyə köçürülməsi.
1918, 27 iyun Azərbaycan türkcəsinin dövlət dili elan edilməsi.
1918, iyunun axırı Zaqatala quberniyasının təşkili.
1918, 31 iyul Bakıda Sovet hakimiyyətinin süqutu.
1918, yay «Azərbaycan» qəzetinin nəşri
1920, aprel, 1918, avqust Xalq maarifinin milliləşdirilməsi haqqında qanun qəbul edilməsi.
1918, 15 sentyabr Bakının ingilislərdən və sentrokaspiçilərdən azad edilməsi.
1918, 17 sentyabr Azərbaycan Demokratik Respublikası hökumətinin Gəncədən Bakıya köçürülməsi.
1918, 30 oktyabr Mudros sülhü. Türk qoşunlarının Zaqafqaziyanı tərk etməsi.
1918, noyabr Qori müəllimlər seminariyası Azərbaycan şöbəsinin Qazağa köçürülüb, müstəqil seminariya kimi fəaliyyətə başlaması.
1918, noyabr-1919, aprel Araz respublikası (dekabrdan sonra Cənubi-Qərbi Qafqaz Demokratik Respublikasının tərkibində).
1918, axırları «Əhrar» partiyasının yaradılması.
1918, 7 dekabr İlk Azərbaycan parlamentinin açılışı.
1918, 15 dekabr Bakı Mərkəzi Fəhlə konfransının yaradılması.
1918, 26 dekabr F. Xoyskinin başçılığı ilə hökumət kabinetinin təşkili
1919, yanvar Qarabağ general-qubernatorluğunun təşkil edilməsi.
1919, yanvar-1920, yanvar Beynəlxalq Paris sülh konfransı.
1919, əvvəli-1920, aprel «İstiqlal» qəzetinin nəşri.
1919, mart Ərəb əlifbasından latın əlifbasına keçmək üçün parlament komissiyasının yaradılması.
1919, 14 aprel-1920,1 aprel N. Yusifbəylinin başçılığı ilə hökumət kabineti.
1919, 27 iyun Azərbaycan və Gürcüctan Respublikaları arasında hərbi müdafiə paktı imzalanması.
1919, avqust «Yaşıl qələm» ədəbi cəmiyyətinin təsis edilməsi.
1919, 11 avqust «Azərbaycan vətəndaşlığı haqqında Qanun»un qəbul edilməsi.
1919, 1 sentyabr Bakı Dövlət Universitetinin təsis edilməsi.
1919, 25 sentyabr Qazaxda I kəndli qurultayı.
1919, 1 oktyabr Dağlıq Qarabağın erməni məktəbləri üzrə xüsusi müfəttişlik yaradılması.
1919, oktyabr Naxçıvan general-qubernatorluğunun yaradılması.
1919, 2-11 dekabr Bakıda «Müsavat» partiyasının II qurultayı.
1919, dekabr Bakıda «Müsəlman Şərqini öyrənən cəmiyyət» təsis edilməsi.
1920, əvvəlləri Maarif nazirliyi nəzdində arxeologiya şöbəsi təşkil edilməsi.

1920, 11 yanvar Azərbaycan Demokratik Respublikası müstəqilliyinin iri dövlətlər tərəfindən de-fakto tanınması.
1920, 2 və 23 yanvar, 20 fevral Sovet Rusiyasının Azərbaycan Respublikası hökumətinə notaları.
1920,11-12 fevral Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının yaradılması.
1920, 20 mart-26 aprel Qarabağda erməni-daşnak qüvvələri ilə müharibə.
1920, 1-22 aprel M. H. Hacınskinin başçılığı ilə yeni hökumət təşkilinə cəhdlər.
1920, 11 aprel Azərbaycan Demokratik Respublikasının süqutu.
1920, 28 aprel Azərbaycan Sovet Sosialist Respublikasının elan edilməsi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan tarixi. Üç cilddə. 2-ci və 3-cü cildlər. Bakı. "Elm" nəşriyyatı, 1964, 1973.
Məmməd Əmin Rəsulzadə. "Əsrimizin Səyavuşu", "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi". Bakı, Gənclik, 1991.
М. А. ИСМАИЛОВ. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX вв. Баку, изд. АН Азерб. ССР, 1964.
М. А. ИСМАИЛОВ. Промышленность Баку в начале XX века. Баку, изд. «Елм», 1976.
МАХМУД ИСМАИЛОВ. Социально-экономическая структура-Азербайджана в эпоху империализма. Баку, изд. «Елм», 1982.
А. С. СУМБАТЗАДЕ. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. Москва, изд. «Наука», 1972.
С. С. АЛИЯРОВ. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку, изд. АГУ, 1974.
Ə. Şıxlinski. Xatirələrim. Bakı. Azərnəşr. 1984.
М. Дж. ИБРАГИМОВ. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, изд. «Елм», 1984.
М. Дж. ИБРАГИМОВ. Предпринимательская деятельность Г. З. Тагиева. Баку, Азернешр, 1990.
Д. Б. СЕИДЗАДЕ. Из истории Азербайджанской буржуазии в начале XX века. Баку, изд. «Елм», 1978.
Д. Б. СЕИДЗАДЕ. Азербайджанские депутаты в Государственной Думе России. Баку, Азерб. гос. изд., 1991.
T. T. Vəliyev. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı. Bakı, "Elm". 1987.
УМАЕВ АЛИ-ОВСАД АБУЗАР ОГЛЫ. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX - начале XX в. (1879—1914 гг.). Баку, 1987. (Автореферат док. ист. наук).

Bakı Dövlət Darülfünunun təsisi. Uçrejdenie Bakinskoqo Qosudarstvennoqo Universiteta. Bakı, Azərb. Univer. Nəşriyyatı, 1989.
Didərginlər. Bakı, Gənclik, 1990.
Azərbaycan Demokratik Respublikası. Azərbaycan höküməti 1918-1920. Bakı, Gənclik, 1990.
NƏSİB NƏSİBZADƏ. Azərbaycan Demokratik Respublikası. Bakı, Elm, 1990.
AYDIN BALAEV. Azerbaidjanskoe naçionalıno-demokratiçeskoe dvijenie 1917-1920 qq. Baku, izd. «Elm», 1990.
M. S. ORDUBADİ. Qanlı illər. Bakı, Qarabağa Xalq Yardımı Komitəsi, 1991.
NƏSİMAN YAQUBLU. Məmməd Əmin Rəsulzadə. Bakı, Gənclik, 1991.
Azərbaycan Demokratik Respublikası. Bakı, Azərb. Dövlət Nəşriyyat-Poliqrafiya birliyi, 1992.
BƏXTİYAR NƏCƏFOV. Azərbaycan Demokratik Respublikası. Bakı, «Birlik», 1992.
MİR MÖHSÜN NƏVVAB. 1905-1906-cı illərdə erməni müsəlman davası. Bakı, «Azərbaycan» nəşriyyatı, 1993,
CƏMİL HƏSƏNOV. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər. Bakı, Azərb. Döv. Nəşr.,1993.
ŞƏMİSTAN NƏZİRLİ. Cümhuriyyət generalları. Bakı, Hərbi nəşriyyat, 1995.
Ayrı-ayrı jurnal və qəzet məqalələri.

## MÜNDƏRİCAT

Ön söz
**I fəsil**. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN İQTİSADİYYATI VƏ SOSİAL HƏYATI
§ 1. Sənaye
§ 2. Kənd təsərrüfatı
§ 3. Şəhərlər. Ticarət. Nəqliyyat. Rabitə
§ 4. Azərbaycan zəhmətkeşlərinin vəziyyəti

**II fəsil**. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT
§ 1. Azərbaycan xalqının milli oyanışı. Zəhmətkeşlərin kütləvi inqilabi mübarizəsinin başlanması. Azərbaycanlıların rus-yapon müharibəsində iştirakı.
§ 2. Milli-demokratik hərəkatın və inqilabi mübarizənin yüksəlməsi. Millətlərarası münaqişələr
§ 3. Milli hərəkatın və inqilabi mübarizənin zəifləməsi və yenidən yüksəlməyə başlaması. Azərbaycanlıların birinci dünya müharibəsində iştirakı
§ 4. Milli istiqlal hərəkatının başlanması və inkişafı. İnqilabi böhranın dərinləşməsi.

**III fəsil**. AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI
§ 1. Azərbaycan Zaqafqaziya seyminin tərkibində. Bakı quberniyasında Sovet hakimiyyəti qurulması
§ 2. Azərbaycan Demokratik Respublikasının yaranması. Bakıda Sovet hakimiyyətinin süqutu
§ 3. Dövlət quruculuğu
§ 4. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti
§ 5. İqtisadi-sosial vəziyyət. Azərbaycan Demokratik Respublikasının süqutu

**IV fəsil**. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ
§ 1. Maarif. Səhiyyə
§ 2. Elm. Mətbuat
§ 3. Ədəbiyyat. İncəsənət

Xronologiya
İstifadə olunmuş ədəbiyyat
Mündəricat






Бакыда Скоболев гардашларынын унүјүтмә дәјирманы
(1904 -чү ил).



Шәкилдә: көркәмли татар ичтиман-сијаси хадими Исмајыл бәј Гаспирински (1852-1914-чү илләр), Азәрбајчан мәтбуатынын баниси Һ.Зәрдаби (1842-1907-чи илләр) вә милли-демократик һәрәкатын лидери Ә.Топчубашов (1862-1934-чү илләр).



Нухада Тәрә Солтанын фабрики (1900 -чү ил).



**Һачы Зејналабдин Тағыјев**
(1823-1924-чү илләр).
Милли капиталын ән көркәмли нүмајәндәси, бөјүк месенат.

**Шәмси Әсәдуллајев**
(1841-1913-чү илләр).
Нефт сәнајесиндә милли буржуазијанын ән ири нүмајәндәси, хејријјәчи.



**Муса Нағыјев**
(1842-1919-чу илләр).
Ири сәнаје-тичарәт вә
банк капиталынын саһиби,
хејријјәчи.





**Муртуза Мухтаров**
(1855-1920-чи илләр).
Нефт сәнајесиндә подратла
газыма ишинин хејли
һиссәсини өз әлиндә
чәмләшдирмиш ири
капиталист, хејријјәчи.



**Əли бəј Һүсејнзадə**
(1864-1940-чы иллəр).
Азəрбајчан милли-азадлыг
һəрəкатынын идеологу.

**Əһмəд бəј Ағајев**
(1869-1949-чу иллəр).
Азəрбајчан милли-азадлыг
һəрəкатынын идеологу,
"Дифаи" партијасынын
башчысы.



**Сәмәд бәј Меһмандаров**
(1856-1931-чи илләр).
Порт-Артур гәһрәманы,
кенерал-мајор.





**Әлиаға Шыхлински**
(1863-1943-чү илләр).
Порт-Артур гәһрәманы,
полковник.

**Исмаjыл хан Зиjадханов**
(1867-1920-чи илләр).
"Мүдафиә" партиjасынын
башчысы, I Дөвләт
думасынын депутаты.





**Мәммәдһәсән Һачынски**
(1875-1931-чи илләр).
Исте`дадлы мүһәндис,
танынмыш ичтимаи-сиjаси
хадим.



**Мәммәд Әмин Рәсулзадә**
(1884-1955-чи илләр).
"Мүсават" партијасынын
лидери, Азәрбајчан Милли
Шурасынын сәдри.

**Әлимәрдан бәј
Топчубашов**
(1862-1934-чү илләр).
Азәрбајчан
парламентинин сәдри.



**Фәтәли хан Хојски**
(1875-1920-чи илләр).
Азәрбајчан Демократик
Республикасы Назирләр
Шурасынын сәдри.





**Нәсиб бәј Јусифбәјли**
(1881-1920-чи илләр).
Азәрбајчан Демократик
Республикасы Назирләр
Шурасынын сәдри.



"Исмаилијјә" (1908-1913 -чү илләр)
(инди Азәрбајҹан ЕА-нын бинасы).



Бакы Шәһәр Думасы (1900-1904-чү илләр)
(инди Бакы Шәһәр Ичра Һакимијјәтинин бинасы).



Опера вә Балет театры
(1910-1911 -ҹи илләр).



Бакыда оғлан кимназијасынын бинасы (1911-1913-ҹү илләр)
(инди 4 № -ли клиник хәстәхана).

**Əzizov Türyan Əziz oğlu.**
Azərbaycan XX əsrin əvvəllərində. (Azərbaycan dilində)
BAKI. «ZAMAN». 1997

Yığılmağa verilmiş 02.05.97. Çapa imzalanmış 17.06.97.
Kağız formatı $84 \times 108^{1}/_{32}$. Ədəbi qarnitur.
Yüksək çap üsulu. Mətbəə kağızı № 1.
Fiziki ç. v. 16,00. Şərti ç. v. 13,44.
Yapışma şəkil 0,25 ç. v. Tirajı 500.
Sifariş 185.

Zaman nəşriyyatı. 370005, Bakı, Tolstoy küş., 175.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin «Qızıl Şərq» icarə mətbəəsi. 370000, Bakı, Həzi Aslanov küç., 80.